Azərbaycan Respublikası Təhsil Nazirliyi
Azərbaycan Memarlıq və İnşaat Universiteti

ISSN-2222-5013

ELMİ ƏSƏRLƏR

SCIENTIFIC WORKS
НАУЧНЫЕ ТРУДЫ

№ 2 / 2021

REDAKSİYA HEYƏTİ
Baş Redaktor- GÜLÇÖHRƏ MƏMMƏDOVA- memarlıq doktoru, professor, AzMİU-nun rektoru, Azərbaycan
Baş redaktorun müavini- ARİF ŞƏRİFOV- texnika elmləri doktoru, professor, AzMİU-nin Elm və texnika işləri üzrə prorektoru, Azərbaycan
Məsul katib- SAMİRƏ ƏKBƏROVA- texnika üzrə fəlsəfə doktoru, dosent, AzMİU, Azərbaycan

Redaksiya heyəti
TELMAN ƏLİYEV- texnika elmləri doktoru, akademik, AMEA-nın İdarəetmə Sistemləri İnstitutunun direktoru, Azərbaycan
ANDREA STRAUB- texnika üzrə fəlsəfə doktoru, dosent, Brandenburq texniki universitet, Almaniya
RECEP BONCUKCUOĞLU- texnika elmləri doktoru, professor, İstanbul Universiteti, Türkiyə
JEAN-FRANÇOIS DUBÉ- texnika elmləri doktoru, professor, Monpelye Universiteti, Fransa
İSLAM MUSTAFAYEV - texnika elmləri doktoru, AMEA-nın müxbir üzvi, AzMİU, Azərbaycan
AZƏR QASIMZADƏ- texnika elmləri doktoru, professor, Samsun Universiteti, Türkiyə
NƏRGİZ ABDULLAYEVA- memarlıq doktoru, professor, AzMİU, Azərbaycan
NİZAMİ NAĞIYEV- memarlıq doktoru, professor, AzMİU, Azərbaycan
ENRICO SCIUBBA- texnika elmləri doktoru, professor, La Sapienza universiteti, Italiya
ADAM MARCHEVKA- texnika elmləri doktoru, professor, Elm və Texnologiya Universiteti
BULENT YILMAZ- texnika elmləri doktoru, akademik, Biləcik Seyh Edebali Universiteti Türkiyə
AYŞE GÜLÇIN KÜÇÜKKAYA-memarlıq doktoru, professor, Yeditepe Universiteti, Türkiyə
RAVIL MUKSINOV- memarlıq doktoru, professor, Qırğız-Rusiya Slavyan Universiteti, Qırğızıstan
İRADƏ ŞİRİNZADƏ- texnika elmləri doktoru, professor, AzMİU, Azərbaycan
ASƏF AĞAYEV- iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent, AzMİU, Azərbaycan

"Elmi Əsərlər" jurnalı barədə qısa məlumat
Jurnal Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyinin Kütləvi İnformasiya Vasitələrinin qeydə alınması haqqında 02 aprel 1996-cı il tarixli 313 saylı Şəhadətnaməsi ilə qeydə alınmışdır. Jurnal ildə iki dəfə çıxır. Təsisçi Azərbaycan Memarlıq və İnşaat Universitetidir. Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının reyestrinə fəlsəfə doktorluğu və doktorluq dissertasiyalarının nəticələrini dərc etdirmək üçün daxil edilmişdir. Jurnal texniki elmlər üzrə referativ məlumatların beynəlxalq EBSCO verilənlər bazasına daxildir.

Ünvan
Azərbaycan Respublikası, AZ- 1073 , A.Sultanova küçəsi- 11
Tel: (99412)4390725, Faks: (99412)4987836
Web: www.azmiu.edu.az, e-mail: sw@azmiu.edu.az

EDITORIAL BOARD
Chief Editor- GULCHOHRA MAMMADOVA- doctor of architecture, professor, rector of AzUAC, Azerbaijan
Deputy Chief Editor- ARIF SHARIFOV- doctor of technical sciences, professor, Vice-rector for Science and Technical affairs, AzUAC, Azerbaijan
SAMIRA AKBAROVA- PhD on technical sciences, ass.prof., AzUAC, Azerbaijan

Editorial Board
TELMAN ALIEV- doctor of technical sciences, academician, Director of Institute of Management Systems of ANAS, Azerbaijan
ANDREA STRAUB- PhD on technical sciences, ass.prof., Brandenburg technical university, Germany
RECEP BONCUKCUOĞLU - doctor of technical sciences, professor, Istanbul University, Turkey
JEAN-FRANCHOIS DUBÉ- doctor of technical sciences, professor, Monpelye University, France
ISLAM MUSTAFAEV - doctor of technical sciences, correspondent member of ANAS, AzUAC, Azerbaijan
AZAR KASIMZADA - doctor of technical sciences, professor, Samsun University, Turkey
NARGIZ ABDULLAYEVA – doctor of architecture, professor, AzUAC, Azerbaijan
NIZAMI NAĞIYEV- doctor of architecture, professor, AzUAC, Azerbaijan
ENRICO SCIUBBA - doctor of technical sciences, professor, La Sapienza University, Italy
ADAM MARCHEVKA- doctor of technical sciences, professor, University of science and technology
BULENT YILMAZ - doctor of technical sciences, professor, Bilecik Seyh Edebali University, Turkey
AYŞE GÜLÇİN KÜÇÜKKAYA- doctor of architecture professor, Yeditepe University, Turkey
RAVIL MOUSINOV - doctor of architecture, professor, Kyrgyz-Russian Slavic University, Kyrgyzstan
IRADA CHIRINZADE - doctor of technical sciences, professor, AzUAC, Azerbaijan
ASEF AGHAYEV- PhD on economical sciences, ass.prof., AzUAC, Azerbaijan

Brief information about"Scientific Works" journal
"Scientific Works" journal is registered by certificate 313 from April 2, 1996 by the Ministry of Press and Information of Azerbaijan Republic. The founder of the journal is Azerbaijan University of Architecture and Construction. The journal is included into the register of Higher Certification Board under the president of Azerbaijan Republic for publishing dissertation works of doctors of philosophy and doctors of Sciences. The journal is indexed in EBSCO.

Address
Azerbaijan Republic, AZ- 1073, A. Sultanova street- 11
Tel: (99412)4390725, Fax: (99412)4987836
Web: www.azmiu.edu.az , e-mail: sw@azmiu.edu.az

M Ü N D Ə R İ C A T

№	M E M A R L I Q	səh
1	**Allahverdiyeva S.İ** Çoxmərtəbəli ictimai binalarda mühəndis və sanitariya- texniki avadanlığın yaratdığı səs- küylə mübarizə	5
2	**Bədəlova F.T** XIX- XXI əsrdə vizual vasitələrin formalaşması	10
3	**Əzizov A.M** Davamlı yaşayış mühiti Azərbaycanın şəhərsalma inkişafinin əsas meyarıdır	14
4	**İsbatov İ.A** Azərbaycan respublikasında və Abşeron məskunlaşma sistemində kənd yaşayış yerlərinin inkişaf problemləri	19
5	**Mustafayeva F.V** İtaliyanın böyük şəhərlərinin rekreasiya zonalarının şəhərsalma təşkilinə təsiri	25
6	**Nasiri A.Q** Təsərüffat qalaları şəhərətrafı torpaqların məşğulliyətlərinin azaldılmasına bir yanaşmadır	31
7	**Nasiri R.Q** Bitki dizaynın şaquli görünüş ilə birləşdirilməsi, şəhər səkisinə dinamik bir yanaşmadır	39

№	İ N Ş A A T	səh
1	**Babayev E.Z., Miriyeva N.S** Verilənlər bazası təhlükəsizliyinin təmin edilməsi	50
2	**Babayev E.Z., Miriyeva N.S** CİS- də raster analitikası	55
3	**Fərzəliyev S.A., Hacıyev M.Ə** Ekspertlərin uyğunluğunun riyazi statistika üsulları ilə qiymətləndirilməsi	60
4	**Hacıyeva Ü.M** Cədvəl diaqramları əsasında sıxılan dəmirbeton elementlərin yükgötürmə qabiliyyətinin tədqiqi	67
5	**Quliyev F.M** Binalarının və qurğuların etibarlılığına təsir edən əsas amillər və konstruksiyaların etibarlılığının təhlili	76
6	**Quvalov A.A., Şahbazov E.Q** Nanobentonit gillərinin şişmə prosesinin tədqiqi	85
7	**Şərifov K.T** Beton örtüklü suvarma kanallarının təmizlənməsində istifadə edilən frezin kürəklərinin sayının və formalarının təmizləmə prosesinə təsiri	90

№	M E X A N İ K A	səh
1	**Əliyev T.X., Mustafayev Ş.İ., İsmayılova A.T** Neft quyularında qaz hasilatını tənzimləməklə nasosun faydalı iş əmsalının (FİƏ) artırılmasının tədqiqi	94
2	**Əkbərli R.S., Sevdimalıyev Y.M** Sferik qabarcıqlı maye- örtük sisteminin hidrodinamik xarakteristikalarının özlülüyün bir halı üçün riyazi analizi	98
3	**Əkbərova S.M** Hava təbəqəli xarici divar konstruksiyasının əsas istilik texniki göstəricilərinin təhlili	104
4	**Hacızadə A.A** Fövqəladə halların modelləşdirilməsi proqramları	109
5	**Nəcəfov H.T., Səttarova Ü.E., Paşayev F.H** Texnoloji və korporativ kompüter şəbəkələrinin inteqrasiya problemləri	114
6	**Nurəliyev C.A** Multiprosessor sistemləri, klaster sisteminin arxitekturası, prosessorlar arası sinxron əlaqənin effektiv təşkili	122
7	**Tağıyev İ.İ., Nurməmmədov C.B** Samur- Şabran dağətəyi düzənliyinin hidrogeoloji şəraiti, şollar suyunun III kəmərinin çəkilməsi perspektivliyi	127
8	**Yəhyayev A.B., Rəfili Ş.F., Hacıyeva İ.B** Oduncaq konstruksiyalarının yanma prosesi və onların yanğından mühafizə üsulları	131

№	İ Q T İ S A D İ Y Y A T	səh
1	**Ağayeva K.A., Qəribov R.T., Quliyeva C.N** Müasir şəraitdə marketinqin idarə edilməsinin yeni meyilləri	136
2	**Ağayeva K.A** Marketinqin informasiya təminatı və onun idarə edilməsi	140
3	**Eyniyev T.T., Əzizova M.Ə., Eyniyev M.T** Şəhərsalmanın inkişafında mühəndis infrastrukturun rolunun iqtisadi əsaslandırılması	145
4	**Hacıyev C.C** Azərbaycanın beynəlxalq və regional nəqliyyat layihələrində iştirakının əsas istiqamətləri	149
5	**Mirzəyev N.S** Aqrar sahibkarlıqda rəqabətqabiliyyətliliyin diqnostikasının əsas mərhələləri	156
6	**Tağıyeva G.A** Azərbaycanın kənd təsərrüfatının inkişafında kiçik biznesin rolu	161

CONTENT

№	ARCHİTECTURE	P
1	**Allahverdiyeva S.I** Noise control of engineering and sanitary equipment in multi- story public buildings	5
2	**Badalova F.T** Formation of visual means in the XIX-XXI centuries	10
3	**Azizov A.M** Sustainable habitat- the main criterion for the development of urban planning in azerbaijan	14
4	**Isbatov I.A** Problems of rural residential development in the republic of Azerbaijan and Absheron settlement system	19
5	**Mustafayeva F.V** The impact of the recreation zones of the great cities of Italy on the organization of urbanization	25
6	**Nasiri A.G** Agricultural towers are an approach to reducing suburban land occupations	31
7	**Nasiri R.G** Combining planting design with vertical view an, approach to urban sidewalk dynamics	39

№	CONSTRUCTİON	P
1	**Babayev E.Z., Miriyeva N.S** Ensuring database security	50
2	**Babayev E.Z., Miriyeva N.S** Raster analytics in GIS	55
3	**Farzaliyev S.A., Hajiyev M.A** Assessment of experts' compliance with the methods of mathematical statistics	60
4	**Hajiyeva U.M** Study of the loading capacity of compressed reinforced concrete elements on the basis of table diagrams	67
5	**Guliyev F.M** Analysis of the reliability of basic factors and structures affecting the reliability of buildings and facilities	76
6	**Guvalov A.A., Shahbazov E.G** Study of the swelling process of nanobentonite clays	85
7	**Sharifov K.T** Effect of the number and forms of mill brackets used in cleaning concrete irrigation canals on the cleaning process	90

№	MECHANİCS	P
1	**Aliyev T.Kh., Mustafayev Sh.I., Ismailova A.T.** Study of increasing the efficiency of the pump by adjusting gas production in oil wells	94
2	**Akbarli R.S., Sevdimaliyev Y.M** Mathematical analysis of the hydrodynamic characteristics of the two- phase viscous fluid- shell system	98
3	**Akbarova S.M** Analysis of main heat technical indicators of exterior wall structure with air layer	104
4	**Hajizadeh A.A** Emergency modeling programs	109
5	**Najafov H.T., Sattarova U.E.,Pashayev F.H** Integration problems of technological and corporate computer networks	114
6	**Nuraliyev J.A** Multiprocessor systems, claster system architecture, effectiveorganization of synchronic communication between processors	122
7	**Taghiyev I.I., Nurmammadov C.B** Hydrogeological conditions of Samur-Shabran foothill plain, shollar water III pipeline of construction perspectives	127
8	**Yakhyayev A.B., Refili Sh.F., Hajiyeva I.B** Process burning of wooden designs and methods of their fire protection	131

№	ECONOMİCS	P
1	**Aghaeva K.A., Garibov R.T., Guliyeva J.N** New trends in marketing management in modern conditions	136
2	**Aghayeva K.A** Marketing information support and its management	140
3	**Eyniyev T.T., Azizova M.A., Eyniyev M.T** Business case of the role of engineering infrastructure in urban development	145
4	**Hajiyev J.J** Main directions of participation in international and regional transport projects of Azerbaijan	149
5	**Mirzayev N.S** The main stages of the diagnostics of competitiveness agricultural entrepreneurship	156
6	**Taghieva G.A** The role of small business in the development of agriculture in Azerbaijan	161

Nəticə. Qeyd etməliyik ki, şəhərlərin inkişaf etməsi, əhalinin kommunikativ ünsiyyəti olan informasiyasının rolunun durmadan artması, memarlıq və bədii-estetik elementlərinin tətbiq edilməsini tələb edir. Bundan əlavə, informasiya vasitələri gündən-günə genişləndikcə cəmiyyətin mədəni səviyyəsi artır və özünü semiotik görkəmdə göstərir. Beləliklə, zaman hadisələrinin dəyişməsində vizual informasiya (xəbər, işarə, yazı, cizgi) vasitələri cəmiyyətdə gedən sosial proseslərin inkişafında püxtələşərək şəraitə uyğun öz yerini və təqdimat tipini tapmağa çalışır. Yuxarıda qeyd etdiklərimizi bu cür nəticələndirə bilərik ki, bugün (nümunə üçün beynəlxalq aeroportu seçə bilərik) yaponiya, amerika, afrikalı sərnişinlər vahid informasiya dili söz yox, vizual qavranılan işarələrdir. Xəbər informasiya daşıyıcıları dövrünə uyğun tələblərə cavab verərək müasirləşmiş və yeni formalarda tətbiq olunur.

Ədəbiyyat

1. Houpin S. Urban mobility and sustainable development in the Mediterranean: Regional diagnostic Outlook. France, p108, 2010
2. Əmənzadə R. Azərbaycan memarlıq tarixi. Azərbaycan memarlığı XV-XIX əsrin əvvəllərində. 224s, 2013
3. Azərbaycanın orta əsr memarlıq məktəblərinin əlaqələri. 76s, 2013
4. Musevi B.M., Ashraf B., Farid H., Miyad A.A. Investigation of thermal islands of Mashhad with satellite images and Fractal theory. Journal of Environmental Dangers №1(1), coi: JR_GEH-1-1_003. p35–49, 2013
5. Gottdiener M., Budd L. Key Concepts in Urban Studies. http://dx.doi.org/10.4135/9781446279120, 2013
6. Suarez L.A.D. Towards Experiential Representation in Architecture. Journal of Architecture and Urbanism №40(1), p47- 58, 2016
7. Azərbaycan ərazisində ən qədim tayfa ittifaqlarının və dövlətlərin inşaat sənəti. 320s, 2013
8. Fətullayev Ş.S. Bakıda şəhərsalma XIX- XX əsrin əvvələrində. 340s, 2013
9. Azərbaycan memarlığı inkişaf yollarında. 384s, 2013

References

1. Houpin S. Urban mobility and sustainable development in the Mediterranean: Regional diagnostic Outlook. France, p108, 2010
2. Amanzada R. Azerbaycan memarliq tarixi. Azerbaycan memarlighi XV-XIX esrin evvellerinde. 224s, 2013
3. Azerbaycanin orta esr memarliq mekteblerinin elaqeleri. 76s, 2013
4. Musevi B.M., Ashraf B., Farid H., Miyad A.A. Investigation of thermal islands of Mashhad with satellite images and Fractal theory. Journal of Environmental Dangers №1(1), coi: JR_GEH-1-1_003. p35–49, 2013
5. Gottdiener M., Budd L. Key Concepts in Urban Studies. http://dx.doi.org/10.4135/9781446279120, 2013
6. Suarez L.A.D. Towards Experiential Representation in Architecture. Journal of Architecture and Urbanism №40(1), p47– 58, 2016
7. Azerbaycan erazisinde en qedim tayfa ittifaqlaranini ve dovletlerin inshaat seneti. 320s, 2013
8. Fetullayev Sh.S. Bakida shehersalma XIX-XX esrin evvelerinde. 340s, 2013
9. Azerbaycan memarlighi inkishaf yollarinda. 384s, 2013

Redaksiyaya daxil olma/Received 15.09.2021
Çapa qəbul olunma/Accepted for publication 15.10.2021

DAVAMLI YAŞAYIŞ MÜHİTİ AZƏRBAYCANIN ŞƏHƏRSALMA İNKİŞAFININ ƏSAS MEYARIDIR

Əzizov Ağasəlim Musa oğlu– m.f.d., dosent, Memarlığın əsasları kafedrası, AzMİU, agasalimmusa@gmail.com

Xülasə. Müasir dövrdə gedən qloballaşmaya uyğun XXI əsrdə şəhərsalma inkişafı yaşayış və istehsalat mühitinin ərazi təşkilindən ibarətdir, bu əsrin əsas və vacib kriteriyalarından biridir. Respublika ərazisində "mühitin davamlı inkişafı" konsepsiyalarının təhlili onların regional baxımdan qeyri-kafiliyini və məhdudluğunu göstərdi, oxşar tədqiqatlar isə şəhər əraziləri hüdudlarında aparıldı. Tədqiqatlar mühitin davamlı inkişafının həlli metodologiyasının regional aspektdə öyrənilməsinə həsr olunmuş, konkret olaraq Azərbaycanda problemin müasir vəziyyətini tam əks etdirmir. Müəllif müstəqil şəkildə yeni biliklər əldə etməklə mövcud biliklərin təhlili və tənqidi ümumiləşdirilməsi əsasında problemləri nəzərdən keçirməyi və əlaqələndirməyi, Azərbaycanın yaşayış və istehsal mühitinin şəhərsalma karkası konsepsiyasının elmi əsaslandırılmasını, onun metodoloji məzmununun müasir şəhərsalma mövqeyindən istifadəsini və qiymətləndirilməsini qarşısına məqsəd qoymuşdur.
Açar sözlər: mühitin davamlı inkişafı, şəhərsalma karkası, urbanizasiya, rayon planlaşdırılması, regional məskunlaşma sistemi, infrastruktur

SUSTAINABLE HABITAT- THE MAIN CRITERION FOR THE DEVELOPMENT OF URBAN PLANNING IN AZERBAIJAN

Azizov Agasalim Musa– PhD in arch., ass. prof., department of Basic of architecture, AzUAC, agasalimmusa@gmail.com

Abstract. At the current stage of globalization, the territorial organization of the residential and industrial environment is an important and main criterion for the development of modern urban planning in the 21st century. The analysis of the concept of "sustainable development of the environment" showed their insufficiency and limitation within the boundaries of only the territories of cities. Studies on the problem and methodology of sustainable development from a regional perspective specifically in Azerbaijan are extremely scarce. The author aimed to consider and coordinate the problems based on the analysis and critical generalization of existing knowledge, by independently obtaining new ones, to give a scientific justification for the concept of the urban framework of the residential and industrial environment of Azerbaijan, the use and evaluation of its methodological content from the perspective of modern urban science and urban planning.
Keywords: sustainable habitat, urban development framework, urbanization, regional planning, regional settlement system, infrastructure

Giriş. Azərbaycanda rayon planlaşdırmasının məşğul olduğu ərazi planlaşdırması XX əsrin 80-ci illərinin sonunda dayandırıldı. Bu iş Azərbaycan müstəqillik qazandıqdan sonra, respublikanın hər bir ərazisinin müvafiq ərazi planlaşdırma sənədlərindən (Regional məskunlaşma sxeminə) başlayaraq şəhərlərin baş planlarına və ətraflı planlaşdırma layihələrinə qədər müvafiq ərazi planlaşdırma sənədinə malik olmasını müəyyən edən Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Kodeksinin qəbul olunması ilə yenidən bərpa olundu. Azərbaycanın müasir geosiyasi durumu insanın məskunlaşma mühitinin davamlı inkişafını, «əmək- məişət- istirahət» adlanan anlayışına əsaslanır. Bu anlayışı əsas götürərək biz deyə bilərik ki, respublikanın regionlarının ərazi təşkili bu zaman əsas rol oynayır. Bu baxımdan regionlarda dayanıqlı məskunlaşma mühitinin formalaşması və şəhərsalma layihələndirilməsi prosesi ilə yanaşı Azərbaycanın məskunlaşma, təbiətdən istifadə və istehsal qüvvələrinin ərazi təşkilindən (məskunlaşmanın regional sxemi) istifadə olunması kompleks və çoxşəhali məsələlərin həllində mühüm rol oynayır. Şəhərsalma şəhərlərin və onların elementlərinin formalaşmasının əsas elementlərindən biridir, bu da memarlıq- planlaşdırma, kompozisiya, infrastruktur, sosial- iqtisadi və ekoloji məsələlərin həllinin əsas istiqamətlərindən biri sayılır.

Azərbaycanda şəhərsalma layihələndirilməsi hazırda məskunlaşmanın regional sxemlərində və ərazilərin kompleks layihələndirilməsində öz təzahürünü tapır. Bu zaman insanların çoxşaxəli fəaliyyətinin müasir səviyyəsi və elmi- texniki nailiyyətlər də nəzərə alınmalıdır. Bununla əlaqədar vacib məsələlərin gündəmə çıxması zəruriyyəti yaranır, bunlardan şəhərin və digər yaşayış məntəqələrinin memarlıq- kompozisiya həlləri, istehsalat zonaları, kurort- rekreasiya və sanitar-gigiyena ərazilərinin, mühəndis- infrastruktur və antropogen zonalarının məskunlaşma mühitinə təsiri məsələlərinin həlli yaranır [1]. XX əsrin sonlarında Azərbaycan Respublikasının bir müstəqil dövlət kimi yaranması demokratik ictimaiyyətin quruluşunun formalaşmasına gətirib çıxartdı, bu da iqtisadiyyatın və sosial- Bu mədəni sferanın yüksəlməsinə yol açdı. Bu zaman Azərbaycan dövlətinin sosial və iqtisadi siyasətində əsas element kimi şəhərsalma və arxitektura, məskunlaşmanın və istehsalat mühitinin rasional formalaşması məsələləri gündəmdə qalır. şəraitdə regionlar və onların əsas elementləri olan şəhərlərin, bir siyasi, iqtisadi və mənəvi mərkəzlər kimi rolu artır.

Hazırda yaşayış məskənlərinin (şəhər və kənd məskunlaşmaları) gələcək inkişafı, xalqın yaşayış tərzinin, istehsalatın intensivfikasiyasının və əhalinin əmək fəaliyyətinin dünya səviyyəsinə çatdırılmasıdır. Azərbaycanda şəhərsalma elmi və praktikası məskunlaşma sisteminin mükəmməlləşdirilməsini nəzərdə tutan yaşayış və istehsalat mühitinin planlı və səmərəli inkişafını– yeni sənaye obyektlərinin, yaşayış-kommunal, nəqliyyat və abadlaşdırma məsələlərini nəzərdə tutur [2]. Hələ XX əsrin 90- cı illərində yaşayış məntəqələrinin dayanıqlı inkişafı məsələləri və prinsipləri BMT- nin ətraf mühitin inkişafı adlanan "XXI əsrin gündəliyi" yekun sənədlərində göstərilmişdir (Rio De Janeyro, Braziliya, 1992- ci il). Bu baxımdan Azərbaycan İstanbulda 171 dünya ölkələrinin başçıları tərəfindən bəyənilmiş "Habibat II gündəliyinin" həyata keçirilməsi məsələsinə marağını bildmişdir.

Dayanıqlı inkişaf konsepsiyasının formalaşmasının davamlı olması məsələsinə 1998-ci ildə qəbul edilmiş "MDB ölkələrinin yaşaış məntəqələrinin dayanıqlı inkişafının əsas prinsipləri MDB-nin şəhərsalma xartiyası" oldu. Bu da dayanıqlı inkişafın əsas istiqamətləri, prinsip və hədəflərin formalaşmasında aşağıdakılardan ibarət idi:

- subsidiar və həmrəylik əsasında dayanıqlı inkişafı formalaşdıran dövlətlər arası qarşılıqlı köməklik prinsipləri;
- şəhərsalma və memarlığı əks etdirən təkrarolunmazlıq və spesifiklik, həyat tərzinin humanizmləşməsinə, milli dəyərlərin saxlanılması və inkişafına yönəlmiş prinsipləri;
- həyat mühitinin stabil funksiyalarının təmin olunmasına yönələn sosial, iqtisadi və ekoloji inkişafının balanslanmış prinsipləri;
- hər bir insanın təhlükəsizliyini və səhhətini qoruyan yaşayış mühitinin yaranması prinsipləri;
- ərazilərin və yaşayış məntəqələrinin reallığını nəzərə alan differensiallaşmış inkişafı prinsipləri [3,4].

Yaşayış məntəqələrinin ərazilərinin davamlı inkişaf etdirilməsində məqsəd şəhər və kənd yaşayış məskənlərinin, ictimai xidmət sistemlərinin, istehsalat, nəqliyyat və mühəndis-texniki infrastrukturun, əhalinin istirahət və sağlamlaşdırılması yerlərinin kompleks inkişafının təmin edilməsi, resurslardan səmərəli istifadə edilməsi, tarixi-mədəni potensialın qorunması və dirçəldilməsi əsasında gələcək nəsillərin ehtiyaclarına xələl gətirmədən indiki nəslin həyat şəraitinin yaxşılaşdırılmasıdır. Müasir dövrdə Azərbaycanın yaşayış və istehsal mühitinin davamlı inkişafının əsas istiqamətləri aşağıdakılardır:

- şəhərsalma vasitələri ilə insanın həyatı və sağlamlığı üçün təhlükəsiz olan, onun fiziki və mənəvi inkişafına şərait yaradan, ərazi ehtiyatlarından səmərəli istifadə edilməsində dövlətlərin sosial-iqtisadi, mədəni və məkan inkişafındakı mütərəqqi tendensiyalara uyğun adekvat yaşayış mühitinin yaradılması;
- yüksək ekoloji və estetik keyfiyyətlərə malik, yaşayış rahatlığı olan mənzillərin tikintisi ilə əhalinin mənzil təminatının yaxşılaşdırılması, social cəhətdən həssas əhali qrupunun mənzillə təmin edilməsi;
- istehsal, sosial, nəqliyyat və mühəndis-texniki infrastrukturların təkmilləşdirilməsi məsələlərinin kompleks və səmərəli həlli hesabına şəhər və ətraf ərazilərin qarşılıqlı inkişafının təmin edilməsi, əhalinin istirahətinin təşkili üçün ətraf mühitin optimallaşdırılması;
- şəhərsalma vasitələri ilə hər cür mülkiyyət formalarına malik müəssisələrin inkişafı üçün şəraitin

formalaşdırılması, əhalinin sayına və tərkibinə kəmiyyət və keyfiyyətcə adekvat olan iş yerlərinin yaradılması;
- nəqliyyat və mühəndis infrastrukturunun kompleks inkişafının təmin edilməsi, qarşılıqlı əlaqəli transsərhəd kommunikasiya dəhlizləri sisteminin yaradılması;
- hər növdən olan ictimai sərnişin nəqliyyatı sistemlərinin təkmilləşdirilməsi və inkişaf etdirilməsi;
- kənd yaşayış məntəqələrində həyat şəraitinin yaxşılaşdırılması, kənd yaşayış məntəqələrinin şəhər mərkəzləri ilə və öz aralarında nəqliyyat əlaqələrinin təkmilləşdirilməsi;
- əhalinin sosial həyat standartlarını təmin etmək məqsədi ilə bütün növ tikililərin bərpası və modernləşdirilməsi, mövcud yaşayış və ictimai fondun qorunub saxlanması və istismarı;
- ictimai xidmət sisteminin təkmilləşdirilməsi;
- yaşayış məntəqələrində və ərazilərdə şəhərsalma vasitələri ilə enerji sərfiyyatının azaldılması, yaşayış məntəqələrinin mühəndis- texniki təminatının effektiv sistemlərinə keçid, xüsusilə kiçik şəhər və kənd yerlərində enerjiyə qənaət edən tikinti, lokal və qeyri- ənənəvi enerji mənbələrindən (külək, günəş, su) istifadə edilməsi;
- bütün əhalini kifayət qədər içməli su ilə təmin etmək, içməli suyun və çirkab suların təmizlənməsinin keyfiyyətinin artırılması, istehsal olunmayan su və enerji itkilərinin minimuma endirilməsi məqsədilə su təchizatı və kanalizasiya sistemlərinin modernləşdirilməsi;
- bərk məişət, sənaye, zəhərli tullantıların toplanması, təmizlənməsi və zərərsizləşdirilməsi sisteminin təkmilləşdirilməsi;
- memarlıq, tarix və mədəniyyət abidələrinin milli sərvət kimi qorunub saxlanılması və səmərəli istifadəsi, tarixi tikililər olan zonalarda müasir rahatlıq səviyyəsinin yaradılması ilə onların reabilitasiyası;
- əhalinin yaşıllaşdırılmış ərazilərlə təminatının artırılması, təbii komplekslərin urbanizasiya olunmuş ərazilərdə rekreasiya və mühit tənzimləyici funksiyaların yerinə yetirilməsini təmin edən səviyyəyə çatdırılması, şəhərlərin su və yaşıllaşdırma sistemlərinin inkişaf etdirilməsi, əhalinin ehtiyaclarına cavab verən istirahət landşaftlarının müxtəlifliyinin artırılması;
- şəhərsalma metodları və vasitələri ilə qəzaların, təbii və texnogen fəlakətlərin qarşısının alınmasının təmin edilməsi;
- əhalinin bütün qruplarının davamlı və təhlükəsiz yaşayış mühitinin formalaşması problemləri üzrə mühüm qərarların qəbul edilməsi proseslərinə cəlb edilməsi;
- demoqrafik potensialın sabitləşməsi;
- əhali üçün ekoloji cəhətdən təhlükəsiz yaşayış şəraitinin yaradılması;
-ərazilərin və yaşayış məntəqələrinin məkan təşkilinin təkmilləşdirilməsi hesabına əhalinin həyat səviyyəsinin yüksəldilməsi;
- cəmiyyətin sosial- mədəni potensialının qorunması və inkişaf etdirilməsi;
- təbiətin mühafizəsi, ərazilərin və məntəqələrin maddi və təbii ehtiyatlarından səmərəli istifadə edilməsi [5,6].

Material və metodlar. Region (mərkəz-dayaq şəhərlərində və mərkəz hissələrdə) əsasında həyata keçirilmişdir, bir neçə müxtəlif miqyaslı səviyyədə Respublikada məskunlaşmanın şəhərsalma sistemləri (YŞS) tədqiq olunur. Aparılması vacib olan tədqiqatın konseptual əsası olaraq şəhərsalma karkasının əsas funksiyalarının spektrinin- yaşayış, istehsal və təbii mühitlə qarşılıqlı əlaqədə ərazi, istehsalat, əmək, enerji ehtiyatlarına qənaətin, inkişaf qabiliyyətinin, davamlılığın öyrənilməsi və təhlili qəbul edilir. Bütövlükdə şəhərsalmaya xas olan, bir prosesin iki tərəfi kimi karkasın metrikası və konfiqurasiyası birgə araşdırılır. Dünya şəhərsalma alimlərinin fikirləri əsasında belə bir qənaətə gəlmək olur ki, şəhərin davamlı inkişafı şəhər sakinlərinin bütün iqtisadi və ictimai fəaliyyətinin təbii mühitinin, resursların və ekoloji tarazlığının qorunub saxlanılmasında əhalinin təhlükəsizliyini və yüksək həyat keyfiyyətini təmin edir.

İndiyə qədər "davamlı inkişaf" anlayışı yalnız şəhərlərin planlaşdırılmasında tətbiq edilirdi ki, bu da şəhərin hüdudlarından kənara çıxmadan şəhər ərazisini əhatə edən yuxarıda qeyd olunan şəhərsalma və urbanistik konsepsiyaların (yəni prinsiplər, məqsədlər və istiqamətlər) prioritet istiqaməti kimi vurğulanmışdır. Lakin dünya şəhərsalma sahəsində uzun illər aparılan təhlil və tədqiqatlar göstərmişdir ki, davamlı mühit heç bir halda şəhərin (yaşayış məntəqəsinin) sərhədləri ilə

məhdudlaşdırılmamalıdır, çünki şəhər hər bir urbanistik substansiya kimi artan, müxtəlif şəhərsalma elementləri (şəhər zonaları, yaşayış əraziləri, landşaft-ekoloji zonalar, mühəndis-nəqliyyat infrastrukturu dəhlizləri və s.) ilə zənginləşə, öz sərhədlərini dəyişdirə, yeni şəhərətrafı zonalar formalaşdıra bilər. Beləliklə, əgər şəhər orqanizmi daim hərəkətdədirsə və öz strukturunu mövcud ətraf mühitə transformasiya etmək perspektivinə malikdirsə - "davamlı şəhər mühiti" paradiqmasını daha geniş ərazi- məkan substansiyasına- bizim tədqiqi etdiyimiz halda, şəhərin, sənaye sahələrinin, mühəndis- nəqliyyat infrastrukturunun resurs dəhlizləri, neft hasilatı, landşaft- rekreasiya zonalarının, aqrar-sənaye və s. bu kimi sahələrin cəmləndiyi regiona- "davamlı yaşayış mühitinə" dəyişdirmək lazım gəlir [7,8].

"Davamlı yaşayış mühiti" müəllif tərəfindən, yuxarıda qeyd olunduğu kimi, respublikanın müəyyən bölgəsi kontekstində nəzərdən keçirilir, çünki şəhərsalma elementlərinin müxtəlifliyi və tərkibi (şəhərlər, qəsəbə sistemi), fərqli iqtisadi və coğrafi vəziyyəti (İCS), mövcud şəhərsalma sistemi (ŞS) və vahid məskunlaşma sistemi (VMS) "dayanıqlı mühit" in formalaşması problemlərinin həllinə fərdi yanaşma tələb edir. Aparılmış tədqiqatların sayının çox olmasına və müəlliflərin öz araşdırmalarının məqsəd və vəzifələri ilə bağlı məsələlərə toxunduqları oxşar problemlərin həcminin böyüklüyünə baxmayaraq, Azərbaycanın yaşayış və istehsalat mühitinin şəhərsalma karkasının formalaşması və tərtib edilməsi məsələləri xüsusi araşdırma mövzusu olmamışdır. Yuxarıda deyilənlərlə əlaqədar olaraq, fikrimizcə, regional məskunlaşma məkanlarının təşkili, yaşayış və istehsal mühitinin formalaşması problemlərindən başlamış, Azərbaycanda mövcud bölgələrin ərazilərini əhatə edən vahid elmi- tədqiqat işinin formalaşdırılması zəruri olmuşdur.

Beləliklə, şəhərsalma mütəxəssisləri müstəqil şəkildə yeni biliklər əldə etməklə mövcud biliklərin təhlili və tənqidi ümumiləşdirilməsi əsasında problemləri nəzərdən keçirməyi və əlaqələndirməyi, Azərbaycanın yaşayış və istehsal mühitinin şəhərsalma karkası konsepsiyasının elmi əsaslandırılmasını, onun metodoloji məzmununun müasir şəhərsalma mövqeyindən istifadəsini və qiymətləndirilməsini qarşısına məqsəd qoymalıdır [9].

Problemin həlli metodları:

-problemin qoyulması, onun metodologiyasını və həllini işləyib hazırlamaq;

-Azərbaycanın regionlarının strukturunda şəhərsalma karkasını müəyyənləşdirmək;

-şəhərsalma karkasının qanunauyğunluqlarının onun konfiqurasiyasına və ölçülərinə münasibətdə aşkara çıxarmaq;

-müəyyən edilmiş qanunauyğunluqların praktiki şəhərsalma fəaliyyəti üçün səmərəli istifadə prinsiplərini formalaşdırmaq;

-yaşayış və istehsal mühitinin şəhərsalma karkasının konseptual modellərinin işlənib hazırlanması [11-13].

Nəticə. Regional məskunlaşma sxemləri lazımi ilkin məlumatların genişmiqyaslı hərtərəfli toplanmasından ibarətdir, nəticədə ərazi hərtərəfli qiymətləndirilir, yaşayış və istehsal mühitinin davamlı inkişafı üçün zəmin yaradan bölgə ərazisindən istifadənin optimallaşdırılmasına yönəlmiş layihə təklifləri hazırlanır. Azərbaycan şəhərlərinin inkişaf problemləri əhalinin artım tendensiyası ilə müəyyən edilir. Bu ən yaxın gələcəkdə də təxminən belə qalacaq və bu da gələcəkdə onların davamlı inkişafının təminatı üçün bir sıra ciddi problemlər yaradacaq. Yuxarıda deyilənləri nəzərə alaraq, qeyd etmək lazımdır ki, sosial- iqtisadi coğrafiya nəzəriyyəsi regionların məskunlaşma sistemlərinin özünüinkişaf və özünütəşkil probleminə toxunur, həmçinin onların idarə olunması imkanlarını öyrənir. Terminlərin təhlili əsasında "məskunlaşma sistemi", "davamlı yaşayış mühiti", "məskunlaşmanın dayaq karkası" anlayışlarının geniş şərhi təklif edilmişdir. Bu konsepsiya çərçivəsində məskunlaşma sisteminin və məskunlaşma proseslərinin inkişafı insan amilinin vahid prioritetlərinə, yaşama və əmək fəaliyyətinin təhlükəsizliyinə, ümumbəşəri dəyərlərin, mədəni irsin müasir infrastruktur, texnika və istehsal texnologiyası əsasında qorunub saxlanılmasına əsaslanır.

Ədəbiyyat
1. Azərbaycan Respublikası regionlarının sosial- iqtidsadi inkişaf Dövlət Proqramı, 2009. 2013
2. Həsənov T.G., Kərimli Y.S. Rayon və şəhərlərin planlaşdırılması. Bakı, Kooperasiya, 329s. 2014
3. Nağıyev N.H. Azərbaycan Respublikasında mənzil tikintisinin inkişafı. Azərbaycanın inşaat komplekslərinin inkişaf problemləri. Bakı, 46- 49s. 1998
4. Абдуллаева Н.Д. История промышленной архитектуры Бакинского нефтяного района середины XIX– начала XX вв. Баку, Элм, 182с. 2004
5. Азизов А.М. Градоэкологический каркас урбанизированной среды, Международный экономический форум, Каспийский диалог, Москва. 2012
6. Аникеев В.В., Владимиров В.В. Градостроительные проблемы совершенствования административно- территориального устройства, Эдиториал УРСС, 116с. 2002
7. Гасанова А.А. Проблемы экологии городов Азербайджана. Элм, Баку, 339с. 2003.
8. Гусейнов Ф.М. Планировочная структура развивающихся промышленных городов Азербайджанской ССР/В сб, Новые города– Киев: Будивельник. 1970
9. Гусейнли Л.Ф. Архитектурно- художественные методы проектирования городской среды (на примере Баку), Баку. 2009
10. Гусейнов Э.Ф. Градостроительные принципы устойчивого развития городов Азербайджана, Сб. Урбанизм № 15, Баку. 2010
11. Колесников А.А. Формирование пространственно- композиционного каркаса городов в системе расселения. 2000
12. Хайт В.Л. Оскар Нимейер, Стройиздат, 201с. 1986,
13. Хорев Б.С. Территориальная организация общества:(актуальные проблемы регионального управления и планирования в СССР), Мысль, 244- 251с. 1981

References
1. Azerbaycan Respublikasi regionlarinin sosial- iqtidasi inkishaf Dovlet Proqrami, 2009. 2013
2. Hasanov T.G., Karimli Y.S. Rayon ve sheherlerin planlashdirilmasi. Baki, Kooperasiya, 329s. 2014
3. Naghiyev N.H. Azerbaycan Respublikasinda menzil tikintisinin inkishafi. Azerbaycanın inshaat komplekslerinin inkishaf problemleri. Baki, 46- 49s. 1998
4. Abdullaeva N.D. Istoriya promyshlennoj arhitektury Bakinskogo neftyanogo rajona serediny XIX– nachala XX vv. Baku, Elm, 182s. 2004
5. Azizov A.M. Gradoekologicheskij karkas urbanizirovannoj sredy, Mezhdunarodnyj ekonomicheskij forum, Kaspijskij dialog, Moskva. 2012
6. Anikeev V.V., Vladimirov V.V. Gradostroitel'nye problemy sovershenstvovaniya administrativno- territorial'nogo ustrojstva, Editorial URSS, 116s. 2002
7. Gasanova A.A. Problemy ekologii gorodov Azerbajdzhana. Elm, Baku, 339s. 2003.
8. Gusejnov F.M. Planirovochnaya struktura razvivayushchihsya promyshlennyh gorodov Azerbajdzhanskoj SSR/V sb, Novye goroda- Kiev:Budivel'nik. 1970
9. Gusejnli L.F. Arhitekturno- hudozhestvennye metody proektirovaniya gorodskoj sredy (na primere Baku), Baku. 2009
10. Gusejnov E.F. Gradostroitel'nye principy ustojchivogo razvitiya gorodov Azerbajdzhana, Sb. Urbanizm № 15, Baku. 2010
11. Kolesnikov A.A. Formirovanie prostranstvenno- kompozicionnogo karkasa gorodov v sisteme rasseleniya. 2000
12. Hajt V.L. Oskar Nimejer, Strojizdat, 201s. 1986,
13. Horev B.S. Territorial'naya organizaciya obshchestva: (aktual'nye problemy regional'nogo upravleniya i planirovaniya v SSSR), Mysl', 244- 251c. 1981

Redaksiyaya daxil olma/Received 07.09.2021
Çapa qəbul olunma/Accepted for publication 08.10.2021

AZƏRBAYCAN RESPUBLİKASINDA VƏ ABŞERON MƏSKUNLAŞMA SİSTEMİNDƏ KƏND YAŞAYIŞ YERLƏRİNİN İNKİŞAF PROBLEMLƏRİ

İsbatov İlqar Aydın oğlu– m.f.d., dosent, Memarlığın əsasları kafedrası, AzMİU, isbatov@mail.ru

Xülasə. Azərbaycanın inkişaf etməkdə olan qəsəbələrində yaşayış tikintisinin planlaşdırılması və struktur təşkili sosial həyat şəraiti, ictimai xidmətin və mühəndis avadanlığının yüksək səviyyəsi ilə müəyyən edilməlidir. Respublikanın kənd qəsəbələrinin yaşayış tikintisi zonasında fərdi evlərlə yanaşı, yeni tipli yaşayış evlərinin (çoxmənzilli, seksiyalı, bloklanmış, mehmanxana), habelə ictimai xidmət müəssisələrinin, oyun və idman meydançalarının, kütləvi istirahət zonalarının, avtomobil dayanacaqlarının yerləşdirilməsi kənd qəsəbələrinin planlaşdırılmasının yeni üsullarının işlənib hazırlanmasını tələb edəcəkdir. Bununla belə, respublikanın kənd ərazilərindəki mənzil fondunda gələcəkdə də mənzilyanı sahələri və müxtəlif təsərrüfat təyinatlı yardımçı tikililəri olan bir-ikimərtəbəli evlər üstünlük təşkil edəcək.
Açar sözlər: Bakı aqlomerasiyası, miqrasiya, urbanizasiya, kənd təsərrüfatı, ərzaq ehtiyacı, qeyri-aqrar, kompozisiya, struktur elementləri, memarlıq- məkan

PROBLEMS OF RURAL RESIDENTIAL DEVELOPMENT IN THE REPUBLIC OF AZERBAIJAN AND ABSHERON SETTLEMENT SYSTEM

Isbatov Ilqar Aydin– PhD in arch., ass. prof., department of Basic of architecture, AzUAC, isbatov@mail.ru

Abstract. The planning and structural organization of residential development in villages of Azerbaijan should be determined by social living conditions, a high level of public services and engineering equipment. The placement in the residential development zone of rural villages of the republic along with individual houses of new types of housing (apartment, sectional, blocked, state-owned), as well as public service institutions, playgrounds and sports grounds, mass recreation areas, car parks will require the development of new planning techniques for rural villages. Herewith, the housing stock in rural areas of the Republic and the future will be dominated by one or two-storey houses with apartment plots and outbuildings for various economic purposes.
Keywords: Baku agglomeration, migration, urbanization, agriculture, perspiration in food, non-agrarian, composition, structural elements, architectural- spatial

Giriş. Bakı aqlomerasiyasının və respublikanın digər iri şəhərlərinin ərazilərinin inkişafı, eləcə də geniş landşaft rekreasiya rayonlarının yaşayış yerlərinin qrup sistemləri ilə əlaqəli şəkildə mənimsənilməsi Azərbaycan Respublikasında müasir məskunlaşmanın ən vacib təzahürlərini heç vaxt tükəndirmir. Azərbaycanda əsas məsələ, kənddən şəhərə miqrasiyanın qarşısının alınmasında və ölkənin ərzaq proqramının həyata keçirilməsində mühüm rol oynayan şəhər və kənd məskunlaşması arasında fərqlərin aradan qaldırılması yollarının axtarılmasıdır. Müasir urbanizasiya prosesi şəhər və kənd arasında yeni sosial-iqtisadi münasibətlərin formalaşması üçün həlledici əhəmiyyət kəsb edən obyektiv hadisədir. Şəhərsalma nəzəriyyəsində qeyd olunan çoxsaylı urbanizasiya xüsusiyyətlərini ümumiləşdirərək bu hadisəni aşağıdakı kimi tərif edə bilərik. Urbanizasiya, ilk növbədə əhalinin aqrar sahələrdən xalq təsərrüfatının qeyri- aqrar sahələrinə keçidi ilə müəyyənləşdirilən və şəhərlərin əhalisinin xüsusi çəkisinin artması, kəndin sosial- peşə strukturunun dəyişməsi, şəhər həyat tərzinin, eləcə də ərazinin mənimsənilməsinin şəhər obrazlarının yayılması və əhalinin strukturunun formalaşdırılması ilə səciyyələnən tarixi çoxtərəfli prosesdir. Bu proses XX əsrdə baş verdiyindən indi də davam edir və görünür ki, hələ davam edəcək və beləliklə, kəndlərin və ümumiyyətlə kənd məskənlərinin gələcək taleyi ilə bağlı təbii sual yaranır.

Bəzi mütəxəssislər bu sualı cavablandıraraq gələcək urbanizasiya prosesində kənd məskənlərinin tədricən ixtisarına və yoxa çıxmasına istiqamətlənməyi təklif edirlər. Onların fikrincə, kənd təsərrüfatı istehsalının sənayeləşdirilməsi, nəqliyyat vasitələrinin inkişafı bu istehsalın növlərə görə və şəhər məskunlaşması əsasında həyata keçirilməsinə imkan verəcəkdir. Digərləri isə əksinə, kəndin davam gətirməyən istehsal və ümumi mədəniyyətini yoxa çıxmaqdan qorumağın vacibliyini sübut edir və bunun üçün "təmiz" kənd təsərrüfatı rayonlarını sənayeləşmənin və urbanizasiyanın yayılmasından müdafiə etməyi tövsiyə edirlər.

Lakin reallıq bu ekstremal hipotezlərin hər ikisini təkzib edir. Birincisi, kənd məskənləri bir sıra obyektiv səbəblər üzündən böyük davamlılıq nümayiş etdirir və yaxın perspektivdə öz müstəqil əhəmiyyətini qoruyub saxlayacaqdır. İkincisi, XX əsrdə dəyişikliklərə uğramış və bu gün mövcud olan kənd yerləri artıq fərqli kəndlərdir, bizim ənənəvi təsəvvürlərimizlə bağlı olan kənd deyildir. Kənd təsərrüfatı əməyinin məhsuldarlığının artması, əmək ehtiyatlarının yerdəyişməsi ilə əlaqədar kənd əhalisinin iqtisadiyyatın digər sahələrinə keçidi mütləq ola bilməz, çünki bu prosesə qarşı duran bir sıra sabit əlaqələr mövcuddur:

- ailələrin qeyri- aqrar təsərrüfat sektoruna daxil olan bir və ya iki üzvü vasitəsi ilə qismən qohumluq əlaqələri;
- kənd təsərrüfatı əməyinin mövsümi olması və onu ilin müvəqqəti balansında qeyri-aqrar əməklə birləşdirməyin məqsədəuyğunluğu ilə şərtlənən əlaqələr;
- müəyyən dərəcədə ailənin ərzaq ehtiyacını təmin edən, kiçik həyətyanı sahəyə bağlılıq və ehtiyacdan doğan əlaqələr;
- təbiətlə sıx əlaqəni, öz həyat tərzini və mədəni-məişət üstünlüklərini qoruyub saxlayan, rifah və abadlığın yüksəldilməsi şərti ilə möhkəmlənən kəndlərə bağlılıq.

Beləliklə, iqtisadiyyatın sənaye sektorlarına keçilsə belə, kənd əhalisi mütləq şəkildə şəhərlərə köçmür. Azərbaycanın bütün bölgələrində sənayeləşmə prosesləri və urbanizasiya üzrə demoqrafik göstəricilər eyni deyildir.

İqtisadi və demoqrafik urbanizasiya göstəriciləri arasındakı artan fərq kəndin sosial-peşəkar baxımdan dəyişdirilmə prosesinin güclənməsi, kənd sakinləri arasında qeyri-aqrar əhalinin nisbətinin davamlı artması deməkdir. Kənd yaşayış yerlərinin vəziyyətinin təhlili göstərir ki, əksər hallarda yalnız adına görə köhnə kəndlərə bənzəyən kənd yaşayış məntəqələrinin tipi kəskin şəkildə dəyişir. Kəndlərin yenilənməsi prosesi respublikanın bütün bölgələrində davamlı şəkildə və çox sürətlə gedirdi. Onun əsas xüsusiyyətləri bunlardır: güclü ictimailəşdirilmiş və sənayeləşmiş istehsal sektorunun yaradılması; əhəmiyyətli ictimai-mədəni mərkəzin və inkişaf etmiş xidmət sisteminin formalaşdırılması; kənd həyatının əhəmiyyətli dərəcədə dəyişmiş xarakterinə və mədəni-məişət tələbatının yeni səviyyəsinə cavab verən kənd evlərinin yeni növlərinin yaradılması. 70-80- ci illərdə kəndin istehsal zonası kənd yaşayış yerlərinin strukturunu formalaşdıran ən vacib amil kimi müəyyən muxtariyyət və müstəqil əhəmiyyət kəsb etmişdir. O, yüksək səviyyədə mexanikləşdirilmiş əmək proseslərinə və işlənmiş unifikasiya edilmiş texnologiyaya malik heyvandarlıq, quşçuluq və digər tikililərdən- sexlərdən əlavə müxtəlif mexaniki emalatxanalar, anbar otaqları, nəqliyyat bölmələri, və çox vaxt kənd təsərrüfatı məhsullarının emalını, enerji xidmətlərini həyata keçirən müəssisələri özündə ehtiva edən mürəkkəb daxili struktur əldə etdiyi üçün öz xarakterinə görə şəhər sənaye zonalarının tipinə yaxınlaşmışdır [1].

Belə bir şəraitdə istehsal zonası həm də kəndlərin görkəminə, onların həcm- planlaşdırma kompozisiyasına, struktur elementlərinin daxili qarşılıqlı münasibətlərinin xarakterinə əhəmiyyətli dərəcədə təsir göstərən tikintinin çox nəzərə çarpan memarlıq-məkan komponentinə çevrilmişdir. Yığcam, cəmləşdirilmiş istehsal zonalarının, yaşayış, təsərrüfat və yardımçı tikililərin keçmişdə tanış olan adda-buddalığını əmələ gətirən təsərrüfat qurğularının ənənəvi dispers yerləşmə sistemi ilə çox az oxşarlığı var. Malikanə tikilişi zamanı fərdi təsərrüfat qurğuları öz əhəmiyyətini qoruyub saxladığından kəndlərdə köhnə və yeni təsərrüfat sistemləri məqsədəuyğun şəkildə birləşdirilmişdir və burada da yüksək məhsuldar sənaye əsasında təşkil edilmiş iri ümumiləşdirilmiş istehsal yardımçı fərdi təsərrüfatla tamamlanır. Sonuncu, hər bir ailənin, o cümlədən bu ailənin qeyri- aqrar sahədə çalışan üzvlərinin əmək ehtiyatlarından istifadə etmək üçün uyğunlaşdırılmış, fərqli şəkildə təşkil edilmiş, lakin vahid istehsal- məişət sahəsi olmayan mənzil ilə effektiv şəkildə birləşdirilmişdir. Əsas

istehsal zonası kənd yaşayış yerlərinin yeni miqyasını yaratmışdır. İri heyvandarlıq və quşçuluq tikililəri, yem emalı qurğuları, təsərrüfatlar və su qüllələri kənd tikililəri arasında öz ölçüləri, aydın, adi müntəzəm kompozisiya sistemi, yeni vertikallarına görə kəskin fərqlənməyə başladı. Bununla belə, kəndlərin yaşayış şəraitindəki bütün bu müsbət dəyişikliklərə, onun mədəni- məişət baxımından təşkil olunmasına və mühəndis infrastrukturu ilə təminatına baxmayaraq, kiçik şəhərlərdə və kənd yaşayış məntəqələrindəki həyat səviyyəsi hələ də böyük və iri şəhərlərin əhalisinin yaşayış səviyyəsindən xeyli geri qalır.

Əhalinin tam dəyərli həyat səviyyəsini təmin etmək üçün Azərbaycanda müasir şəhərsalma nəzəriyyəsi və praktikası, fikrimizcə, kiçik şəhərlərin və kənd yaşayış yerlərinin, habelə ümumilikdə bütün kiçik yaşayış yerlərinin gələcək mövcudluğunun və hərtərəfli inkişafının, qrup məskunlaşma sistemlərin formalaşması və inkişafının, kiçik abad yaşayış yerlərinin (şəhər və kəndlərin) üzvi şəkildə struktur və funksional elementlər kimi, ərazilərin istehsal, sağlamlıq və digər imkanlarından, əmək resurslarından birgə istifadə edilməsi əsasında, eləcə də əhalinin sosial ehtiyaclarının ödənilməsi əsasında ümumi məskunlaşma sistemlərinə daxil edilməsinin əsasını təşkil etməlidir. Ümumi sistemə daxil olmaqla onun tərkib elementlərinə çevrilərək, müxtəlif ölçülü və təsərrüfat profilli bütün yaşayış yerləri təkcə iş, istirahət və xidmət yerləri ilə deyil, həm də bu sistemin elmi və mədəni mərkəzləri ilə sıx əlaqədə olacaqdır. Kənd əhalisi intensiv ünsiyyət prosesinə cəlb ediləcək, şəhər əhalisi ilə yanaşı peşə seçimi, ixtisasartırma, mədəni və məişət tələbatlarının ödənilməsi və s.imkanı əldə edəcək ki, bu da şəhər və kənd arasındakı fərqlərin aradan qaldırılmasına kömək edəcək.

Kənd təsərrüfatında baş verən elmi- texniki tərəqqi və nəticə etibarilə kənd təsərrüfatı istehsalı ilə məşğul olanların ümumi sayının kəskin azalması, habelə cəmiyyətin həyatındakı sosial-iqtisadi dəyişikliklər kənd əhalisinin məskunlaşmasında böyük dəyişikliklərə, bütün kənd yaşayış yerləri şəbəkəsinin tipoloji baxımdan əhəmiyyətli dərəcədə yenidən qurulmasına gətirib çıxaracaqdır.

Azərbaycanda kənd yaşayış məntəqələri şəbəkəsinin inkişafı prosesi üçün aşağıdakı əsas istiqamətlər səciyyəvidir:

- şəhər abadlıq səviyyəsində olan keyfiyyətcə yeni növ qəsəbələrin formalaşması;
- kənd təsərrüfatı və aqrar- sənaye istehsalının təşkili, yerli xammal və təbii sərvətlərin istismarı, kənd əhalisi üçün mədəni- məişət xidmətinin təşkili, kütləvi istirahət və turizmin inkişafı əsasında qrup məskunlaşma formalarının inkişafı;
- kənd yaşayış yerlərinin ardıcıl surətdə ümumi məskunlaşma sisteminə daxil edilməsi.

Kiçik yaşayış məntəqələrinin yenidən qurulması probleminin həlli kifayət qədər uzun müddət ərzində mövcud vəziyyətdən tədricən abadlaşdırılmış qəsəbələr şəbəkəsinin yaradılmasına keçid zərurətini nəzərdə tutur ki, bu müddət ərzində məskunlaşma tədricən, mərhələlələr üzrə təkmilləşəcək, kənd əhalisinə göstərilən mədəni- məişət xidmətinin səviyyəsi yüksələcək, qəsəbələr abadlaşacaq. Kənd yaşayış yerlərinin yenidən qurulmasının mərhələləri kənd yerlərində bütün təsərrüfat sisteminin yenidən qurulması ilə; maddi dəyərlərin artırılmasını nəzərdə tutan, nəticədə etibarilə, bu dəyişikliklərin həyata keçirilməsi üçün maddi imkanları təmin edən bazar iqtisadiyyatı sisteminə keçidlə sıx bağlıdır.

Bu mərhələdə kənd yaşayış yerlərinin inkişaf prosesi istehsalın inkişafının müasir tendensiyaları və kənd əhalisinin həyat tərzi və mədəniyyətindəki dəyişikliklər ilə əlaqədardır və əsasən təşəkkül tapmış məskunlaşma yerlərinin yenidən qurulmasından, kənd qəsəbələrinin dayaq şəbəkəsinin formalaşdırılması və inkişaf etdirilməsindən ibarətdir. Bu mərhələdə bütün yeni tikililərin konsentrasiyası yalnız tərtibatı müasir tələblərə uyğun həyata keçirilməli olan, mövcud və inkişafı nəzərdə tutulan inzibati rayonların rayon planlaşdırma layihələri əsasında seçilmiş perspektiv yaşayış məntəqələrində baş verəcəkdir [2,3]. Bəzi sosial irəliləyişlərə baxmayaraq, yaxın dövrdə mövcud vəziyyətin əsas xüsusiyyətləri saxlanacaq və şəxsi yardımçı təsərrüfat praktik olaraq əvvəlki görkəmdə qalacaqdır. Kənd təsərrüfatının yeni istehsal və təşkilati bazar əsasında yenidən qurulması hələ yeni başlayır və kənd təsərrüfatı istehsalının ümumi quruluşunu köklü şəkildə dəyişdirə bilməz. Kənd sakininin əməyinin xüsusiyyətindəki spesifiklik və kənd qəsəbələrinin əhalisinə göstərilən mədəni-məişət xidmətinin aşağı səviyyəsi əhəmiyyətli dərəcədə saxlanacaqdır. Kənd sakinlərinin sosial ehtiyaclarını təmin etmək imkanı ilə müqayisədə bu ehtiyacların daha da artması əlverişsiz demoqrafik vəziyyətin saxlanmasına və əmək qabiliyyətli əhalinin kənd yerlərindən böyük

miqrasiyasına gətirib çıxarır.

Baş verən hadisələrin birbaşa nəticəsi, kənd əhalisinin miqrasiyalarının güclənməsi və son nəticədə kənd yaşayış yerlərinin funksional- məkan strukturunun transformasiyası olacaqdır.

Bizim fikrimizcə, perspektiv dövrdə əhəmiyyətinə və intensivliyinə görə təxminən iki bərabər miqrasiya prosesi səciyyəvidir:

- Kənd əhalisinin şəhərlərə artan sonrakı axını və kənd əhalisinin həcminə görə daha böyük və istehsal əhəmiyyətinə görə daha vacib olan, inkişaf və abadlıq baxımından əlverişli şəraitə malik kənd yaşayış məntəqələrində konsentrasiyası prosesi.

- İkinci, daxili miqrasiya prosesi yaşayış məntəqələrinin- kənd təsərrüfatı istehsalının əsas mərkəzlərinin və kənd təsərrüfatı ərazilərinə xidmət mərkəzlərinin iriləşdirilməsi və əsas inkişafı, perspektivsiz kənd yaşayış yerlərinin tədricən yoxa çıxması, sənaye əsasında inkişaf edən ixtisaslaşdırılmış kənd təsərrüfatı müəssisələrində yeni tipli yaşayış məskənlərinin yaradılması, müxtəlif funksional yaşayış yerlərinin yaradılması, müvəqqəti və mövsümi məskunlaşma şəbəkəsinin inkişaf etdirilməsi yolu ilə kənd yaşayış yerləri şəbəkəsinin funksional- məkan strukturunun dəyişdirilməsinə şərait yaradır. Nəticədə bütün kənd yaşayış məntəqələri şəbəkəsi əsaslı şəkildə yenidən qurulacaq: bir tərəfdən daha iri yaşayış məntəqələri daha çox inkişaf edəcək, digər tərəfdən isə istehsal obyektlərində müvəqqəti və ya mövsümi zəhmətkeşlərin olduğu yaşayış məntəqələrinin sayı və əhəmiyyəti artacaq.

Kənd yaşayış yerləri şəbəkəsinin funksional strukturunun dəyişməsi ayrı-ayrı yaşayış məntəqələrinin funksiyalarının inteqrasiyası istiqamətində də baş verəcək. Həm kənd təsərrüfatı profilli olmayan yaşayış məntəqələrində kənd təsərrüfatı funksiyalarının inkişafı sayəsində, həm də kənd təsərrüfatı məntəqələrində kənd təsərrüfatı istehsalı ilə bağlı olmayan sənayenin inkişafı, eləcə də istirahət, turizm və sanatoriya- kurort müalicəsi funksiyalarının inkişafı nəticəsində müxtəlif funksiyalı yaşayış məntəqələri daha geniş inkişaf etdiriləcəkdir. Kənd əhalisi üçün mədəni-məişət xidmətləri göstərən idarə və müəssisələr şəbəkəsi, əsasən təşəkkül tapmış mərkəzləşdirilməmiş məskunlaşma yerlərinin qorunması nəzərə alınmaqla inkişaf edəcəkdir [4].

İstehsalın və xidmət sisteminin gələcəkdə daha uğurla inkişaf etdirilməsi əsasən kənd yerlərində yolların inkişafı və abadlaşdırılmasından asılıdır. Bununla əlaqədar olaraq, bu mərhələdə əsasən rayon mərkəzlərini mərkəzi təsərrüfat qəsəbələri ilə və sonuncuları istehsal bölmələrinin olduğu qəsəbələr, fermalar və digər istehsalat sahələri ilə birləşdirən yollar salınmalı; kənd təsərrüfatı ərazilərinin ölkənin ümumi yollar şəbəkəsindən təcrid olunması tamamilə aradan qaldırılmalıdır. Yol tikintisinin geniş miqyasda aparılması, öz növbəsində kənd əhalisinin birinci növbədə abadlaşdırılmalı olan daha iri qəsəbələrdə cəmləşməsi prosesinin sürətlənməsinə səbəb olacaqdır.

Kənd təsərrüfatı istehsalının və aqrar- sənaye birliklərinin sənayenin kompleks inkişafı əsasında formalaşdırılması, sənaye tipli ixtisaslaşmış heyvandarlıq təsərrüfatlarının təşkili iri aqrar- sənaye qəsəbələri və yaşayış məntəqələrinin inkişafı üçün lazımi ilkin şərtlər yaradacaqdır. İstehsalat obyektlərinin bir ərazidə (yaşayış məntəqəsinin istehsal zonasında) istehsalın kooperasiyası əsasında konsentrasiya olunmuş şəkildə yerləşdirilməsi, ümumi su, kanalizasiya və enerji qurğularının və şəbəkələrinin, ümumi girişlərin yaradılması və s. bu tipli yaşayış yerlərinin inkişafı və bütünlükdə abadlaşdırılması üçün şərait yaradacaqdır.

Ölkənin istehsal ehtiyaclarını və maddi imkanlarını nəzərə alaraq ehtimal etmək olar ki, yaxın 20-30 il ərzində, əsasən, rayonda yaşayış yerlərinin dayaq şəbəkəsini təşkil edən qəsəbələrin: rayon və qrup (*birləşmə*) mərkəzlərinin və mərkəzi qəsəbə təsərrüfatlarının tikintisi və abadlaşdırılması başa çatdırılacaqdır. Sonradan kənd yerlərinin təsərrüfat və sosial cəhətdən yenidən qurulmasında əhəmiyyətli dəyişikliklər baş verəcək. Bazar iqtisadiyyatı şəraitində ixtisaslaşmış iri özəl firmalar və kooperativ təsərrüfatları kənd yerlərində üstünlük təşkil edən mülkiyyət formasına çevriləcəkdir. Bu mərhələ kənd təsərrüfatı istehsalının yeni istehsal və təşkilati əsasda yenidən qurulmasında dönüş nöqtəsi olacaqdır.

Müasir dövrün əsas vəzifələrindən biri inkişaf etmiş yol şəbəkəsinin yaradılması olmalıdır ki, bununla əlaqədar kənd yaşayış yerlərinin şəhərlərlə əlaqəsi genişlənəcəkdir. Bu, kənd sakinlərinin əməyinin funksional məzmununun dəyişdirilməsinə, kənd yerlərində mədəni-məişət xidmət şəraitinin yaxşılaşdırılmasına və əməyin mövsümiliyinin aradan qaldırılmasına əhəmiyyətli dərəcədə kömək

edəcəkdir. Ehtimal olunur ki, kooperativ mənzil tikintisi kənd yerlərində mənzil fondunun yaradılmasında aparıcı mövqe tutacaqdır. Əməyin ixtisaslaşmasına qoyulan tələblərin getdikcə artması sayəsində kənd əhalisinin sosial- peşəkar tərkibi və ailənin tərkibi əhəmiyyətli dərəcədə dəyişəcəkdir. Yaşayış şəraitinin və şəhərlərlə əlaqə şəraitinin yaxşılaşdırılması sayəsində mərhələnin sonuna qədər demoqrafik vəziyyət sabitləşəcək və tədricən yaxşılaşacaqdır. Buradan belə çıxır ki, kənd qəsəbələrinin şəhərsalma təşkilinin yeni formalarının təsdiq edilməsi üçün real imkan yaranacaqdır. Məskunlaşmanın inkişaf tendensiyaları müasir dövrü, birləşdirilmiş kənd qəsəbələrinin böyük hissəsinin ümumi məskunlaşma sisteminin struktur-funksional elementlərinə çevrilməsi yolunda keçid dövrü hesab etməyə imkan verir.

Azərbaycanda məskunlaşma sistemində kənd yaşayış yerlərinin formalaşması və inkişafı əhalinin artan sosial mobilliyinin gücləndirilməsi, kənd təsərrüfatı istehsalının şəhəryaratma əhəmiyyətinin azaldılması, kənd yaşayış yerlərinin öz aralarında, yerli mərkəzlərlə, habelə iri şəhərlərlə əlaqələrinin inkişaf etdirilməsi, kənd təsərrüfatının sənaye sahələri ilə əlaqəsinin gücləndirilməsinin təsiri altında baş verəcəkdir. Bununla əlaqədar, kiçik şəhər, qəsəbə və kəndlərin nəqliyyat sisteminin və küçə- yol şəbəkəsinin təkmilləşdirilməsi, məskunlaşma sistemlərinin təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Cəmiyyətin inkişafının müasir mərhələsində ixtisaslaşmış əmək və sosial-mədəni əlaqələrin artması və əhalinin səyahət məsafəsinin artması ilə müşayiət olunan zəhmətkeşlərin sərbəst vaxtının davamlı genişləndirilməsi, bölgənin bütün ərazisində nəqliyyat şəbəkəsinin köklü təkmilləşdirilməsini tələb edir. Azərbaycanın regional yaşayış yerləri sisteminin vahid nəqliyyat şəbəkəsi yaşayış tikintisinin təşkilinin səmərəli yerləşdirilməsinə, əhalinin gediş- gəlişinə sərf olunan vaxtın azaldılmasına, ətraf mühitin qorunmasına və yaxşılaşdırılmasına kömək edəcəkdir.

Azərbaycanda vahid nəqliyyat infrastrukturunun formalaşmasının əsasını şəhərdaxili, rayon və rayonlararası nəqliyyat sistemlərinin ahəngdar birləşməsi və qarşılıqlı əlaqəsi təşkil edir. Belə infrastruktur, nəqliyyat vasitələrinin məsafəyə, intensivliyə və hərəkət məqsədlərinə görə diferensiasiyası, müxtəlif hərəkət radiuslu nəqliyyat qovşaqlarının yerləşdirilməsi ilə sürətli və adi ictimai nəqliyyat vasitələrinin bazasında formalaşdırılmalıdır.

Bölgənin mürəkkəb və müxtəlif fiziki- coğrafi xüsusiyyətlərinin nəzərə alınması, yaşayış məntəqələri arasında rahat və sürətli əlaqələrin yaradılması, eləcə də sərnişinlərin daşınması rahatlığının artırılması üçün zəruri amildir. Nəqliyyat vasitələrinin bütün növlərinin (cənub tipli modellərin işlənib hazırlanması və tətbiqi də daxil olmaqla) əsaslı şəkildə yaxşılaşdırılması, hərəkət heyətinin istifadəsinin səmərəliliyinin artırılması, respublikanın bütün nəqliyyat konveyerinin dəqiq və fasiləsiz fəaliyyətinin təmin edilməsi həyata keçirilməlidir [5,6].

Nəqliyyat infrastrukturunun inkişafının əsas istiqamətləri aşağıdakılardır:

- nəqliyyat şəbəkəsinin geniş inkişafı və yol nəqliyyat vasitələrinin və küçə-yol şəbəkəsinin əsas xüsusiyyətləri üzrə normativ parametrlərə nail olmaq;
- kütləvi ictimai nəqliyyatın üstün inkişafı və onun əhalinin şəxsi avtomobillərdən istifadəsi ilə səmərəli uyğunlaşdırılması;
- mövcud nəqliyyat sistemlərinin modernləşdirilməsi və yeni nəqliyyat sistemlərinin tətbiqi, hərəkət heyəti parkından istifadənin intensivləşdirilməsi;
- cənub şəraiti nəzərə alınmaqla nəqliyyat sistemlərinin ixtisaslaşması, unifikasiyası və rahatlığının artırılması;
-şəhər və şəhərətrafı nəqliyyatın idarə edilməsi metodlarının təkmilləşdirilməsi, regionda avtomatlaşdırılmış uçot, nəzarət və nəqliyyat hərəkətinin təşkili sistemlərinin tətbiqi.

Azərbaycanın nəqliyyat strukturunun inkişafına qəsəbələrarası yol- nəqliyyat şəbəkəsinin əsas konturlarını müəyyənləşdirən mürəkkəb təbii-coğrafi şərait (dağ silsilələri və hövzələr, su akvatoriyaları və suayrıcıları və s.) mühüm təsir göstərir. Azərbaycan Respublikasının qəsəbələrarası nəqliyyat- yol şəbəkəsinin texniki səviyyəsinin yüksəldilməsi, şəhərlərlə kənd yaşayış yerləri arasında müntəzəm daşımaları (sərnişin və yük) təmin edən, habelə qəsəbələri respublikanın rekreasiya zonaları ilə əlaqələndirən mövcud avtomobil yollarının yenidən qurulması və yeni təkmilləşdirilmiş möhkəm örtüklü yolların tikintis vasitəsilə həyata keçirilməlidir.

Nəticə. Abşeronun kəndləri- bütünlüklə tarixi kəndlərdir, təkcə ona görə yox ki, onlar öz aktivlərində türbələr, məscidlər, məişət təyinatlı tikililər və s. bu kimi qədim memarlıq abidələrinə malikdirlər, həm də ona görə ki, abidələrlə zəngin olan ərazi bədii ifadə obrazına, planlaşdırma inkişafına görə unikaldır, təkrarolunmazdır. Abşeronun abidələri daş memarlığı şəraitində, Azərbaycanın digər bölgələrindən fərqli olan təbii-iqlim şəraitində yaranıb, burada memarlıq-planlaşdırma ənənələri tarixçiliklə sinxronlaşdırılır, xalq memarlığının güclü təbəqələri ciddi və monumental obrazlarda aşkar olunur. Təəccüblü deyil ki, Abşeron kəndlərinin öz memarlıq mikroiqlimi, obrazların qurulması üzrə öz qanunauyğunluqları, həcmi kütlələrin həllində öz tektonik prinsipləri mövcuddur. Bu müxtəlif formalar ya urbanizasiya olunmuş ictimai və maddi mühitin həyat tərzinə və landşaftına, ya da canlı təbiətlə gündəlik ünsiyyətə və ekstensiv, xırdalanmış məskunlaşma formasına meyl edən əhali qruplarının istəklərini əks etdirməklə, yəqin ki, uzun müddət birgə mövcud olacaqdır. Bu şəraitdə Azərbaycan Respublikası ərazisində məskunlaşma strukturunun dəyişdirilməsi və yaşayış yerlərinin qrup sistemlərinin formalaşdırılması ilə yanaşı kənd yerlərində mənzil tikintisi prosesi də həyata keçiriləcək və onun memarlığı da müasir səviyyədə formalaşacaqdır.

Ədəbiyyat

1. Бочаров Ю.П., Кудрявцев О.К. Планировочная структура современного города. Изд. Литературы по строительству, Москва, 160с. 1972
2. Бретаницкий Л.С., Саламзаде А.В. Архитектура Советского Азербайджана. Изд. Литературы по строительству, Москва, 264с. 1973
3. Лавров В.А. Реконструкция крупных городов (методическое пособие для проектировщиков), ЦНИИПИ по градостроительству. Москва. 1972
4. Нагиев Н.Г. Современное градостроительство Азербайджанской Республики. Издательство Təhsil işçisi mətbəəsi MMC, Баку. 2011
5. Нагиев Н.Г., Гусейнов Ф.М. История архитектуры Азербайджана. Современная история архитектуры Азербайджанской Республики. Шарг-Гарб, Баку, 354с. 2013
6. Фатуллаев Ш.С. Градостроительство и архитектура Азербайджана XIX начала XX века. Ленинград: Стройиздат, 456с. 1986

References

1. Bocharov Yu.P., Kudryavcev O.K. Planirovochnaya struktura sovremennogo goroda. Izd. Literatury po stroitel'stvu, Moskva, 160s. 1972
2. Bretanickij L.S., Salamzade A.V. Arhitektura Sovetskogo Azerbajdzhana. Izd. Literatury po stroitel'stvu, Moskva, 264s. 1973
3. Lavrov V.A. Rekonstrukciya krupnyh gorodov (metodicheskoe posobie dlya proektirovshchikov), CNIIPI po gradostroitel'stvu. Moskva. 1972
4. Nagiev N.G. Sovremennoe gradostroitel'stvo Azerbajdzhanskoj Respubliki. Izdatel'stvo Təhsil işçisi mətbəəsi MMC, Baku. 2011
5. Nagiev N.G., Gusejnov F.M. Istoriya arhitektury Azerbajdzhana. Sovremennaya istoriya arhitektury Azerbajdzhanskoj Respubliki. Sharg-Garb, Baku, 354c. 2013
6. Fatullaev Sh.S. Gradostroitel'stvo i arhitektura Azerbajdzhana XIX nachala HKH veka. Leningrad: Strojizdat, 456s. 1986

Redaksiyaya daxil olma/Received 13.09.2021
Çapa qəbul olunma/Accepted for publication 13.10.2021

İTALİYANIN BÖYÜK ŞƏHƏRLƏRİNİN REKREASİYA ZONALARININ ŞƏHƏRSALMA TƏŞKİLİNƏ TƏSİRİ

Mustafayeva Fidan Vaqif qızı– m.f.d., Memarlığın əsasları kafedrası, AzMİU,
fidan.mustafayeva@azmiu.edu.az

Xülasə. Müasir italyan memarlığı əsrlər öncə yaranmış möhtəşəm memarlıq ənənələrini davam etdirir. Yerli memarlarla yanaşı dünyanın müxtəlif ölkələrindən olan məşhur incəsənət xadimləri bu qədim və gözəl şəhərlərə töhfəsini vermişdir. 20-ci əsrin sonu, 21-ci əsrin əvvəllərində burada layihələri inşa olunmuş memarlar sırasında-Renzo Piano (Baridə San Nicola stadionu, Qədim Genuya limanının rekonstruksiyası, Romada Auditorium Parco della Musica, San Ciovanni Rotondoda Padre Pio kilsəsi və s.), Massimilano Fuksas (Pyemontda göydələn), Qae Aulenti (Neapol stansiya muzeyi), Mario Botta (Trento və Rovereto müasir incəsənət muzeyi, Milanda alla Scala teatrının rekonstruksiyası), Zaha Hadid (Romada XXI əsr müasir incəsənət muzeyi, Milanda " Lo Storto" göydələni), Riçard Mayer (Romada kilsə), Norman Foster (Firenze Belfiore stansiyası) və s. olmuşdur. İtaliyanın böyük şəhərlərində memarlıq abidələrinin bir çoxunun ətrafında geniş rekreasiya sahələri mövcuddur ki bu rekreasiya zonaları həmin binaların yerləşdikləri şəhərlərin şəhərsalma həllinə uyğunlaşmasına müsbət təsir edir.
Açar sözlər: Şəhərsalma, İtaliya, rekreasiya zonaları, Roma, böyük şəhərlər, Milan

THE IMPACT OF THE RECREATION ZONES OF THE GREAT CITIES OF ITALY ON THE ORGANIZATION OF URBANIZATION

Mustafayeva Fidan Vagif- PhD in arch., department of Basics of architecture, AzUAC,
fidan.mustafayeva@azmiu.edu.az

Abstract. Contemporary Italian architecture continues the magnificent architectural traditions of centuries ago. Along with local architects, renowned architects from all over the world contribute to the creation of these ancient and beautiful cities. Among the architects whose projects were built here in the late 20th - early 21st centuries were Renzo Piano (San Nicola stadium in Barida, reconstruction of the ancient port of Genoa, Auditorium Parco della Musica in Rome, Padre Pio church in San Giovanni Rotondo, etc.), Massimilano Fuksas (Skyscraper in Piedmont), Gae Aulenti (Museum of Naples Station), Mario Botta (Museum of Contemporary Art of Trento and Rovereto, reconstruction of the Alla Scala Theater in Milan), Zaha Hadid (Museum of Contemporary Art of the 21st century in Rome, Lo Storto skyscraper in Milan), Richard Mayer (church in Rome), Norman Foster (station Firenze Belfiore) and others were. Large Italian cities have large recreation areas around many architectural monuments, which has a positive effect on the adaptation of buildings to urban planning.
Keywords: Urban planning, Italy, recreation areas, Rome, big cities, Milan

Giriş. Çoxsaylı turistlərin axın etdiyi Avropa ölkələrindən biri İtaliya zəngin tarixi-mədəni irsi və memarlıq abidələri daim diqqət mərkəzində olmuşdur. İtaliyada əhali sayına görə ən böyük iki şəhəri Roma və Milandır. 2020- ci ilin statistik məlumatlarına əsasən birinci böyük şəhər olan Romanın əhalisi 2867078 nəfər, Milan əhalisi 1350487 təşkil edir. Artıq 2,7 min il mövcud olan və Əbədi şəhər (Citta eterna) adlanan Roma zamana uyğun müasirləşir, eyni zamanda burada mövcud tarixi memarlıq obyektləri öz möhtəşəmliyi ilə şəhərsalma həllinə uyğunlaşır. İtaliyanın bütün şəhərləri rekreasiya zonalarının yaranması üçün uyğun təbii landşafta malikdir. Rekreasiya zonaları dedikdə ilk ağıla gələn park və qoruqların təbii landşaftı bu zonaların şəhərsalma həllinə uyğunlaşmasına şərait yaradır. Şəhər ətrafı rekreasiya zonalarından biri Qran Sasso Milli Parkıdır (Parco Nazionale del Gran Sasso). Bu park Avropanın "yaşıl ağ ciyərləri" sayılan 3 milli parkdan biridir. Nəinki park, hətta ətraf əraziləri möhtəşəm təbii landşafta malikdir. Parkın 30 ilə yaxın yaşı var və 150 min hektar mühafizə olunan tarixi-mədəni dəyərə malik ərazini əhatə edir. Ərazinin bir hissəsi elmi-tədqiqat işləri, digər hissəsi isə ziyarətçilər üçün nəzərdə tutulub [3].

Rahat və ekoloji cəhətdən faydalı şəhər mühitinin yaradılmasında şəhərsalma sistemi cəhətdən urbanizasiya olunmuş ərazilər daha doğrusu bütövlükdə bir çox elementlərdən ibarət, bir-biri ilə münasibətdə olan və "yer" (məkan) ümumiləşdirilmiş anlayışı ilə əlaqədə olan amillərin nəzərdən keçirilməsi müsbət nəticə verə bilər. Sistemli bir yanaşma obyekti olaraq şəhərsalma sistemi mürəkkəb bir strukturdur və iki böyük alt sistemdən ibarətdir: sosial-iqtisadi və çoxsaylı daxili və xarici əlaqələri olan məkan- ekoloji [1,2]. Villa Doria Pamfili, Roma şəhərindəki geniş bir parkdır, digər bir çox şəhər parkları kimi, ilk əvvəl Roma zadəgan ailəsinin bağ evi olmuşdur. Eyni zamanda İtaliya hökumətinin nümayəndəliyidir [1,2]. 184 hektar sahəsinə görə ən böyük Roma parkıdır və şəhərdəki ən yaxşı mühafizə olunan "villalardan" biridir: tək müdaxilə qədim mülkü iki hissəyə ayıran Via Olimpikanın (XIII Via Leone) açılışı ilə əlaqədardır.

Villa hələ də on yeddinci əsrin memarlıq həlli, on səkkiz və on doqquzuncu əsrlərin əsas xüsusiyyətlərini qoruyub saxlayır. Villa üç hissəyə bölünür: saray və bağlar (pars urbano), şam meşəsi (pars fructuaria) və əkinçilik sahəsi (pars rustica) [3].

Şəkil 1. Roma şəhərində yerləşən Doria Pamfili Villası (La villa Doria Pamphilj)

Rekreasiya zonaları müxtəlif funksional yerləşgələrdən ibarət olmalıdır ki, ərazini ziyarət edən bütün yaş qruplarını təmsil edən insanlara müsbət emosional təsir bağışlasın. Eyni zamanda sahəsi və təyinatından (bulvar, park, bağ, meydan, nəbatət bağı və s.) asılı olmayaraq rekreasiya sahəsi ətrafda mövcud müxtəlif memarlıq üslubu və şəhərsalma həllinə malik tikililəri eyni kompozisiya həlli çərçivəsində toplamalıdır. Bu gün yeni və qədim memarlığın uyğunlaşması əvvəlki dövrə baxdıqda daha çətinləşib. Bunlar yeni tikintinin miqyası və texnolgiyaları, mürəkkəb sosial və tikinti problemlərin həllinin vacibliyi, sözün əsl mənasında şəhərsalma mədəniyyətinin tamamilə yeni inkişaf etapının yaranmasından irəli gəlir [4,5].

Şaquli meşə, yalnız insanlara deyil, həm də insanlar və digər canlı növləri arasında əlaqəyə diqqət yetirən yeni bir memarlıq biomüxtəliflik formatının prototipdir. Milanda Porta Nuova ərazisindəki inşa edilən ilk nümunə, sırasıyla 80 və 112 metr hündürlükdə iki qüllədən ibarətdir ki, bunlarda ümumilikdə 800 ağac (birinci və ikinci mərhələdə 480 ağac, 300 kiçik ağac), 15000 çoxillik bitki və ya 3.000 kvadratmetr şəhər səthində cəmlənmiş 30.000 kvadrat metr meşə və bitki örtüyünə bərabər miqdarda bitki örtüyü təmin edən torpaq örtüyü bitkiləri və 5000 kol mövcuddur. Layihə həm də yaşıllıqlar axtarılması nəticəsində yaranan şəhər genişlənməsini məhdudlaşdıran bir vasitədir (hər qüllə təqribən 50 000 kvadratmetrlik tək ailəlik evlərdən ibarətdir). Şüşə və ya daşdan hazırlanmış "mineral" fasadlardan fərqli olaraq, bitki əsaslı ekran günəş şüalarını əks etdirmir və artırmır, əksinə süzgəcdən keçirir və bununla da ətrafa zərərsiz, mülayim daxili mikroiqlim yaradır.

Eyni zamanda yaşıl pərdə rütubəti "tənzimləyir", oksigen istehsal edir, CO_2 və hissəcikləri udur və bu da layihəyə Frankfurtdakı Deutschen Architekturmuseums Beynəlxalq Yüksəlmə Mükafatı da daxil olmaqla bir sıra mühüm mükafatlar gətirmişdir (2014) və Chicago'nun IIT-dəki Hündür Binalar və Şəhər Yaşayış Şurası tərəfindən dünyanın ən yaxşı hündür binaları üçün CTBUH Mükafatı (2015).

Şəkil 2. Memar Stefano Boerinin Milan şəhərində layihələndirdiyi " Bosco Verticale" yaşayış kompleksi

"Şaquli meşə"– "insanların və quşların yaşadığı ağaclar üçün bir ev" konsepsiyası yalnız layihənin şəhər və texnoloji xüsusiyyətlərini deyil, həm də memarlıq dili və onun keyfiyyətlərini ifadə edir. Layihə üzrə, qüllələr əsasən bitki örtüyü üçün böyük xarici çəlləkləri yerləşdirmək və daha böyük ağacların, hətta binanın üç mərtəbəsindən də artıq böyüməsinə imkan vermək üçün hazırlanmış, böyük, pilləli və asma eyvanlarla (hər biri təxminən üç metr) xarakterizə olunur. Eyni zamanda, fasadların çini daş materialından olmağı, ağac qabıqlarının tipik qəhvəyi rəngini özündə birləşdirir, içərisində yaşamaq, ədəbi və simvolik mənalarla zəngin olan bir cüt nəhəng ağacın obrazını canlandırır. Ağ daşdan hazırlanmış bir sıra elementlərlə- balkonların simli telləri və pəncərələrin ön hissəsindəki bəzi modullarla ziddiyyət kompozisiyası içərisində memarlıq cisimlərinin vizual kompaktlığını parçalayan və "materialsızlaşdıran" sinxron bir ritm gətirirərək bitkilərin artmasına daha çox şərait yaradır. Yalnız yaşıl pərdənin sıxlığı və funksiyasına görə deyil, həm də bitkinin ölçüsündə çox rəngli tsiklik və morfoloji dəyişikliklərə görə estetik-vaxt baxımdan səthlər, fasadlar üç ölçülü boşluq kimi görünə bilir.

Bitkilərin rəngi və formasındakı fərqlər ilin istənilən vaxtında möhtəşəm mənzərə yaradır və istiqamət görmək mümükün olur. Bu xüsusiyyətlər cəmi bir neçə il ərzində Şaquli Meşə kompleksi Milanın yeni simvolu halına gəlməsinə səbəb oldu. Bir qrup botanik və etoloqla birlikdə aparılan üç illik tədqiqatların nəticəsi olan botanika komponentinin inkişafı, 2010- cu ilin yayında qüllələrə qoyulacaq bitkilərin əslində olduğu dövrdən də öncə kompleksin istismar müddətindən əvvəl düşünülmüşdür.

Beləliklə, bitki örtüyünün mövcudluğu, Şaquli Meşənin sadəcə bir memarlıq obyekti deyil, zamanla inkişaf edən bitki örtüyünün həyatı və böyüməsini müşayiət edən qismən təbii, qismən insanlar tərəfindən idarə olunan bir sıra proseslər toplusu olduğunu göstərir. Suvarma prosesi mərkəzləşdirilmişdir: bitkilərin baxımı rəqəmsal və uzaqdan idarə olunur, suvarmadan süzülən su isə əsasən qüllələrin süzgəcindən alınır. Bu həll yollarının hamısı, hələ də mahiyyət etibarilə texniki "davamlılıq" konsepsiyasını yeni biomüxtəliflik istiqamətində yüksəldir. İnşa olunduqdan bir neçə il sonra, Şaquli Meşə, çoxsaylı canlı növlərinin (təxminən 1600 quş və kəpənək daxil olmaqla) məskunlaşdığı bir yaşayış sahəsini meydana gətirdi və şəhərdəki flora və faunanın spontan olaraq yenidən toplanması üçün bir sahə yaratdı [5].

Son illərdə Azərbaycanın rekreasiya zonalarının sahəsi və sayının artması, eyni zamanda memarlıq və şəhərsalma xüsusiyyətləri cəhətdən inkişafını mütləq şəkildə qeyd etmək lazımdır. Bakı, Gəncə və Sumqayıt şəhərlərində layihələndirilmiş geniş sahəyə malik yeni rekreasiya zonaları bu müsbət tendensiyanı təsdiq edir.

Bakı şəhəri Füzuli küçəsi ilə Mirzağa Əliyev küçəsi kəsişməsində inşa olunan, Milli Parkdan sonra ikinci ən böyük park hesab edilən və 4500 yerlik yeraltı avtomobil dayanacağının üzərində layihələndirilmiş, 7 hektar əraziyə malik, uzunluğu 1 km, eni 150 m Bakının ən böyük parkının layihəsi Avstriyanın məşhur memarı Yans Hoffmana məxsusdur. Parkın ümumi ərazisi 20 hektardır və bu sahənin 14 hektarı yaşıllıq sahəsi üçün ayrılıb. Ümumilikdə yeddi istirahət və oyun meydançası təşkil edilib. H. Əliyev sarayının arxa hissəsindən başlanğıc götürən park Füzuli meydanı olan əraziyə qədər uzanır. Ərazidə yeraltı keçidlərin sayı yeddi, içəridə quraşdırılmış eskalatorların sayı iyirmi

dördə bərabərdir və eyni zamanda əlil insanların hərəkətinin rahat olması üçün xüsusi avadanlıqlar quraşdırılıb.

Yeraltı dayanacaqdan rahat istifədə üçün on dörd lift quraşdırılıb və buradan parka daxil olmaq üçün otuz iki keçid salınıb. Böyük və müasir standartlara uyğun fəvvarələr əraziyə daxil olarkən dominantlığını əks etdirir. Giriş və çıxış hissələrdə yerləşdirilmiş fəvvarələrin ətrafı oturacaqlarla təmin edilib. Park ərazisində 2000 ağac, 10000- dən artıq dekoratv bitki kolu, çoxsaylı müxtəlif güllər və palma ağacları mövcuddur. Təqdirə layiq hal olaraq gül kollarının qarşısında haqqında məlumat yazılan lövhələri də qeyd edə bilərik. Park ərazisi müasir standartlara uyğun işıqlandırma ilə təchiz olunub.Ümumiyyətlə park ərazisində insanların rahatlığının təmin edilməsi üçün ətrafı çiçəklərlə bəzədilmiş, çox saylı oturacaqlar yerləşdirilib.

Müasir dizayn elementlərini özündə cəmləşdirən fasadlara malik üç kafe inşa olunub [5-7].

Şəkil 3. Bakı şəhəri Füzuli küçəsi ilə Mirzağa Əliyev küçəsi kəsişməsi "Mərkəzi park"

Böyük şəhərlərdə inşa olunan rekreasiya obyektlərinin layihələndirmə və inşası zamanı həm xarici, həm də yerli memar və mühəndislərin birgə çalışmaları şəhərlərin memarlıq siması və infrastrukturun inkişafı cəhətdən müsbət atılmış addımdır. Bakı şəhərinin "ağciyəri" adlandırılan Mərkəzi park haqqında bir çox məlumatlar təqdim olunmuşdur. Funksiyaların çoxluq təşkil etdiyi parklar təbii ki, insanların rahatlığı üçün daha uyğundur. Bu parkda uşaqlar üçün yelləncək, futbol meydançası, yaşlı sakinlər üçün şahmat, nərd və idman cihazları ilə təmin olunub. Kol bitkiləri və gülləri sayı 137000- dən artıq, on doqquz növdə ağac növlərinin ümumi sayı 2100 ədəddən çoxdur. Bitki örtüyünün su ilə təmin olunması üçün 6,5 km- dən artıq ərazidə damcı sistemindən istifadə olunub. Suvarma prosesi üçün drenaj sistemi yaradılıb. Suvarma sistemində əsas mənbələrdən biri XIX əsrin sonu - XX əsrin əvvəllərində Şollar suyunun Bakıya gətirilməsi zamanı qeydə alınaraq, bərpa olunmuş "Qüllə" adlanan su quyularıdır [8,9].

Qafqazın ən qədim tarixə malik parklarından biri Gəncə şəhərinin "Xan bağı" parkıdır. 1700 ildə əsası qoyulan parkın ərazisi 1860-cı ildə 6 hektara qədər genişlənmişdir. O dövrdə 100 ağac və kol növü olmuşdur. 2010- cu ildə 7 hektar ərazisi olan parkda yenidənqurma işləri görülüb. Ərazisində landşaft memarlıq həlli müasir göstəricilərə uyğun həll olunan park ərazisində iki fəvvarə, süni göl, kiçik körpülər, uşaq zonası, 350 tamaşaçı üçün nəzərdə tutulmuş Yaşıl teatr və Venesiya güşəsi planlaşdırılıb [9].

Eyni zamanda parkın sərəncamında olan "Cırtdan" uşaq parkının sahəsi 1 hektara bərabərdir. Gəncə şəhəri Atatürk prospektində yerləşən parkda attraksionlar, batutlar, paravozlar, avtodrom, Amerika təpəcikləri, karusellər mövcuddur. Hazırda uşaq yaradıcılıq mərkəzi olaraq fəaliyyət göstərən bina XX əsrin əvvəllərində Gəncə qubernatorunun qonaq evi olmuşdur. Parkın landşaft həlli zəngin çalarlara malikdir. Parkın funksiyaları sırasına veteranlar klubu, uşaq yaradıcılıq mərkəzi, uşaq kitabxanası, mədəniyyət evi daxildir. Gəncə sakinləri və turistlərin daima üz tutduğu dünyanın ən böyük 5 parkından biri, Azərbaycan və Qafqazın ən iri park kompleksi Heydər Əliyev adına park kompleksidir. 2014-cü ildə yenidənqurma işləri tamamlanmış parkın girişini Zəfər tağı taclandırır.

Parkın girəcəyindən başlayan 2 kilometrə bərarabər xiyaban Heydər Əliyev Mərkəzinin qaşısına çıxır. On altı müasir formada inşa olunan fəvvarə parkın möhtəşəm layihəsini tamamlayan kiçik memarlıq obyektləri sırasındadır. Ərazisi 33.800 m^2 hündürlüyü 12,6 m iyirmi dörd ədəd

işıqlandırma obyekti yerləşdirilib. Park ərazisinə həmçinin 3000 m^2 sahəsi olan amfiteatr, sahəsi 5 ha olan süni göl və dördpilləli şəlalə komplesi, möhtəşəm müasir incəsənət muzeyi daxildir. Sumqayıt şəhərinin 9-cu mikrorayon ərazisində 1997-ci ildə əsası qoyulmuş Lüdviqşafen parkının ümumi ərazisi 2 hektardır. 2016-cı ildə park ərazisində əsaslı yenidənqurma işləri başladıldı. Park ərazisində yaşıllıqlar yerləşdirilib, çox sayda ağac və kollar salınıb, bütün standartlara uyğun işiqlandırma işləri aparılıb. Sumqayıt şəhərinin sahəsinə görə ən böyük rekreasiya zonası olan bulvarın əsas ərazisinə daxil Nəsimi adına Dənizkənarı Mədəniyyət və İstirahət Parkıdır. Rekreasiya zonasının uzunluğu 4,2 km, ərazisi 106 ha bərabərdir. Ərazi üçün Bayraq Meydanı və Multikultralizm abidələri də layihələndirilmişdir [10].

Nəticə. Bulvar ərazisində daima müsbət dəyişikliklər aparılır. Şəhər əhalisi və turistləri vaxtının səmərəli keçirilməsi üçün burada nadir ağaclar əkilib, idman zonası layihələndirilib. Ərazidə həmçinin attraksionlar, əyləncə zonası, ticarət obyektləri, kinoteatr planlaşdırılıb. Rekreasiya zonasında kiçik ekskursiya nəqliyyatı, avtomobil və velosipedlər üçün sahil boyu yol zolağı layihələndirilmişdir. Bulvarın sahilboyu ərazisində estakadalarda gəzintiyə gələn insanlar üçün şəhərətrafı gəmilərlə ekskursiya, taksi katerlərlə Xəzər dənizi adalarına gəzinti də nəzərdə tutulmuşdur. İtaliyanın böyük şəhərləri olan Roma və Milanın rekreasiya zonalarının şəhərsalma təşkilinə təsirini təhlil edərkən aşağıdakı nəticələr əldə olundu:

-Uzun illər öncə salınmış rekreasiya zonalarının yenidənqurma layihəsinin tərkibində mütləq eyni kompozisiya həllinə yaxın memarlıq və landşaft elementləri mövcud olmalıdır.

-Böyük şəhərlərdə salınmış geniş miqyaslı rekreasiya zonaları ilə yanaşı (parklar, bulvarlar, bağlar və s.) yeni layihələndirilmiş tikililərin memarlıq-planlaşdırılma strukturuna müasir standartlara uyğun yaşıllıq elementləri daxil edilməlidir.

-Müasir memarlıq- planlaşdırma həllinə malik, yaşıllıq elementləri ilə təmin olunmuş ekologiya dostu binaların memarlıq-kompozisiya həlli mövcud şəhərsalma strukturu ilə uyğunlaşmalıdır.

Ədəbiyyat:

1. Əliyev N.Ə. Memarlıqda əsərin yaranmasına dair. Urbanizm, Bakı, El- Alyans №1(2), 44-47s. 2002
2. Котлярова Е.В., Дворников Ю.Я., Принципы проектирования городской архитектурной среды, 93с. 2014
3. www.italy4.me
4. www.stefanoboeriarcitetti.com
5. www.villapamphili.it
6. Məmmədov R.M. Azərbaycanda landşaft planlaşdırılması. Bakı, 142s, 2009
7. Evcil N. Playgrounds in public open areas and design for all. Karaköy atölyesi. İstanbul yeni yüzyıl üniversitesi yayınları. 73s, 2014
8. Ökten B.B. Green in Urban Enviroment. Karaköy atölyesi. İstanbul yeni yüzyıl üniversitesi yayınları, 116-120s. 2014
9. Öztürk A. Kentin kayıp yeşil alanları. Karaköy atölyesi. İstanbul yeni yüzyıl üniversitesi yayınları, 71-72s. 2014
10. Nielsen J. B., Thompson T. D., Thompson I. D. European Landscape Architecture. New York, p289. 2007

References

1. Aliyev N.A. Memarlıqda eserin yaranmasina dair. Urbanizm, Baki, El- Alyans №1(2), 44-47s. 2002
2. Kotlyarova E.V., Dvornikov Yu.Ya., Principy proektirovaniya gorodskoj arhitekturnoj sredy, 93s. 2014
3. www.italy4.me
4. www.stefanoboeriarcitetti.com
5. www.villapamphili.it
6. Memmedov R.M. Azerbaycanda landshaft planlashdirilmasi. Baki, 142s. 2009

7. Evcil N. Playgrounds in public open areas and design for all. Karakoy atolyesi. Istanbul yeni yuzyil universitesi yayinlari, 73s. 2014
8. Okten B.B. Green in Urban Enviroment. Karakoy atolyesi. Istanbul yeni yuzyil universitesi yayinlari, 116- 120s. 2014
9. Ozturk A. Kentin kayip yeshil alanlari. Karakoy atolyesi. Istanbul yeni yuzyil universitesi yayinlari, 71- 72s. 2014
10. Nielsen J. B., Thompson T. D., Thompson I. D. European Landscape Architecture. New York, p289. 2007

Redaksiyaya daxil olma/Received 10.09.2021
Çapa qəbul olunma/Accepted for publication 11.10.2021

AGRICULTURAL TOWERS ARE AN APPROACH TO REDUCING SUBURBAN LAND OCCUPATIONS

Nasiri Amir Gholamreza- PhD student, Department of Architectural design and urban planning, AzUAC, Amir.architect82@gmail.com

Abstract. Man in the 21st century with great challenges such as increasing urban population growth, land scarcity, feel the jump in land prices, the uncontrolled expansion of the road network, more construction and the occupation of natural lands around the cities, the close and compact distance from the urban area to the villages. This dense expansion of cities made high-rise construction an integral part of urban human life; in a way that the vertical growth of cities gradually reduced the horizontal development of cities to some extent by opening another front in urban development. This new urban planning combination justified the construction of vertical farms for the rapid supply and direct supply of agricultural products to the inhabitants of the towers, as well as a greater focus on producing food resources in dense urban fabric to reduce carbon in the environment and occupy less land.
Keywords: vertical farms, high- rise construction, environment, suburban land occupation, centralized development

TƏSƏRÜFFAT QALALARI ŞƏHƏRƏTRAFI TORPAQLARIN MƏŞĞULLİYƏTLƏRİNİN AZALDILMASINA BİR YANAŞMADIR

Nasiri Amir Qulamreza- doktorant, Memarlıq layihələndirilməsi və şəhərsalma kafedrası, amir.architect82@gmail.com

Xülasə. 21- ci əsrdə insan şəhər əhalisinin artması, torpaq qıtlığı, torpaq qiymətlərinin sıçrayışını hiss etmək, yol şəbəkəsinin nəzarətsiz genişlənməsi, daha çox tikinti və şəhərlərin ətrafındakı təbii torpaqların işğalı, yaxın və yığcam məsafə şəhərdən kəndlərə qədər kimi böyük çətinliklərlə üzləşir. Şəhərlərin bu sıx genişlənməsi hündürmərtəbəli tikintini şəhər insan həyatının ayrılmaz hissəsinə çevirdi; elə bir şəkildə ki, şəhərlərin şaquli böyüməsi şəhərsalmada başqa bir cəbhə açaraq şəhərlərin üfüqi inkişafını tədricən müəyyən dərəcədə azaldır. Bu yeni şəhərsalma kombinasiyası qüllələrin sakinlərinə kənd təsərrüfatı məhsullarının sürətli tədarükü və birbaşa tədarükü üçün şaquli təsərrüfatların tikintisinə haqq qazandırdı, həmçinin ətraf mühitdə karbonu azaltmaq və az torpaq zəbt etmək üçün sıx şəhər toxumasında qida ehtiyatlarının istehsalına daha çox diqqət yetirdi.
Açar sözlər: şaquli təsərrüfatlar, hündürmərtəbəli tikinti, ətraf mühit, şəhərətrafı torpaqların işğalı, mərkəzləşdirilmiş inkişaf

Introduction. Historically, cities have been formed primarily on the basis of immediate access to territory and resources including food. It was according to this rule that cities were built and built on lands that had rich soil for agriculture, because soil fertility created more opportunities for trade and economics based on the markets that defined urban space. Therefore, until the beginning of the twentieth century, agriculture was very prosperous on the outskirts of cities, but human beings in the 21st century due to great challenges, especially increasing urban growth, land prices jumping, Increased reliance on cars and the uncontrolled expansion of the road network and the development of the urban transportation industry and the inefficient use of energy and urban services, as well as the desire for more construction and change of use of agricultural lands, especially in the suburbs, caused cities to swallow land [1,2]. Marginal and productive areas around it cause irreparable damage to the environment. On the other hand, this encroachment on the lands around the cities and the change of land use due to its direct connection with issues such as food security and environmental sustainability. It has become one of the main challenges facing human beings in this tumultuous and machine age. Irregular and destructive development of cities by changing the use of its marginal lands

has been such that according to the 2012 FAO report, between 1970 and 2009, the per capita arable land in the world 1/46the percentage has decreased. Undoubtedly, the decrease in the level of suburban lands, including high quality and productive agricultural soils, has had various economic, social and environmental effects. In the United States, for example, the area occupied by cities covers only 3% of national land. The conversion of pastures into parking lots or the separation of forests has caused a great deal of concern about reducing the amount of agricultural land and good quality on the outskirts of cities. In the United States, the agricultural sector estimates that the conversion rate of high-quality agricultural land on the outskirts of the United States is two to four times the conversion rate of substandard or less productive land [4,5]. Of course, in these cities, someof the real estate in the city centers is abandoned and unused or they are less exploited. But with the dense expansion of cities and the jump in land prices, high- rise construction and vertical growth of cities became an integral part of urban human life. The vertical growth of cities, by opening another second front in urban development, caused to reduce the process of horizontal development of cities to some extent as a practical solution. This new combination of urban planning was enough to provide an exceptional opportunity for researchers and architects in the field of urban planning to focus more on the challenging situation of cities in the field of environment and reduce agricultural land on the outskirts of cities to take an interesting initiative to build vertical farms in residential towers and trade [6].

A practical idea that was able to use vertical farms in residential or commercial towers to enable agriculture in private and rented gardens and to minimize the gap between the production and supply of agricultural (food) products as well as its consumption and allow people to access newer products. An initiative in which not only will the people living in such towers be self-sufficient in order to supply and supply these products quickly and directly, but also by concentrating food and agricultural resources within the dense urban fabric, an important effect on carbon reduction, manipulation and change goals. Land use will be on the outskirts of cities [7].

Materials and methods. At the beginning of this part of the article, I consider it necessary to better clarify the subject in question, first to know a simple and general definition of vertical farms and its significant advantages in an urban structure, and then to continue my content with a high definition and sample description. I would like to recount the successful projects that have been able to play an important role as agricultural towers in recent years and many explanations for the sustainable development of cities. Accordingly, I intend to explain that vertical and high-rise farms with peaceful commonalities and in harmony with the environment are able to beautifully combine the art of urban architecture and agriculture in a green frame and guardian of urban nature. In such a composite idea, it can be boldly acknowledged that the existence of these farms in the vertical context of cities will be such that the dispersion of most cities and their connection to villages and suburban lands of the city will be reasonably reduced.

Definition of vertical farming: In general, vertical farming is an attempt to produce food on vertically sloping surfaces as opposed to the usual cultivation of vegetables and other agricultural products, which are done only at a certain level, such as a farm or greenhouse. In this method, products are produced in the form of vertical layers that are stacked on top of each other and are generally connected to each other [21]. Vertical fields are integrated like a skyscraper with food containers and vertical warehouses at their disposal and are able to be in the smallest possible space and in any part of the city due to lack of large areas for growing crops in the meadows. Provide the supply and distribution of these products to its real consumers in the last possible time and distance to the suburban lands. This new idea summarizes the techniques of indoor agriculture, including controlled farming technology. Artificial control of temperature, light, humidity and available gases enables food production and modification of products. In many cases, vertical farming is similar to growing greenhouses, where reflectors and spotlights complement natural sunlight. It should be noted that the main purpose of vertical farming is to produce the maximum yield per cubic meter. For this purpose, the crops are planted on surfaces similar to the floors of a skyscraper. Second, the perfect combination of natural and artificial light requires this method of agriculture, to maintain a good level of light in the environment, which is another proof of the compatibility of this type of agriculture with the structure and composition of cities.

Types of agricultural systems in vertical farms:

Hydroponic: Soilless cultivation is a method in which plant growth and cultivation is done without soil and is called plant cultivation methods in water (nutrient solution). During the 1930s, WWG used water cultivation on a large scale and commercially, first introducing the word hydroponics from the two Greek words Hydros meaning water and Ponos meaning planting [9].

Types of hydroponic cultivation: In general, the hydroponic system is based on two systems, open and closed. In the open system, the nutrient solution is not reused, but in the closed system, the nutrient solution is re-cycled. The basis of the hydroponic system is water, so this system can be fully automatic. In this system, various products such as cucumber, tomato, cabbage, lettuce, various herbs, watermelon, spinach, peppers, eggplant, flowers and ornamental plants, especially orchids, roses and even valuable medicinal plants and many products can be found produced. Hydroponic cultivation is an excellent technology for seed germination [10].

Tide system: The system works by simulating a flood and the flow of water into growth trays containing nutrient solutions. This activity is completed by using a pump that returns water to the tank. When the pump timer is off, nutrient solutions flow to the tank and the timer is set to work every few days, for which the size and type of plants and their temperatures, the humidity of their average growth medium are defined. This type of system can be used for plants with different growth.



Figure 1. Function of tidal system

Drip system: This system is one of the most commonly used types of hydroponic systems in the world. Operation in this type of cultivation is very simple. The system has a pump control timer that, when turned on, transports the desired water and nutrient solution into the water through plastic pipes on the base of each plant. In this system, the remaining nutrient solution is returned to the tank and flows again. And this type of system has a very low solution wastage.



Figure 2. Drip system operation

*Thin layer nutrient solution method***:** For this type of cultivation requires a tank, the water moves alowly inside the tray, so that it does not cause water to accumulate inside the tray, nor does it cause the plant to suffocate, nor does it pass very quickly past the roots of the plants and again water and nutrient solution pass through the trays. They return to the tank.



Figure 3. Thin layer nutrient solution method

System Static: System static to the rank the simplest type system hydroponic been and one system other is active. That to the meaning this is that parts animated in this system existence has. From this system can for the plants that growth medium have use be. In this method, the plant is freely in the nutrient solution. Oxygen must be present at the bottom of the root, which is often done by a pump [11,12].

Water system Cultivation (floating): The drainage system is one of the simplest active hydroponic systems and consists of plates in which the plant is placed and floats on water and can use nutrient solutions and an air pump to supply the required air of these plants in the water. It is placed to bring oxygen into the water. This system is suitable for growing plants such as lettuce.

Air system Cultivation or Aeroponics: In this system, the roots are suspended in the air and the nutrient solution is provided to the plant in the form of the smallest particles absorbed by the roots. On the other hand, the gases and nutrients required by the plant are fully provided to the plant. In Aeroponics, nutrients and water are transported to the plant roots as fine powder- like particles and because more oxygen and nutrients are provided to the plant, it leads to its rapid growth.

Advantages of vertical farming: One of the advantages of vertical farming is the ability to produce large quantities of quality produce throughout the year without having a skilled workforce and favorable weather conditions. It can also be given the following advantages such as:

1- Increase product production, product production is manageable and predictable. There is no seasonal product and there are no product losses. The products of this system are free of diseases and pests.

2- Minimal use of water compared to the traditional type.

3- No need for fertilizers and pesticides.

4- Reduce transportation costs and thus reduce the use of fossil fuels.

5- Ability to diversify the product and increase the product with a multi- level system up to 8 times.

6- Protection against drought and natural factors [13].

Definition of high- rise buildings: The definition of tall buildings is in many different sources, tall buildings are buildings that the height of the building is determined by the role, function in the nature of the building. Apart from these divisions, tall buildings are divided into two general types of telecommunication towers and tall buildings with an occupancy criterion of more than 50 % it is usable. There are different views on high-rise buildings [14]. From the point of view of building engineers, it is a high-rise building whose height causes the lateral forces caused by earthquake and

wind to have a significant impact on its design, and based on this, in terms of height, buildings with more than 10 floors are considered high-rise. It should be noted that the vertical farms used (hydroponics) in different floors of high-rise buildings are such that its simulation in a high vertical structure and inspired by the naturalistic structure of this type of urban farms and also with the aim of achieving stability in Cities.

Advantages of agricultural towers at urban levels:

1- Mental comfort of residents.
2- Reduce the heat effect of the city.
3- Creating shade and privacy in agricultural towers.
4- Providing agricultural and food needs of tower residents.
5- Use of buildings to produce agricultural products (vegetables, fruits, etc.) among the vertical farm system.
6- Reduce the occupation of natural lands around the city.
7- Reduce pollution caused by transporting food and agricultural products to people's homes.
8- Providing the possibility of agriculture for every person living in these vertical farms, also in the vertical divisions of buildings.
9- Provide public space in these towers to teach about agriculture in the middle of the building and in public green spaces for its residents.
10- Creating climate control and sound barrier in towers.
11- Reduce transportation costs and thus reduce the use of fossil fuels.
12- Agricultural towers also have the ability to protect against drought and natural factors [15].

Examples of agricultural towers: 1. Farm house for the elderly. This complex is located in Singapore. It provides for the care of the elderly and the provision of healthy food for them. This design and its main concept is the combination of retirement homes with vertical farms. This beautiful complex has been created to empower its residents. In addition to creating vertical farms, there is a garden on the roof and a market to offer products. This complex has tried to create vitality in its inhabitants therefore, by using the force available in vertical farms and gardens it has created this vitality. The proposed design has a curved shape that has a central courtyard and many terraces and vertical gardens. In the design of this complex, the use of rainwater for agricultural purposes and the use of water from wastewater treatment has been considered. This complex has several houses including one bedroom to four bedrooms to meet different needs with different cultures. The residents of this agricultural complex do part-time work and pay for their treatment. This complex is not only able to create a sustainable environment for sustainable development, but also has been able to create self-confidence in the elderly by creating participation.

Figure 4. Farm house project

2. Dragonfly Skyscraper. The tower is modeled after vertical farms and is designed as a dragonfly wing. The site of the tower is on Roosevelt Island in New York. This project is a living organism and is self-sufficient in water, energy and food production. This skyscraper has 132 floors and 600 meters in height, which has been adapted to produce 28 different fields, including fruits, vegetables, legumes, meat, dairy and eggs. The stated purpose of designing the Dragonfly Tower is architectural assistance to agriculture to solve food problems due to the reduction of agricultural land and increasing urban population. In this plan, there are various residential, office, and experimental functions using ecological engineering and its application in vertical farms in the floors. The tower has been used by vertical farm to organic and sustainable agriculture as well as reuse of waste. The cycle of stability in this collection is such that there will be no waste in this process [15].

Figure 5. Exterior and interior of Dragonfly Tower

Discussion and results. Urban agriculture should be considered as an unusual case or different from ordinary agriculture and the activity of vertical farms as a subset of urban agriculture is able to have a convincing meaning within the built- up areas of cities. That is places in the city where agricultural activity is not expected to occur [16]. From this point of view, we can consider the establishment of vertical farms in towers as modern urban agriculture in dense and polluted cities, that is, where agriculture is not and will not be a common profession. Research Vonthonen It has made the debate about the use of agriculture very clear. The price curve from the city center helps to define and map land use. However, according to Van thunen (1836) land use model, high rental rates around the city center or central trading area make agriculture difficult in cities because agriculture has to deal with other activities, such as trade, which make more money for the same space pays close competition [17-19].

Accordingly, urban agriculture often had to work in small or unused spaces such as the narrow spaces between the backyards and even the distance between the walls. But with the development of new technologies in the field of urban agriculture, a new page was opened in this field. New yard where vertical farms (hydroponics) with high potentials and common quality such as eliminating labor costs for plowing and land preparation, soil burial and disinfection of irrigation water and other traditional operations used in places of the city where there is arable land and even in places where the soil is contaminated with heavy metals can be solved by vertical cultivation. Saving water and fertilizer consumption is another feature of vertical farms, which can mean less pollution of cities, both soil and water. Another practical advantage of vertical farms at the urban level is the use of this method in apartments and high- rise towers without the use of professional gardeners and farmers. Today, with the growth of environmental movements in the world, it has strengthened the idea of using vertical gardens and farms in cities, and allows urbanites to make contact with nature [19]. In recent years, the connection with the concentration of horticultural and agricultural lands on the outskirts of cities and then the long distance of these lands to the city centers had caused not only to

burada, K_i – i saylı ekspertin sıralamasında eyni ranqları qrupunun sayı; t_{ki}– i ekspertinin qeyri-ciddi sıralamasının k saylı qrupunda eyni ranqların sayıdır. Qeyd edək ki, təxmini $\rho \approx 1{,}5\tau$ bəarbərliyi doğrüdur. Uyğun olaraq τ üçün hesablamadan sonra qiymət vermək olar və ya əksinə. Bundan başqa, p əmsalı dispersiya minimumunun mənasında daha dəqiq nəticə verir, əmsal isə sıranın ayrı-ayrı üzvləri üçün xüsusi korrelyasiya hesablanmasına imkan verdiyindən daha sərfəlidir, həmçinin əlavə elementlərin təqdim olunanlar çoxluğuna əlavə olunması zamanı yenidən hesablamanı həyata keçirir. Ekspertlərin qrup rəyini yalnız o zaman formalaşdırmaq olar ki, fərdi üstünlüklər yaxşı razılaşdırılsın. İki nəfərdən çox adam olan qrupdakı fikirlərin uyğunluğunu qiymətləndirmək üçün sıralama növündən asılı olaraq müxtəlif növə malik olan Kendallın konkordasiya əmsalından istifadə edilir [3]. Sərt sıralama zamanı konkordasiya əmsalı aşağıdakı ifadə üzrə tapılır:

$$C_k = \frac{12 \cdot S_c}{n^2 \cdot m(m^2-1)}, \qquad S_c = \sum_{j=1}^{m}\left\langle \sum_{i=1}^{n} r_{ij} - \frac{n(m+1)^2}{2} \right\rangle, \tag{6}$$

n- ekspertlərin sayı, m qiymətləndirilən parametrlərin sayı, r_{ij}- i- ci ekspert tərəfindən verilmiş j - ci faktorun ranqıdır. Əgər C_k konkordasiya əmsalının qiyməti azdırsa (sıralama nəticələrinin təsadüfi olması ehtimalı böyükdür), onda ekspert qrupunun tərkibi dəyişdirilməlidir. Bunu etmək üçün, ekspertləri cütlərə ayırmaq və hər bir cüt üçün Spirmanın cüt ranq korrelasiya əmsalını tapmaq lazımdır. Sonra cüt korrelyasiya əmsallarının qiymətləri yaxın olan həmin ekspertləri alt qruplarda birləşdirmək lazımdır. Nəhayət, hər bir alt qrup üçün Kendallın konkordasiya əmsalını müəyyən etmək lazımdır. Obyektlərin, elementlərin cütlərlə müqayisəsi və bal qiymətləndirilməsi emalı, təhlilini nəzərdən keçirək.

Balla qiymətləndirilərkən ekspert təqdim olunan hər bir faktora bu faktorun üstünlükləri, dəyəri, əhəmiyyəti barədə subyektiv rəyini əks etdirən müvafiq ədəd (bal) verməlidir. Göstərilən ədədlər xüsusi bal şkalasından seçilir. Ball qiymətləndirilməsi iki növdən ibarətdir. Birinci növ qiymətlər ümumi qəbul edilmiş etalon üzrə obyektiv meyar üzrə aparılır. İkinci növ balla qiymətləndirilmə ümumi qəbul edilmiş etalonlar və subyektiv əks olunması qiymət olan yeganə obyektiv meyar olmadığı zaman aparılan qiymətləndirmədir. Cütlərlə müqayisə üsulu ona görə tətbiq edilir ki, iki obyektin keyfiyyət müqayisəsi bal (və ya dərəcə) şkalasında üstünlük vermənin ifadəsindən daha asan hesab edilşir. Bəzən cütlərlə müqayisələr zamanı ekspertə hər bir cüt obyekt üçün öz üstünlük vermələrinin intensivliyini ballarla qiymətləndirmək təklif olunur. Keyfiyyətli ekspert məlumatının kəmiyyət üsulları ilə əldə edilməsi və emalı üçün onun məzmunca təsvir edilən qradasiyalarının daxil olduğu verbal- ədədi şkalalardan və onlara uyğun ədədi qiymətlər və ya ədədi göstərici diapazonlarından istifadə edilə bilər. Təcrübədə üstünlüklərin ifadə edilməsi üçün tez-tez ilkin olaraq çoxluqların elementlərinin balla qiymətləndirilməsini həyata keçirmək, sonra isə balların miqdarına diqqət yetirərək, axtarılan sıralama almaq faydalı olur.

Kəmiyyət yanaşmasında j saylı ekspert tərəfindən i saylı obyektə verilən x_{ij} balla qiymətləndirmə müxtəlif cürə emal oluna bilər. Əgər ekspertlər eyni hüquqludurlarsa, onda i saylı obyektin ən sadə qrup üzrə qiymətləndirilməsi aşağıdakına bərabərdir

$$x_i = \frac{1}{n} \cdot \sum_{j=1}^{n} x_{ij}, \tag{7}$$

burada n eksperlərin sayı (yəni, orta bal). Əgər ekspertlərin səriştəliliyi, obyektivliyi, məlumatlılığını nəzərə almaq istəyirlərsə, onda səriştəliliyin çəki əmsalı daxil edilir: j saylı ükspert üçün bu q_i .

Onda;

$$x_i = \sum_{j=1}^{n} q_j x_{ij}, \tag{8}$$

Çox vaxt qiymətləndirilən göstəricini bilavasitə qiymətləndirmək çətin olur. Məsələn, belə bir göstərici "məmulatın keyfiyyəti" ola bilər. Onda belə göstərici hər biri son göstəricinin müəyyən tərəfini ifadə edən daha sadə göstəricilərə bölünür. Bu halda x_{ijk} - k əlaməti üzrə j saylı ekspert tərfindən i məmulatının qiymətləndirilməsi, Z_{kj} isə- j eksperti tərəfindən k əlamətinin çəkisinin qiymətləndirilməsidir. Onda güman edilir ki, k əlamətinin çəkisinin qiyməti aşağıdakına bərabərdir

$$Z_k = \sum_{j=1}^{n} q_j Z_{kj}, \tag{9}$$

i saylı məmulatın qiyməti isə

$$x_i = \sum_{j=1}^{n} \sum_{k=1}^{m} Z_k q_j x_{ijk}, \tag{10}$$

burada *m* əlamətlərin sayıdır. Bu halda x_i qiymətləndirilməsi aşağıdakı şəkildə verilə bilər:

$$x_i = \sum_{j=1}^{n} q_j \sum_{k=1}^{m} Z_k q_j x_{ijk} = \sum_{j=1}^{n} q_j x_{ij}, \tag{11}$$

Eksperimentlər və ekspertiza təcrübəsi göstərir ki, belə x_i orta ballar ekspert qrupunun tərkibinin dəyişməsi zamanı özlərini kifayət qədər sabit aparırlar. Lakin, ümumiyyətlə, son iddiaya ehtiyatla yanaşmaq lazımdır. Ekspertlərin uzlaşma dərəcəsi fərdi bal qiymətləndirmələrinin dispersiyası ilə :

$$D_i = \frac{1}{n-1} \cdot \sum_{j=1}^{m} (x_{ij} - x_i)^2, \tag{12}$$

i=1,2,...,*n*, ya da ballarla qiymətləndirmə müsbətdirsə variasiya əmsalı ilə qiymətləndirilir. Variasiya əmsalları aşağıdakı kimi hesablanır:

$$V_i = \frac{\sqrt{D_i}}{x_i} \tag{13}$$

i=1,2,... n, . Variasiya əmsalları istifadə edilərkən ekspertlərin rəylərinin uzlaşması yaxşı sayılır, əgər bütün $V_i < 0{,}2$, yox əgər bütün $V_i < 0{,}3$ olarsa kafi hesab edilir. Etibarlı qiymətlərin intervalının müəyyən edilməsi üçün interval qiymətləndirmə üsulundan istifadə edilir. Təsadüfi göstəricinin (qiymətləndirmənin göstəricisi) paylanmasının simmetrik qanunu etibarlı interval $(x_{cp} - E, x_{cp} + E)$ müəyyən edilə bilər, əgər aşağıdakı nisətlər istifadə edilərsə: $P \cdot (|x - x_{ucm}| \prec E) = L$, burada x_{ucm} – qiymətləndirilən səciyyənin əsl qiyməti;

E – etibarlı intervalın uzunluğunun yarısı;

L - (0,9; 0,99) intervalından etibar edilən ehtimal ;

x_{or}- *x* qiymətləndirilməsinin orta qiyməti.

Əgər qrupda ekspertlərin sayı $n > 30$ olarsa qiymətləndirmənin paylanmasını normal hesab edirlər, buna görə də *L* ehtimalının tapılması üçün normal paylanma cədvəllərindən istifadə edirlər. Əks halda, etibarlılıq ehtimalı Stüdentin paylanması cədvəlləri vasitəsilə tapılır. Ekspertin səriştəliliyi onun müəyyən ixtisas sahəsində bilik dərəcəsidir. Ekspert qrupuna ekspertlərin seçilməsi namizədlərin peşə hazırlığı, onların elmi dərəcəsi və elmi adı, iş stajı, dünyagörüşü və erudisiyası, digər ekspertizalarda iştirak, peşə fəaliyyətində nailiyyətlərin səviyyəsi haqqında əlçatan məlumatların təhlili əsasında aparılır. Lakin ekspertlərin səriştəlilik dərəcəsini müəyyən etmək üçün başqa vasitədən istifadə etmək olar. Bunun üçün qoyulmuş suallara düzgün cavabın əvvəlcədən məlum olmadığı ehtimalında nəzarət ekspertizası aparılır. Bu zaman normallaşdırılmış balla qiymətləndirmələrin emalına əsaslanan yanaşmadan istifadə olunur [4]. Nümunəni nəzərdən keçirək. Hesablamalar bir neçə mərhələlərə bölünür .

1. Yoxlama ekspertizasında 6 ekspert iştirak edir, onlar 10 ballıq şkala üzrə qiymət verməklə monolit dəmirbeton binaların tikintisində təşkilati-texnoloji həllərə təsir edən faktorları (a_1, a_2, a_3, a_4, a_5) qiymətləndirməlidirlər (cəd.1). Cədvəl 1- də üç a_1, a_2, a_3, a_4, a_5 faktorunun qiymətləndirməsinə görə hər bir ekspert tərəfindən verilmiş balların cəmi göstərilmişdir.

2. Sonra hər bir ekspertin verdiyi balın onun toplam balına bölünməsi ilə normallaşdırılmış orta bal qiymətləri tərtib edilir. Normallaşdırılmış orta bal qiymətləri cədvəl 2- də verilmişdir.

Cədvəl 2- də hər bir a_1, a_2, a_3, a_4, a_5 tərfindən alınan orta ballar göstərilir (monolit dəmirbeton binaların tikintisində təşkilati-texnoloji həllərə təsir edən faktorları səciyyələndirir).

Cədvəl 1. Ekspertlərin qiymətləri

Ekspert	Qiymətləndirmə əfaktoru					
	a_1	a_2	a_3	a_4	a_5	$\sum a_i$
1	8	2	4	5	6	25
2	10	2	1	4	6	23
3	5	7	5	6	4	27
4	5	4	3	2	8	22
5	8	4	4	5	5	26
6	4	6	5	6	3	24

Cədvəl 2.

Ekspert	Qiymətləndirmə əfaktoru				
	a_1	a_2	a_3	a_4	a_5
1	0,32	0,08	0,16	0,2	0,24
2	0,43	0,09	0,04	0,17	0,26
3	0,24	0,33	0,24	0,29	0,19
4	0,23	0,18	0,14	0,09	0,36
5	0,31	0,15	0,15	0,19	0,19
6	0,17	0,25	0,21	0,25	0,13
Ümumi orta bal	0,28	0,18	0,16	0,20	0,23

3. Hər bir ekspert üçün nisbi balların mülahizə edilən cəmləri hesablanır. Bu zaman hər bir ekspertin normallaşdırılmış orta bal qiymətləri onun ümumi orta balına vurmaqla cəmlənərək tapılır (məsələn birinci ekspert üçün 0.32·028 + 0.08·0.18+ 0.16·0.16+0.2·0.2 =0.24). Hər bir ekspert üçün nisbi balların mülahizə edilən cəmləri cədvəl 3- də verilmişdir.

Cədvəl 3.

Ekspert	Qiymətləndirmə əfaktoru					
	a_1	a_2	a_3	a_4	a_5	$\sum a_i$
1	0,09	0,01	0,03	0,04	0,05	0,22
2	0,12	0,02	0,01	0,03	0,06	0,24
3	0,07	0,06	0,04	0,06	0,04	0,27
4	0,06	0,03	0,02	0,02	0,08	0,22
5	0,09	0,03	0,02	0,04	0,04	0,22
6	0,05	0,05	0,03	0,05	0,03	0,20

4. Alınmış nisbi balların mülahizə edilən qiymətlədirmələrinin ümumi cəmi hesablanır: 0,22 + 0,24 + 0,27 + 0,22+0.22+ 0.2 = 1,37.
5. Hər bir ekspertlərin nisbi balların mülahizə edilən qiymətlədirmələrinin cəmini ekspertlərin mülahizə edilən qiymətlədirmələrinin ümumi cəminə bölməklə uyğunluq əmsalı tapılır:
birinci ekspert üçün: 0,22:1,37 = 0,16;
ikinci ekspert üçün: 0,24:1,37 =0,17;
üçüncü ekspert üçün: 0,27:1,37 =0,19;
dördüncü ekspert üçün: 0,22:1,37 =0,16;
beşinci ekspert üçün: 0,22:1,37 =0,16;
altıncı ekspert üçün: 0,20:1,37 =0,17;

Qrupun orta uyğunluq əmsalı 0,16- ə bərabərdir. 1- ci, 4- cü və 5- ci ekspertlərin uyğunluq əmsalları bir-birinə yaxındır, ona görə də güman etmək olar ki, ən səriştəli ekspertlər 1- ci, 4- cü və 5- ci ekspertlərdir.

Nəticə. Beləliklə, ekspert sorğusunun nəticələrinin riyazi statistika üsulları ilə təhlili çoxmərtəbəli monolit dəmirbeton karkas binaların layihələndirilməsində, tikintisində təşkilati-texnoloji həllərinin və səmərəliliyinin yüksəldilməsinə kömək edən qərarların qəbul edilməsində mühüm əhəmiyyət kəsb edir.

Ədəbiyyat

1. Farzaliyev S.A. Analysis of the classification of factors that have the greatest impact on the organizational and technological solutions of construction processes in the construction of high- rise monolithic reinforced concrete buildings. XI международная научная- практическая конференция, Томск, 73- 82с. 2021
2. Орлов А.И. Теория принятия решений. 128с. 2006
3. Бешелов С. Д., Гурвич Ф. Г. Математико- статистические методы экспертных оценок. Статистика,163с. 1980
4. Евланов Л. Г. Теория и практика принятия решений. Экономика, 176с. 1984

References

1. Farzaliyev S.A. Analysis of the classification of factors that have the greatest impact on the organizational and technological solutions of construction processes in the construction of high- rise monolithic reinforced concrete buildings. XI mezhdunarodnaya nauchnaya- prakticheskaya konferenciya, Tomsk, 73- 82c. 2021
2. Orlov A.I. Teoriya prinyatiya reshenij. 128s, 2006
3. Beshelov S. D., Gurvich F. G. Matematiko- statisticheskie metody ekspertnyh ocenok. Statistika, 163s. 1980
4. Evlanov L. G. Teoriya i praktika prinyatiya reshenij. Ekonomika, 176s. 1984

Redaksiyaya daxil olma/Received 17.09.2021
Çapa qəbul olunma/Accepted for publication 17.10.2021

CƏDVƏL DİAQRAMLARI ƏSASINDA SIXILAN DƏMİRBETON ELEMENTLƏRİN YÜKGÖTÜRMƏ QABİLİYYƏTİNİN TƏDQİQİ

Hacıyeva Ülviyyə Muxlis qızı- doktorant, AzMİU, hajiyevaulviye@mail.ru

Xülasə. Məlumdur ki, materialların deformasiya diaqramlarının analitik ifadələri qurularkən əvvəlcə laboratoriya eksperimentlərdən elementin dartılma və sıxılmada dağılma anına qədər hər bir gərginliyə uyğun deformasiyalar ölçülür və sonda deformasiya ilə gərginlik arasındakı asılılıq müəyyən analitik ifadə ilə approksimə olunur. Alınmış analitik ifadə material deformasiya diaqramının analitik ifadəsi kimi hesablamalara daxil edilir. Xətti məsələlərin həllində deformasiya diaqramlarının qurulması və onların tətbiqi heçbir çətinlik törətmədiyi halda fiziki qeyri xətti deformasiya edən materiallar üçün bu materialların deformasiya diaqramlarının qurulması, analitik ifadələrinin alınması və onların praktik hesablamalara tətbiqi müəyyən çətinliklərlə üzləşir, çünki approksiməedici funksiyalar eksperimental diaqramları müəyyən bir hissədə daha dəqiq, digər hissələrdə isə qeyri dəqiq appaoksimə edir. Bu baxımdan birbaşa eksperimentdən əldə olunan cədvəl şəkilli diaqramların tətbiqi ilə hesablama metodikalarının işlənməsi mühüm praktiki əhəmiyyətə malikdir. Məqalədə məhz belə bir metodikanın qurulması verilir. Həll metodikası qurularkən deformasiyanın cədvəl qiymətləri arasındakı qiymətlərində gərginliyin qiyməti xətti approksimasiyadan təyin olunur.
Açar sözləri: deformasiya, gərginlik, beton, armatura, yük- əyinti qrafiki, fiziki qeyri xəttilik, boyuna əyilmə, yükgötürmə qabiliyyəti

STUDY OF THE LOADING CAPACITY OF COMPRESSED REINFORCED CONCRETE ELEMENTS ON THE BASIS OF TABLE DIAGRAMS

Hajiyeva Ulviya Mukhlis- PhD student, AzUAC, hajiyevaulviye@mail.ru

Abstract. It is khown that, when forming a diagram of material deformation in laboratory conditions, the deformations corresponding to the applied stress are measured, and on the basis of the obtained pairs of values of stresses and strains, an analytical dependence of stresses on deformations is established. In most if any cases, the proposed analytical dependences describe one part of the experimental deformation diagram more accurately, and the other part is not accurate enough. From this point of view, the creation of a calculation method that takes into account directly obtained from the experiment in the form of tables is of great theoretical and practical importance, since in this case, the entire diagram is approximated by the same accuracy. This article is devoted to the development of such a technique. When forming a calculation method, the stresses corresponding to intermediate values of deformations are approximated by linear interpolation.
Keywords: deformation, tension, concrete, reinforcement, "load- deflection" chart, flexibility, physical nonlinearity, bearing capacity

Giriş. Fərz edək ki, həm betonun, həm də armaturun “gərginlik– deformasiya” diaqramları şəkil 1-də göstərildiyi kimi birbaşa eksperimentlərdən müvafiq gərginlikləri və onlara uyğun olan deformasiyaları əks etdirən rəqəmlər toplusu kimi verilmişdir. Bu halda deformasiya diaqramı analitik olaraq approksimasiya olunmur, bunun əvəzinə şəkil 1- də göstərildiyi kimi düz xətt parçaları toplusu kimi təsvir olunur. Məlumdur ki, istənilən funksiya istənilən dəqiqliklə düz xətt parçaları vasitəsilə approksimə edilə bilir. Müsair inşaat normaları [1,2] inşaat normaları dəmirbeton elementlərin hesablanmasında qeyri xətti deformasiya modelinin tətbiqini tövsiyə edir. Baxılan halda gərginliklə deformasiya arasındakı asılılığı ifadə etmək üçün aşağıdakı iki vektor daxil edilir (1).

Materialın deformasiya diaqramında aşağı enən qol da realizə olunursa, onda bu diaqram, ancaq deformasiyalara görə birqiymətli olduğundan onda praktik məsələlərin məhz deformasiyalarda həll olunması mümükündür.



Şəkil 1. Materialların cədvəl şəkilli diaqramının təsviri

$$\{\varepsilon\}=\begin{Bmatrix}0\\ \varepsilon_1\\ \varepsilon_2\\ \varepsilon_3\\ .\\ .\\ .\\ \varepsilon_n\end{Bmatrix},\quad \{\sigma\}=\begin{Bmatrix}0\\ \sigma_1\\ \sigma_2\\ \sigma_3\\ .\\ .\\ .\\ \sigma_n\end{Bmatrix} \tag{1}$$

Şəkil 1- dən göründüyü kimi deformasiyanın verilmiş qiyməti $\varepsilon_i \le \varepsilon < \varepsilon_{i+1}$ şərtini ödəmiş olarsa, onda bu deformasiyaya uyğun gərginliyin qiyməti xətti approksimmasiya şərtindən aşağıdakı kimi təyin oluna bilir:

$$\sigma = \sigma_i + \frac{\sigma_{i+1}-\sigma_i}{\varepsilon_{i+1}-\varepsilon_i}\cdot(\varepsilon-\varepsilon_i) \tag{2}$$



Şəkil 2. Kəsiyin hesabi sxemi

Elementi sıxan qüvvənin ekssentrisitetinin qiymətindən asılı olaraq ən çox gərginləşmiş kəsiyin iki xarakterik hesabi sxemi mümkündür. Bunlardan birincisi sıxıcı qüvvənin ekssentrisitetinin kiçik qiymətlərində formalaşan gərginlikli deformasiya halını xarakterizə edir və bu halda neytral ox kəsikdən kənarda keçir və bütün kəsik sıxılmaya işləyir. İkinci xarakterik hal elementi sıxan qüvvənin

ekssentrisitetinin böyük qiymətlərində formalaşan gərginlikli deformasiya halını xarakterizə edir və bu halda neytral ox kəsikdən keçir və kəsiyin bir hissəsi sıxılmaya, digər hissəsi isə dartılmaya işləyir. Hər iki hal üçün hesabi sxemlər şəkil 2- də təsvir olunmuşdur.

Hesablamalar aprılarkən dəmirbeton element üçün yükləmənin ixtiyari mərhələsi üçün müstəvi kəsiklər hipotezinin doğruluğu qəbul olunur [3,4,5]. Betondakı sıxıcı gərginliklərdən yaranan normal qüvvə və əyici moment aşağıdakı inteqral asılılıqlarla təyin olunurlar

$$N_b = 2\cdot\int_q^R \sigma_b(z)\cdot\sqrt{R^2 - z^2}\,dz \quad \text{və} \quad M_b = 2\cdot\int_q^R \sigma_b(z)\cdot z\cdot\sqrt{R^2 - z^2}\,dz \qquad (3)$$

Bu inteqralların aşağı sərhəddi neytral oxun vəziyyətindən asılı olaraq

$$q = \begin{cases} -R; & x \ge 2R \quad olduqda \\ R - x; & 0 < x < 2R \quad olduqda \end{cases}$$

kimi təyin olunur. Aydındır ki, gərginliyin analitik ifadəsi olmadığından inteqralların analitik hesablanması mümkün olmur. Ona görə daxili qüvvələr yuxarıdakı inteqralların ədədi olaraq hesabllanması ilə əldə olunur. Bu inteqralların hesablanmasına trapesiyalar üsulunu tətbiq etməklə inteqrallama oblastı $z \in [q; R]$ n sayda bərabər hissəyə bölündükdə aşağıdakı bərabərliklər yazıla bilər.

$$N_b = 2\cdot\frac{R-q}{n}\cdot\sum_{j=1}^{n-1}\sigma_b(z_j)\cdot\sqrt{R^2 - z_j^2}\ ; \qquad M_b = 2\cdot\frac{R-q}{n}\cdot\sum_{j=1}^{n-1}\sigma_b(z_j)\cdot z_j\cdot\sqrt{R^2 - z_j^2} \qquad (4)$$

Bu ifadələr tərtib olunarkən $z = q$ və $z = R$ olduqda inteqralaltı funksiyaların qiymətlərinin sıfır olması nəzərə alınmışdır. Yuxarıdakı şəkillərə əsasən daxil edilmiş hesabi nöqtələrin deformasiyaları neytral oxun vəziyyətini təyin edən x parametrindən və kəsiyin sıxılan üzündə deformasiyanın qiyməti olan ε_b parametrindən asılı olaraq Bernullinin müstəvi kəsiklər hipotezi əsasında aşağıdakı kimi təyin oluna bilir:

$$z_j = q + \frac{R-q}{n}\cdot j\,; \qquad \varepsilon_j = \frac{\varepsilon_b}{x}\cdot(R - q + z_j); \qquad j = 1,2,3,\cdots, n-1. \qquad (5)$$

Bu ifadələr əsasında ε_b və x parametrlərinin məlum qiymətlərində daxil edilmiş intervalların sərhədlərində yaranan sıxıcı $\sigma_b(z_j)$ gərginliklərinin qiymətləri və bu qiymətlər əsasında betonda yaranan sıxıcı gərginliklərin baş vektor və baş momenti yuxarıda verilmiş (4) bərabərlikləri əsasında hesablanırlar. Gərginliklərin hesablanmasını ayrıca procedur kimi tərtib etmək məqsədə uyğundur. Müstəvi kəsiklər hipotezi əsasında şəkil 2- ə əsasən ixtiyari A_{sj} armatur milinin deformasiyası,

$$z_{sj} = R_{sj}\cdot\sin\varphi_{sj}\ ; \qquad \varepsilon_{sj} = \frac{\varepsilon_b}{x}\cdot(x - r + z_{sj})$$

Armatur milləri üçün məhdud axma meyrançası olan və dartılma-sıxılmaya simmetrik müqavimət göstərən "gərginlik-deformasiya" diaqramı qəbul olunuraq onlarda yaranan gərginlikər üçün aşağıdakı bərabərliyi yazmaq olar:

$$\sigma_{sj} = \begin{cases} E_{sj}\cdot\varepsilon_{sj} = E_{sj}\cdot\dfrac{\varepsilon_b}{x}\cdot(x - r + z_{sj}); & \left|\dfrac{\varepsilon_b}{x}\cdot(x - r + z_{sj})\right| < \varepsilon_{sj,ax} \quad olduqda \\ R_{sj}\cdot sign(\varepsilon_{sj}) \end{cases} \qquad (6)$$

Bu bərabərlikdə $sign(\varepsilon_{sj})$ işarə funksiyası olub aşağıdakı kimi təyin olunur:

$$sign(\varepsilon_{sj}) = \begin{cases} +1; & \varepsilon_{sj} > 0 \quad olduqda \\ -1; & \varepsilon_{sj} < 0 \quad olduqda \end{cases}$$

Onda armatur millərindəki gərginliklərdən formalaşan normal qüvvə və əyici moment

$$N_s(\varepsilon_b, x) = \sum_{j=1}^{k_s}\sigma_{sj}\cdot A_{sj}\ ; \qquad M_s(\varepsilon_b, x) = \sum_{j=1}^{k_s}\sigma_{sj}\cdot A_{sj}\cdot R_{sj}\cdot\sin\varphi_{sj} \qquad (7)$$

Armatur millərində yaranan gərginliklərin və bu gərginliklərin payına düşən normal qüvvə və momentin hesablanmasının da ayrıca procedur kimi tərtib olunması praktik məsələlərin həllini asanlaşdırır.

Sıxılan elementi ən çox gərginləşmiş orta kəsikdə kəsək və aşağı hissənin təsirini bu kəsikdə yaranan daxili normal qüvvə P_d və əyici moment M_d ilə əvəz edək. Baxılan kəsikdə elementin maksimal əyintisini f ilə işarə edək. Onda yuxarı hissənin müvazinət şərtinə əsasən yaza bilərik ki, $P_d = P$ və $M_d = P\cdot(e+f)$. Yuxarıda göstərdiyimiz kimi daxili qüvvələr betonda və armaturda yaranan gərginliklərdən formalaşır və buna görə də milin boyuna əyilməsi də nəzərə alınmaqla müvazinət tənlikləri aşağıdakı kimi yazılırlar:

$$N_b(\varepsilon_b, x)+N_s(\varepsilon_b, x)=P \quad \text{və} \quad M_b(\varepsilon_b, x)+M_s(\varepsilon_b, x)=P\cdot(e+f) \tag{8}$$

Sütunun əyilmiş oxunu sərhəd şərtlərini ödəyən $y(x)=f\cdot\tilde{y}(x)$ əyrisi ilə approksimə etməklə [4,5] elementin maksimal əyintisi ε_b və x parametrləri ilə $f=\frac{\varepsilon_b}{x}\cdot\rho_*$ kimi ifadə olunur, burada $\rho_*=\frac{l_0^2}{\pi^2}$. Bundan sonra (8) bərabərliklərindən qüvvə parametrini yox etməklə sıxıcı qüvvənin qiymətindən asılı olmadan ε_b və x parametrləri arasında əlaqə yaradan aşağıdakı bərabərliyi almış oluruq:

$$\Omega(\varepsilon_b, x)=M_b(\varepsilon_b, x)+M_s(\varepsilon_b, x)-(N_b(\varepsilon_b, x)+N_s(\varepsilon_b, x))\cdot\left(e+\rho_*\cdot\frac{\varepsilon_b}{x}\right) \tag{9}$$

Ümumi halda ixtiyari ekssentrisitetlə mərkəzdənxaric sıxılan və materialların "gərginlik-deformasiya" diaqramları cədvəl şəklində verilmiş dəmirbeton elementlər üçün "yük -əyinti" qrafiklərini ədədi olaraq qurmaq M.Ə.Hacıyev [5] tərəfindən təklif olunmuş ədədi alqorit tövsiyə olunur. Betonun sıxılmada həddi deformasiyasının qiyməti qabaqcadan məlum olduğu üçün ən çox gərginləşmiş kəsiyin sıxılan üzündə deformasiyanın qiymətinin dəyişmə intervalı qabaqcadan bəllidir, yəni, $0\le\varepsilon_b\le\varepsilon_{b,ult}$. Sıxılan üzdə deformasiyanın qiymətini onun dəyişmə intervalında müəyyən addımla qəbul etməklə (9) tənliyindən birməchullu qeyri xətti cəbri tənliyin kökü kimi ən çox gərginləşmiş kəsiyin neytral oxun vəziyyətini təyin edən x parametri istənilən dəqiqliklə təyin olunur. Bunun üçün deformasiyanın qəbul olunmuş qiymətində x parametrini müəyyən addımla dəyişməklə Ω funksiyasının qiymətləri hesablanaraq kökün yerləşdiyi interval müəyyən olunur və bundan sonra parçanı yarıya bölmə üsulu ilə həmin kök istənilən dəqiqliklə dəqiqləşdirilir. Beləliklə, deformasiyanın qəbul olunmuş qiymətində x parametrinin qiyməti təyin olunduqdan sonra sıxılan sütunun gərginlikli deformasiya halını xarakterizə edən bütün parametrlər təyin oluna bilir. Turbo Pascal ABC alqoritmik dilində şərh olunan hesablama alqoritmini realizə realizə edən proqram modulunun mətni aşağıda verilmişdir.

```
program cedveldiaqramlar;  label 10,20,30,40,50,60;
var esj,rsj,radsj,fisj,asj,epsaxj,sigmas:array[1..100] of real;
var epsilon,sigma ,sigmab:array[0..100] of real;
var epsb, rb,nb,mb,x,r,pi,ns,ms,wsol,wsag,worta,omegaa,omegab,
omegac,l0,roz,eks,p,f:real;  var  n,i,j,ks,kb:integer;
Procedure sigmabeton(n,kb:integer; r,epsb,x:real; epsilon,sigma:array [0..100] of real; var
sigmab:array [0..100] of real; var nb,mb:real );  Label 100,200,300,400,500;
Var w,w1,w2,w3,h,zj,q:real;  Var i,j:integer;
Function  gerginlik(m:integer; epsilon,sigma:array[0..100] of real;ss:real):real;
Var w:real; Var  i:integer;
Begin for i:=1  to  m  do  if  (epsilon[i-1]<=ss) and (ss<=epsilon[i])  then w:=sigma[i-1]+(sigma[i]-
sigma[i-1])/(epsilon[i]-epsilon[i-1])*(ss-epsilon[i-1]); gerginlik:=w; end;
Begin  if x>=2*r  then  q:=-r  else  q:=r-x;  h:=(r-q)/n;  nb:=0;  mb:=0;
For j:=0  to  n  do  begin  zj:=q+h*j;  w:=epsb/x*(x-r+zj);
sigmab[j]:= gerginlik(kb,epsilon,sigma,w);  end;
for  j:=1  to  n-1  do  begin zj:=q+j*h; nb:=nb+2*h*sigmab[j]*sqrt(r*r-zj*zj);
```

```
mb:=mb+2*h*sigmab[j]*zj*sqrt(r*r-zj*zj); end; end;
Procedure arma(ks:integer; epsb,x,r:real; fisj,esj,asj,rsj,epsaxj,radsj:
array[1..100] of real; var sigmas:array[1..100] of real; var ns,ms:real);
Label 555; Var z,w:real; var i,j:integer; var zsj:array[1..100] of real;
Begin For j:=1 to ks do zsj[j]:=radsj[j]*sin(fisj[j]);
For j:=1 to ks do Begin w:=epsb/x*(x-r+zsj[j]); if abs(w)<epsaxj[j] then
sigmas[j]:=esj[j]*w else sigmas[j]:=rsj[j]*w/abs(w); end;
ns:=0; ms:=0; for j:=1 to ks do begin ns:=ns+asj[j]*sigmas[j];
ms:=ms+asj[j]*sigmas[j]*zsj[j]; end; end; begin rb:=14.5; r:=0.20; n:=20; L0:=6;
ks:=8; pi:= 3.14159265358979323846264338327 95; kb:=5; roz:=L0*L0/pi/pi;
eks:=0.5*r; writeln('L0=',L0:8:4,' eks=',eks:8:5);
for j:=1 to ks do begin esj[j]:=200000; radsj[j]:=0.17; rsj[j]:=350;
epsaxj[j]:=rsj[j]/esj[j]; fisj[j]:=(j-1)*2*pi/ks; asj[j]:=0.00025447; end;
epsilon[0]:=0; epsilon[1]:=0.0007; epsilon[2]:=0.0014; epsilon[3]:=0.002;
epsilon[4]:=0.0027; epsilon[5]:=0.0034; sigma[0]:=0;
sigma[1]:=10.6793; sigma[2]:=13.9086; sigma[3]:=14.5; sigma[4]:=13.9662;
sigma[5]:=12.6926; j:=1; 40:epsb:=epsilon[kb]/10*j; wsol:=0.05*r;
sigmabeton(n,kb,r,epsb,wsol,epsilon,sigma,sigmab,nb,mb);
arma(ks,epsb,wsol,r,fisj,esj,asj,rsj,epsaxj,radsj,sigmas,ns,ms);
f:=roz*epsb/wsol; omegaa:=mb+ms-(nb+ns)*(eks+f);
10:wsag:=wsol+0.2*r; sigmabeton(n,kb,r,epsb,wsag,epsilon,sigma,sigmab,nb,mb);
arma(ks,epsb,wsag,r,fisj,esj,asj,rsj,epsaxj,radsj,sigmas,ns,ms);
f:=roz*epsb/wsag; omegab:=mb+ms-(nb+ns)*(eks+f);
if omegaa*omegab>0 then begin wsol:=wsag; omegaa:=omegab; goto 10; end;
30:if abs(wsag-wsol)<0.00001 then goto 20; worta:=0.5*(wsol+wsag);
sigmabeton(n,kb,r,epsb,worta,epsilon,sigma,sigmab,nb,mb);
arma(ks,epsb,worta,r,fisj,esj,asj,rsj,epsaxj,radsj,sigmas,ns,ms);
f:=roz*epsb/worta; omegac:=mb+ms-(nb+ns)*(eks+f);
if omegaa*omegac<0 then begin wsag:=worta; omegab:=omegac; goto 30; end
else begin wsol:=worta; omegaa:=omegac; goto 30; end;
20:x:=0.5*(wsol+wsag); sigmabeton(n,kb,r,epsb,x,epsilon,sigma,sigmab,nb,mb);
arma(ks,epsb,x,r,fisj,esj,asj,rsj,epsaxj,radsj,sigmas,ns,ms);
f:=roz*epsb/x; p:= nb+ns; writeln('epsb=',epsb:8:5,' x=',x:8:5,' f=',f:12:5,' p=',p:12:5);
for i:=1 to ks do writeln('sigmas[',i:4,']=',sigmas[i]:12:3); j:=j+1; if j<11 then goto 40; end.
```

Bu proqram modulunun tətbiqi ilə $R = 20\ sm$, $l_0 = 6\ m$, armirlənmə $A\,400$ $8 \varnothing 18$, $R_{sj} = 17\ sm$ olduqda $B\,25$ betonun sıxılmada deformasiya diaqramının Avrokod tərəfindən təklif olunmuş kəsr-rasional diaqramının

$$\{\varepsilon\} = \begin{Bmatrix} 0 \\ 0{,}0007 \\ 0{,}0014 \\ 0{,}002 \\ 0{,}0027 \\ 0{,}0034 \end{Bmatrix} \qquad \{\sigma\} = \begin{Bmatrix} 0 \\ 10{,}6793 \\ 13{,}9086 \\ 14{,}5 \\ 13{,}9662 \\ 12{,}6926 \end{Bmatrix} \quad (MPa)$$

cədvəl şəklində beş elementli iki vektor kimi approksimə edildiyi halda, sıxıcı qüvvənin ekssentrisitetinin $e = 0{,}05 \cdot R = 1\ sm$, $e = 0{,}2 \cdot R = 4\ sm$ və $e = 0{,}5 \cdot R = 10\ sm$ qiymətlərində hesablamalar aparılmışdır. Hesablamanın nəticələri əsasında şəkil 3- də "yük- əyinti" qrafikləri qurulmuşdur. Şəkildən göründüyü kimi betonun sıxılmada deformasiya diqramına uyğun olaraq bu

qrafiklərin də aşağıya enən qolları realizə olunur. Qeyd edək ki, bu tip nəticələrə ancaq qeyri xətti deformasiya modeli əsasında gəlmək mümkündür.

Həmçinin cədvəl 1- də yükgötürmə qabiliyyətinin itirilməsinə uyğun halda armatur millərində yaranan gərginliklərin qiymətləri verilmişdir. Aparılmış hesablamalar nəticəsində müəyyən olunmuşdur ki, şərti mərkəzi sıxılmada, ancaq üçüncü armatur axma həddinə çatır və neytral ox kəsikdən kənarda keçir, yəni bütün kəsik sıxılmaya işləyir. Sıxıcı qüvvənin ekssentrisitetinin ikinci qiymətində kəsiyin azaçıq bir hissəsi dartılmaya işləyir, yəni bu hal da kiçik ekssentrisitetlə sıxılan hala aid edilə bilər. Üçüncü halda isə element böyük ekssentrisitetlə sıxılan element kimi işləyir. Çünki bu halda kəsiyin xeyli hissəsi dartılmaya işləyir, lakin dartılan armatur axma həddinə yaxınlaşsa da axma həddinə çatmır. Böhran halında ən çox gərginləşmiş kəsikdəki digər parametrlərin qiymətləri cədvəl 2- də verilmişdir. Cədvəldən görünür ki, hər üç halda betonun sıxılmada deformasiya diaqramının aşağı enən qolları realizə olunur və sıxıcı qüvvənin ekssentrisitetinin qiyməti böyüdükcə böhran qüvvəsinin qiyməti kiçilir, dayanıqlığın itirilməsinə uyğun əyintinin qiyməti isə böyüyür ki, bu da fiziki qeyri xətti sistemlərə xas olan bir xassədir.

Bundan başqa aparılmış ədədi eksperimentlərin nəticəsi kimi şəkil 4- də sıxıcı qüvvənin ekssentrisitetinin müxtəlif qiymətlərində σ_{s3} və σ_{s7} gərginliklərinin kəsiyin sıxılan üzündə deformasiyanın qiymətindən asılı olaraq dəyişmə qrafikləri verilmişdir.



Şəkil 3. "Yük- əyinti" qrafikləri

1- $e = 0{,}05 \cdot R = 1\ sm$;

2- $e = 0{,}2 \cdot R = 4\ sm$;

3- $e = 0{,}5 \cdot R = 10\ sm$.

Qrafiklərdən aydınca görünür ki, A_{s1} armaturunda gərginliyin dəyişməsi hər üç halda demək olar ki, eyni olduğu halda A_{s7} armaturunda gərginliyin dəyişməsi kəskin fərqlənir və ekssentrisitetin qiymətinin artması ilə bu armaturdakı gərginliklərin də qiyməti ədədi qiymətcə artır. Nəhayət üçüncü halda, yəni böyük ekssentrisitetlə sıxılma halında A_{s7} armaturunda gərginliyin qiyməti axma həddinə çatır.

Cədvəl 1. Armatur millərindəki gərginliklər

Armaturdakı gərginliklər, MPa	$e = 0{,}05 \cdot R = 1\ sm$	$e = 0{,}2 \cdot R = 4\ sm$	$e = 0{,}5 \cdot R = 10\ sm$
$\sigma_{s1} = \sigma_{s5}$	229,022	180,121	77,874
$\sigma_{s2} = \sigma_{s4}$	336,595	350,000	350,000
σ_{s3}	350,000	350,000	350,000
$\sigma_{s6} = \sigma_{s8}$	121,449	2,285	-202,287
σ_{s7}	76,891	-71,377	-318,334
			

Cədvəl 2. Gərginlikli deformasiya halını xarakterizə edən parametrlər

Parametrlər	$e = 0{,}05 \cdot R = 1\ sm$	$e = 0{,}2 \cdot R = 4\ sm$	$e = 0{,}5 \cdot R = 10\ sm$
ε_b	0,00204	0,00238	0,00272
$x,\ sm$	45,592	32,175	23,341
$f\ ,\ sm$	1,632	2,698	4,251
$P_{cr},\ kN$	1957,61	1501,06	943,23



Şəkil 4. σ_{s3} və σ_{s7} armaturlarında gərginliyin dəyişmə qrafiki

1- $e = 1\ sm$ olduqda σ_{s3}, MPa gərginliyi; 2- $e = 1\ sm$ olduqda σ_{s7}, MPa gərginliyi

3- $e = 4\ sm$ olduqda σ_{s3}, MPa gərginliyi; 4- $e = 4\ sm$ olduqda σ_{s7}, MPa gərginliyi

5- $e = 10\ sm$ olduqda σ_{s3}, MPa gərginliyi; 6- $e = 10\ sm$ olduqda. σ_{s7}, MPa gərginliyi

Bu bir daha onu göstərir ki, çoxcərgəli armirlənmədə qeyri xətti deformasiya modeli əsasında aparılan hesablamalarda yükgötürmə qabiliyyətinin itirilməsi anında kəsikdə formalaşan gərginlikli deformasiya halları müxtəlif ola bilir və bu ancaq aparılmış hesablamalar nəticəsində müəyyənləşdirilə bilir. Həmçinin şəkil 5- də neytral oxun vəziyyətini təyin edən x, sm prametrinin kəsiyin sıxılan üzündə deformasiyanın qiymətindən asılı olaraq dəyişməsi göstərilmişdir. Sıxılan elementlərin hesablanmasında önəmli məsələlərdən bir də elementin çevikliyinin onun yükgötürmə qabiliyyətinə

təsiridir. Bunu öyrənmək məqsədilə bütün verilənləri dəyişmədən şərti mərkəzi sıxılma zamanı, yəni ekssentrisitetin $e = e_a = 1\,sm$ olduğu halda sütunun hündürlüyünün müxtəlif qiymətləri üçün hesablamalar aparılaraq şəkil 6- da böhran qüvvəsinin sütunun hündürlüyündən asılılıq arafiki verilmişdir. Bu qrafikdən aydınca görünür ki, hesabi uzunluq, başqa sözlə çeviklik artdıqca böhran qüvvəsi azalır, lakin elastik sistemlərdən fərqli olaraq bu asılılıq hesabi uzunluğun kvadratı ilə tərs mütənasib deyildir və daha mürəkkəb asılılıqdır.

Nəticə. Söylənilə bilər ki, elastik-plastik mərhələdə işləyən sıxılan elementlər üçün elastik sistemlərə xas olan asılılıqların tətbiq olunması reallıqdan keyfiyyət və kəmiyyətcə uzaq olan nəticələrin alınmasına gətirib çıxara bilər. Əgər nəzərə alsaq ki, hətta kiçik deformasiyalarda belə betonun sıxılmada "gərginlik- deformasiya" diaqramı güclü qeyri xəttidir, onda bir daha belə nəticəyə gəlinir ki, həmin elemenbtlərin hesablanması qeyri xətti deformasiya modeli əsasında aparılmalıdır.



Şəkil 5. x , m parametrinin kəsiyin sıxılan üzündə deformasiyanın qiymətindən asılı olaraq dəyişmə qrafiki

1- $e = 1\,sm$; 2- $e = 4\,sm$; 3- $e = 10\,sm$



Şəkil 6. Təsadüfi ekssentrisitetlə sıxılan sütunun $(P_{cr}\ ;\ \ kN)$ böhran qüvvəsinin $(l_0\ ;\ m)$ hesabi uzunluqdan asılılığı

Ədəbiyyat
1. Beton və dəmirbeton konstruksiyalar. Layihələndirmə normaları. Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Bakı, 132c. 2015
2. Бетонные и железобетонные конструкции. Основные положения. Актуализированная редакция СНиП 52- 01- 2003. Москва, 156с. 2012
3. Беглов А.Д., Санжаровский Р.С. Евростандарты и нелинейная теория железобетона. АСВ, Санкт- Петербург, Москва, 309с. 2011
4. Санжаровский Р.С., Веселов А.А. Теория расчета строительных конструкций на устойчивость и современные нормы. Санкт-Петербург-Москва, АСВ, 126с. 2000
5. Гаджиев М.А. Прочность и устойчивость железобетонных стержневых элементов с применением нелинейных диаграмм деформирования материалов. Автореферат диссетации на соискание ученой степени доктора технических наук, Баку, 38с. 2007

References
1. Beton ve demirbeton konstruksiyalar. Layihelendirme normalari. Azerbaycan Respublikasi Dovlet Shehersalma ve Arxitektura Komitesi, Baki, 132s. 2015
2. Betonnye i zhelezobetonnye konstrukcii. Osnovnye polozheniya. Aktualizirovannaya redakciya SNiP 52- 01- 2003. Moskva, 156s. 2012
3. Beglov A.D., Sanzharovskij R.S. Evrostandarty i nelinejnaya teoriya zhelezobetona. ASV, Sankt-Peterburg, Moskva, 309s. 2011
4. Sanzharovskij R.S., Veselov A.A. Teoriya rascheta stroitel'nyh konstrukcij na ustojchivost' i sovremennye normy. Sankt-Peterburg- Moskva, ASV, 126s. 2000
5. Gadzhiev M.A. Prochnost' i ustojchivost' zhelezobetonnyh sterzhnevyh elementov s primeneniem nelinejnyh diagramm deformirovaniya materialov. Avtoreferat dissetacii na soiskanie uchenoj stepeni doktora tekhnicheskih nauk, Baku, 38s. 2007

Redaksiyaya daxil olma/Received 05.10.2021
Çapa qəbul olunma/Accepted for publication 07.11.2021

BİNALARININ VƏ QURĞULARIN ETİBARLILIĞINA TƏSİR EDƏN ƏSAS AMİLLƏR VƏ KONSTRUKSİYALARIN ETİBARLILIĞININ TƏHLİLİ

Quliyev Fövzi Mənaf oğlu- t.f.d., dosent, Bina və qurğuların istismarı və rekonstruksiyası kafedrası, AzMİU,quliyevfevzi@mail.ru

Xülasə. Məqalədə binaların və qurğuların etibarlığına təsr göstərən əsas amillər göstərilmiş. Təsirlərdən asılı olaraq istismar dövründə etibarlığın dəyişməsi təhllil edilmiş. Elementlərin sıradan çıxmasının istismar müddətindən asılılığı qrafiki olaraq verilmiş. Normal istismar dövrü qəfləti sıradan çıxmaların baş verməsinin əsas səbəbi olan təsadüfi hadisələrdən yığılan yüklərin təsiridir. Birləşmələrin normal istismarı dövründə aşınma və donmadan sıradan çıxması səbəbləri göstərilmiş. Binanın texniki vəziyyətində dəyişkənliklər istismarda olan binanın texniki vəziyyətində baş verən dəyişilmələrin intensivliyi və beləliklə, iş qabiliyyətinin xarakteristikası binanın konstruktiv xüsusiyyətlərindən çox asılıdır və bunlar binaların etibarlılığına təsir edir. Etibarlılığın qiymətləndirilməsində qismən və tam sıradan çıxmaların obyektin funksiyalarını yerinə yetirməsinə təsiri də vacibdir. Yaşayış binasının funksiyalarının yerinə yetirməsi yalnız texniki tələblərə deyil həmçinin sosial və iqtisadi tələblərə də cavab verməsidir. Yaşayış binasının etibarlılığının əsas göstəricisi olan optimal xidmət müddətidir. Etibarlılıq keyfiyyətin müəyyən müddət ərzində saxlanması deməkdir.

Açar sözlər: bina və qurğu, etibarlıq, istismar, texniki vəziyyət, variasiya əmsalı, aşınma

ANALYSIS OF THE RELIABILITY OF BASIC FACTORS AND STRUCTURES AFFECTING THE RELIABILITY OF BUILDINGS AND FACILITIES

Guliyev Fovzi Manaf- PhD in tech.sc, ass.prof, department of Operation and reconstruction of buildings and facilities, AzUAC, quliyevfevzi@mail.ru

Abstract. The article identifies the main factors affecting the reliability of buildings and facilities. Changes in reliability during operation were analyzed depending on the effects. The dependence of the failure of the elements on the service life is given graphically. Normal operation is the effect of accidental loads, which is the main cause of sudden failures. The causes of wear and frost failure during normal operation of the joints are shown. Changes in the technical condition of the building The intensity of changes in the technical condition of the existing building and thus the performance characteristics depend on the design features of the building, which affect the reliability of buildings. The effect of partial and complete failures on the performance of the object's functions is also important in the assessment of reliability. The function of a residential building is to meet not only technical requirements but also social and economic requirements. The main indicator of the reliability of a residential building is the optimal service life. Reliability means maintaining quality for a certain period of time.

Keywords: building and installation, reliability, maintenance, technical condition, coefficient of variation, wear

Giriş. Konstruksiyanın verilmiş müddət ərzində istismar göstəricilərini saxlayaraq öz funksiyalarını yerinə yetirməsi etibarlıqdır. Etibarlılıq məmulatın növündən və onun istismar şəraitindən asılı olaraq sazlıq, uzunömürlüyü, təmirə yararlığın saxlanılması kimi anlayışları özündə birləşdirir. Etibarlılıq məmulatın təyinatına görə lazımi müddətdə tələb olunan effektlə texniki imkanlardan istifadəni təmin edir. Məsələn, binanın mühafizə və yükdaşıyan konstruksiyalarının etibarlılığı dedikdə binanın normal temperatur, nəmlik və komfort rejiminin təmini başa düşülür. Bu zaman istismar göstəricilərinin (istilik, nəmlik, hava, səsdən, mühafizə) verilmiş norma həddində saxlanması əsas şərtlərdəndir. Memarlıq konstruktiv elementlərdə isə əlavə olaraq möhkəmlik və deformativ funksiyaları yerinə yetirməlidir.

Uzunömürlülük dedikdə obyektin iş qabilliyətinin müəyyən olunmuş texniki xidmət və təmirlə birlikdə qəzalı vəziyyətə qədər qorunması başa düşülür. Uzunömürlülüyün göstəriciləri aşağıdakılardır. Orta xidmət müddəti, birinci əsaslı təmirə qədər xidmət müddəti, təmirlər arası xidmət müddəti. Beləliklə, uzunömürlülük obyektin iş qabiliyyətini saxlamasıdır. Sazlıq müəyyən müddətdə arasıkəsilməz iş qabiliyyətini saxlamasıdır. Uzunömürlülükdə təmirə görə fasilələr baş verir. Yaşayış evlərinin etibarlılığı və yararlı olması vaxtlı vaxdında aparılan təmirlə yerinə yetirilir. Təmirə yararlılıq göstəricilərinə aşağıdakılar aiddir: Verilmiş müddət ərzində bərpa etmənin mümkünlüyü ehtimalı, bərpa etmənin orta müddəti, xidmət və təmirin xüsusi əmək tutumu, təmirin orta və nisbi dəyəri.

Mühafizə konstruksiyalarının iki hava mühitini bir- birindən ayırmaq funksiyası vardır: Xarici mühitdə temperatur, nəmlik və raidoaktivlik dəyişkəndir. Daxili işə bütün parametrlər normativ yol verilən həddaxilində olmalıdır. Ona görə də xarici divarlar çardağ örtüyü, örtüklər, möhkəmlik, mühafizə və dekorativ funksiyaları yerinə yetirir. Bəzən düzgün olmayaraq binada etibarlılıq dedikdə yalnız onun möhkəmliyi nəzərdə tutulur [1,2].

Xarici mühafizə konstruksiyaları çox elementli və çox funksiyalı sistemlərdir. Kompleks sistemin etibarlılığı onu təşkil edən elementlərin etibarlılığından asılıdır. Binada yaşayanlar üçün binanın bütövlükdə etibarlı olması vacibdir. Belə ki, qovşaq və tikişlər də daxil olmaqla elementlərin, nəinki möhkəmlik, həmçinin istismar etibarlılığı (mühəndis sistemlərinin etibarlı olması daxil olmaqla) vacibdir. Bununla belə, layihələndirmə, tikinti, istismar təcrübəsində möhkəmliyə görə etibarlılıq önə keçirilir, mühafizə konstruksiyalarının, istismar xarakteristikalarının təminatına ikinci dərəcəli iş kimi baxılır. Yeni binalar layihələndirildikdə istismar xarakteristikaları qarşıda durmur. Məsələn, elementlər və onların birləşmələri möhkəmliyə və deformasiyalara hesablanır. Lakin, buraxıla bilən deformasiyalar binanın normativ konfortlu vəziyyətini həmişə təmin etmir. Buna görə də tikiş və birləşmələrdə istismar göstəriciləri layihələndirmə zamanı hesabatla deyil, konstruktiv götürülür. Binanın layihələndirilməsi və konstruksiyalanması prosesində hesabi etibarlılığı da işə qoşurlar. Konkret elementin hazırlanmasında onun faktiki etibarlılığı təmin olunmalıdır. Bu etibarlılıq tətbiq edilən materialdan, ayrı-ayrı detallardan, konstruksiyanın yığılmasından və quraşdırılmasından asılıdır. Hazırlamadan sonra etibarlılıq lazımi səviyyədə düzgün istismarın təşkili ilə təmin edilir.

Layihələndirmədə konstruksiyanın etibarlılığına təsir edən aşağıdakı amilləri nəzərə almaq lazımdır: tətbiq edilən elementlərin keyfiyyəti və kəmiyyətini, element və detalların iş rejimini, hazırlanmasının standartlaşdırılması və unifikasiyası, detal, düyün və blokların baxış və təmir üçün əlverişli olmasını.

Binanın tikintisində qaydaraların pozulması, material və dəst materiallara uyğun nəzarətin olmaması, materialın sortlaşdırılmasının pozulması və onların keyfiyyətsiz əvəz edilməsi, uzun müddət əlverişli olmayan yerdə saxlanılan elementlərin qoyulması, hazır məhsulu buraxarkən ayrı-ayrı əməliyyatlara zəif nəzarət, binanın konstruksiyaların bütövlükdə etibarlılığına mənfi təsir göstərir. İstismar dövründə binanın etibarlığına təsir edən amillər aşağıdakılardır:

Layihə qiymətinə uyğun gəlməyən daxili gərginliklər, xarici təsirlər (bu və ya digər rejimlərdə), texniki xidmət rejimi (qismən və sistemli), xidməti və təmiri aparan fərdin texniki ixtisaslaşması. Qəbul edilmişdir ki, istismar etibarlılığı qurğunun özünün (bina,qurğu) etibarlığı ilə tətbiqi etibarlığın (insan amili) hasilinə bərabərdir. Axrıncı göstərir ki, etibarlılığı azalda bilən tətbiqi amillərin mənfi təsiri aradan qaldırılmalıdır. Mənfi təsirləri aradan qaldırmaq üçün təşkilati tədbirlər böyük rol oynayır: xidmətedici heyətin hazırlanması, konstruksiyaların sıradan çıxmasına dair, statistik məlumatların toplanması, sistemin istismarı, profilaktikası və təmirinin aparılmasına dair xüsusi təlimat və metodların hazırlanması.

İndiki dövrdə yaşayış və ictimai binalarda və şəhərdəki mühəndis qurğularında mürəkkəb dəyişikliklər getməkdədir. Müasir binaları böyük texniki sistemə bənzətmək olar. Bu sistem çox sayda müxtəlif komponentlərin və dəyişkən yüklərin bir- biri ilə əlaqəsindən ibarətdir [3]. Kiçik, determinə olunmuş sistemlərin əksinə olaraq iri sistemlər özünü təsadüfi stoxastik aparır. Binanın sistem kimi mürəkkəbliyindəki bu sıçrayış təbii ki, layihələndirmə texnikasında da özünü göstərməlidir. Ayrıca sistemlərin (kiçik sistemlərin) işlənməsi və öyrənilməsi element və düyünlərin işinin detallı təhlilinə,

hesablama və konstruksiyalanma işinin ixtisaslaşmasına söykənməlidir. Böyük sistemlərin işlənməsi isə əksinə, kiçik sistemlərin sintezini və inteqrasiyasını qarşıya məqsəd qoyur.

Mürəkkəb sistem o cümlədən bina çoxformalı olduğundan ona nəzarət ayrı-ayrı elementlərin hesabat və konstruksiya olunması ilə baş verir. Real sistemin ayrı-ayrı prinsiplərini təyin etmək olduqca mürəkkəbdir. Mürəkkəb sistemdə onun hissələrinin işini öyrənmək üçün model qurulur. Binanı və onun konstruksiyalarının etibarlığı zamandan, daxili xassələrdən (material) və xarici şəraitdən (yüklər və təsirlər) asılı olaraq dəyişir. Göstərilən amillərə binanın quraşdırılıb qurtarmasından sonra onun ilkin etibarlılığı təyin edilir. İstismarın birinci günündən başlayaraq etibarlılıq enməyə başlayır (şək.1).

Hesabi xidmət dövründə yol verilən minimal etibarlılıq N_{min} ilə işarə edilir. Başlanğıc etibarlığı isə N_0 ilə göstərilir. T_h dövründə etibarlılıq enərək N_{min}- a çatır. N_0- a şərti olaraq başlanğıc ehtiyatlılıq deyilir. Başlanğıc ehtiyatlılığın təyini iqtisadi məsələ sayılır.



Şəkil 1. Binanın istismar dövründə etibarlılığın dəyişməsi:
1– nəzəri əyri; 2– həmçinin ilkin ehtiyatlılıqla; 3– etibarlılığın əsaslı təmirlə yüksəldilməsi;
4– binanın uzunömürlülüyünün artması

İstismar dövründə məmulatın iş sxemini öyrənmək məqsədə uyğundur. Sistem və ya onun elementinin tam istismar dövrü üç hissəyə bölünür: əlavə qazanılma, normal istismar, intensiv yeyilmə. Şəkil 2- də elementin sıradan çıxma intensivliyinin göstərilən üç dövr üçün zamandan asılılıq əyriləri göstərilmişdir. Əlavə qazanılma dövründə sıradan çıxmanın intensivliyi böyükdür. Belə ki, elementlərin toplusunda bir-birinin ardınca qüsur yaranır, qısa müddətdə sıradan çıxmasının intensivliyi azalır və təxminən sabit qiymətə malik olur, bu zaman bütün qüsurlu elementlər sıradan çıxır və onlar təmir olunur və yaxud dəyişdirilir [4,5].



Şəkil 2. Elementlərin sıradan çıxmasının istismar müddətindən asılılığı
1– əlavə qazanılma dövrü, 2– normal istismar dövrü, 3– intensiv yeyilmə dövrü

Bu dövrdə binada təbii proseslərdə bağlı (məsələn, çökmə) olan sıradan çıxma yaranır, texnoloji xarakterli (hazırlanma, nəqledilmə, işlərin yerinə yetirilməsi) qüsurlar aşkar edilir. Əlavə qazanılma dövründən sonra sıradan çıxmanın intensivliyi sabit olur, normal istismar dövrü başlayır. Bu dövrdə sıradan çıxmalar qəfləti olur. Elementin istifadəsi T- ə çatdıqda intensiv yeyilmə dövrü başlanır, T– momentinə qədər sıradan çıxmanın intensivliyi artır, ona isə elementin uzunömürlülüyünün orta

qiyməti deyilir. Normal istismar dövrü qəfləti sıradan çıxmaların baş verməsi ilə xarakterikdir. Bunun səbəbi təsadüfi hadisələrdən yığılan yüklərin təsiridir. Tikişlərin normal istismarı dövründə aşınma və donmadan sıradan çıxması qəflətən baş verir. Məsələn, temperatur gərginliklərinin konsentrasiyasından hermetikin hər hansı sahəsində hermetikdə və onun betona toxunan yerində çat əmələ gəlir. İntensiv aşınma dövründə hermetiklənmiş tikişlərdə sıradan çıxmanın miqdarı çoxalır. Buna səbəb materialın köhnəlməsi, onun elastik xassələrinin aşağı düşməsidir, nəticədə çat əmələ gəlir və betonla qovuşma pozulur.

Binanın texniki vəziyyətində dəyişkənliklər istismarda olan binanın texniki vəziyyətində baş verən dəyişilmələrin intensivliyi və beləliklə, iş qabiliyyətinin xarakteristikası binanın konstruktiv xüsusiyyətlərindən çox asılıdır. İstehsal xarakterli (hazırlanmanın keyfiyyəti) amillərin təsiri ilə iş qabiliyyətinin və onun dəyişməsinin intensivliyi xidmət dövründə paylanır. Binanın texniki xassələrinin pisləşməsi birinci növbədə konstruktiv elementlərin hazırlandığı materialların fiziki xassələrinin dəyişməsindən, onların quraşdırılmasının xarakterindən, habelə ölçü və formalarından asılıdır [6].

Göstərilən proses, əsasən, qanunauyğun və bəzən isə təsadüfi xarakter daşıyır. Binanın texniki vəziyyətinin dəyişməsinin əsas səbəblərindən biri də dağılma və ona anoloji olan konstruktiv elementin iş qabiliyyətinin itirilməsinə gətirən növlərdir. Bu vəziyyətin yaranması təsadüfi xarakter daşıyır. Lakin, prosesin getməsi birincidən fərqlidir. Birinci halda iş qabiliyyətini itirmə kiçik intensivlikdə baş verir, ikincidə isə sıçrayışla texniki vəziyyətin dəyişməsi baş verir. Bu iki səbəbdən başqa onların arasında yer tutan başqa səbəblər də ola bilər. İş qabiliyyətinin itirilməsi prosesləri bir-birindən asılı baş verir. Ona görə də vəziyyətin riyazi təsviri xeyli çətinləşir. Binanın texniki vəziyyəti və işləmə qabiliyyəti ayrı-ayrı konstruksiyaların və onlar arasındakı əlaqənin funksiyalarıdır. Çox sayda konstruktiv elementi olan binanın texniki vəziyyətinin riyazi təsviri böyük çətinliklər yaradır.

Bu birinci növbədə onunla əlaqədardır ki, iş qabiliyyətini dəyişməsi prosesi qeyri-müəyyən və təsadüfi olur. Buna görə də riyazı təsvir nöqteyi nəzərindən bina diffuz sistem sayılır. Diffuz sistemlərin əsas əlamətləri bir neçə dəyişənin (təsadüfi və təsadüfi olmayan) təsirindən onlarda qeyri müəyyən və təsadüfi dəyişmələrin getməsidir. Ona görə də, diffuz sistemlərin vəziyyətini təsvir etmək üçün statistik modeldən istifadə edilir.

Beləliklə, binanın vəziyyətinin dəyişmə prosesinin təsviri modelinin seçilməsinə sadə yanaşmaq olmaz. Bir obyekt üçün çoxlu sayda model qurmaq lazım gəlir. Onlardan hər biri binanın vəziyyətində gedən proseslərə adekvat olmalıdır. Bütövlükdə binanın və onun elementlərinin iş qabiliyyətini dəyişdirən səbəblər (amillər) onların təsir mexanizminə görə şərti olaraq iki qrupa bölünürlər:

1) daxili xarakterli

2) xarici xarakterli

Birinci qrupa aiddir: materialın daxilində gedən fiziki mexaniki proseslər, istismar dövründə yaranan yüklər və proseslər, konstruktiv amillər, hazırlamanın keyfiyyəti (istehsalat qüsurları). İkinci qrupa aiddir: iqlim amilləri (temperatur, nəmlik, günəş radiasiyası), ətraf mühit amilləri (külək, toz, qum, atmosferdə olan aqressiv birləşmələr, bioloji amillər), istismarın keyfiyyəti. Xarici xarakterli səbəblərə həmçinin texniki xidmət və təmirin təsirini də əlavə etmək lazımdır. Binaların istismarında onların texniki vəziyyətini dəyişdirən amillərdən bəzilərinə baxaq. Ən əhəmiyyətlisi konstruktiv xarakterli olanlardır. Səmərəli konstruktiv həll tələb edilən işləmə qabiliyyətini istismar müddətində minimal əmək və vəsait sərf etməklə təmin edir. Eyni zamanda səmərəsiz və səhv konstruktiv həllər iş qabiliyyətinin tezliklə itirilməsinə və yaxud ayrı-ayrı konstruktiv elementlərinin dağılmasına səbəb olur. Ətraf mühitin və ya iqlimin binanın konstruksiya elementlərinin iş qabiliyyətinə təsiri ya bilavasitə, ya da proseslərin gedişini sürətləndirməklə baş verir. Səmərəli konstruktiv tədbirlər görməklə bu amillərin mənfi təsiri azaldıla və ya tamamilə aradan qaldırıla bilər.

adheres and at an estimation of a mode of current of phases, i.e. at definition of character of movement of phases in platonic conditions. Proceeding from it{$this$}, here It is offered to use for this purpose known diagram Leveret- Lewis [3,4,5], received experimental by where contours of joint and separate movement of phases depending on saturations of the porous environment are approximately estimated. The given diagram is illustrated in figure. Use of this diagram as model of character of multiphase current of a fluid in our case also proves sufficiency of qualitative comparison of chinks with each other. The set forth above problem it is simulated by means of the special computer program. The given program functions with the initial data demanded by her online. These data should describe a current condition of operation of set of the chinks, which are a subject selection for the subsequent regulation of their technological mode. As it has been told above, rational modes are established by regulation of selection of gas from a well. And the list of the wells which are a subject prime regulation is determined by work of the offered program. And the list of the chinks which are a subject prime regulation is determined by work of the offered program.

This those wells mainly steal up, in bottoms which zones less mobile gas phase moves, i.e. calculations in them sizes RPP on gas accept the lesser values. However, in the program other criteria of selection of wells depending on particularly developed practical cases are stipulated also. So, for example, after her also probably to range wells in process of reduction of their importance proceeding from criterion of maximization RPP on n oil phase, and from a compromise condition (reduction RPP on gas, increases RPP on oil, and also reduction RPP on water). This last is realized with input of special weight factors which sum is equated to unit. The given program was used in calculations on a number of oil deposits of Azerbaijan, which is being at a late stage of development, and involved in are subsurface pump operation of wells. Calculations reveal small dependence of results of sorting of wells on distinction of approaches to definition of sizes RPP. It is necessary to note also, that removal of gas from reception of the pump in for trumpet the space of a well and installation of the special union regulating an output of gas from this space allow not only to save reservoir energy, but also to prevent emission of gas in an atmosphere, directing it in discharge line and to establish the best technological mode of a well proceeding from a condition of the maximal oil recovery at present time. Below some fragment from the final table received on sorted wells Balaxani-oil is resulted.

Result. To regulate the consumption of associated gas produced in wells, in order to save energy produced, priority should be given to wells in which the change of regime in these wells is more efficient.

Table 1. The approached borders limiting participations of phases in the general stream depending on saturations of the porous environment

range	Sorting on RPP for oil		Sorting on RPP for gas	Sorting on RPP for water	Sorting on totally- weighed RPP (for all phases weight Factors are accepted=1/3)	
	Under the Formula (3)	On system (1-2)			Under the Formula (3)	On system (1-2)
1	3476	3476	3550	3476	3476	3476
2	1492	1492	3476	3686	1492	1492
3	3385	3385	2650	3685	3385	3385
4	3686	3686	3619	2183	3686	3686
5	3685	3685	2085	3596	3685	3685
6	2183	2183	3776	3385	2183	2183
7	3596	3596	3940	1492	3596	3596
8	2650	2650	3722	3783	2650	2650
9	3776	3776	3783	3708	3776	3776
10	3783	3940	1492	3776	3783	3783
11	3708	3783	3385	2650	3708	3940
12	2085	3708	3708	3619	3619	3708

13	3619	3619	3686	3940	3940	3619
14	3940	3722	3685	3722	3722	3722
15	3722	2085	2183	3550	2085	2085
16	3550	3550	3596	2085	3550	3550

Studies show that the direction of the flow of the oil phase to the bottom of the well in the well drainage zones increases the relative phase permeability of the formation to oil. The relative phase conductors of the water and gas phases moving through these zones receive small values. Thus, the process of controlling the associated gas flow rate does not reduce the oil production rate of wells.For this, a special computer program was developed, and the results of the well sorting process carried out using this program were brought in accordance with the calculated values.

References

1. I.A.Charnyj. Podzemnaya gidrogazodinamika. M. Gostoptekhizdat, 348- 368s. 1970
2. Krichlow H.B. Modern reservoir engineering a simulation approach. Prentice–Hall.Inc.Englewood Cliffs New Jersey, Nedra, 303p. 1979
3. Gimatuddinov Sh.K., Shirkovskij A.I. Fizika neftyanova i gazovogo plasta. Nedra, 22-25s. 1982
4. Mustafaev Sh.I., Gasymova K.G. Uluchshenie raboty skvazhennoj shtangovoj nasosnoj ustanovki. Baku. Procecdinge of the IAM № 1. 123- 131c. 2017
5. Amiks Dzh., Bass D., Uajting R. Fizika neftyanogo plastayu per. Gostoptekhizdat, 158- 197s. 1962

Redaksiyaya daxil olma/Received 15.09.2021
Çapa qəbul olunma/Accepted for publication 14.10.2021

SFERİK QABARCIQLI MAYE- ÖRTÜK SİSTEMİNİN HİDRODİNAMİK XARAKTERİSTİKALARININ ÖZLÜLÜYÜN BİR HALI ÜÇÜN RİYAZİ ANALİZİ

Əkbərli Reyhan Səyyad qızı- baş müəllim, Mexanika kafedrası, AzMİU, akbarli89@mail.ru
Sevdimalıyev Yusif Məmmədəli oğlu- f.r.e.n., dosent, Nəzəri mexanika və bütöv mühit mexanikası kafedrası, Bakı Dövlət Universiteti, yusifsev@mail.ru

Xülasə. Təqdim olunan məqalədə nazikdivarlı izotrop elastiki sonsuz uzun dairəvi silindrik boru və daxilində özlü qabarcıqlı maye olan aerohidroelastiki sistemin pulsasiyalı hərəkəti 3D formatında tədqiq edilmişdir. Məsələ oxa simetrik hal üçün həll edilmişdir. Örtük- maye dinamik sistemində yaranan məxsusi rəqslərin forması və tezliyi təyin olunmuşdur. Alınmış nəticələr nazikdivarlı borunun materialı yüksək möhkəmlikli poladın müxtəlif modifikasiyalarından və qeyri- klassik polimer materiallardan ibarət olduğu hallar üçün, ikifazalı maye olaraq isə daşıyıcı maye kimi su ilə birgə götürülən sferik hava qabarcıqlarından ibarət olduğu hallar üçün hesablanmışdır.
Açar sözlər: oxasimmetrik dalğaların yayılması, maye- qaz mühit, özlü maye, hidro- elastik sistem

MATHEMATICAL ANALYSIS OF THE HYDRODYNAMIC CHARACTERISTICS OF THE TWO- PHASE VISCOUS FLUID- SHELL SYSTEM

Akbarli Reyhan Seyyad- lecturer, department of Mechanics, AzUAC, akbarli89@mail.ru
Sevdimaliyev Yusif Mammadali- PhD in phys and math sc., Department of Theoretical Mechanics and Integral Mechanics, Baku State University, yusifsev@mail.ru

Abstract. In this article a thin-walled isotropic infinitely long-circular cylindrical elastic tube and the pulsed flow of an aerohydroelastic system within a compressible bubble fluid have been presented in 3D dimension.The equation has been solved for an axisymmetric waves propagation in the liquid-shell system.The form and frequency of the specific oscillations formed in the shell-fluid dynamic system have been determined. The obtained results have been calculated for the cases where thin-walled pipe material is made of various modifications of high-strength steel and non-classic plymer materials, and as being two-phase fluid for cases where as as the two- phase fluid is taken water that consists of spherical air bubbles.
Keywords: axisymmetric waves propagation, liquid- gas environment, viscous liquid, hydro- elastic system

Giriş. *Hidroaerodinamika tənlikləri.* Fərz edək ki, radiusu R, qalınlığı h olan nazik divarlı sonsuz uzunluğa malik silindrik örtükdə sıxılan özlü nyuton mayesi sükunət halındadır, xarici təsir nəticəsində maye-örtük sistemində oxasimmetrik dalğaların yayılması məsələsinə baxaq. "Maye-qaz-örtük" sisteminin rəqslərinin borunun koordinat başlanğıcında yerləşən kəsiyində yarandığını qəbul edərək, həmin hərəkətin oxboyu sürətini [1, 2].

$$u_x = \mathrm{Re}\left\{F\, e^{i\omega t}\right\}$$

asılılığı ilə verək.
Mayedə kiçik həyəcanlanmaların yarandığı fərziyyəsi daxilində Navye-Stoksun xəttiləşmiş tənliyini konvektiv hədlərin nəzərə alınmadığı Stoks yaxınlaşması olaraq, Eyler koordinatlarda yazırıq:

$$\rho_f \frac{\partial \vec{u}}{\partial t} = -grad\ p + \frac{1}{3}\mu\, grad\, div\, \vec{u} + \mu \nabla^2 \vec{u} \qquad (1)$$

Bu xəttiləşmiş məsələdə maye-qaz mühitin kəsilməzlik tənliyi

$$\frac{\partial \rho}{\partial t} + \rho_f\, div \vec{u} = 0$$

Maye- qaz ikifazalı mühitin birgə deformasiyalanması şərti olan Reley– Lyav tənliyindən temperatur və enerji mübadiləsi olmayan bir sürətli modeli üçün mühitin hal tənliyi:

$$\frac{\partial p}{\partial \rho} = a_f{}^2.$$

Kəsilməzlik və hal tənliklərini hərəkətin diferensial tənliyində nəzərə alsaq, riyazi çevirmələrdən sonra tənlik aşağıdakı şəklə düşər:

$$\rho_f \frac{\partial \vec{u}}{\partial t} = -grad\ p + \frac{1}{3\rho_f a_f^2} grad\left(\frac{\partial p}{\partial t}\right) + \mu \nabla^2 \vec{u}$$

Özlü maye üçün xəttiləşdirilmiş dalğa tənliyi:

$$a_f{}^2 = \frac{1}{\alpha_{20}(1-\alpha_{20})} \cdot \left(\frac{\rho_{10}}{\rho_{10}-\rho_{20}}\right)^2 \frac{p_f}{\rho_{10}} \tag{2}$$

şəklini alır.

Örtüyün hərəkət tənlikləri: Nazik divarlı düz dairəvi silindrik örtüyün oxasimmetrik hərəkət halında ətraf mühitlə kontaktını əhatə edən orta səthi boyu vahid sahədə divara normal qüvvə (təzyiq) və toxunan qüvvə təsir edir. Nazik örtüklər üçün Kirxhof-Lyav hipotezində h/R nisbəti üçün qəbul olunan qiymətlərdə $(h/R<<1)$ örtüyün oxa simmetrik hərəkət halına baxaq. Silindrik örtüyün orta səthinin porşenin yerləşdiyi kəsiyində Laqranj koordinat sistemin başlanğıcını götürürük və koordinat oxlarını örtüklə sərt bağlayaq. Laqranj dəyişənlərində dairəvi en kəsikli, nazikdivarlı silindrik örtüyün oxa simmetrik hərəkətinin Kirxhof-Lyav hipotezi daxilindəki tənlikləri aşağıdakı kimi olur [3].

$$\rho_* h \frac{\partial^2 w_r}{\partial t^2} = p_t\left(1-\frac{h}{2R}\right) + \frac{Eh}{2(1+\nu)}\left[\frac{\partial^2 w_r}{\partial x^2}\right] - \frac{Eh}{(1-\nu^2)}\left\{\frac{w_r}{R^2} + \frac{\nu}{R}\frac{\partial w_r}{\partial x}\right\} \tag{3}$$

$$\rho_* h \frac{\partial^2 w_x}{\partial t^2} = q\left(1-\frac{h}{2R}\right) + \frac{Eh}{(1-\nu^2)}\left\{\frac{\partial^2 w_x}{\partial x^2} + \frac{\nu}{R}\frac{\partial w_r}{\partial x}\right\} \tag{4}$$

Qeyd edək ki, maye ilə doldurulmuş silindrik örtükdə başlanğıc halda ikifazalı birsürətli maye-qaz mühit sükunət vəziyyətində olduğundan koordinatların çevrilməsi düsturuna əsasən, Eyler və Laqranj dəyişənləri üst- üstə düşür. Tənlikləri ölçüsüz hala gətirək. Bunun üçün istifadə edəcəyimiz parametrlər aşağıdakılardır [4]:

$$\frac{p_t}{\rho_*} = \bar{p}_t\, a_t^2\, \bar{h},\ h = \bar{h}\, R,\ \bar{\mu} = \frac{\mu}{R\rho_0 a_f},\ t = \frac{R\bar{t}}{a_t},\ x = R\bar{x},\ \frac{q}{\rho_*} = \bar{q}\, a_t^2\, \bar{h},\ K = k\, R,\ w_r = R\bar{w}_r,$$

$$w_x = R\bar{w}_x,\ u_r^* = \bar{u}_r^*\, a_f,\ u_x^* = \bar{u}_x^*\, a_f,\ a_t^2 = \frac{E}{\rho_*(1-\nu^2)},\ \eta = \frac{2}{1-\nu^2},\ \rho = \frac{\rho_f}{\rho_*},$$

Burada a_t - dairəvi silindrik örtükdə səsin yayılma sürətidir.

Nəticədə (4) və (5) tənlikləri ölçüsüz halda aşağıdakı formada olur:

$$\frac{\partial^2 \bar{w}_r}{\partial \bar{t}^2} = \bar{p}_t\left(1-\frac{\bar{h}}{2}\right) + \frac{1}{\eta}\frac{\partial^2 \bar{w}_r}{\partial \bar{x}^2} - \bar{w}_r - \nu\frac{\partial \bar{w}_x}{\partial \bar{x}} \tag{5}$$

$$\frac{\partial^2 \bar{w}_x}{\partial \bar{t}^2} = \bar{q}\left(1-\frac{\bar{h}}{2}\right) + \frac{\partial^2 \bar{w}_r}{\partial \bar{x}^2} + \nu\frac{\partial \bar{w}_r}{\partial \bar{x}} \tag{6}$$

Hidroaeroelastiklik məsələsinin sərhəd və kontakt şərtləri. Hidroelastikliyin qapalı riyazi sistemi və ya məsələnin riyazi modeli: (2), (5), (6) tənliklər sistemi hidroelastiklik məsələsinin riyazi qapalı tənliklər sistemini əmələ gətirir. Bu tənliklər sisteminin məchul funksiyaları p, u_r, u_x, w_r, w_x-lardır. Həmin məchulların birqiymətli təyin olunması üçün uyğun sərhəd və kontakt şərtləri verilməlidir. İkifazalı maye-qaz mühitində hərəkət halında yaranan gərginliklər [5]:

$$\sigma_{ik} = \left(-p + \lambda_1 div\vec{u} \right)\delta_{ik} + 2\mu_1 e_{ik}$$

Bu şərtlərə əsasən, ikifazalı qarışığın normal σ_{rr} və toxunan σ_{rx} gərginliklərinin təsiri (axın oxasimmetrik olduğu üçün $\sigma_{r\theta} \equiv 0$) örtüyün daxili səthində xarici qüvənin radial p_t və toxunan q toplananları ilə (oxasimmetrik məsələyə baxdığımız üçün toxunma səthində qövsboyu xarici qüvvə yaranmır) müvazinətləşdirilməlidir. Başqa sözlə, (2), (5), (6) əlaqəli tənliklər sisteminin həlli üçün müvafiq dinamik kontakt şərtlər və sızmanın yaranmadığını və ya örtüyün divarından hamar axmanı ehtiva edən kinematik sərhəd şərtlərini ödəməlidir:

$$p_t = \sigma_{rr}\big|_{r=R},\ q = -\sigma_{rx}\big|_{r=R} = -\mu\left(\frac{\partial u_x}{\partial r} + \frac{\partial u_r}{\partial x} \right).$$

Həmçinin həmin səth boyu kinematik sərhəd şərtləri doğru olur:

$$u_r\big|_{r=R} = \left.\frac{\partial w_r}{\partial t}\right|_{r=R},$$

$$u_x\big|_{r=R} = \left.\frac{\partial w_x}{\partial t}\right|_{r=R}.$$

Axın oxa simmetrik olduğundan ixtiyari x və t üçün $r = 0$ olduqda $u_r = 0$. Silindrik dairəvi örtüyün $x = 0$ kəsiyində örtüyün orta səthində örtükdə yerdəyişmələr yaranmır:

$$w_x\big|_{r=R} = 0,\ w_r\big|_{r=R} = 0 \quad w_x(0,r,t)\big|_{r=R} = w_r(0,r,t)\big|_{r=R} = 0$$

Maye-qaz homogen özlü mühitin xəttiləşdirilmiş (2) dalğa tənliyinin həllini sönən dalğalar sinfində olduğu kimi, dəyişənlərinə ayrılan funksiyaların hasili olmaqla aşağıdakı şəkildə axtarırıq:

$$p = \mathrm{Re}\left\{ p^*(r) e^{i(kx+\omega t)} \right\} \tag{7}$$

Sonuncu asılılığı (2) tənliyində yazaraq sadə riyazi çevirmələr aparmaqla, nəticədə təzyiqin radial koordinatdan asılılığını verən Bessel tənliyi alınar:

$$\frac{d^2 p^*}{dr^2} + \frac{1}{r}\frac{dp^*}{dr} + p^* \lambda^2 = 0 \tag{8}$$

Burada,

$$\lambda^2 = k^2 + \frac{\omega^2}{a_f^2\left(1 + i\dfrac{4\mu\omega}{3\rho_f a_f^2}\right)}$$

işarə olunub. (8) tənliyinin həlli Bessel funksiyalarının superpozisiyası şəklində aşağıdakı formada olur [6]:

$$p^* = p_0 J_0(\lambda r) + C_0 Y_0(\lambda r) \tag{9}$$

Burada $J_0(\lambda r)$ və $Y_0(\lambda r)$ uyğun olaraq, sıfır indeksli birinci və ikinci növ Bessel funksiyalarıdır. $p^*(r)$ fiziki mahiyyəti etibarı ilə məhdud funksiya olduğundan (8) tənliyinin (9) formasındakı həllindəki əmsal $C_0 = 0$ olmalıdır, odur ki,

$$p^* = p_0 J_0(\lambda r) \tag{10}$$

İkifazalı mayenin sürət vektorunun r və x koordinat oxları istiqamətlərindəki u_r və u_x komponentlərini (7) ifadəsində olduğu kimi, p təzyiqi ilə eyni modada axtaraq:

$$u_r = \mathrm{Re}\left\{ u_r^*(r) e^{i(kx+\omega t)} \right\} \tag{11}$$

$$u_x = \mathrm{Re}\left\{ u_x^*(r) e^{i(kx+\omega t)} \right\} \tag{12}$$

(11) və (12) asılılıqlarını (1) tənliklərində nəzərə alıb, sonra həmin tənlikləri u_r^* və u_x^* dəyişənlərinə görə həll etməklə alarıq:

$$u_r^* = A J_1(\beta r) - \frac{p_0 \lambda \left(1 + i \frac{\omega \mu}{3 \rho_f a_f^2}\right)}{\mu(\beta^2 - \lambda^2)} J_1(\lambda r) \tag{13}$$

$$u_x^* = B J_0(\beta r) + \frac{p_0 k \left(1 + i \frac{\omega \mu}{3 \rho_f a_f^2}\right)}{\mu(\beta^2 - \lambda^2)} J_0(\lambda r) \tag{14}$$

Burada

$$\beta^2 = k^2 - i \frac{\rho_f \omega}{\mu} \tag{15}$$

işarə olunan kompleks ədəddir.

Alınmış (10), (13), (14) həllərində p_0, A və B məchul ədədlərdir, onların qiymətləri örtüyün hərəkətinin diferensial tənliklərinin həlləri ilə məsələnin sərhəd və kontakt şərtlərindən təyin olunur. Örtüyün nöqtələrinin yerdəyişməsi örtük daxilindəki mayenin həyəcanlanmış hərəkətinin modası ilə axarılır. Odur ki yerdəyişmələrin radial və oxboyu komponentləri radial koordinatın funksiyası ilə oxboyu koordinat və zamanın birlikdə funksiyaının hasili kimi axtarılır.

$$\bar{w}_r = \bar{w}_r^* e^{i(K\bar{x} + \bar{\omega}_t \bar{t})}$$

$$\bar{w}_x = \bar{w}_x^* e^{i(K\bar{x} + \bar{\omega}_t \bar{t})}$$

Burada $\bar{\omega}_t = \frac{R\omega}{a_t}$. Nazikdivarlı dairəvi örtüyün ölçüsüz kəmiyyətlərdə (5), (6) tənliklər sisteminin həlli bircins tənliyin ümumi həlli və qeyri-bircins tənliyin xüsusi həllinin cəmindən ibarətdir. Bircins tənliklər sisteminin sıfırdan fərqli həllinin olması üçün onun əmsallarından təşkil olunmuş determinant sıfra bərabər olmalıdır.

$$\begin{vmatrix} \left(-\frac{K^2}{\eta} - 1 + \bar{\omega}_t\right) & -i\nu K \\ \frac{\rho a_f^2}{\bar{h} a_t^2} \bar{\mu} K \bar{\omega}_t \left(1 - \frac{\bar{h}}{2}\right) + i\nu K & -K^2 + \bar{\omega}_t^2 \end{vmatrix} = 0$$

və ya

$$\frac{1}{\eta} K^4 + \left\{ -\bar{\omega}_t^2 - \nu^2 + 1 - \frac{\bar{\omega}_t^2}{\eta} + i \frac{\rho a_f^2}{\bar{h} a_t^2} \bar{\mu} K \bar{\omega}_t \left(1 - \frac{\bar{h}}{2}\right) \right\} K^2 + \bar{\omega}_t^4 - \bar{\omega}_t^2 = 0 .$$

Tənliyi həll edərək kompleks K ədədini qabarcıqların həcmi konsentrasiyasından asılı olaraq tapırıq.

$$K = K_R + i K_i \text{ və } \omega = \omega_R + i \omega_i$$

İkifazalı mühit olan qabarcıqlı mayelərin birsürətli hərəkət rejimlərində yaranan rəqslər yayılma istiqaməti boyu sönən akustik həyəcanlanmalar olur.

Qrafikdən göründüyü kimi sərtliyi nisbətən böyük olan borularda K-nın qiymətləri qabarcıqların konsentrasiya əmsalından asılı olaraq, sərtliyi kiçik olanlara nisbətən, kiçik olur. Borunun materialının sərtliyi sonsuz böyüdükcə, rəqslərin koordinatlara görə dekrementinin qabarcıqların konsentrasiya əmsalından asılılığı zəifləyir və getdikcə asılılıq itir; $\alpha_{20} = 0.01 \div 0.1$ üçün demək olar ki, sabit qalır.



Şəkil 1. $E = 200 \cdot 10^6\ Pa; 230 \cdot 10^6\ Pa; 260 \cdot 10^6\ Pa$; $\rho_* = 920\, kq/m^3$ qiymətləri üçün K-nın qabarcıqların konsentrasiyasından asılılığı

Nəticə.1.Tədqiqatın nəticəsində bəlli olmuşdur ki, örtüklərin maye ilə birgə hidroelastikliyi bütöv mühit mexanikasının aktual məsələlərədən biri kimi həll edilməlidir. Bu səbəbdən, mayenin sistemə göstərdiyi təsir qüvvəsini müəyyən edərkən, sistemin öz deformasiyası da nəzərə alınıb. Müasir texnoloji proseslərdə və canlı orqanizmlərdə deformasiyalanan sistemin fiziki və mexaniki xassələrinin qabarcıqlı maye ilə qarşılıqlı təsirin nəticəsindən asılı olduğu göstərilmişdir.

2. Problemin həll prosesində daxilində qabarcıqlı maye ötürülən örtüklərdə qeyri-stasionar dinamik proseslərin qarışığın sıxılan olmasının və özlülüyünün təsirinin qiymətləndirilməsi ilə aparılmış, örtüyün qeyyri-klassik materiallardan hazırlandığı hallarda isə daha mürəkkəb riyazi modelin seçilməsini və məsələlərin 3D formatında riyazi analizinin vacibliyi göstərilir.

3. Baxılan məsələdə mayenin qeyri-birfazalılıq effektinin həll prosesini mürəkkəbləşdirdiyi və sistemin istismarının elmi əsaslarının yaradılmasının vacibliyi göstərilmişdir.

4. Göstərilmişdir ki, rəqslərin koordinatlara görə dekrementinin qiymətləri boru materialının sərtliyinin böyük qiymətlərində nəql olunan maye qarışığının xassələrindən cüzi asılıdır və əksinə, çevik (nisbətən kiçik sərtlikli) borularda maye qarışığının fiziki xassələrinin rəqslərin koordinatlara görə dekrementinin qiymətlərinə təsiri böyük olur.

5. Məqalənin ədədi nəticələri texnoliji proseslərdə, müasir raket-kosmik komplekslərdə, neft-qaz sənayesində, tədricən də canlı orqanizmlərdə baş verən hidrodinamik proseslərin öyrənilməsində tətbiq oluna bilər.

Ədəbiyyat

1. Nigmatulin R. I. Multiphase Dynamics, p464. 1987
2. Volmir A.S. Shells in the flow of liquid and gas: Problems of hydroelasticity. Moscow, 320p. 1979
3. Latifov F.S., Seifullaev F.A. The problem of natural vibrations of an orthotropic cylindrical shell filled with a moving fluid in a linearly elastic medium. Mechanics of machines, mechanisms and materials. №3(12), p50-53. 2010
4. Amenzade R.Yu., Gurbanov S.A., Nagiyev F.B. Waves in an inhomogeneous tube with a flowing two-phase liquid. MKM, vol.39 №4, p555-556. 2003
5. Akbarli R.S, Salmanova G.M. Pulsational motion of a mixture in a vibrating medium with consider flow rate. International Journal on Technical and Physical Problems of Engineering (IJTPE), iss.31 vol.9 №2, p49- 52. 2017
6. Watson G.N. A Treatise on the Theory of Bessel Functions 2nd ed:Cambridge Scienctific Publishers. 1966

References

1. Nigmatulin R. I. Multiphase Dynamics, p464. 1987
2. Volmir A.S. Shells in the flow of liquid and gas: Problems of hydroelasticity. Moscow, p320. 1979
3. Latifov F.S., Seifullaev F.A. The problem of natural vibrations of an orthotropic cylindrical shell filled with a moving fluid in a linearly elastic medium. Mechanics of machines, mechanisms and materials. №3(12), p50-53. 2010
4. Amenzade R.Yu., Gurbanov S.A., Nagiyev F.B. Waves in an inhomogeneous tube with a flowing two-phase liquid. MKM, vol.39 №4, p555-556. 2003
5. Akbarli R.S, Salmanova G.M. Pulsational motion of a mixture in a vibrating medium with consider flow rate. International Journal on Technical and Physical Problems of Engineering (IJTPE), iss.31 vol.9 №2, p49- 52. 2017
6. Watson G.N. A Treatise on the Theory of Bessel Functions 2nd ed: Cambridge Scientific Publishers. 1966

Redaksiyaya daxil olma/Received 15.09.2021
Çapa qəbul olunma/Accepted for publication 14.10.2021

HAVA TƏBƏQƏLİ XARİCİ DİVAR KONSTRUKSİYASININ ƏSAS İSTİLİK TEXNİKİ GÖSTƏRİCİLƏRİNİN TƏHLİLİ

Əkbərova Samirə Misirxan qızı- t.e.n., dosent, Mühəndis sistemləri və qurğularının tikintisi kafedrası, AzMİU, sqiom@yahoo.com

Xülasə. Tədqiqatlar göstərir ki, bina və tikililərın enerji sərfinin 30%- ə qədər azaldılması optimal xarici qoruyucu konstruksiyarın (XQK) optimal layihələndirilməsi və düzqün istismarı ilə bilavasitə bağlıdır. XQK-da baş verən enerji sərfi həm istifadə olunan inşaat materialların istilik-texniki göstəricilərindən həm konstruksiyaların konstruktiv- memarlıq- dizayn həllərindən həm də tikinti rayonun iqlim göstəricilərindən asılıdır. Bu baxımdan bugün respublikamızda binaların fasad həllərində geniş vüsət alan ventilyasiya olunan hava təbəqəli xarici divar konstruksiyalarının istilik-texniki parametrlərinin öyrənilməsi və bu növ fasadların yerli iqlim göstəricilərinə uyğun layihələndirilməsi olduqca aktual məsələlərdən biridir. Məqalə ventilyasiya olunan hava təbəqəli xarici divar konstruksiyalarının termiki müqavimətinin hesablanması xüsusiyyətlərinin analizinə həsr olunub.

Açar sözlər: divar konstruksiyası, istilik izolyasiya qatı, normalaşdırılmış termiki müqavimət əmsalı, hava boşluğu

ANALYSIS OF MAIN HEAT TECHNICAL INDICATORS OF EXTERIOR WALL STRUCTURE WİTH AIR LAYER

Akbarova Samira Misirkhan- PhD in tech. sc., ass. prof., department of Construction of engineering systems and facilities, AzUAC, sqiom@yahoo.com

Abstract. Studies show that the reduction of energy consumption of buildings and structures by up to 30% is directly related to the optimal design and proper operation of the optimal external protective structure. Energy consumption in the wall structures depends on both the thermal and technical parameters of the building materials used, the constructive-architectural-design solutions of the structures and the climatic parameters of the construction area. From this point of view, one of the most important issues in our country today is the study of thermal and technical parameters of ventilated exterior wall constructions and design of such facades in accordance with local climatic indicators. The article is devoted to the analysis of the calculated properties of the thermal resistance of exterior wall structures with ventilated air gaps.

Keywords: wall construction, thermal insulation layer, normalized thermal resistance coefficient, air gap

Giriş. Bina və tikililər ən böyük enerji sərfiyyatçısı olduğu üçün onların enerji effektivliyinin artırılması məsələlərinin tədqiqi dayanıqlı inkişafın mühüm problemlərinə dairdir [1]. Bugün respublikada əksər binaların XQK-rı İN və Q-ı tələblərinə uyğun olmadıqları üçün böyük miqdarda enerji itkilərinə səbəb olurlar, eyni zamanda onların əlavə gücləndirilmiş istilik izolyasiyası əməktutumlu proses olduğu üçün ventilyasiya olunan hava təbəqəli fasadların tətbiqi həm onların optimal istilik-texniki həll yoludur həm də memarlıq baxımından ifadəli və daha da uzunömürlüdür [2]. Ventilyasiya olunan hava təbəqəli xarici divar konstruksiyalarının istilik-nəmlik hesabat metodikası İN və Q 23.02.2003 "Binaların istilik mühafizəsi" əlavə L-ə əsasən aparılmalıdır və aşağıda göstərilən hissələrdən ibarətdir: izolyasiya materialının seçilməsi və qalınlığının hesabatı; konstruksiyanın nəmlik rejiminin hesabatı; hava qatında hava mübadiləsi parametrlərinin, istilik-nəmlik rejimlərinin və buxarkeçirməyə qarşı müqavimətinin hesabatı [3,4].

Divar konstruksiyasını layihələndirdikdə hava qatının qalınlığı elə seçilməlidir ki xarici qatın daxili səthindəki temperatur şeh nöqtəsi temperaturundan yuxarı olsun bu halda şehlənmə prosesi baş verməyəcək və konstruksiya normativ istismar müddətinə uyğun istifadə olunacaq– 50 ilə qədər [5]. Otaqlarda tələb olunan normativ daxili mikroiqlimi təmin etmək üçün İN və Q 23.02.2003

layihələndirmə normalarına görə göstərilən şərtlər ödənilməlidir: 1- sanitar– qoruyucu konstruksiyalar üçün $R_{ü} \geq R^{t.o.}$- ümumi termiki müqavimət normalaşdırılan qiymətdən yüksək olmalıdır; 2- qoruyucu konstruksiyaların enerji səmərəli olması üçün $R_{ü} \geq R^{norm}$, R^{norm}- normalaşdırılmış termiki müqavimət inşaat rayonunun dərəcə-sutka göstəricisinə (DSG) görə hesablanır; 3- $\Delta t \leq \Delta t^n$, Δt^n anın daxili səthinin ətempera, divar üçün Δt^n=6; 4- $R_b^f \geq R_b^{norm}$ R_b^f - qoruyucu konstruksiynın *buxarkeçirməyə* qarşı faktiki müqaviməti, R_b^{norm} - qoruyucu konstruksiynın *buxarkeçirməyə* qarşı normalaşdırılan göstəricisi; 5- $R_h^f \geq R_h^{norm.}$ R_h^f - qoruyucu konstruksiyanın *havakeçirməyə* qarşı faktiki müqaviməti, R_h^{norm} - qoruyucu konstruksiynın *havakeçirməyə* qarşı normalaşdırılan göstəricisi [6].

Sanitar– qoruyucu konstruksiyanın ümumi termiki müqaviməti tələb olunan termiki müqavimətdən böyük və ya ona bərabər olmalıdır: $R_{üm} \geq R^{t.o.}$. əəəXQK-ya üçün:

$$R^{t.o.} = \frac{t_d - t_x}{\Delta t^n \cdot \alpha_d} \cdot n, \frac{m^2 \cdot {}^0C}{Vt}$$ α_d – əəədır, $\alpha_d = 8{,}72\sqrt{\frac{Vt}{m^2 \cdot {}^0C}}$; t_d - daxili havanın hesabi temperaturu; t_d = 20 ^{0}C; t_x - tikinti rayonunda xarici havanın qış hesabi temperaturu. Binanın xarici qoruyucu konstruksiyaları orta inersiyalı qəbul olunur. Soyuq dövr üçün xarici havanın hesabi temperaturu düsturla hesablanır, ^0C: $t_x = \frac{t_{s5} + t_{ss}}{2}$, $t_{s.5}$- isitmə dövründə ən soyuq beş günlük orta temperatur (soyuq dövr- r), ^0C; $t_{s.s.}$- isitmə dövründə ən soyuq sutkalıq orta temperatur, ^0C.

Normalaşdırılmış termiki müqaviməti hesablamaq üçün əvvəlcə tikinti rayonunun DSG-si hesablanır: $D_d = (t_{dax.or} - t_{xar.or}) \cdot z_{i.d.}, {}^0C \cdot sut$. Burada, $t_{dax.or}$ -daxili havanın temperaturu, ^{0}C; $t_{xar.or}$ - isitmə dövründə xarici havanın hesabi temperaturu, ^{0}C; $z_{i.d.}$ - isitmə dövrünün müddəti, st. DSG-si cədvəl 1-də göstərilən parametrlərdən fərqli olduqda normalaşdırılmış termiki müqavimət düsturla hesablanır: $R^{norm} = a \cdot D_d + b, \frac{m^2 \cdot {}^0C}{Vt}$. Ventilyasiya olunan hava təbəqəli xarici divar konstruksiyasının sxemi şəkil 1-də göstərilib və faktiki termiki müqaviməti aşağıdakı düsturla hesablanır [6]:

$$R_{ü} = \left[\frac{1}{\alpha_d} + \sum R_i + R_h + \frac{1}{\alpha_x}\right] \cdot r, \frac{m^2 \cdot {}^0C}{Vt} \quad (1)$$

α_d və α_x-konstruksiyanın daxili və xarici səthlərinin istilikvermə əmsalıdır, $\sum R_i$ -konstruksiyanı təşkil edən qatların termiki müqavimətlərinin cəmidir, qatların istilikötürməyə termiki müqaviməti aşağıdakı düsturla hesablanır: $R_i = \frac{\delta_i}{\lambda_i}, \frac{m^2 \cdot {}^0C}{Vt}$, δ-konstruksiyanı təşkil edən qatın qalınlığı, m; λ-qatın materialının istilikkeçirmə əmsalı, $\frac{Vt}{m^2 \cdot {}^0C}$; R_h-hava təbəqəsinin termiki müqaviməti, $\frac{m^2 \cdot {}^0C}{Vt}$, cədvəl 7-yə əsasən qəbul olunur [5]; r- konstruksiyanın istilik-texniki bircinslik əmsalı [7]. Ventilyasiya olunan hava təbəqəli xarici divar konstruksiyasının hesabatı $R^{t.o.}$ və R^{norm} göstəricilərindən maksimal olanına əsasən aparılmalıdır.



Şəkil 1. Ventilyasiya olunan hava təbəqəli xarici divar konstruksiyası:

a)- termiki müqavimət göstəriciləri I- hava təbəqəli XDK-sı üçün, II- hava təbəqəsi olmayan XDK-sı üçün: b) sxem- 1- əhəng-gum məhlulundan daxili suvaq $\delta = 20mm$; 2- dəmir-beton birləşmələrinə əsaslanan sement-qum məhlulu ilə kərpicdən əsas hörgü $\delta = 250mm$; 3- istilik izolyasiya qatı $\delta = 125mm$; 4- buxarkeçirməyən membran; 5- ventilyasiya olunan hava təbəqəsi $\delta = 50mm$; 6- üzlük paneli- $\delta = 10mm$; 7- alüminium alt konstruksiya

Xarici divar konstruksiyaları üçün DSG-nə görə normalaşdırılan termiki müqavimətin qiymətləri, (D_d,(^{0}C·sut)) –(R_{req}, (m^2 ^{0}C)/Vt):

1.Yaşayış, müalicə profilaktika və uşaq müəssisələri, məktəblər, internat-lar, mehmanxanalar və yataqxanalar- 2000-2,1; 4000-2,8; 6000-3,5;

2.Yataqxanalar (yuxarıda qeyd olunanlardan başqa), inzibati və məişət, istehsalat binaları- 2000-1,8; 4000-2,4: 6000-3,0;

3.Quru və normal rejimli istehsalat binaları- 2000-1,4; 4000-1,8; 6000-2,2.

Divar konstruksiyalarında hava təbəqəsinin effektiv qalınlığı 50-100 mm olduqda onun istilik ötürməyə qarşı müqaviməti normatıv göstəricilərə uyğun hesab olunur. Hava təbəqəsində istiliyin ötürülməsi əsasən süalanma və təbii konveksiya yolu ilə baş verir. Hava təbəqəsinin xarici mühitlə əlaqəsi olduqda konstruksiyanın termiki müqaviməti artır.

Xarici divar konstruksiyasında tətbiq edilən hava təbəqəsindən istilikötürmə məsələsini araşdırarkən məlum olur ki havanın kanala daxil olduğu yerdən hər hansı h hündürlüyündə temperaturun qiymətini istilik balansı tənliyinin həllinə əsasən aşağıdakı kimi təyin etmək olar:

$$t_h = \frac{A + (Bt_d - A)\cdot e^{-\frac{b}{cW}\cdot h}}{B}, \qquad A = \frac{t_d}{R_d} + \frac{t_x}{R_x}, \tag{2}$$

$$B = \frac{1}{R_d} + \frac{1}{R_x}, \; b = \frac{1{,}058}{1 + \frac{t_h}{273}} \tag{3}$$

Əgər hava təbəqəsinə nəzərən xarici qatın daxili səthindəki terperatur şeh nöqtəsi temperaturundan kiçik deyilsə, onda bu növ konstruksiya həmin səthdə şehlənmə prosesinin baş verməməsi nöqteyi-nəzərdən düzgün seçilmiş hesab edilir. Havanın daxil olduğu yerdən h hündürlüyündə xarici qatın daxili səthindəki temperatur aşağıdakı düsturla təyin edilə bilər:

$$t_{x.d} = t_h - \frac{t_h - t_x}{R_x \cdot \alpha} \tag{4}$$

Təbəqə boyu hərəkət edən havanın tərkibindəki su buxarının parsial təzyiqinin təyini üçün analoji olan aşağıdakı ifadəni yazmaq olar:

$$P_h = \frac{A + (BP_x - A)e^{-\frac{b}{cW}\cdot h}}{B}, \qquad A = \frac{P_d}{R_{b.d}} + \frac{P_x}{R_{b.x}}, \qquad B = \frac{1}{R_{b.d}} + \frac{1}{R_{b.x}} \tag{5}$$

$R_{b.d}$ və $R_{b.x}$ - müvafiq olaraq, divar konstruksiya-sının hava təbəqəsindən daxili və xarici tərəfdə olan hissələrinin bu-xarkeçirməyə qarşı müqavimətləri; P_d və P_x - müvafiq olaraq, daxili və xarici mühitdə su buxarının parsial təzyiqləridir.



Şəkil 2. Hava təbəqəli divar konstruksiyasının sxemi

Qeyd edilən hal üçün təbəqədə hava mübadiləsi təzyiq basqısına əsaslanır. Təzyiq basqısı şəkil 2-də göstərilən şaquli hava kanalı üçün aşağıdakı düsturla təyin edilir:

$$\Delta P = h(\rho_x - \rho_{h.or})g \tag{6}$$

g - sərbəst düşmə təcili, m/san^2; ρ_x - havanın təbəqəyə daxil olduğu andakı sıxlığı, kq/m^3; $\rho_{h.or}$ - havanın təbəqədə orta sıxlığıdır, kq/m^3. Qeyd etmək lazımdır ki, təzyiq basqısı qiymətcə hava təbəqəsində havanın hərəkəti zamanı yaranan təzyiq düşküsündən kiçik olmamalıdır. Kanalda havanın təzyiq düşküsü sürtünmə və yerli müqavimətləri dəf etmək üçün sərf edilən təzyiqlərin cəmindən ibarət olub, aşağıdakı ifadə ilə təyin edilə bilər:

$$P_k = \sum(Rl + Z) \tag{7}$$

R - $1m$ uzunluğunda hava kanalında sürtünməyə sərf edilən təzyiq itkisi;
l – hava kanalının uzunluğu; Z – yerli müqavimətlərə sərf edilən təzyiq itkisidir.

Konstruksiyanı layihələndirdikdə hava təbəqəsinin qalınlığını elə seçmək lazımdır ki, təbəqədə havanın saatlıq sərfi həmin konstruksiyada normal istilik və nəmlik rejimi yaratmış olsun. Əgər şaquli konstruksiyalarda hava təbəqəsi nəmlik rejiminin qaydaya salınması üçün tətbiq edilmişdirsə, belə hava təbəqəsində hərəkət edən havanın saatlıq sərfini aşağıdakı düsturla təyin etmək olar:

$$W = \frac{Bh}{b \ln \frac{BP_x - A}{EB - A}} \tag{8}$$

Nəticə. Məqalə ventilyasiya olunan hava təbəqəli xarici divar konstruksiyalarının termiki müqavimətinin hesablanması xüsusiyyətlərinin analizinə həsr olunub. Ventilyasiya olunan hava təbəqəli xarici divar konstruksiyalarının faktiki termiki müqavimətinin hesablanması qüvvədə olan İNvəQ-na uyğun olaraq aparılmalıdır. Tədqiqatlar göstərir ki, konstruktiv həllər iqlim parametrlərinin əsas göstəriciləri nəzərə alınaraq yerli iqlim şəraitinin təsiri ətraflı öyrənildikdən sonra qəbul olunmalıdır. Yuxarıda verilən metodikaya əsasən Bakı şəhərinin iqlim göstəriciləri üçün müxtəlif növ əsas hörgü qatından ibarət olan fasad konstruksiyalarının faktiki termiki müqaviməti aşağıdakı parametrlərə bərabərdir: $\mathrm{R}_{\text{bet}} = 3{,}195\frac{m^2 \cdot K}{Vt}$ - məsaməli beton üçün, $\mathrm{R}_{\text{к}} = 3{,}0089\frac{m^2 \cdot K}{Vt}$ - boşluqlu kərpic üçün. Normalaşdırılmış termiki müqavimət və ona uyğun istilik ötürmə əmsalı bərabərdir: $\mathrm{R} = 3{,}135\frac{m^2 \cdot K}{Vt}$, $\mathrm{U}_0 = 0{,}319\frac{Vt}{m^2 \cdot K}$.

Ədəbiyyat
1.Bikas D. Ventilated Facades: Requirements and Specifications Across Europe. Procedia environmental sciences, p148- 154, 2017,
2. Ciampi M., Leccese F., Tuoni G.Ventilated facades energy performance in summer cooling of buildings. Solar energy. p491- 502, 2003
3. Theodosiou T. Maximizing the building energy performance with advanced ventilated façade systems on existing structures. Protection and Restoration of the Environment. p397- 407, 2017
4.Богословский В.Н. Строительная теплофизика. Высшая школа, 415с, 2012
5.www.alucom.ru/articles/zarubej_opit/o-vozdushnom-zazore-navesnogo-ventiliruemogo-fasada
6.Петриченко М.Р., Петроченко М.В. Гидравлика свободноконвективных течений в ограждающих конструкциях с воздушным зазором. Инженерно-строительный журнал. 201 №8. 51-56с
7.Немова Д.В. Интегральные характеристики термогравитационной конвекции в воздушной прослойке навесных вентилируемых фасадов, Инженерно- строительный журнал №3, 24- 36с, 2013

References
1. Bikas D. Ventilated Facades: Requirements and Specifications Across Europe. Procedia environmental sciences, p148- 154. 2017,
2. Ciampi M., Leccese F., Tuoni G.Ventilated facades energy performance in summer cooling of buildings. Solar energy. p491- 502. 2003
3. Theodosiou T. Maximizing the building energy performance with advanced ventilated façade systems on existing structures. Protection and Restoration of the Environment, p397- 407. 2017
4. Bogoslovskij V.N. Stroitel'naya teplofizika. Vysshaya shkola, 415s. 2012
5. www.alucom.ru/articles/zarubej_opit/o-vozdushnom-zazore-navesnogo-ventiliruemogo-fasada
6. Petrichenko M.R., Petrochenko M.V. Gidravlika svobodnokonvektivnyh techenij v ograzhdayushchih konstrukciyah s vozdushnym zazorom. Inzhenerno-stroitel'nyj zhurnal. 201 №8. 51-56s
7. Nemova D.V. Integral'nye harakteristiki termogravitacionnoj konvekcii v vozdushnoj proslojke navesnyh ventiliruemyh fasadov, Inzhenerno- stroitel'nyj zhurnal №3, 24- 36s. 2013

Redaksiyaya daxil olma/Received 05.10.2021
Çapa qəbul olunma/Accepted for publication 07.11.2021

FÖVQƏLADƏ HALLARIN MODELLƏŞDİRİLMƏSİ PROQRAMLARI

Hacızadə Anar Akif oğlu- doktorant, AzMİU, anar.hacizade.1991@mail.ru

Xülasə. Cəmiyyətin sürətlə inkişaf edən templəri bəşəriyyətin informasiya tələbatının artmasına, qərarların düzgün qəbul edilməsi üçün hər zaman işlərin görülməsinə ehtiyac yaradır. Bu şəraitdə ıınformasiya texnologiyaları və onların əsasında yaradılan İnformasiya Sistemləri qarşıya qoyulmuş məsələlərin həlli üçün mühüm alətə çevrilir.İnformasiya texnologiyalarının əsas məqsədi bəşəriyyətin informasiya ehtiyaclarının ödənilməsidir. Məqalədə dünya üzrə yanğınların inkişafı və xilasetmə işlərinin, ümumiyyətlə fövqəladə hallar sahəsində proqnozlaşdırılma və modelləşdirilmə məsələlərinin həlli üçün proqram məhsulları haqqında araşdırmalar aparılır. Onlardan hər hansı birinin Azərbaycan Respublikasında reqlamentləşdirilmiş metodikalar çərçivəsində hər hansı bir fövqal riskinin hesablanması problemini həll etmək üçün əhəmiyyətli adaptasiya tələb olunur.
Açar sözlər: yanğın, modelləşdirmə, proqnozlaşdırma, qəza riskləri

EMERGENCY MODELING PROGRAMS

Hajizadeh Anar Akif- PhD student, AzUAC, anar.hacizade.1991@mail.ru

Abstract. The rapidly evolving pace of society creates an ever-increasing need for information and the need to always work to make the right decisions. In this context, information technologies and information systems based on them become an important tool for solving problems. The main purpose of information technology is to meet the information needs of mankind. The article researches software products for the development of fire and rescue operations around the world, as well as for forecasting and modeling in the field of emergencies in general. Significant adaptation is required to address the problem of calculating any emergency risk within the framework of the methodologies regulated by any of them in the Republic of Azerbaijan.
Keywords: fire, modeling, forecasting, accident risks

Giriş. Hal- hazırda dünyada yanğının inkişafının, xilasetmə işlərinin aparılmasının və təxliyənin modelləşdirilməsi üçün nəzərdə tutulmuş onlarla proqram mövcuddur. Bu məqalədə yanğınların inkişafının, xilasetmə işlərinin və təxliyənin aparılmasının modelləşdirilməsi üzrə proqram məhsulları sahəsində işlərin vəziyyətini nəzərdən keçirəcəyik. Misal üçün yanğın riskinin hesablanması metodikası yanğının inkişafının üç riyazi modelindən istifadə etməyə və təhlükəli yanğın faktorlarının yayılmasına imkan verir– bu *integral, zona və sahə modelləridir*. Integral və zonalı modellər binaların planlaşdırma həllərinin məhdud hissəsi üçün istifadə edilə bilər. Sahə modeli yanğının baş verməsi barədə ətraflı məlumat əldə etməyə imkan verən universal kompüter modelləşdirilməsi vasitəsidir. Hesablama texnikasının məhsuldarlığının əhəmiyyətli dərəcədə artması nəticəsində sahə modelləşdirilməsi tətbiqi tapşırıqlarda, o cümlədən yanğın riskinin hesablamalarında kütləvi istifadə üçün əlverişli olmuşdur. Yaxın gələcəkdə, yanğın inkişafı hesablamalarının əksəriyyəti sahə modellərinə əsaslanacaq.

Bu gün sahə modeli əsasında yanğınların inkişafının modelləşdirilməsi üçün nəzərdə tutulmuş xarici proqram komplekslərinin iki sinfini qeyd etmək olar: bu, kommersiya və sərbəst yayılan proqram təminatıdır. Birincisi– "SmartFire" (Böyük Britaniya) ikiillik versiyanın qiyməti, təxminən, 12 min dollardır. Pulsuz proqram FDS (ABŞ) və FireFOAM (beynəlxalq layihə). Rusiya Federasiyasında yanğın risklərinin hesablanması zamanı yalnız FDS istifadə olunur,"SmartFire" çox bahalıdır və FireFOAM nisbətən yaxınlarda fəal inkişaf etməyə başladı.

Sərbəst yayılan proqramlar üçün bir sıra spesifik problemlər mövcuddur. Birincisi, açıq kodlara əsasən, hər bir istifadəçi öz riyazi model parametrləri ilə öz proqram variantını yarada bilər. İkincisi, proqramdan istifadənin öyrədilməsi baxımından və risk hesablamalarına tətbiq olunan proqram kompleksinin inkişafı baxımından inkişaf edənlərə dəstək yoxdur. Rusiya Federasiyasında FDS-dən istifadə təcrübəsi deməyə imkanı verir ki, istifadəçilərin əksəriyyəti metodika çərçivəsində

yanğınların inkişafının hesablanmasında istifadə etmək üçün kifayət qədər bacarıqlara malik deyil. Üçüncüsü, tez-tez sərbəst yayılan proqramlar pullu proqram əlavələrinin məlumatlarının rahat daxil edilməsini tələb edir. Dissertasiya işində [1] Matlab Simulink modelləşdirmə sisteminin müasir kompüter vasitələrinin imkanlarından istifadə etməklə yanğınların söndürülməsinin təşkili və yüksək mərtəbəli binalarda xilasetmə işlərinin aparılması proseslərinin idarə edilməsi proseslərinin riyazi modelləri işlənib hazırlanmışdır.

IDEFO, DFD, IDEF3 notasiyalarında beynəlxalq standartların istifadəsinə əsaslanan yüksək mərtəbəli binalarda yanğınların söndürülməsinin təşkili və informasiyalaşdırılması məsələlərinin araşdırılması və həlli olan CALS- texnologiyalarından istifadə etməklə yüksək mərtəbəli binalarda yanğınların söndürülməsinin təşkili üçün idarəetmə qərarlarının qəbul edilməsinə dəstək metodu işlənmişdir. Yüksək mərtəbəli binalarda yanğınların söndürülməsi işlərinin hazırlanması və həyata keçirilməsi proseslərinin imitasiya modelləri imitasiya modelinin həyata keçirilməsinə iki əsas yanaşmanın tətbiqi ilə inşa edilmişdir: imitasiya modelləşdirilməsinin əsas komandalarının piktoqramlarından istifadə etməklə və GPSS World sisteminin assembler əməliyyatlarından istifadə etməklə kompleks şəkildə qoyulmuş məsələnin həlli üçün yeni elmi metod təşkil edir. Alınan nəticələrin praktiki əhəmiyyəti onların yanğınların söndürülməsinin idarə edilməsinin səmərəliliyinin artırılması və yüksək mərtəbəli binalarda xilasetmə işlərinin aparılması, habelə layihələndirilən və inşa edilən yüksək mərtəbəli binaların yanğın təhlükəsizliyinin təmin edilməsi üçün əhəmiyyəti ilə müəyyən edilir.

"Sigma PB" proqram kompleksinin funksional doldurulması onu insanların təhlükəsizliyinin təmin edilməsi ilə bağlı müxtəlif sahələrdə tətbiq etməyə imkan verir [2]. Belə ki, layihələndirmə və istismar mərhələsində (tüstü çıxarma sistemlərinin effektivliyinin öyrənilməsi, hava dayağı daxil olmaqla) Yanğın təhlükəsizliyi mövzusunda bina və qurğuların təhlili üçün ixtisaslaşdırılmış təhsil müəssisələrində təlim trenajorlar (ssenari şəraitindən asılı olaraq yanğın və evakuasiyanın inkişaf xüsusiyyətlərinin əyani öyrənilməsi); obyekt və ətraf ərazidə insan axınlarının təhlükəsiz marşrutlaşdırılmasının təmin edilməsi; yanğın hissələrində (ehtimal olunan ən təhlükəli və ehtimal olunan seçmə-nariyevlər bazası yanğınsöndürənin obyektə daxil olduğu vaxt yanğının ən düzgün-Yatmış inkişafını qiymətləndirmək üçün operativ növbətçi tərəfindən istifadə olunur, obyektə insanların evakuasiya üsulları barədə tövsiyələr verilir). İşdə [3] informasiya sistemini (İS) üç alt sistemə bölmək təklif olunur, onların hər biri öz funksiyalarını yerinə yetirir: bunlar fövqəladə vəziyyətin proqnozlaşdırılması alt sistemidir, texnogen fövqəladə halların nəticələrinin proqnozlaşdırılması alt sistemidir və qərarların qəbulunun dəstəklənməsi alt sistemidir. Nəticədə müəlliflər tərəfindən əsas və müəlliflər tərəfindən hazırlanmış tətbiqi proqram təminatının daxil olduğu fövqəladə halların monitorinqi və proqnozlaşdırılması əsasında idarəetmə qərarlarının qəbul edilməsinə dəstək sisteminin funksional sxemi işlənib hazırlanmışdır.

“Praktikum”-da [4] qəza risklərinin qiymətləndirilməsi metodları və texnologiyaları üzrə praktiki işlər təklif olunur. Qəza risklərinin qiymətləndirilməsi sahəsində müasir nailiyyətlər əks olunub. Qəza təhlükələri haqqında nəzəri və praktiki məlumatlar nəzərdən keçirilir. Risklərin qiymətləndirilməsi üzrə qüvvədə olan normativ- hüquqi sənədlərin siyahısı təqdim edilib. “Praktikum”"Texnosfer təhlükəsizlik" istiqaməti üzrə təhsil alan magistrantlar, həmçinin kadrların ixtisasartırma və peşəkar yenidənhazırlanma kurslarının müdavimləri, sənaye müəssisələrinin əməyin Mühafizəsi üzrə mütəxəssislər və maraqlı oxucuların geniş dairəsi üçün nəzərdə tutulmuşdur.

Müəlliflər [5] tərəfindən müasir mərhələdə fövqəladə halların monitorinqinin effektivliyinin artırılması və proqnozlaşdırılmasının prioritet istiqamətlər kimi aşağıdakıları irəli sürürlər:
1. fövqəladə halların proqnozlaşdırılması və fövqəladə hallarda risklərə reaksiya sahəsində idarə normativ hüquqi aktlarının və metodiki sənədlərin hazırlanması və təsdiq edilməsi; 2.mövcud proqnozlaşdırılma texnologiyaların modernləşdirilməsi və sürətlə inkişaf edən təhlükəli təbiət hadisələrinin və proseslərin proqnozlaşdırılması üçün yeni texnologiyaların işlənilməsi; 3.fövqəladə halların məsafədən monitorinqi sistemlərinin, o cümlədən kosmik aparatlardan istifadə etməklə tətbiq edilməsi; 4.proqnoz məlumatlarının hazırlanması və təqdim edilməsi qaydasının müəyyən edilməsi və Rusiya Federasiyası Fövqəladə hallar nazirliyinin funksional və ərazi alt sistemlərinin əks əlaqələrinin təşkili.

Rusiyalı tədqiqatçının dissertasiya işində [6] təbii fövqəladə halların baş verməsi riskinin qiymətləndirilməsi üçün dəyişdirilmiş Feyn- Kinni metodu təklif edilmişdir. Həmçinin, qeyri-stasionar persistent müvəqqəti sıralar əsasında müşahidə olunan parametrlərə malik təbii fövqəladə halların riyazi modelləşdirilməsi üçün metod təklif edilmişdir. Bu metod mövcud texnologiyalarla müqayisədə müəyyən edilmiş vaxt ərzində daha dəqiq proqnozlar əldə etməyə və fövqəladə halların baş verməsi risklərini minimuma endirməyə imkan verir.

Fövqəladə halların proqnozlaşdırılması məsələlərini həll etmək üçün işdə [7] interfeysin müxtəlif elementləri istifadə olunur. Qrafik qabıq örtüyü funksional modulların yalnız bir hissəsində olur, qalan hissələr müvafiq funksiyalara verilmiş kod parçalarından başqa bir şey deyil. Əks əlaqə elementlərindən istifadə edərək, informasiya sistemlərinin son istifadəçisi proqnoz modellərinin parametrlərinə təsir etmək, bununla da formalaşan həllərin keyfiyyətini və düzgünlüyünü artırmaq imkanına malikdir. Hazırlanmış məlumat-proqnozlaşdırma sistemlərinin istifadəsi proqnozlaşdırma prosesini əhəmiyyətli dərəcədə asanlaşdırmağa imkan verir. Məqalədə [8] monitorinq verilənlərə görə itkilər funksiyaların dəqiq müəyyən edilməsi mümkün olmadıqda alqoritmlərin və təhlükəli obyektlərin vəziyyətlərinin optimal proqnozlaşdırılması və aşkar edilməsi qurğularının sintezi məsələlərin həlli üçün qeyri- klassik yanaşma nəzərdən keçirilmişdir. Təhlükəli obyektlərdə fövqəladə vəziyyətin proqnozlaşdırılması və aşkar edilməsinin alınmış optimal alqoritmlərin əsas fərqi ondan ibarətdir ki, ayırıcı funksiya ixtiyari itkilər funksiyası ilə müəyyən edilir. Bu elmi işdə, həmçinin orta riskin minimal olması baxımından optimal alqoritm tərtib olunmuşdur və itki funksiyalarının müəyyənləşdirilməsi dəqiq mümkün olmadıqda, fövqəladə vəziyyətin proqnozlaşdırması və müəyyən edilməsi üçün optimal birgə qurğu təklif olunmuşdur.Məqalədə [9] mürəkkəb tədqiqat sistemləri nəzəriyyəsi əsasında müəlliflər nəticəyə gəlirlər ki, ABŞ- ın Milli Təhlükəsizlik Konsepsiyasında sistemli yanaşmadan faktor sisteminə keçid baş vermişdir. Risk təhlükəli obyektlərin dayanıqlılığının təhlilinə bu metodoloji yanaşma son illər Rusiya FHN- in mütəxəssisləri tərəfindən uğurla tətbiq edilir. Rusiya Federasiyasının Milli Təhlükəsizlik Konsepsiyasında, əksinə, kompleks təhlükəsizlik problemlərinin sistemli şəkildə nəzərdən keçirilməsi elementləri güclənmişdir. Bu iki tendensiyanı bir-biri ilə müqayisə edərkən, ABŞ-ın Kompleks təhlükəsizliyinin strateji planda Rusiya Federasiyasının kompleks təhlükəsizliyi ilə müqayisədə daha az sabit vəziyyətdə olduğunu təxmin etmək olar.

Məqalədə [10] fövqəladə halların monitorinqi və proqnozlaşdırılması sisteminin təkmilləşdirilməsinin, müasir informasiya texnologiyalarından və kartoqrafik məlumat bazalarından istifadənin aktuallığına baxılır. Xüsusilə, geoinformasiya sistemləri (GIS) sellərin, daşqınların, daşqınların effektiv monitorinqi və proqnozlaşdırılması vasitələrindən biri kimi nəzərdən keçirilir. Məqalədə GİS-in strukturu, praktiki istifadə imkanları və fövqəladə halların proqnozlaşdırılması və monitorinqi üzrə müasir sistemin cavab verməli olduğu tələblər verilir.

Məqalədə [11] qeyd olunur ki, Rusiya FHN- in xilasetmə hərbi birləşmələrinin kadr idarəçiliyi sisteminin rəqəmsallaşdırılması idarəetmə proseslərinin avtomatlaşdırılmasına yönəlmiş zəruri tədbirlər sistemidir. Burada məqsəd idarəetmə qərarlarının qəbul edilməsində rəqəmsal dəstəyin həyata keçirilməsi, həm xilasetmə hərbi birləşmələrinin gündəlik fəaliyyətində, həm də fövqəladə hallar şəraitində böyük həcmdə məlumatların emal edilməsi üçün vaxt və əmək resurslarının azaldılmasıdır. İdarəetmə sisteminin rəqəmsallaşdırılması Rusiya FHN- in xilasetmə hərbi birləşmələrinə xas olan bir çox amilləri (informasiyanın qorunmasının müəyyən səviyyəsini, büdcə maliyyələşdirilməsini, son nəticənin üstünlüyünü, onun həyata keçirilməsinin səmərəliliyi dərəcəsi üzərində məqsədə nail olmaq) nəzərə almağı tələb edir. Bu amillərin yerinə yetirilməsi bütün müasir standartlara cavab verən avtomatlaşdırılmış idarəetmə sisteminin yaradılmasına və qarşıya qoyulmuş vəzifələrdən səmərəli istifadə etməyə imkan verəcək çox sayda şərtləri müəyyən edir.

Nəticə. Yüksək hesablama resurslu ayrılmış- paylanmış yaddaşlı asimmetrik multiprosessorlu hesablama sistemlərinə tələbat elmi tətqiqat işlərində baş verən fundamental dəyişiriklərlə əlaqədar olaraq günbəgün artmaqdadır. Bu məqsədlə çoxsahəli elmi problemlərin tədqiqatları ilə bağlı olan mürəkkəb məsələlərin həll olunması üçün adi kompyuterlərdən istifadə etməklə yüksək səmərəliliyin (işləmə cəldliyinin və hesablama dəqiqliyinin) əldə edilməsi mümkün olur. Bu problemin həllinə bir neçə güclü hesablama sistemindən istifadə edərək klaster sistemi qurmaqla, yəni kompyuter şəbəkəsi ilə əlaqələndirilən və mürəkkəb hesablamaların aparılması tələbolunan bir məsələnin həllinə xidmət edən prosessorlar birliyi yaratmaqla nail olmaq olar. Əksər tətqiqat xarakterli məsələlərin həllində müasir prosessorların gücünün kifayət etməsinə baxmayaraq, onlarla belə prosessorların birləşdirilməsi ilə meynfreymlərdən və superkompüterlərdən istifadə edilmədən qarşıya qoyulmuş məsələnin sürətli və effektiv həll edilməsi mümkün olur ki, bunun üçün də asimmetrik multiprosessor arxitekturalı çoxprosessorlu ASMP- sistemi istifadə edilməklə müxtəlif kompüterlərin prosessorlarında eyni vaxtda hesablamaların aparılmasına imkan verən sistem qurulur.

ASMP arxitekturası bir neçə eyni funksiyalı prosessora, vahid ümumi fiziki yaddaşa, bir giriş-çıxış altsisteminə və bir əməliyyat sisteminə malik olan bircinsli kompyuterlərdən ibarətasimmetrik multiprosessor sistemi kimi təsvir olunur. Bütün prosessorlar əksərən, bir ədəd şinlə və ya da şin ierarxiyası vasitəsi ilə yaddaşın bütün ünvan sahəsinə müraciət edə bilir. Həm də ixtiyari prosessor yaddaşın hər bir xanasına istənilən anda müraciət edə bilər və istənilən giriş-çıxış əməliyyatını yerinə yetirməklə digər prosessorların işinə qadağa qoya bilər.

Çoxprosessorlu klaster sistemində yüksək səmərəliliyin, ələlxüsus müraciətlərin sürətli emalının və ümumi giriş təminatının əldə edilməsi üçün ASMP sistemində xüsusi prosessor-yaddaş kanalı vasitəsi ilə yaddaşa müraciətin təşkili problemi əsas kimi qəbul dilir. Problemin həlli üçün yaddaşa müraciət əməliyyatları prosessor-yaddaş şini ilə ötürülən bir qrup ardıcıl əməllərin yerinə yetirilməsi ilə baş verir.

Ədəbiyyat
1. Козубовский С.Ф. Корреляционные экстремальные системы, Наука думка. 1973
2. Березин С.Я., Каратаев О.Г. Корреляционные измерительные устройства в автоматике, Энергия. 1976
3. Павлов Б.В. Диагностика болезни машин, Машиностроение. 1978
4. Musayev V H. İnternetə giriş, Bakı. 2008
5. Musayev V.H., Ə.İ Şirinov. Komputerlərin texniki təminatı və modelləşdirilməsi. Bakı, 2005
6. Fərhadov A.V. Tibbi diaqnostika. Azərnəşr, 334s. 1998
7. Əliyev R.Ə., Əliyev R.R. Soft kompyütinq. Çaşıoğlu, Bakı. 2004
8. Fərhadov A.V. Kompüter və elm. Elm. Bakı, 294s. 1993
9. Под ред. Б.В. Тарабрина, справочник по ИМС. М:Энергия. 1981
10. Скотт Мюллер Модернизация и ремонт ПК Москва, Вильямс. 2002
11. Гук М. Процессоры INTEL: от Пентиум до İtanium 4M СПб:Питер. 2007
12. Фирма INTEL:http://www.intel.com,http://www. Intel.ru

References
1. Kozubovskij S.F. Korrelyacionnye ekstremal'nye sistemy, Nauka dumka. 1973
2. Berezin S.Ya., Karataev O.G. Korrelyacionnye izmeritel'nye ustrojstva v avtomatike, Energiya. 1976
3. Pavlov B.V. Diagnostika bolezni mashin, Mashinostroenie. 1978
4. Musayev V H. İnternete girish, Baki. 2008
5. Musayev V.H., A.İ Shirinov. Komputerlerin texniki teminati ve modelleshdirilmesi. Baki. 2005
6. Farhadov A.V. Tibbi diaqnostika. Azerneshr, 334s. 1998
7. Aliyev R.A., Aliyev R.R. Soft kompyütinq. Çashioghlu, Baki. 2004
8. Farhadov A.V. Komputer ve elm. Elm. Baki, 294s. 1993
9. Pod red. B.V. Tarabrina, spravochnik po IMS. M:Energiya. 1981
10. Skott Myuller Modernizaciya i remont PK Moskva, Vil'yams. 2002
11. Guk M. Processory INTEL: ot Pentium do İtanium 4M SPb:Piter. 2007
12. Firma INTEL:http://www.intel.com,http://www. Intel.ru

Redaksiyaya daxil olma/Received 13.10.2021
Çapa qəbul olunma/Accepted for publication 12.11.2021

SAMUR-ŞABRAN DAĞƏTƏYİ DÜZƏNLİYİNİN HİDROGEOLOJİ ŞƏRAİTİ, ŞOLLAR SUYUNUN III KƏMƏRİNİN ÇƏKİLMƏSİ PERSPEKTİVLİYİ

Tağıyev İslam İbrahim- geologiya- mineralogiya e.n., dosent, Neft- qaz geologiyası kafedrası, ADNSU
Nurməmmədov Ceyhun Böyükağa- koordinator, Keyfiyyətə nəzarət departament, Heydər Əliyev adına Dərin Özüllər zavodu, nurmemmedov_ceyhun@yahoo.com

Xülasə. Son illərdə Bakı şəhərinin su təchizatının yaxşılaşdırılması məqsədilə dövlət səviyyəsində kompleks tədbirlər həyata keçirilmiş, Samur-Abşeron kanalı yenidən qurulmuş, kanalın bütün uzunluğu boyu (≈180 km) dibdən və yandan üzlük çəkilmiş və itkilərin qarşısı tam alınmış, Taxtakörpü su anbarı inşa edilmiş, Bakıda Ceyranbatan su anbarı yenidən qurulmuş, ən müasir səviyyədə suyun təmizlənməsi üçün texnologiyalardan istifadə edilmiş, suyun həcmi xeyli artmışdır. 2010-cu ildə Qanıx-Əyriçay dağətəyi düzənliyindən məhsuldarlığı 5 m^3/s olan Oğuz-Qəbələ-Bakı su kəməri çəkilmişdir. Bütün bunlara baxmayaraq bu gün də Bakının su təchizatında obyektiv səbəblər üzündən problem yaranmış, odur ki, yaxın 2- 3 il ərzində Samur-Şabran Şollar su kəmərinin çəkilməsinə böyük ehtiyac yaranmışdır. Samur- Şabran dağətəyi düzənliyinin yeraltı sularının axtarış və kəşfiyyatı 1955-1964- cü illərdə aparılmış,1969-cu ildə SSRİ Nazirlər Sovetinin Mineral Ehtiyatlar Kommisiyasında istismar ehtiyatı 9 m^3/s həcmində təsdiq edilmişdir. Proqnoz ehtiyatları isə bundan 2,5- 3,0 dəfə çoxdur. Əfsuslar olsun ki, Sollar su kəmərinin (III) çəkilməsinə 2 dəfə başlanılmış və sonradan dayandırılmışdır.
Açar sözlər: Qanıx- Əyriçay dağətəyi düzənliyi, Bakı su kəməri, Qrunt suları, Çay dərələri, Yeraltı sular

HYDROGEOLOGICAL CONDITIONS OF SAMUR-SHABRAN FOOTHILL PLAIN, SHOLLAR WATER III PIPELINE OF CONSTRUCTION PERSPECTIVES

Taghiyev Islam Ibrahim- PhD in geological-mineralogical sc, ass.prof., department of Oil and gas geology, ASIOU
Nurmammadov Ceyhun Boyukagha- coordinator, department of Quality control, Heydar Aliyev Baku Deep Water Jacket factory, nurmemmedov_ceyhun@yahoo.com

Abstract. In recent years, at the state level, comprehensive measures have been taken to improve the water supply of Baku, the Samur-Absheron canal has been reconstructed, the entire length of the canal (≈180 km) is paved from below and on the sides, and the most modern level, the volume of water has been significantly increased. In 2010, the Oguz-Gabala-Baku water pipeline with a throughput of 5 m3 / s was laid from the foothills of Ganykh-Airichay. Despite all this, for objective reasons, there is still a problem with the water supply of Baku, so there is a great need for the construction of the Samur-Shabran Shollar water pipeline in the next 2-3 years.Exploration and exploration of underground waters of the Samur-Shabran piedmont plain were carried out in 1955-1964, in 1969 the operational reserve was approved by the Commission on Mineral Resources of the Council of Ministers of the USSR in the amount of 9 m3 / s. Forecast reserves are 2.5-3.0 times higher.Unfortunately, the construction of the Shollar (III) water pipeline started twice and then was stopped.
Keywords: Ganikh- Ayrichay foothill plain, Baku water pipeline, Ground waters, River valleys, Groundwater

Giriş. Respublikanın şimal-şərq hissəsində yerləşən Samur-Şabran dağətəyi düzənliyi yerüstü və yeraltı suların ehtiyyatları baxımından ən zəngin hidrogeoloji rayon hesab olunur. Düzənlikdə aeroziya zonasında süxurların yaxşı keçiricilik xüsusiyyətlərinə malik olması, süxurların qədim və müasir dövrümüzün çaylarının gətirmə konuslarının süxurlarının qranulometrik tərkibi, digər tərəfdən atmosfer yağıntılarının çoxluğu ərazidə güclü qrunt və təzyiqli sulu komplekslərinin

yaranmasına şərait yaratmışdır. Samur- Şabran massivinin mürəkkəb geoloji, tektoniki və hidrogeoloji şəraitə malik olmaqla yanaşı Quba, Qusar, Xaçmaz, Şabran rayonlarının əraziləri yerüstü və yeraltı su ehtiyatları ilə zəngindir. Ərazinin yeraltı sularının statik səviyyəsi +1÷ +5m arasında, sulu horizontların (Xəzər, Bakı, Qusar və Abşeron (N_2^2) effektiv qalınlıqlar (110-145 m) süzülmə əmsalı (K) 12,2÷35.7 m/sut qiymətləndirilir. Burada qazılan axtarış, kəşfiyyat və istismar quyularının sərfi 35-66 l/s, xüsusi sərf isə 12 m müəyyən edilmişdir [1]. Yuxarıda qeyd olunanlar aşağıdakı tarixi materiallarla da təsdiq edilr.

1888-ci ildə Bakı şəhərinin duması Milli burjuasiyasının lideri H.Z.Tağıyevin təklifi əsasında Bakıya su kəməri çəkmək üçün layihə tərtib etmək haqqında müsabiqə elan etmişdir. 1893-cü ildə dumanın şəhər idarəsinə 40-dan çox layihə təklif olundu. Kür, Araz, Samur, Altıağac və Göygöl Bakı şəhəri üçün su mənbələri kimi irəli sürüldü.1892-ci ildə Bakıda vəba xəstəliyi yayılmış və şəhər əhalisi böyük itkilərə məruz qalmışdır. Lakin bu xəstəlik Bakıya məhz keyfiyyətli yeraltı su ehtiyatlarının gətirilməsini zəruri etdi. O dövrdə dünyanın məhşur mühəndisləri M. Altuxova, Q. Poyta və E. Lyunla 3 layihə irəli sürmüşdülər və Kür çayından su kəmərinin çəkilməsini təklif etmişdirlər [2,3].

O dövrdə Moskvada bu layihələr "Neptun" elmi-texniki Cəmiyyəti və Daxili İşlər Nazirliyinin Texniki Tikinti Komitəsi tərəfindən bu layihələri qəbul edilmədi. O dövrdə ,Avropanın bir çox iri şəhərlərinin su təchizatını təmin edən V. Lindley Şahdağın ətəklərindən süzülüb gələn təmiz, saf bulaq suyu Xudatın yaxınlığında yerləşən Şollar, Fərzəlioba kəndlərindən çəkilməsi təklif edildi və Tbilisi şəhərində su işçilərinin qurultayında bu layihə təsdiq olundu. Qeyd etməliyik ki, təxminən 60-a qədər su bulaqlarının və qazılmış quyulardan Bakıya ilk dəfə 1917 və 1935-ci illərdə iki su kəməri çəkildi (4 m^3/s) və 100 ildən artıqdır ki, bu su obyektlərinin(bulaq və quyu) əsas hidrogeoloji parametrləri dəyişməz qalır (şək. 1).



Şəkil 1. Tədqiqat aparılan ərazinin sərhədləri

Samur- Şabran düzənliyindəki bütün çaylar yeraltı suların əvəzolunmaz qidalanma mənbəyidir. Onlardan ən böyüyü Samur, Qusarçay, Qudyalçay, Qaraçay, Vəlvələçay və digər çaylardır. Yeraltı şirin sular olan Samur- Vəlvələ çayları arasındakı ərazi paleogen, neogen və dördüncü dövr yaşlı süxurlardan ibarətdir. Daha qədim yaşlı süxurlar ərazinin dağlıq hissələrində yer səthinə çıxır, düzənlikdə isə onlar yalnız dərin quyularla aşkar edilmişdir [4]. Qrunt sularının dərinliyi ərazi boyunca dağətəyi bölgədən, layların gətirmə konuslarının yuxarı hissəsindən Xəzərə doğru 50-70 m-dən 1-3 m-ə qədər azalır, eyn zamanda dəmir yolu boyunca onlar bəzi sahələrdə bulaqlar şəklində yer

səthinə çıxır. Bulaqların sərfi 3-5 l/s-dən 10-15 l/s-ə, bəzi hallarda 32 l/s-ə qədər çatır. Vaxtı ilə Samur və Şabran dağətəyi düzənlikdə 374 qrunt sularının təbii çıxışları qeydə alınmışdır. Onların ümumi sərfi 6257 l/s təşkil etmişdir [5, 6]. Hazırda Bakı və Sumqayıt şəhərlərinin su təchizatı sistemləri üçün sabit və etibarlı su mənbələrinin yaxşılaşdırılması üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Bura Samur-Abşeron kanalının məhsuldarlığının artırılması, itkilərin azalması üçün bərpa işləri və kanalın yenidən qurulması, Taxtakörpü su anbarı, Vəlvələçay-Taxtakörpü və Taxtakörpü-Ceyranbatan kanallarının inşası və digər tədbirlərin böyük əhəmiyyəti olmuşdur (şək. 2).



Şəkil 2. Tədqiqat aparılan ərazinin geoloji xəritəsi

Ərazinin orta dağlıq, dağətəyi və Qusar mailli düzənliyinin qərb hissəsi üçün relyefin yüksək parçalanması, qrunt suyu axınının mailliliyinin və filtrasiya sürətinin yüksək olması, ərazinin yaxşı drenləşməsi xarakterikdir. Bu səbəbdən, ərazidə qrunt suyu rejiminin iqlim tipi üstünlük təşkil edir. Qrunt suyu səviyyəsinin qalxması çoxsaylı bulaqların sərfini artırır, enməsi isə müvafiq olaraq, onların sərfini azaldır. Qrunt suyu səviyyəsinin dəyişməsi daha çox Samur-Abşeron kanalının trassı boyunca olan düzənlik hissədə baş verir. Qrunt sularının təbii rejimi bu ərazidə iqlim və hidrogeoloji tip, pozulmuş rejimi isə istismar və irriqasiya-iqlim tipi kimi xarakterizə olunur. Regionun bu hissəsində çoxsaylı bulaqlar çox vaxt sabit sərfi, səviyyə rejiminin zamana görə az dəyişkən olması ilə fərqlənir [7].

Qrunt sularının iqlim tipi regionun suvarılmayan və qrunt sularının dərin yatıma malik sahələri üçün xarakterikdir. Çay dərələrinin yaxınlığında başlıca olaraq, çayların aşağı axınlarında qrunt sularının hidroloji rejim tipi müşahidə olunmaqdadır. Təbii iqlim amillərinin təsiri altında, aktiv suvarma şəraitində qrunt sularının irriqasiya-iqlim rejim tipi formalaşır. Qrunt sularının keyfiyyəti suvarmaya verilən suyun tərkibindən asılı olaraq, il boyu dəyişir, temperaturu düzənliyin əksər hissəsindəki bulaqlarda 12,5- 15ºC arasında tərəddüd edir. Cüzi temperatur dəyişməsi (2-3ºC)payız fəslində yayın istiliyinin saxlanılması və qışda azalması ilə əlaqədardır. Qrunt suları, bir neçə metrdən 50 m-dək və dağlıq zonalarda daha çox dərinliklərdə rast gəlir. Ərazi üzrə hidrorelyefin mailliyi 0,002-dən 0,017-dək dəyişir. Çayarası ərazinin şimal hissəsində qrunt suları yerləşən süxurların qalınlığı 113,8 m-dək çatır, cənub hissədə kəsilişin alt hissəsindəki təzyiqli sularla əlaqədar olaraq, onların qalınlığı 60 m-dək azalır. Atmosfer çöküntüləri, o cümlədən Qudyalçayın və Ağçayın səth sularından yeraltı sulara infiltrasiya əlverişli sukeçirən qusar lay dəstəsinin çaqıllı süxurlarının inkişaf etdiyi sahələrdə və çayların gətirmə konusunda yeraltı sulaın ehtiyatının artmasında böyük rol oynayır.

Nəticə. Cənubi Qafqazda təxminən 300 milyard m^3 su resurslarından cəmi 10%-nin Azərbaycanın payına düşdüyünü, onun gələcək sosial və iqtisadı səviyyəsinin su resurslarından asılılığını nəzərə alaraq Qanıx-Əyriçay və Samur-Şabran dağətəyi düzənlikləri dövlət qoruğu səviyyəsində mühafizə olunmalıdır. Xüsusilə bu ərazilərdə meşə massivlərinin qorunması həyata keçirilməlidir. Meşələr sulu komplekslərin qidalanmasında, dağlıq və dağətəyi zonalarda torpaq sürüşmələrinin qarşısını alır, eyni zamanda havanı tənzimləyir və fetonsit rolunu oynayır, yəni zərərli mikroorqanizmləri məhv edir. Bir hektar meşə ərazisi 10- 20 ton CO_2 udaraq əvəzinə O_2 ixrac edir, bu da 1 saatda 200 nəfərin nəfəsi ilə havaya buraxılan CO_2-nin həcminə bərabərdir. Çayların gətirmə

konuslarında yeraltı su yataqlarının (qrunt və təzyiqli), istismar ehtiyatlarının formalaşmasında suvarma sistemlərindən olan infiltrasiya, qonşu sulu komplekslərinin elastiki ehtiyatları da iştirak edir. Gətirmə konuslarının sulu horizontları adətən yüksək su keçiriciliyi, böyük qalınlığı və çox təbəqəli olması ilə xarakterizə olunur.

Ədəbiyyat

1. Geology of Azerbaijan. Hydrogeology. Nafta- Press. Baku, p380. 2008
2. Israfilov Yu.H., Israfilov R.H., Guliyev H.H., Efendiyev G.M. Risk assessment of the water resources losses of the Azerbaijan republic due to climate changes. news of ANAS, Earth Scineces, №3-4. 2016
3. Tagiev I.I., Ismailov T.A., Aliev F.Sh. Underground waters of the Republic of Azerbaijan, their resources, state of use and problems of protection from pollution and depletion. Ministry of Science and Technical Committee Ros. Fed. Bseros. Institute of Sctific and Technical Information (VINITI). Moscow, p28- 65. 1996
4. Tagiev I.I., Babaev N.I. Some geochemical and hydrogeological, regularites of formation and distribution of mineralwaters of Azerbaijan. XXXIX International scientific- practical conference, Actual problems in modern sience and ways of their solutions. Moscow, p15- 19. 2017
5. Tagiev I.I. Status and problems of protection of the environment and nature use in the Republic of Azerbaijan, Ministry of Science and Technology of the USSR, Moscow. 2001
6. Tagiev I.I., Kerimov V.M. Prospects for the development of alternative energy and the use of thermal waters in Azerbaijan. Ural Geolog. journal 3(141), p51- 57. 2021
7. Kerimov V.M., Sharifov J.J., Mammadli M.Z. Hydrogeological conditions of the Ganykh-Ayrichay valley. In the book: the development of science and practice in a globally changing world in terms of risks. Collection of materials of the IV International scientific- practical conference. Makhachkala. 71-76c, 2021, doi: 10.34755/irok.2021.46.94.048

References

1. Geology of Azerbaijan. Hydrogeology. Nafta- Press. Baku, p380. 2008
2. Israfilov Yu.H, Israfilov R.H., Guliyev H.H., Efendiyev G.M. Risk assessment of the water resources losses of the Azerbaijan republic due to climate changes. news of ANAS, Earth Sciences, №3-4. 2016
3. Tagiev I.I., Ismailov T.A., Aliev F.Sh. Underground waters of the Republic of Azerbaijan, their resources, state of use and problems of protection from pollution and depletion. Ministry of Science and Technical Committee Ros. Fed. Bseros. Institute of Scientific and Technical Information (VINITI). Moscow, p28- 65. 1996
4. Tagiev I.I., Babaev N.I. Some geochemical and hydrogeological, regularites of formation and distribution of mineralwaters of Azerbaijan. HKHKHIH International scientific- practical conference, Actual problems in modern science and ways of their solutions. Moscow, p15- 19. 2017
5. Tagiev I.I. Status and problems of protection of the environment and nature use in the Republic of Azerbaijan, Ministry of Science and Technology of the USSR. Moscow. 2001
6. Tagiev I.I., Kerimov V.M. Prospects for the development of alternative energy and the use of thermal waters in Azerbaijan. Ural Geolog. journal 3(141), p51- 57. 2021
7. Kerimov V.M., Sharifov J.J., Mammadli M.Z. Hydrogeological conditions of the Ganykh-Ayrichay valley. In the book: the development of science and practice in a globally changing world in terms of risks. Collection of materials of the IV International scientific- practical conference. Makhachkala. 71-76c, 2021, doi: 10.34755/irok.2021.46.94.048

Redaksiyaya daxil olma/Received 05.10.2021
Çapa qəbul olunma/Accepted for publication 07.11.2021

ODUNCAQ KONSTRUKSİYALARININ YANMA PROSESİ VƏ ONLARIN YANĞINDAN MÜHAFİZƏ ÜSULLARI

Yəhyayev Aydın Bilal oğlu– t.e.n., dosent, Materialşünaslıq kafedrası, AzMİU, yahyayev.azasu@bk.ru
Rəfili Şahmar Firqət oğlu– doktorant, Fövqaladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi kafedrası, AzMİU
Hacıyeva İradə Balay qızı– asistent, Fövqaladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi kafedrası, AzMİU

Xülasə. Məqalədə, xalq təsərrüfatının müxtəlif sahələrində tətbiq edilən oduncaq konstruksiyalarının yanğın şəraitlərində yaratdıqları təhlükələrdən və itkilərdən mühafizə üsul və vasitələri haqqında materiallar yer almışdır. Burada, ölkənin ictimai və yaşayış tikililərində son illərdə baş verən və ağır nəticələrlə yadda qalan yanğın yerləri göstərilmişdir. Əsərdə həm də, Respublikada polimer, o cümlədən oduncaq materiallarının odadavamlılığının yüksəldilməsi istiqamətində aparılan işlərin vəziyyəti və perspektivləri haqqında materiallar da verilmişdir. Məqalədə, dünya praktikasında tətbiq edilən oduncaq konstruksiyalarının odadavamlılığının yüksəldilmə üsul və vasitələrinin təhlili aparılmış və ölkə daxilində belə emalların yerinə yetirilməsi üçün əlverişli olan variantlar göstərilmişdir.
Açar sözlər: yanma, odadavamlılıq, oduncaq konstruksiyaları, yoxlama üsulları, yanğın təhlükəsizliyi, yanma şəraiti, hopdurma tərkibləri

PROCESS BURNING OF WOODEN DESIGNS AND METHODS OF THEIR FIRE PROTECTION

Yakhyayev Aydin Bilal– PhD in tech. sc., ass. prof., department of Materialis science, AzUAC, yahyayev.azasu@bk.ru
Refili Shahmar Firqet– PhD student, department Emergency situations and life safety, AzUAC
Hajiyeva Irada Balay– asistant, department Emergency situations and life safety, AzUAC

Abstract. Materials the showing losses causal to different branches of the national economy of burning of wooden designs in the conditions of the fire and also methods and means of their protection are reflected in article. Here too, the places of the fires which arose in the republic the last years in constructions of public and housing appointment which are remembered with serious consequences are shown. In work materials the characterizing states and the prospects of the carried-out works in the field of increase in fire resistance of polymeric, including and wooden materials are presented. At the end works of world practice in the field of increase in fire resistance of wooden designs are analyzed and acceptable options for the republic of ways and means of fire protection of these materials are shown.
Keywords: burning, fire resistance, wooden designs, test methods, fire safety, conditions burning, impregnating structures

Giriş. Dünyada baş verən yanğınlar və onların yaratdığı itkilər haqqında davamlı və kifayət qədər ətraflı statistik məlumatlar almaq mümkün olmadığından, oduncaq materiallarının yanğın təhlükəsizliyinin azalması istiqamətində aparılan işlərin iqtisadi səmərəliliyi də azalır. Ancaq, bu materialların oddan mühafizəsinin vacib olduğu məlumdur və bir sıra ölkələrin inşaat normaları (İngiltərə, ABŞ, Norveqiya və s), onların ictimai tikililərdə, yüksəkmərtəbəli binalarda istifadəsini məhdudlaşdırır, eyni zamanda yalnız oddan mühafizə emalı keçmiş oduncaq materiallarının tətbiqinə icazə verirlər [1,2]. Keçən əsrin 80- ci illərində tətbiq edilən Reqistr qaydalarına görə yaşayış və ictimai tikililərin yanan və çətinalışan materiallarla şərti yüklənməsini 1kv. m. döşəmə sahəsi üçün 45 kq-dan çox olmamaqla təyin edilmişdir. Bu tələbi yerinə yetirmək üçün tikililərin arakəsmələrini,

divarların üzlüklərini və mebellərini yanmayan və ya çətinyanan oduncaq materiallarından hazırlanması vacibdir [3,4].

Yanma– mürəkkəb fiziki-kimyəvi prosesdir və baş verən oksidləşmə reaksiyasının sürətinə əsaslanmaqla böyük miqdarda istiliyin və alovun ayrılması ilə müşaiət edilir. Oduncaq materiallarına baxdıqda isə, onlar yanma (açıq alov) və ya yalnız qızdırma (yüksək istilikdən öz-özünə alışma) mənbəyi olduqda alışırlar. Yanğın zamanı həmişə açıq alov müşahidə edilir, tikililərin içərisində yanğının inkişafı isə, əsasən də ilkin mərhələdə konveksiya prosesi, sonrakı mərhələdə isə istilik şüalanması ilə şərtlənir. Uyğun olaraq, materialların yanğın təhlükəsinin əsas xarakteristikasına onun alışması aid edilir. İstilik şüalanmasında oduncağın alışma temperaturu 290-410 ^{0}C, konveksiya ilə qızmada 450 ^{0}C, öz-özünə alışmada isə 490 ^{0}C həddində dəyişir. Alışma temperaturu oduncağın cinsindən, səthin formasından və digər xüsusiyyətlərdən, həm də şəraitin təyin edilməsindən asılıdır [3].

Yanğından mühafizə üçün elə tərkiblərdən istifadə edilir ki, onların komponentləri yanğına kompleks təsir etsin: bərk fazada – selüloza materiallarının parçalanma prosesini dəyişdirir; qaz fazasında – parçalanma məhsullarının oksidləşməsinin qarşısını alır. Sellüloza materiallarının yanğından mühafizə tərkiblərinin reseptləri və üsulları müxtəlifdir və dünyada onların sayı 6 mindən çoxdur. Oduncaq materiallarının yanğından mühafizəsi ən çox onların səthinə yanğınadayanıqlı örtüklərin çəkilməsi ilə aparılır, əsasən də bu yanğın yoxlamalarında əsas kriteriya kimi səth üzrə alovun yayılma sürəti qəbul edilən ölkələrdə (İngiltərə, ABŞ və s.) daha çox yayılmışdır. Bəzi ölkələrdə isə (əsasən postsovet ölkələrində) yoxlamalar əvvəlcə keramiki boru üsulu, sonra isə yanğın göstəricisinin kalorimetrik təyin edilməsi ilə yerinə yetirilir. Yalnız kalorimetrik yoxlamalarda nümunələrin müəyyən edilmiş ölçüləri 150x60x30 mm bəzi materialların qalınlıqları ilə uyğun gəlmir. Ona görə yoxlamaların nəticələri standart yoxlama kimi qəbul edilmir [5].

Müasir dövrdə xalq təsərrüfatının bütün sahələrində oduncaq və oduncaq materiallarının istifadəsi əhəmiyyətli dərəcədə artmışdır. Eyni zamanda belə materiallar tikilən obyektlərin eləcə də bütünlükdə binaların yanğın təhlükəsizliyini artırır. Ona görə də, oduncaq və oduncaq materialları əsasında tikililərdə yaradılan daxili tərtibat elementlərinin yanğın təhlükəsizliyinin təminatı istiqamətində rasional üsul və vasitələrin axtarışı aktual məsələlərdən biridir.

Işin əsas məqsədi – Respublikada oduncaq konstruksiyalarının odadavamlılığının yüksəldilməsi istiqamətində aparılan işlərin vəziyyətinin öyrənilməsi və tətbiq edilən emal üsul və vasitələrinin əlverişli variantlarının müəyyən edilməsindən ibarətdir.

Müzakirələr və təhlillər. Məlumdur ki, xalq təsərrüfatına və əhaliyə yanğınların vurduğu ziyanların qarşısının alınmasında oduncaq konstruksiyalarının və mebellərin yanğından mühafizəsinin əhəmiyyəti çox böyükdür. Amma, bu istiqamətdə aparılan işlər və görülən tədbirlər çox aşağı səviyyədədir. Məsələn, əsasən Respublikada xüsusi təyinatlı ictimai binaların, o cümlədən uşaqların saxlanma yerləri, təlim-tərbiyə mərkəzləri, tibb və idman müəssisələri, istirahət yerlərində tətbiq edilən yanğından mühafizə tədbirləri, orada yalnız ilkin mühafizə vasitələrinin quraşdırılması ilə yekunlaşmış olur. Ancaq, tikililərin daxili və xarici tərtibatlarında istifadə edilən materialların odadavamlılıq xüsusiyyətləri nəzərə alınmır. Ölkədə belə hallara tez-tez təsadüf edilir. Yəni, son illərdə yalnız Bakı şəhəri və ətraf qəsəbələrdə: Sədərək Ticarət Mərkəzi, Binə Ticarət Mərkəzi, Bilgəh qəsəbəsində Qocalar evi, Azadlıq prospektindəki Yaşayış binası, 8-ci kilometr massivindəki Ticarət mərkəzində baş verən yanğınların xalq təsərrüfatına və əhaliyə vurduğu ziyan və itkiləri xatırlatmaq kifayətdir. Bu yanğınların baş verməsinin başlıca səbəblərindən biri də, tikililərdə köməkçi və ya əsas materiallar kimi yanğından mühafizə emalı keçməyən materiallardan istifadə edilməsidir. Qeyd etmək lazımdır ki, belə hallara nəzarət Fövqəladə Hallar Nazirliyinin uyğun təşkilatları tərəfindən yerinə yetirilir.

Respublikada oduncağın modifikasiyası istiqamətində keçən əsrin 60-70 ci illərində neft məhsullarının tullantılarından istifadə etməklə oduncağın atmosferədavamlılığının artırılması istiqamətində elmi-tədqiqat işləri aparılmışdır. Hətta, istehsalat şəraitində kiçik partiyalarla oduncaq materiallarının atmosferə-davamlılıq emalı yerinə yetirilmişdir. Oduncaq materiallarının yanğından mühafizəsi istiqamətində bu vaxta qədər Respublikada heç bir elmi-tədqiqat işi və ya istehsalat şəraitində belə bir emal prosesi aparılmamışdır. Qeyd etmək lazımdır ki, indiyə qədər ölkədə polimer

materiallarının o cümlədən oduncaq konstruksiyalarının odadavamlılığının təyin edilməsi üçün nə uyğun laboratoriya, nə də ən sadə bir qurğu belə olmamışdır [6]. Yalnız, çox nadir hallarda və xüsusi təyinatlı fərdi və ictimai tikililərin inşaası və onların daxili və xarici tərtibat işlərində istifadə edilən polimer, o cümlədən oduncaq materiallarının yanğından mühafizəsi üçün onların səthinə daxili bazarda təklif edilən və xarici ölkə istehsalı (RF, Belarusiya və s.) olan vasitələrdən istifadə etməklə odadavamlı örtüklər çəkilir. Ona görə də, Respublikada odadavamlı tərkiblərin işlənməsi və onların istehsalat tətbiqi, oduncaq matertiallarının odadavamlılıq səviyyəsinin yoxlanması məsələlərinin təşkili günün vacib problemləri sırasına aid edilə bilər.

Konstruksiyaların odadavamlılığı, yanğın şəraitlərində özlərinin daşıyıcı xüsusiyyətləri və dayanıqlığı qorunub saxlanan vaxtın dəvamiyyəti ilə xarakterizə olunur. Oduncaq konstruksiyalarının odadavamlılığı (0,5-0,75 saat) metal konstruksiyalarla müqayisədə kifayət qədər yüksək, dəmir-beton konstruksiyalardan isə azdır. Uyğun olaraq oduncaq konstruksiyaları yanğına dayanıqlı hesab edilir, amma onlar yanan materiallara aiddir. Alovun təsiri altında oduncağın səthi 0,6-1,0 mm/dəq sürəti ilə kömürləşir. Kömürləşmə nəticəsində konstruksiya elementlərinin işçi en kəsiyi azalır, qızma nəticəsində oduncağın möhkəmliyi aşağı düşür, bu da konstruksiyanın dağılmasına səbəb olur. Oduncağın dayanıqlı yanması, onun 250-300 ^{0}C –yə qədər qızmasından sonra baş verir [7].

Oduncaq konstruksiyalarının yanğına qarşı dayanıqlığı aparılan konstruktiv və kimyəvi üsullarla təmin edilir.

Konstruktiv üsullara əsasən aşağıdakılar aid edilir: konstruksiyanın oduncaq elementlərinin bütöv və iriölçülü olması; onlarda iti tillərin və çıxıntı hissələrinin olmaması; səthlərdə yarıq və çatların olmaması; binaların örtük elementlərinin boşluqsuz olması; binalarda örtük elementləri kimi yanmayan materialların tətbiq edilməsi; elementlərin səthinə müxtəlif tərkibli maddələrin çəkilməsi, onların asbessement və ya qips vərəqləri ilə örtülməsi, həm də qalınlığı 1,5 sm ştukatur çəkilməsi ilə mühafizə edilə bilər.

Kimyəvi üsullarla oduncaq konstruksiyalarını yanğından qorumaq üçün onları ya antipiren tərkibləri ilə hopdururlar, ya da oduncaq elementlərinin səthlərinə müxtəlif odadavamlı tərkibə malik örtüklər çəkirlər.

Odadavamlı tərkiblərin hopdurulması oduncağın tez alışması və yanmasının qarşısını alır, həm də konstruksiyaların səthi üzrə alovun yayılma sürətini azaldır. Alınan konstruktiv elementlər çətinyanan və ya çətinalışan materiallara aid edilirlər. Çətinyanan oduncaq elementləri silindrlərdə və təzyiq altında 75 kq antipirenin sulu məhlulunun 1m^3 oduncağa hopdurulması ilə əldə edilir. Çətinalışan elementlərdə isə 1 m^3 oduncağa 50 kq-dan az olmayaraq antipiren hopdurulmalı və bundan sonra elementlərin səthləri atmosferə dayanıqlı yanğından mühafizə boyası ilə örtülməlidir [8]. Oduncaq elementlərinin yanğından mühafizəsi odadavamlı lak-boya tərkibli örtüklərinin onların səthlərinə çəkilməsi ilə əldə edilir. Odadavamlı lak-boya örtüklərinin sərfi quru qalıq hesabı ilə (əsasən boya örtükləri üçün)100 q/m^2 –dən az olmamalıdır. Bu üsulda mühafizə effekti: 1) oduncaq elementlərinin qızması ilə səthlərindəki antipiren tərkibləri əriyərək, oduncağı nazık pərdə ilə örtür, bu pərdə isə öz növbəsində yanma sahəsinə oksigenin daxil olmasının qarşısını almaqda; 2) səthdəki antipiren tərkibli örtüyün parçalanması ilə böyük miqdarda yanmayan qazlar ayrılır ki, onlar da yanan səthdən havanı kənarlaşdırmaqda - böyük rol oynayırlar.

НПБ 251-98 –in tələblərinə uyğun olaraq oduncağın yanğından mühafizə effektivliyi üç qrupa ayrılması qəbul edilmişdir: I qrup yanğından mühafizə effektivliyi – oduncağın maksimal mühafizə edilməsini nəzərdə tutur. Bu qrup nümunələrinin yanğın yoxlamalarında çəki itkisi bütünlükdə 9%-dən çox olmur. Hesab edilir ki, 1-ci odadavamlılıq qrupuna uyğun emal imkan verir ki, oduncaq konstruksiyaları 150 dəq. müddətində yanmadan qorunsun. II qrup effektivlikdə - nümunələrin çəki itkisi 9-25 % həddində olur. Bu qrupda odadavamlılıq emalından sonra oduncaq konstruksiyaları çətinalışan kateqoriyaya aid edilirlər. Bu halda konstruksiyaların yanğına müqavimət müddəti 90 dəqiqəyə qədər olur. Göründüyü kimi, II effektivlik qrupu I qrupa nisbətən daha az effektivliyə malikdir. III effektivlik qrupunda - oduncağın yanğından minimal mühafizəsi təmin edilir. III qrupa uyğun odadavamlılıq emalı, əsasən aşağı odadavamlılıq əmsalı olan fərdi tikililərdə tətbiq edilir [7].

Qeyd etmək lazımdır ki, hər bir istismar edilən obyektə təyinatından asılı olaraq, onun odadavamlılıq sinifi təyin edilir. Belə ki, insanların daha çox toplaşdığı yerlər (kinoteatrlar, restoranlar, məktəblər, stadionlar, idman zalları və s.) I qrupa aid edilir. Yanğın şəraitlərində oduncaq konstruksiyalarının odadavamlılığı ən çox QOST R 53292-2009 "Tərkib və materialların odadavamlılığa görə yoxlanma üsulları" standartına əsasən " Keramiki boru üsulu" ilə və QOST R 51032-97 "Materialların səthi üzrə alovun yayılma sürətinin təyin edilmə üsulu" standartına əsasən təyin edilir.

Birinci halda materialların odadavamlılıq göstəriciləri, oduncaq nümunələrinin yoxlamalarda çəki itkisinə görə aşağıdakı ifadə ilə təyin edilir.

$$P = \frac{(m_1 - m_2)\cdot 100}{m_1}$$

burada m_1 – nümunələrin yoxlanmaya qədərki çəkiləri, qr; m_2 – nümunələrin yoxlamadan sonra çəkisi, qr. Ikinci halda isə yanğın şəraitlərində oduncağın səthi üzrə alovun yayılma sürəti aşağıdakı idadə ilə təyin edilir.

$$v_1 = \frac{l}{t_1} \text{ m/dəq},$$

nümunənin yanma sürəti isə

$$v_2 = \frac{y_1 - y_2}{t_2} \text{ qr/dəq}$$

burada: l – nümunənin yanmış hissəsinin uzunluğu, m; t_1– alovun nümunəyə (alovun təsir anından) yayılma vaxtı, dəq; y_1 və y_2- nümunənin yoxlamadan əvvəlki və sonrakı çəkiləri, qr; t_1– nümunənin tüstülənmə vaxtını nəzərə almaqla yanma vaxtıdır, dəq.

Nəticə. 1. Son illərdə respublikanın ümumi təyinatlı tikililərində görülən yanğın təhlükəsizliyi tədbirləri, bu obyektlərdə yalnız ilkin mühafizə vasitələrinin quraşdırılmasından ibarət olmuşdur, ancaq tətbiq edilən oduncaq materialları və onların əsasında hazırlanan konstruksiyaların odadavamlılığı nəzərə alınmamışdır.

2. Oduncaq konstruksiyaları əsasında inşa edilən və tikililərdə tətbiq edilən oduncaq materialları və konstruksiyalarının odadavamlılığının artırılması, ölkə daxili istismar və istehsalat şəraitlərinə uyğun olaraq, konstruktiv və səthlərə odadavamlı örtüklərin çəkilmə üsulları ilə aparılması məqsədəuyğundur.

3.Odadavamlılıq emalı keçən oduncaq konstruksiyaları nümunələrinin yoxlanmasının "Keramiki boru üsulu" və "Materialların səthi üzrə alovun yayılma sürətinin təyin edilmə üsulu" ilə aparılması məqsədəuyğundur.

Ədəbiyyat

1. Анохин Е.А. Повышение класса пожарной опасности деревянных конструкций длительного срока эксплуатации. М.: Акад. МЧС России, 171с. 2017

2. Гилетич А.Н., Хасанов И.Р., Макеев А.А. Пожарная безопасность многоэтажных зданий из деревянных конструкций, Пожарная безопасность. М.: ВНИИПО № 2, 116- 125с. 2014

3. Леонович А.А., Ани Э.В. Огнезащита древесных материалов, Эксп. инфор. №11, 13- 17с. 1980

4. Рекомендации по применению огнезащитных покрытий для деревянных конструкций.: ВНИИПО. 24с, 1983

5. Рыков Р.И. Оценка эффективности антипиренов для деревянных конструкций, Лесной журнал №5, 81-84с, 1983

6. Ханмамедов Г.М. Ускоренная сушка древесины в безводных жидкостях с одновременной ее пропиткой. Баку: Азернефтнешр, 178с, 1965

7. Хасанов И.Р. Особенности пожарной безопасности зданий из деревянных конструкций, Пожаровызрывоопасность. М.: ВНИИПО №11, 51- 60с, 2016

8. Яхьяев А.Б. Разработка технологию изготовления трудногорючих древесностружечных плит. Минск: БГТУ, 184с, 1990

References

1. Anohin E.A. Povyshenie klassa pozharnoj opasnosti derevyannyh konstrukcij dlitel'nogo sroka ekspluatacii. M.: Akad. MCHS Rossii. 171s., 2017
2. Giletich A.N., Hasanov I.R., Makeev A.A. Pozharnaya bezopasnost' mnogoetazhnyh zdanij iz derevyannyh konstrukcij, Pozharnaya bezopasnost'. M.: VNIIPO № 2, 116- 125s, 2014
3. Leonovich A.A., Ani E.V. Ognezashchita drevesnyh materialov, Eksp. infor., №11, 13- 17s, 1980
4. Rekomendacii po primeneniyu ognezashchitnyh pokrytij dlya derevyannyh konstrukcij.: VNIIPO. 24s, 1983
5. Rykov R.I. Ocenka effektivnosti antipirenov dlya derevyannyh konstrukcij, Lesnoj zhurnal №5, 81-84s, 1983
6. Xanmamedov G.M. Uskorennaya sushka drevesiny v bezvodnyh zhidkostyah s odnovremennoj ee propitkoj. Baku: Azerneftneshr, 178s, 1965
7. Hasanov I.R. Osobennosti pozharnoj bezopasnosti zdanij iz derevyannyh konstrukcij, Pozharovyzryvoopasnost'. M.: VNIIPO №11, 51- 60s, 2016
8. Yah'yaev A.B. Razrabotka tekhnologiyu izgotovleniya trudnogoryuchih drevesnostruzhechnyh plit. Minsk: BGTU, 184s, 1990

Redaksiyaya daxil olma/Received 15.09.2021
Çapa qəbul olunma/Accepted for publication 14.10.2021

İQTİSADİYYAT

ЭКОНОМИКА **ECONOMICS**

MÜASİR ŞƏRAİTDƏ MARKETİNQİN İDARƏ EDİLMƏSİNİN YENİ MEYİLLƏRİ

Ağayeva Könül Asəf qızı - i.f.d, dosent, Biznesin iqtisadiyyatı və menecment kafedrası, AzMİU, konul.aghayeva@gmail.com
Qəribov Rahad Tanrıverdi oğlu - t.f.d., dosent, Biznesin iqtisadiyyatı və menecment kafedrası AzMİU, rahadqaribov@gmail.com
Quliyeva Cahan Niftalı qızı- müəllim, İqtisadi nəzəriyyə və marketinq kafedrası, AzMİU, cahan.quliyeva0901@mail.ru

Xülasə. Müasir şəraitdə istehsal– texnoloji proseslərinin dinamik dəyişməsi, məhsulun keyfiyyəti və istehsalçının məhdud maliyyə resursları uğrunda mübarizənin kəskinləşməsi idarəetmənin bütün məsələlərinə yenidən baxmağı tələb edir. Məqalədə müasir şəraitdə marketinqin idarə edilməsinin yeni meyilləri təhlil edilmiş, onun əsas istiqamətləri araşdırılmış, spesifik xüsusiyyətləri geniş şəkildə şərh edilmişdir. Məqalədə həmçinin müasir şəraitdə kompüter şəbəkələrinin, informasiya texnologiyalarının geniş inkişafının marketinq idarə edilməsinin yeni meyillərinin yaradılmasına və formalaşmasına təsiri də araşdırılmışdır.
Açar sözlər: marketinq, firma, baza, əmtəə, idarəetmə

NEW TRENDS IN MARKETING MANAGEMENT IN MODERN CONDITIONS

Aghaeva Konul Asaf– PhD in econ., ass.prof., department of Business economics and management, AzUAC, konul.aghayeva@gmail.com
Garibov Rahad Tanriverdi– PhD in tech sc., ass.prof., department of Business economics and management, AzUAC, rahadqaribov@gmail.com
Guliyeva Jahan Niftali– teacher, department of Economic theory and marketing, AzUAC, cahan.quliyeva0901@mail.ru

Abstract. In modern conditions, dynamic changes in production and technological processes, an aggravation of the struggle for product quality and limited financial resources of the manufacturer require a revision of all management issues. The article analyzes new trends in marketing management in modern conditions, examines its main directions and highlights its features. The article also examines the influence of the widespread development of computer networks and information technologies in modern conditions on the creation and formation of new directions in marketing management.
Keywords: marketing, firm, base, goods, management

Giriş. Müasir şəraitdə fəaliyyət göstərən firma və təşkilatlar yüksək dərəcəli qeyri-müəyyən şəraitdə fəaliyyət göstərdiyindən marketinq mühitinin idarə edilməsi onlar üçün çox mühüm aktuallıq kəsb edir. Marketinqin idarə edilməsinin xarakter cəhətlərini, inkişaf meyillərini daha dərindən və hərtərəfli təhlil etmək üçün onun yaranmasının tarixi məqamlarına da nəzər yetirmək vacibdir. Marketinqin nəzəri və tətbiqi xarakterli bir elm sahəsi kimi formalaşması, qərarlaşması və inkişafı XX əsrin əvvəllərinə təsadüf edir. Belə ki, ABŞ- in bir sıra Universitetlərində sərbəst bir kurs kimi tədris olunmağa başlanılmış və əsas diqqət də istehsal- satış, reklam- ticarət məsələlərinin nəzəri və praktiki təhlilinə verilmişdi.

1929-1933- cü illərdə Dünyada baş verən "Böyük durğunluq" dövrü marketinqin mahiyyəti və onun idarə edilməsinin yeni konsepsiyasının yaranmasını zərurətə çevirmişdi. Əvvəlki, məhdud

xarakterli yanaşmadan fərqli olaraq burada marketinq ideyalarının istehsalata və firmaların fəaliyyətinə tətbiqi geniş yer almışdır. Bu konsepsiyanın ideyalarının praktiki reallaşmasının nəticəsi olaraq iri firmalarda və korporasiyalarda marketinq strukturları yaradılmağa başlanıldı, eyni zamanda marketinq xidmətlərini yerinə yetirən kommersiya təşkilatları formalaşdı. Bütün bu proseslər isə marketinqin istehsal- satış fəaliyyətinin vahid sistemə çevrilməsi üçün sosial- iqtisad şəraiti yaratmış oldu. Marketinqin idarə edilməsi- idarəetmə sisteminin mühüm tərkib hissəsi olub, firmanın inkişafı və bazarda qalmasının təmin edilməsi məqsədilə daxili potensialın xarici mühitin tələblərinə uyğunlaşdırmağa istiqamətlənməsidir. Firmanın daxili imkanları onun maddi və intellektual potensialından xarici mühiti isə firmanın qarşıya qoyduğu məqsədlərə nail olmaq qabiliyyətinə təsir göstərə bilən amillərin məcmunundan ibarətdir.

Beləliklə, marketinqinin idarə edilməsi- firmaların məqsədlərinə nail olmaq və məqsədli bazarlarda əlverişli mübadilərinin qurulması, davam etdirilməsi və möhkəmləndirilməsi üçün təhlil aparılması, işlərin yerinə yetirilməsi, nəzarətin həyata keçirilməsi üzrə tədbirlərin məcmusu, prosesi kimi başa düşülməlidir. Burada firmanın inkişafı və bazarda qalmasının təmin edilməsi məqsədilə daxili potensialın xarici mühitin tələblərinə uyğunlaşdırmağa istiqamətlənməsi proiritet xüsusiyyətlər kimi nəzərə alınmalıdır [1].

Belə bir şəraitdə marketinqin idarə edilməsinin aşağıda qeyd olunmuş 3 əsas istiqamətinin təhlilinə üstünlük verilməsi məqsədəuyğun hesab edilir.

- Firmanın marketinq fəaliyyətinin idarə edilməsi;
- Marketinq funksiyasının idarə edilməsi;
- Tələbin idarə edilməsi;

Firmanın marketinq fəaliyyətinin idarə edilməsi bazara istiqamətləndirmək, bazarın tez-tez dəyişən mürəkkəb və çox yüksək dərəcəli qeyri- müəyyən şəraitinin tələblərinə çevik uyğunlaşmağa əsaslanaraq işlərin aparılmasıdır.

Firma nəinki bazara məhsul göndərir və oradan müəyyən pul vəsaitləri əldə edir, o bazardan həmçinin səmərəli fəaliyyətin təmin etmək üçün zəruri informasiyaları da əldə edir. Bu isə ona idarəetmə qərarlarının qəbul edilməsində, istehsal– satış prosesinin reallaşdırılmasında firmanın maliyyə vəsaitlərinin optimal bölgüsündə mühüm rol oynayır. Firmanın bütün resurslarının bazarın tələblərinə uyğunluğunu təmin etmək üçün marketinq şöbəsi ilə onun digər funksional bölmələrinin qarşılıqlı fəaliyyəti tarazlaşdırılmalıdır. Bu zaman marketinq bölməsi koordinasiya edici rola malik olmalıdır ki, bazarda baş verən prosesləri strateji planlarda nəzərə almaq mümkün olsun [2].

Marketinq funksiyalarının idarə edilməsi marketinq tədqiqatlarının aparılmasını, bazar fəaliyyətinin strategiyası və taktikasının işlənib hazırlanması və reallaşdırılmasını, marketinq şöbəsi ilə digər şöbələrin qarşılıqlı fəaliyyətinin həyata keçirilməsini nəzərdə tutur.

Tələbin idarə edilməsi bazara təsir prosesini nəzərdə tutur. Burada tələblərə marketinqin ən mühüm funksiyası olan satışın qarşılıqlı əlaqəsinin təhlili mühüm əhəmiyyət kəsb edir. Marketinq nəzəriyyəsində satış xüsusi əhəmiyyətli proses olub, ona qədərki marketinq fəaliyyətinin davamı və qiymətləndirilməsi mərhələsi kimi yekunlaşır. Satışın baş tutması bu ona qədər olan işlərin müsbət yekunlaşması olsa da, satış bütün işlərin-marketinq, istehsal-texniki işlərin müştəri üçün məqbul qiymətləndirilməsi demək deyildir [3].

Yəni istehlakçı firmanın, xüsusən də öz məhsulunun son istehlakçıya özü satan şirkətlərdə satış işinin əhəmiyyəti çox böyükdür. Bu əhəmiyyət ondan ibarətdir ki, əgər realizə üçün təklif edilən əmtəələrdə kifayət qədər nöqsan və çatışmayan cəhətlər olarsa satış bu problemi həll etmiş olur. Həmçinin əksinə, alıcının tələbatının tamamilə öz keyfiyyətləri ilə ödəyə biləcək əmtəənin satışı elə təşkil olunur ki, müştəri həmin əmtəni almaqdan imtina edir. Yəni əmtəənin təqdimatı prosesi onunla dialoq və ünsiyyətini qurulması, satıcının bacarıqsızlığı, əmtəənin yaxşı tanınmaması, alıcının tipini və maraqlarını müəyyənləşdirə bilməsi kimi hallar sövdə bağlanmasınıa mane olur və nəticədə şirkət çox böyük itki ilə üzləşir. Belə hallar, xüsusilə mənzil bazarı üçün daha xarakterikdir. Belə ki, tikinti şirkətlərində adətən satış işi demək olar ki, şirkət rəhbərliyinə yaxın, etibarlı adama tapşırılır [4].

Lakin nəzərə almaq lazımdır ki, satış prosesinin müvvəfəqiyyətli başa çatması üçün bu keyfiyyətlər kifayət deyildir. Odur ki, çoxlu sayda müştərilər gəlib mənzillərə baxır və təqdimatı, prosesi, satıcının davranışlarını, onun dedikləri ilə gördükləri arasında olan böyük fərqlər potensial

müştərilərin boş geri qayıtması ilə nəticələnir. Bu o demək deyildir ki, həmin şirkətlər heç mənzil satmırlar. Əksinə, satış halları ilə bağlı çoxlu situasiyanın olması onlara işlərini yaxşı qurması haqda təsəvvür yaradır. Belə ki, Azərbaycanın ilkin və təkrar mənzil bazarında tələb və təklifin vəziyyəti, rəqabətin gərginlik səviyyəsi, bazarın inhisarlaşmış olması və digər səbəblərdən müştərilər, demək olar ki, satıcının satış prosesinə hətta "mane" olduğu hallarda da mənzil almağa məcburdurlar.

Qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, marketinq fəaliyyətinin mühüm tərkib hissəsi olan satış prosesinin idarə edilməsini iki səviyyədə təhlil etmək məqsədəuyğundur. Birinci mərhələ idarəetmənin gedişində müştərilərin qəbul edilməsi, onunla dialoqun qurulması, əmtəənin təqdimatının başlanması və sövdələşmənin başa çatdırılması, sifarişin sənədləşdirilməsi, əmtəənin xidməti müddətində alıcının arzu və təkliflərinin nəzərə alınması proseslərinin idarə edilməsidir. Satışın idarə edilməsinin ikinci səviyyəsi satış kanalının seçilməsi, satış şəbəkəsinin qurulması, mal göndərənlərlə və topdan satıcılarla münasibətlərin idarə edilməsini özündə əks etdirir.

Nəticə. Müasir şəraitdə bir sıra amillər vardır ki, marketinqin idarə edilməsinin yeni meyillərinin formalaşmasının və xüsusiyyətlərinin müəyyənləşdirilməsində mühüm əhəmiyyət kəsb edir.

- *Rəqabətin qloballaşması.* Əgər hər hansı bir firma xarici bazarlara çıxmaq niyyətində olmayıb, yerli müştərilərə istiqamətlənərsə belə, o hər hansı xarici iri qlobal şirkətlərlə rəqabətə girmiş olur. Məsələn, hər hansı kiçik bir restoran və kafenin yaxınlığında McDonalds açılır. Bu kafe elə bir nəhəng ilə rəqabət aparmaq məcburiyyətində qalır. Belə ki, qlobal kompaniya rəqabətdə çox böyük üstünlüyə malik olacaqdır. Əgər qlobal şirkət həmin ölkədə öz məhsullarının qiymətini aşağı salsa belə, digər ölkələrdəki qiyməti sabit qalacağı halda yerli şirkət bütün məhsulunun qiymətini aşağı endirmək məcburiyyətində qalacaqdır.

- Tələbin fərdiləşməsi mikroseqmentlərdən ibarət olan yeni bazar quruluşunun formalaşmasına birbaşa təsir göstərir. Belə şəraitdə bir çox firmalar öz məhsullarını konkret müştərinin tələblərinə uyğun istehsal edirlər. Bu isə əmtəələrin differensiyası prosesinin sürətlənməsinə təsir göstərir. Belə şəraitdə tələblə təklifin tarazlaşması prosesi baş verir ki, bu da hər iki iqtisadi subyektin mənafeyinə uyğun gəlir.

- Əmtəə markasının əhəmiyyətli dərəcədə artması müasir marketinqin idarə edilməsində də müəyyən dəyişikliklərə səbəb olur. Həyat səviyyəsinin yüksəldiyi və bazarların əmtəələrlə dolub daşdığı şəraitdə insan tələbatının xarakterləri də dəyişir. İndi insanlar sadəcə əmtəə almırlar, onlar elə əmtəə almaq istəyirlər ki, həmin əmtəə onların sosial məsuliyyətini, həyat tərzini, şəxsi dəyərlərini əks etdirmiş olsun. İnsanın düşüncə tərzi "insan nə alırsa, o onun özüdür" prinsipinə doğru istiqamətlənmiş olur. Bu isə o deməkdir ki, əmtəə onun sahibinin sosial statusu haqqında bilgi verməli, ona sevinc gətirməli, təsəvvürlərini oyatmalıdır. Bu proses isə marketinqin idarə edilməsinin müasir xüsusiyyətləri ilə səciyyələnir.

- Müasir iqtisadi şəraitdə komputer şəbəkələrinin, informasiya texnologiyalarının geniş inkişafı nəticəsində istehlakçılar və firmanın sifarişçiləri haqqında bütün məlumatların saxlanılmasına şərait yaranmışdır. Firmaların həcmi kiçik olduğu halda marketoloqlar öz daimi müştərisi ilə birbaşa əlaqəyə girərək marketinq informasiyasını toplayırdı. Lakin sonralar firmalar arasında iqtisadi əlaqələrin inkişafı, mürəkkəbləşməsi yeni meyillərinin meydana çıxmasına səbəb oldu ki, bunlar da daha geniş, keyfiyyətli informasiyanın əldə olunmasını zəruri etdi. Bu lokal marketinqdən ümumilli səviyyəli marketinqdə, alıcı ehtiyaclarından alıcı tələbatına və qiymət rəqabətindən qeyri- qiymət rəqabətinə keçilməsi ilə xarakterizə olunur.

Ədəbiyyat.
1. Armstronq Q, Kotler F, Marketinq:İlk addım, Bakı , 2005
2. A.T Məmmədov Marketinqin əsasları, Bakı 2014
3. Ağayev A.M., Kərimov Ə.İ., Ağayeva K,A. Marketinqdə satışın idarə edilməsi, Bakı, 2019
4. Keys.E., Feyr.C Mikroiqtisadiyyatın əsasları, Bakı, 2018
5. Xeyirxəbərəov İ.M. Marketinq tədqiqatları, Bakı, 2015
6. Ансофф И. Стратегическое управление. Экономика. Москва, 1989
7. Azərbaycan Respublikasının İpoteka Qanunu, 3 iyul 1998
8. Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestrinə dair Qanun N713-IIQ, 29 iyun 2004

References
1. Armstronq Q., Kotler F. Marketinq:Ilk addim, Baki, 2005
2. A.T Memmedov. Marketinq, Baki, 2014
3. Aghayev A.M., Kerimov A.I, Aghayeva K.A. Marketinqde satishin idare edilmesi, Baki, 2019
4. Keys.E., Feyr.C. Mikroiqtisadiyyatin esaslari, Baki, 2018
5. Xeyirxeberov I.M. Marketinq tedqiqatlari, Baki, 2015
6. Ansoff I. Strategicheskoe upravlenie. Ekonomika. Moskva, 1989
7. Azerbaycan Respublikasinin İpoteka Qanunu, 3 iyul 1998
8. Azerbaycan Respublikasinin Dashinmaz Emlakin Dovlet Reyestrine dair Qanun N713-IIQ, 29 iyun 2004

Redaksiyaya daxil olma/Received 15.09.2021
Çapa qəbul olunma/Accepted for publication 14.10.2021

MARKETİNQİN İNFORMASİYA TƏMİNATI VƏ ONUN İDARƏ EDİLMƏSİ

Ağayeva Könül Asəf qızı– i.f.d., dosent, Biznesin iqtisadiyyatı və menecment kafedrası, AzMİU, konul.aghayeva@gmail.com

Xülasə. Məqalədə marketinq informasiya sisteminin yaradılmasının zəruriliyi ,mahiyyəti və onun xarakterik cəhətlərinin təhlili, daha geniş və daha keyfiyyətli informasiyanın əldə olunmasının istiqamətləri, informasiyanın firma üçün əhəmiyyəti, firmanın məqsədlərinin formalaşmasında informasiya sisteminin rolu məsələləri geniş şəkildə şərh olunmuşdur.Məqalədə həmçinin qeyd olunmuşdur ki, marketinq informasiya sistemi faydalı fəaliyyət nəticəsində mübadilə prosesiniin tədqiqinin gedişindən əldə olunan və mübadiləyə bazar sisteminin bütün subyektlərinin qarşılıqlı təsir göstərməsi üçün sahibkarlığın bütün sferalarında, o cümələdən marketinq fəaliyyətində istifadə edilən məlumatlardır.

Açar sözlər: marketinq informasiya sistemi, daxili informasiya və xarici informasiya, ixtisaslaşmış firmaların informasiyası, satışın həcmi, cari informasiya, qeyri- rəsmi informasiya, rəqiblər haqqında informasiya, informasiyanın toplanması, informasiyanın planlaşdırılması

MARKETING INFORMATION SUPPORT AND ITS MANAGEMENT

Aghaeva Konul Asaf- PhD in econ., ass.prof., department of Business economics and management, AzUAC, konul.aghayeva@gmail.com

Abstract. The article discusses the need and essence of creating a marketing information system and an analysis of its characteristics, directions for obtaining more and quality information, the importance of information for the company, the role of the information system in shaping the goals of the company. The article also notes that a marketing information system is information obtained as a result of studying the exchange process as a result of useful activities and used in all areas of entrepreneurship, including marketing activities, for the interaction of all market participants during exchange.

Keywords: marketing information system, internal information, external information, information from specialized firms, sales volume, current information, unofficial information, information about competitors, information gathering, information planning

Giriş. Ticarətin hələ sadə əmtəə tədavülü formasında baş verdiyi ta qədim dövrlərdə də bu işi həyata keçirən insanları əsas belə bir sual maraqlandırırdı ki, hansı daha yaxşı bazarlar, ölkələr vardır ki, orada daha çox gəlir, səmərə əldə etmək mümkündür. Dünya okeanını üzərək bütün ölkələrin sahillərini əlverişli ticarət etmək məqsədi ilə dolaşan bir çox xalqların nümayəndələri nə və necə ticarət etmək haqqında düşünsələr də, mahiyyət etibarı ilə o vaxtdan bu məsələdə çox az dəyişiklik olsada, marketinqin informasiya anlayışı bizim eranın XX əsrinə aiddir. XX- əsrin əvvəllərində firmalar çox kiçik olduğundan onların işçiləri öz müştərilərini şəxsən tanıyırdılar. İdarə edən şəxs öz daimi müştərisi ilə birbaşa əlaqəyə girərək marketinq informasiyasını toplayırdı. Lakin sonralar üç mühüm meyl meydana gəlib güclənməyə başladı ki, bunlar da daha geniş və daha keyfiyyətli informasiyanın əldə olunmasını zəruri edirdi:

-*Yerli səviyyəli marketinqdən ümummilli səviyyəli marketinqə keçilməsi.* Firmalar öz fəaliyyətlərini, öz bazarlarının coğrafi ərazisini daha da genişləndirməklə daha öz müştərilərini bilavasitə tanımırlar. Belə şəraitdə marketinq informasiyasının əldə olunmasının yeni yollarını axtarıb tapmaq zərurəti yaranır.

-*Alıcı ehtiyaclarından alıcı tələbatına keçilməsi.* Alıcıların gəlirləri artdıqca əmtəələrin seçilməsində onlar daha yaxşı baş çıxarırlar. Alıcıların müxtəlif əmtəələrə və onların tərtibatına, qablaşdırılmasına və digər xüsusiyyətlərinə olan münasibətlərini, qabaqcadan görə bilmək satıcılara getdikcə daha çox çətin olur. Xüsusi marketinq tədqiqatlarının aparılmasına zərurət yaranır.

-Qiymət rəqabətindən qeyri- qiymət rəqabətinə keçilməsi. Satıcılar getdikcə daha çox, satışın həvəsləndirilməsi, əmtəələrə marka adlarının verilməsi, reklama və digər bu kimi marketinqin qeyri-qiymət metodlarından istifadə edirlər. Ona görə də həyata keçirilən marketinq tədbirlərinə alıcıların reaksiyasını öyrənmək məqsədi ilə əks əlaqəyə, marketinq informasiyasına tələbat yaranır [3]. Marketinq informasiyası ictimai faydalı fəaliyyət nəticəsində mübadilə prosesinin tədqiqinin gedişindən əldə olunan və bu mübadiləyə bazar sisteminin bütün subyektlərinin qarşılıqlı təsir göstərməsi üçün sahibkarlığın bütün sferalarında, o cümlədən, marketinq fəaliyyətində istifadə edilən məlumatlardır. Marketinq şəraitində lazım olan səviyyədə fəaliyyət göstərə bilmək üçün qərarlar qəbul edəməzdən əvvəl və sonra da adekvat informasiya alınmalıdır. Bəzi səbəblər vardır ki, onların təsiri gücündən asılı olaraq marketinq informasiyası firmanın marketinq planın və yaxud da onun ayrı-ayrı elementlərinin tərtib olunması, işlənməsi, yerinə yetirilməsi və yenidən baxılması zamanı toplanmalıdır. Rəhbərin təsəvvürlərinə, intiusiyaya və keçmişin təcrübəsinə əsaslanmaq kifayət deyildir. Aşağıda marketinq informasiyasının əldə edilməsinin üstünlükləri sxem şəkildə verilmişdir.

Cədvəl 1.



Məlumdur ki, firma üçün yaxşı informasiyanın ən başlıca əhəmiyyəti onun maliyyə riskini azaltmasıdır. Vaxtında və dəqiq əldə olunmuş informasiya imkan verir ki, iri məbləğli xərclər çəkilməmiş çox yüksək dəyərli səhvlərdən yayınmaq, daha çox problem yarada biləcək məhsul və xidmətlər vaxtında ya təkmilləşdirilsin, və yaxud da istahsalı dayandırlmış olsun. İstehlakçının münasibətinin həm müsbət və eyni zamanda mənfi olmasının da müəyyənləşdilməsinin firma üçün əhəmiyyəti böyükdür. Bu zaman istehlakçının münasibətinin səbəbləri araşdırılır və təhlil edilir. Belə bir araşdırma eyni zamanda ətraf mühitdə baş verən dəyişikliklərin də səbəblərini və nəticələrini müəyyənləşdirmək məqsədi ilə aparılmalıdır. Bu zaman marketinq strategiyaları bütövlükdə, eləcə də onun ayrı- ayrı elementləri (əmtəə, qiymət, satış, bölgü kanalları, və s.) koordinasiya olunur. Müvəffəqiyyət və yaxud uğursuzluq əvvəlcədən müəyyən edilmiş və faktiki nail olunmuş nəticələrin müqayisə edilməsi ilə müəyyənləşdirlir. Firma rəhbərliyinə və yaxud da menecerə çox vaxt öz ideyalarını həyata keçirmək üçün qərarlar qəbul edən zaman dəqiq məlumatlara ehtiyac yaranır. Məsələn, sınaq satışından əldə olunmuş müsbət informasiyanın olması marketinq bölməsinin rəhbərinə firmanın rəhbərliyini yeni məhsulun buraxılmasına inandırmağı daha da asanlaşdırır. Yeni əmtəənin tətbiq olunmasından sonra firma rəhbərliyi öz qərarlarını səhmdarlara təqdim edərkən tədqiqatların nəticəsinə istinad edəcəkdir. Nəhayət informasiya fəhmən(intuitiv) qəbul edilmiş

qərarların dəstəklənməsinə imkan verir. Yəni informasiya qəbul edilmiş qərarların və yaxud da niyyətlərin davam etdilməsinə kömək, dəstək kimi istifadə olunur, bu zaman ya irəliyə doğru hərəkət edilir, yaxud da ziyanın yarısından qayıtmaq tövsiyə olunur.

İnformasiya vasitəsi ilə marketoloqlar istehlakçıların davranışlarında olan hər hansı kiçik dəyişikliklərdən də xəbərdar olmalıdırlar. Tozsoran istehsal edən firmanın marketoloqları həmin aparatlara ötürücülər asırlar ki, həmin aparatdan evin yığışdırılmasında neçə saat istifadə (həftədə 35 dəqiqə) olunması haqqında dəqiq məlumat əldə etmiş olsunlar.

Marketinq informasiyası aşağıdakılarla xarakterizə olunur:

- Zəruri məlumatların çox böyük həcmi ilə (axtarışın sistemləşdirilməsi və təşkilatlanmasını zəruri edir);
- Məlumatın əldə olunması nizamlı və fasiləsiz (bazarda vəziyyət hər an dəyişə bilən olduğundan) olmalıdır ki, bu da məlumatın toplanmasına daim müvafiq səylərin göstərilməsini tələb edir;
- İnformasiyanın əldə olunmasının mənbələrinin çox müxtəlif olması;
- Məlumatların əsas hissəsi keyfiyyətli olmalıdır ki, bu da onların toplanması prosesində müəyyən çətinliklər törədir.

Qərar qəbul etmək üçün informasiyanın dəyərliliyi təmin olunur:

- Dürüstlük (obyektin vəziyyətini dəqiq əks etdirmək);
- Aktuallıq (vaxtında, cari vəziyyətin əks olunması);
- Tamlıq (informasiyada elə məlumatlar olmalıdır ki, qərar qəbul edilməsi üçün tamamilə kifayət etsin; bəzən isə əlavə məlumatlar axtarmaq lazım gəlir ki, onlar qərar qəbul edilməsinə mane olmur);
- Relevantlıq (məlumatların həll edilən problemə uyğun olması);
- Müqayisə oluna bilməsi (müxtəlif vaxtlarda və müxtəlif mənbələrdən alınmış məlumatların,onların ümumi parametrə və tədqiqat metoduna əsaslanmasına görə müqayisə oluna bilməsi imkanı);
- Qavrana bilmək imkanı (informasiya elə təqdim olunmalıdır ki, onu təhlil etmək asan olsun);
- Qənaətçil olmalıdır (informasiyanın əldə olunması və emalına çəkilən məsrəflər ondan əldə olunan səmərədən çox olmamalıdır).
- İnformasiyanın vaxtaşırı daxil olması, onları emal etmək, saxlamaq və lazım olan mütəxəssisə zəruri informasiyanı vaxtında çatdırmaq üçün firma marketinqin informasiya sistemini yaradır.

Marketinq informasiya sistemi (MİS) daima fəaliyyət göstərən sistem olub, marketinq qərarlarının qəbul edilməsi üçün zəruri olan, aktual informasiyanın toplanması metodlarını və proseduralarını, emalı, qiymətləndirlməsini və həmçinin işçi heyətini və avadanlıqlarını özündə birləşdirir. Müəssisənin informasiya sisteminin yaradılması üçün aşağıdakı məsələlər həll edilməlidir:

–İnformasiyanın istifadəçiləri dairəsi müəyyən edilməli;
–İstifadəçilərin informasiya tələbatı müəyyənləşdirilməli (kimə hansı informasiya lazımdır);
–İnformasiyanın mənbələri müəyyənləşdirilməlidir;
–Məlumat bazasının strukturu və onların doldurulması qaydası işlənib hazırlanmalı;
–İnformasiyanın təqdim olunması qaydası müəyyən olunmalıdır.
–Marketinq informasiya sisteminin fəaliyyət göstərməsi üçün aşağıdakı ehtiyatların olması zəruridir:
–İnformasiyanın toplanması, emalı, saxlanması və təhlili üçün ixtisaslaşmış kadrlar;
–metodiki təminat;
–avadanlıq (hesablama texnikası, proqram təminatı, kommunikasiya vasitələri, xüsusi cihazlar).

Marketinq informasiya sisteminin fəaliyyət göstərməsi, həmçinin informasiyanın planlaşdırılması, təşkili və toplanmasına nəzarət, təhlili və ötürülməsi texnologiyasının olması da tələb olunur.Beləliklə, Marketinq informasiya sistemi xarici və daxili mənbələrdən əldə olunmuş məlumatları,marketinq qərarlarının qəbul edilməsi üçün informasiyaya transformasiya edir. Marketinq informasiya sisteminin konseptual modelini F.Kotler aşağıdakı kimi işləyib hazırlamışdır. Bu model aşağıdakı tərkib hissələrindən ibarətdir:

–Daxili hesabat sistemindən;
–Xarici cari marketinq informasiya sistemindən;
–marketinq tədqiqatları sistemindən;
–marketinq informasiyasının təhlili sistemindən.

Aşağıda F.Kotlerin Marketinq informasiya sisteminin konseptual modeli verilmişdir [2].



Şəkil 1. Marketinq informasiya sistemi

Marketinq informasiya sisteminin komponentlərin təhlilidə bu prosesdə mühüm əhəmiyyət kəsb edir.

Daxili hesabat sistemi firmanın aparılmış əməliyyatları üzrə cari vəziyyətini əks etdirən məlumatların məcmusudur. Bu hesabat cari satışı, istehsal xərclərini, maddi ehtiyatlarını, nəğd pulun hərəkətini, debitor və kreditor borclar haqqında məlumatları, keçmiş marketinq tədqiqatlarının məlumatlarını özündə əks etdirir. Daxili hesabat firmanın istehlakçılarının tələbatlarını ödəmək üzrə imkanlarını izləməyə əlverişli şərait yaradır [3,4].

Marketinq üçün ən əhəmiyyətli olan satışın həcmi, anbarda ehtiyatların həcmi, sifarişlərin yerinə yetirilməsi vaxtları, buraxılan məhsulların qiymətləri, istehsal xərcləri və keyfiyyətin səviyyəsi haqqında informasiyalardır. Bir çox firmalar öz ticarət nümayəndəliklərindən gündəlik sifarişlər və mal yola salınması haqqında əvvəlki günə olan hesabatları tələb edirlər. Hesabatlarda real və plan göstəriciləri arasında nisbətlər verilir. Bir çox hallarda ticarət nümayəndəsinin anbardakı ehtiyatlar haqqında dəqiq məlumatı olması, müştərilərə mal göndərilməsinin dərhal həyata keçirilməsi nöqteyi-nəzərdən daha mühüm əhəmiyyət kəsb edir.

Daha mühüm məlumatlardan bunları xüsusilə qeyd etmək olar:

- firmanın büdcəsi haqqında məlumatlar;
- əmtəələr və ayrıca assortiment qrupu üzrə satışın həcmi haqqında məlumat;
- müştərilər və tədarükün həcmi haqqında məlumat bazası;
- hazır məhsul ehtiyatı haqqında məlumatlar.

Daxili hesabat sistemi dəqiqliyi, əlçatan olması, yüksək qənaətcilliyi və sistemləşdirmə imkanın olması ilə xarakterizə olunur. Bunlarla yanaşı çox vaxt daxili hesabat sisteminin məlumatlarının təqdim olunması forması onlardan marketinq məqsədləri üçün istifadə edilməsini çox əlverişsiz edir. Şöbələrin isə bir- birindən təcrid olunması zamanı (təşkilatı strukturun qüsuru olaraq) isə informasiyadan operativ istifadə olunmasına manelər yaradır [5,6].

Bəzən şirkət lazımi informasiyanı təmin edə bilmir. Bu ya məlumatın olmaması, ya da müəssisənin informasiya sisteminin məhdudiyyətləri ilə bağlı olur. Misal üçün, brend meneceri çox vaxt rəqib şirkətin reklam büdcəsinin necə dəyişəcəyini və bunun bazar payına təsirini bilmək istəyir.

Adətən, rəqib şirkətin büdcə proqnozları ilə bağlı məlumatları bilmək olmur. Mümkün olsa belə, şirkətin müəssisənin informasiya sistemi lazımi qədər inkişaf etmiş olmaya bilər və nəticədə bazar paylarının dəyişilməsi ilə proqnozların işlənilməsi qeyri- mümkün olacaqdır.

Nəticə etibarı ilə informasiyanın əldə edilməsi, təhlili, saxlanılması və çatdırılması ilə bağlı xərclər sürətlə arta bilər [7].

Nəticə. Marketinq informasiya sistemi daima fəaliyyət göstərən sistem olub, marketinq qərarlarının qəbul edilməsi üçün zəruri olan, aktual informasiyanın toplanması metodlarını və prosedurlarını, emalı, qiymətləndirilməsini və həmçinin işçi heyətini və avadanlıqlarını özündə birləşdirir.

Ədəbiyyat

1. Arımstronq Q, Kotler F, Marketinq: İlk addım, Bakı. 2005
2. A.T Məmmədov, Marketinqin əsasları, Bakı. 2014
3. Ağayev A.M, Kərimov Ə.İ, Ağayeva K,A Marketinqdə satışın idarə edilməsi, Bakı. 2019
4. E.Keys, C.Feyr "Mikroiqtisadiyyatın əsasları" Bakı. 2018
5. Жан-Жак Ламбен, Стратегический маркетинг. Санкт- Петербург, Наука. 1996
6. Портер М. Международная конкуренция, Международные отношения. 1993
7. Портер М. Конкуренция, Киев, 608с. 2006

References

1. Armstronq Q, Kotler F, Marketinq: İlk addım, Baki. 2005
2. Memmedov A.T, Marketinqin esaslari, Baki. 2014
3. Aghayev A.M., Kerimov A.I, Aghayeva K.A. Marketinqde satishin idare edilmesi, Baki. 2019
5. E.Keys, C.Feyr "Mikroiqtisadiyyatın əsasları", Bakı. 2018
6. Zhan-Zhak Lamben, Strategicheskij marketing. Sankt- Peterburg, Nauka. 1996
7. Porter M. Mezhdunarodnaya konkurenciya, Mezhdunarodnye otnosheniya. 1993
8. Porter M. Konkurenciya. Kiev, 608s. 2006

Redaksiyaya daxil olma/Received 15.09.2021
Çapa qəbul olunma/Accepted for publication 14.10.2021

ŞƏHƏRSALMANIN İNKİŞAFINDA MÜHƏNDİS İNFRASTRUKTURUN ROLUNUN İQTİSADİ ƏSASLANDIRILMASI

Eyniyev Tahir Təriş oğlu– i.e.n., dosent, Sənayenin təşkili və idarə edilməsi kafedrası, AzMİU
Əzizova Mirvari Əzizağa qızı– i.e.n., dosent, AzMİU- nun nəzdində İnşaat kolleci
Eyniyev Mahir Tahir oğlu– i.f.d., Fövqəladə Hallar Nazirliyi, mahir.eyniyev@fhn.gov.az

Xülasə. Məqalədə şəhərsalmada mühəndis inrastrukturunun mahiyyəti, onun əsas elementləri açıqlanmış və səmərəli inkişaf istiqamətləri göstərilmişdir. Yeni tikilən binalarda mühəndis sisteminin rolu göstərilmiş və mənəvi cəhətdən köhnəlmiş mühəndis qurğuların daha mütərəqqi qurğularla əvəz olunması qeyd edilmişdir. Şəhərin Baş planında həmçinin obyeklərin layihələndirilməsi prosesində mühəndis infrastrukturun elementlərinin texniki-iqtisadi əsaslandırılması və ayrı- ayrı elementlərin modelinin qurulmasının daha optimal variantın seçilməsi təklif olunmuşdur. Məqalədə həmçinin mühəndis infrastrukturunun inkişafında elmi- texniki tərəqqinin inkişaı və innovasiya prosesi nəzərə alınmışdır. Şəhərsalmada mühəndis infrastrukturundan düzgün və onların optimal yerləşdirilməsi iqtisadi cəhətdən qiymətləndirilmişdir.
Açar sözlər: infrastruktur, mühəndis sistemi, ekoloji, səmərəlilik, suyun təzyiqi, enerji sistemi

BUSINESS CASE OF THE ROLE OF ENGINEERING INFRASTRUCTURE IN URBAN DEVELOPMENT

Eyniyev Tahir Tarish– PhD in econ., ass.prof., department of Organization and management of the industry, AzUAC
Azizova Mirvari Azizagha– PhD in econ., ass.prof., Construction College at AzUAC
Eyniyev Mahir Tahir– PhD in econ., Ministry of Emergency Situations, mahir.eyniyev@fhn.gov.az

Abstract. The article reveals the essence of the engineering infrastructure in urban planning, its main elements, indicate the directions of rational construction. The role of the engineering system in the new buildings is shown, and the replacement of theoretically obsolete engineering structures with more advanced ones was noted. The City Master Plan also proposes to choose the best option for the feasibility study of engineering infrastructure elements and the design of individual elements during the design process. The article deals with the development of science, technology and innovation in the growth of engineering infrastructure. In urbanization, the appropriateness of the engineering infrastructure and its optimal location was evaluated from the economic point of view.
Keywords: infrastructure, engineering system, ecological, efficiency, water pressure, power system

Giriş. Müasir şəraitdə şəhərlərin inkişafında və onun formalaşdırılmasında infrastruktur probleminin iqtisadi cəhətdən düzgün əsaslandırılması və onun inkişafı qarşıda duran aktual problemlərdən biridir. Şəhərlərin infrastrukturunun formalaşması və onun daha da inkişaf etdirilməsi barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-2009- cu il və sonrakı illərdəki sərəncamlarında Bakı şəhərində həmçinin, Respublikanın ayrı- ayrı regionlarında daha səmərəli infrastruktur layihələrin həyata keçirilməsi və onun daha da inkişaf etdirilməsi uğurla davam etdirilir [1]. Məlum olduğu kimi infrastruktur latın sözü olub infra– aşağı, alt və struktura– quruluş, yerləşmə mənasında işlənilir bu əsasən XX əsrin 40- cı illərin axırlarından istifadə olunur.

Qeyd etmək lazımdır ki, mühəndis infrastruktur anlayışını təxminən XX əsrin 70-75- ci illərində ilk dəfə olaraq A.A.Seqedinov ayrı- ayrı şəhərlərin salınması və onun inkişafının, regionların və şəhər aqlomerasiyasına keçidlə əlaqədar olaraq ədəbiyyatda gətirmişdir. O, bu anlayışı nəqliyyatın, digər məhsuldar qüvvələrin, həmçinin şəhər, qəsəbə, kənd yaşayış yerlərinin su təchizatı, istilik qaz, elektrik enerjisi ilə təchiz etmək, yol- nəqliyyat kommunikasiyalarının mühəndis sistemi ilə təmin etmək kompleksi kimi şəhər olunmuşdur.

Mühəndis infrastrukturunun funksional təyinatlı konkret ərazilərdə istifadəçiləri su, enerji ilə təmin etmək, eləcə də yanacaq məişət və istehsal tullantılarının məhv edilməsi bir sözlə yaşayış üçün lazım əlverişli sanitar- gigiyenik şəraiti yaratmaqdan ibarətdir. Mühəndis infrastrukturun optimal variantının seçilməsi zamanı ancaq yeni tikilib istifadəyə verilmiş obyektlər deyil, həmçinin fəaliyyətdə obyektlər qiymətləndirilir. Müasir şəhərlərin su təsərrüfatı, elm və texnikanın son nailiyyəti əsasında layihələndirilmiş tənzimləyici, ölçü, nəzarət və tənzimləyici qurğularla təchiz olunmuş kompleks bir formasındadır [2,3]. Mərkəzləşdirilmiş istilik təchizatı ilk dəfə 1878- ci ildə Nyu- York ştatının Hokport şəhərində işə salınmışdır [4]. Burada bir istilik mənbəsindən 210 evin isidilməsi başa çatdırılmışdır. Avropada isə mərkəzləşdirilmiş istilik təchizatı sistemi 1900- cu ildə Almaniyanın Drezden şəhərində həyata keçirilmişdir. Qaz təchizatı sistemi başqa mühəndis sistemindən öz spesifik xüsusiyyətinə görə fərqlənir. Bu xüsusiyyətə ilk növbədə qazın yanmaya (alışmaya) həddən artıq həssas olmasıdır. Enerji sistemi kompleks mühəndis qurğusu olan, enerjinin istehsalının, nəqlini və enerji tələbatçıları arasında müvafiq norma və qaydalara uyğun paylanmasını təmin edir. Qeyd etmək lazımdır ki, əhalinin qaz, su və istilik enerjisi ilə tənzim edilməsi 2020- ci ilə nisbətən şəhər yerlərində 60- 70%; kənd yerlərində isə təxminən 15- 20% artmışdır. Qeyd etmək lazımdır, Bakı şəhərində mühəndis sistemləri köhnə olduğuna görə su kəməri, kanalizasiya şəbəkələri və qurğuların çox hissəsi hazırda qəza vəziyyətindədir ki, bu da olduqca böyük məbləğdə vəsait tələb edir. Bununla əlaqədar olaraq mənzillərin qazlaşdırılmasına böyük diqqət verilir və bu sahədə işlər uğurla davam etdirilir.

Mütəxəssislərin apardığı araşdırmalara görə, kommunal-məişət təsərrüfatının maya dəyəri bütövlükdə respublikanın sahələri üzrə cəmi 40- 45% ödənilir. Əks halda isə bu problemini əhalinin kommunal xərclərini vaxtı-vaxtında ödəmədiyi borcların hesabına yaranır. Belə ki, mənzil-kommunal xidmətlərinin dəyərinin artması aztəminatlı ailələr üçün bu xidmətlərdən istifadə imkanları daha məhdud olur, bu da müəyyən çətinlik yaradır. Odur ki, bu sahəyə dövlət tərəfindən subsidiya ayırması qaçılmaz olur, subsidiyaların zəruriliyi isə heç olmasa əhalinin aztəminatlı hissəsinin hamısının olmasa da ən azı 50-55%- ni əhatə etməsindən meydana çıxır.

Mühəndis- kommunikasiya sistemi infrastruktur kompleksində ən mürəkkəb sahələrdən biridir. Odur ki, mühəndis sisteminin inkişafında planlı və optimal sürətdə təşkil olunmuş strukturundakı qeyri- müəyyənlik bəzən hesablamada müəyyən səhv etməyə gətirib çıxara bilər. Bu da son dövrdə əhalinin qeyri-bərabər məskunlaşması ilə əlaqədar olmuşdur ki, bu məsələ nəticədə mühəndis sistemindən səmərəli istifadə olunmasıını çətinləşdirmişdir. Hazırda şəhərdə mənzil tikintisinin əsas hissəsini çoxmərtəbəli binalar təşkil edir ki, binaların hamısı mühəndis təchizatı və abadlığı ilə təmin olunmuşdur. Odur ki, mühəndis təchizatının qurğu qovşaqlarına, onların daha da inkişaf etdirilməsi tələblərin və texniki inkişafın həyata keçirilməsi zərurəti yaranır. Bu tələblərə əsasən aşağdakıları daxil etmək olar:

- su təminatı, kanalizasiya, qaz, istilik, elektriklə təchiz etmək, rabitə, binanın bayır hissələrin (sahələrin) işıqlandırılması, su axarları və s. yeni tikintilərin bütün növ mühəndis qovşaqlar ilə təmin edirməsi;
- yaşayış binaları və mədəni- məişət təyinatlı obyektlərinin istismara verilməsi üçün bütün işlərin vaxtlı- vaxtında həyata keçirilməsi, mühəndis sistemlərinin tam hazırlığı və bunun dövlət aktı ilə qəbulunun vaxtında təmin olunması;
- şəhər təsərrüfatının bütün obyektlərinin kanalizasiyaları, su hövzələrinin, hava hövzələrinin və torpağın vəziyyətinin əsaslı şəkildə yaxşılaşdırılmasına şəraitin yaradılması;
- elektrik enerjisi, kondisionerlərin, işıqlandırmanın, şaquli nəqliyyatın yeni növlərinin və s. tətbiq edilməsi hesabına yaşayış evlərində, mədəni- məişət binalarında, kommunal xidmət sahələrində rahatlıq səviyyəsinin fasiləsiz olaraq artırılması.

Şəhərin baş planının işlənilməsi mərhələsində mühəndis infrastrukturunun gələcək inkişaf sisteminin yaradılmasında xammal ehtiyatları göstəriciləri də hökmən nəzərə alınmalıdır. Şəhərin mühəndis infrastrukutu daxili əlaqələrinin prinsipal sxemi şəkil 1- də göstərilmişdir.



Şəkil 1. Şəhər mühəndis infrastrukturunun daxili əlaqələrinin prinsipal sxemi

Mühəndis infrastrukunun inkişafının səmərəliliyinə şəhərin tikintisində tətbiq edilən şəhərsalma prinsipləri də əsaslı sürətdə təsir göstərir. Mühəndis infrastrukturunun quruluşunda gedən keyfiyyət dəyişikliklərinin əsasını elmi- texniki tərəqqinin inkişafı təşkil edir. Ekoloji cəhətdən təmiz mühəndis xidmətləri, onların yeni növlərinin yaranması, gündəlik yaşayış tərzində tətbiq edilməsi və s. elmi-texniki tərəqqinin nəticələri ilə əlaqədardır. Mühəndis infrastrukturnunun rasional həddi və istehsal prosesi təbii mühitə əsaslı təsir göstərir, bununla əlaqədar olaraq təbii mühitə atılan qaza bənzər tullantılar və bərk formada olan zibillər vaxtında zərərsizləşdirilməlidir. Onu da qeyd etmək lazımdır ki, Bakı şəhərinin mühəndis infrastrukturu əsasən XX əsrin ikinci yarısında istifadəyə verilmişdir ki, bunların çoxunun sonradan dəyişdirilməsinə baxmayaraq şəhər əhalisinin sayının və şəhər sərhədinin artması həmçinin müasir mənzil tikintisinin sürətlə inkişafına tam cavab vermir. Çünki əvvəllər quraşdırılan həmin mühəndis sisteminin avadanlıqlarının çoxu mənəvi cəhətdən köhnəlmiş, lazımi təzyiqi, gücü, temperaturu və s. ödəmək potensialına malik deyildir. Odur ki, mühəndis infrastrukturu təşkil edən elementlərin yenidən qurulması və ya onların təzələnməsi ilə əlaqədar olaraq ümumi şəhər

infrastrukturun inkişafı zəruri problemlərdən biri kimi qarşıda durur. Binalarda mərtəbələrin sayının çox olması hesabına mənzillərin də sayı artmış olur. Bu halda şəbəkələrdə (isti və soyuq ilə təchizat sistemlərində) təzyiqin artırılması tələb olunur. Belə ki, 16 mərtəbəli binalarda 5 mərtəbəli binalara nisbətən suyun sərf edilməsi orta hesabla normaya görə müqayisədə onun artım səviyyəsi 50%- dən çox olur.

Nəticə. Beləliklə, şəhər mühəndis infrastrukurunun, inkişafının səmərəliliyi sosial və şəhərsalma msələlərin həllindən xammal ehtiyatları ilə təmin edilməsindən, vəsait təminatından, müəssisələrdə qəbul edilən xammala qənaət etməkdən, ekoloji- iqtisadi proqramdan, şəhərin baş planının işlənilməsindən və obyektlərin layihə prosesi həllərində onun texniki- iqtisadi əsaslandırılması və s. modellərinin kompleks sürətlə araşdırılması, optimallaşdırılması və s. şəhər ərazisinin ekoloji vəziyyətindən asılı olaraq mühəndis infrastrukturunun inkişafında strateji planlaşdırılmasının fasiləsizliyini təmin edir.

Ədəbiyyat

1. Eyniyev T.T. Şəhərsalmanın iqtisadi əsasları. Bakı, 440s. 2015
2. Eyniyev T.T., Eyniyev M.T. Şəhər infrastrukturunun inkişafı və onun idarə edilməsi. Bakı, 305s. 2013
3. Акимова А.А. Экономика систем инженерного оборудования. 1990
4. Eyniyev T.T., Binnətov A.C. Tikintinin iqtisadiyyatı, Bakı, 235s. 2004

References

1. Eyniyev T.T. Shehersalmanin iqtisadi esaslari, Baki, 440s. 2015
2. Eyniyev T.T., Eyniyev M.T. Sheher infrastrukturunun inkishafi ve onun idare edilmesi, Baki, 305s. 2013
3. Akimova A.A. Ekonomika sistem inzhenernogo oborudovaniya. 1990
4. Eyniyev T.T., Binnetov A.C. Tikintinin iqtisadiyyati, Baki, 235s. 2004

Redaksiyaya daxil olma/Received 17.09.2021
Çapa qəbul olunma/Accepted for publication 17.10.2021

AZƏRBAYCANIN BEYNƏLXALQ VƏ REGİONAL NƏQLİYYAT LAYİHƏLƏRİNDƏ İŞTİRAKININ ƏSAS İSTİQAMƏTLƏRİ

Hacıyev Camal Cəlil oğlu- i.f.d., dosent, Azərbaycan Turizm və Menecment Universiteti
jamalhacijev@yandex.ru

Xülasə. Hər bir ölkənin iqtisadi həyatında nəqliyyat sisteminin inkişafi xüsusi önəm daşiyir. Son illər ölkə səviyyəsində bu sahədə görülən işlər uğurla həyata keçirilir. Beynəlxalq nəqliyyat-kommunikasiya tranzit dəhlizlərinin yaradilmasi və perspektiv dəhlizlərin formalaşdırılması istiqamətində aparilan düşünülmüş siyasət nəticəsində Azərbaycanin istər regional, istərsə də qlobal nəqliyyat sistemində geosiyasi çəkisi artir. Ölkəmizin iqtisadi qüdrətinin artmasinda nəqliyyat növlərini əhatə edən beynəlxalq və regional layihələrin əhəmiyyəti böyükdür. Belə ki, bu layihələr dünya bazarlarina çixişa imkan yaratmaqla yanaşı, həm də ümumi iqtisadi inkişafa ciddi təkan verir. Avropa ilə Asiyani birləşdirən ən qisa nəqliyyat marşrutlarinin kəsişməsində əlverişli geostrateji mövqedə yerləşməsi özü də Azərbaycanı ölkələrarası iqtisadi əlaqələrin yaradılmasında və gücləndirilməsində vacib faktorlardan birinə çevirmişdir. Ölkəmizin beynəlxalq nəqliyyat-kommunikasiya layihələrində iştiraki strateji əhəmiyyət kəsb edir və Azərbaycanın Avropa və Asiya ilə iqtisadi əlaqələrinin möhkəmləndirilməsi və genişləndirilməsi, dünya iqtisadiyyatına inteqrasiyasi və beynəlxalq nəqliyyat qovşağina çevrilməsi üçün böyük imkanlar yaradir. Bundan başqa, həyata keçirilən layihələr həm Azərbaycanin nəqliyyat sisteminin, həm də milli iqtisadiyyatin inkişafi baximindan xüsusi əhəmiyyət kəsb edir. Məqalədə beynəlxalq nəqliyyat layihələrinin inkişafı və layihələrinin icrasının xarakterik xüsusiyyətləri açıqlanmış, onların qiymətləndirilməsi həyata keçirilmişdir.

Açar sözlər: nəqliyyat sistemi, nəqliyyat dəhlizi, beynəlxalq nəqliyyat layihələri, regional layihələr, TRASEKA, TAP, TANAP

MAIN DIRECTIONS OF PARTICIPATION IN INTERNATIONAL AND REGIONAL TRANSPORT PROJECTS OF AZERBAIJAN

Hajiyev Jamal Jalil- PhD in econ., ass.prof., Azerbaijan Tourism and Management University,
jamalhacijev@yandex.ru

Abstract. The development of the transport system is of special importance in the economic life of each country. In recent years, the work done in this area at the national level is being successfully implemented. As a result of the well- thought-out policy pursued towards the creation of international transport and communication transit corridors and the formation of promising corridors, the geopolitical weight of Azerbaijan in both the regional and global transport system is growing.International and regional projects covering various modes of transport are of great importance in increasing the economic power of our country. Thus, these projects not only provide access to world markets, but also give a serious impetus to the overall economic development. Its favorable geostrategic position at the crossroads of the shortest transport routes connecting Europe and Asia has made Azerbaijan one of the important actors in establishing and strengthening economic ties between the two countries.Our country's participation in international transport and communication projects is of strategic importance. Because it creates great opportunities for strengthening and expanding Azerbaijan's economic ties with Europe and Asia, its integration into the world economy and its transformation into an international transport hub. In addition, the implemented projects are of special importance for the development of both the transport system and the national economy of Azerbaijan.The article describes the characteristics of implementation of international transport projects and their evaluation was carried out

Keywords: transport system, Transport Corridor, international transport projects, regional projects, TRASEKA, TAP,TANAP

Giriş. Ölkəmizin Şərqdən Qərbə və Şimaldan Cənubadək uzanan strateji və geosiyasi məkan və mühüm beynəlxalq nəqliyyat- kommunikasiya dəhlizlərinin kəsişməsində yerləşməsi onu yüz illərlə transmilli dünya güclərinin mühüm maraq dairəsində saxlamışdır. Zəngin karbohidroqen ehtiyatlarının yeni dividendlər qazanmaq şansı verməsi də əlverişli geosiyasi və coğrafi mövqedə olması ilə birbaşa bağlıdır. Prezident İlham Əliyev cənabları mövcud reallığı ölkəmiz üçün əsas şans kimi düzgün qiymətləndirmiş , son 25 il ərzində yeni neft strategiyası və transmilli nəqliyyat-kommunikasiya siyasətinin həyata keçirilməsində bu faktordan məharətlə istifadə etmişdir. Hal-hazırda ölkənin strateji maraqlarının yüksək səviyyədə təminatında aparıcı rol Azərbaycanın həm dünya dövlətləri, həm də güc mərkəzləri ilə münasibətlərinin təməlində məhz üstün geosiyasi, geoiqtisadi və coğrafi reallıqların dayanması durur.

1993- cü ildən ölkə rəhbərliyinin beynəlxalq iqtisadi əlaqələr sahəsində həyata keçirdiyi əsas strateji xətlərdən biri məhz ölkənin beynəlxalq nəqliyyat qovşağına çevrilməsi istiqamətində aparılan davamlı işlərdir.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə neft gəlirlərinin bir qisminin qeyri– neft sektoruna yönəldilməsi yolu ölkəni xarici aləmlə qovuşduran nəqliyyatı infrastrukturları, rabitə və informasiya texnologiyaları modernləşdirilmiş, yenidənqurma işləri aparılmış və hal-hazırda da aparılmaqdadır. Azərbaycanın Azərspace- 1, Azersky və Azerspace- 2 kimi telekommunikasiya peykləri orbitə çıxarılmışdır. Eyni zamanda Xəzər dənizinin dərinlikləri ilə Avropanı Asiya qitəsi ilə birləşdirəcək kommunikasiya vasitələrinin çəkilişi prosesinə start verilmişdir. Azərbaycan regional və beynəlxalq nəqliyyat- kommunikasiya layihələrinin dəstəklənməsi istiqamətində ardıcıl və məqsədyönlü siyasət aparmış, bununla qısa müddət ərzində Avrasiyanın əsas nəqliyyat-kommunikasiya qovşaqlarından birinə çevrilmişdir. Avropa İttifaqının maliyyə dəstəyi və Azərbaycan, Türkiyə, Gürcüstan dövlətlərinin xüsusi səyi ilə XX əsrin son onilliyində reallaşdırılan "İpək Yolu" (TRASEKA) layihəsinə əlavə dəstək olaraq, Azərbaycanın təşəbbüsü və liderliyi ilə inşa olunan və 2017- ci il oktyabrın 30- da istismara buraxılan Bakı- Tbilisi- Qars (BTQ) dəmir yolu Trans- Avropa- Asiya dəmir yolları şəbəkələrini birləşdirmiş və qədim İpək Yolunun polad magistrallar üzərində bərpası işi uğurla başa çatdırılmışdır.

Tədqiqat problemi. Məqalə ölkə nəqliyyat sisteminin beynəlxalq sistemlə əlaqələrinə vahid kompleks sistemli yanaşmanın, həmçinin mövcud və perspektiv nəqliyyat sistemlərinin tam müxtəlifliyinin məzmunu, strukturu, təşkili və fəaliyyət göstərməsinin dərin təhlilinə həsr edilmişdir.

Tədqiqatın məqsədi :Azərbaycanın beynəlxalq nəqliyyat sistemi ilə əlaqələrinin müqayisəli təhlili, ölkəmizin iştirak etdiyi beynəlxalq və regional layihələrinin əsas istiqamətlərinin araşdırılmasıdır.

TRASEKA layihəsinin əsas təşəbbüskarlarından biri olan Heydər Əliyevin dəstəyi ilə 1998-ci il sentyabrın 7-8- də Bakı şəhərində 9 ölkənin- Azərbaycan Respublikası, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Ruminya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan dövlət başçılarının qatıldığı konfrans açılışında 13 beynəlxalq təşkilat və 32 dövlət nümayəndə heyəti tarixi İpək Yolu bərpasına həsr edilən beynəlxalq tədbirdə iştirak etmişdir. Konfransın yekun hissəsində TRASEKA proqramı əsasında "Avropa- Qafqaz- Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Bakı Bəyannaməsi və Çoxtərəfli Saziş" adlı sənəd imzalanmışdır. Təşkilatın Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alınmışdır. Bəzi dairələrin skeptik yanaşmalarına baxmayaraq, bu layihənin qədim İpək Yolu üzərindən yenidən qurulması regionun əksər ölkələri üçün çox böyük əhəmiyyətə malik olduğu sübuta yetdi [1,2].

Təbii ki, layihənin əksər ölkələr tərəfindən qəbul edilməsinin səbəblərindən biri də Rusiya, Mərkəzi Asiya ölkələrinin daha əlverişli yolla (dəhliz vasitəsilə) Avropa və dünya ölkələri bazarlarına giriş çıxışını asanlaşdırmaqdır. Əlavə olaraq bu ölkələrin ticarət əlaqələrinin, iqtisadiyyatlarının inkişafına, dünya iqtisadiyyatı ilə inteqrasiyasına mühüm şərait yaratmasıdır [3,4].

Adı çəkilən layihə və Bakı- Tbilisi- Qars dəmir yolu layihəsi istifadəyə verildikdən sonra Çindən başlayaraq Orta Asiyaya, Cənubi Qafqaza, sonra da Türkiyə vasitəsilə Avropaya və eləcə də geriyə daşınacaq yüklərin çatdırılma müddəti dəniz daşınmalarına nisbətən iki dəfədən çox qısalmışdır. Nəqliyyat mütəxəssisləri belə qənaətə gəlir ki, bu dəhliz hal-hazırda Asiya və Avropa qitəsini birləşdirən ən əlverişli, qısa və təhlükəsiz nəqliyyat dəhlizidir. Bakı- Tbilisi- Qars dəmir yolu

vasitəsi ilə ilkin mərhələdə 5 milyon, sonrakı mərhələdə isə 17 milyon ton, daha sonra isə böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur.

Prezidentin xüsusi tapşırığına əsasən Bakının Qaradağ rayonu Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı inşa olunmuşdur. Həmin ərazidə yaradılan digər mühüm infrastruktur layihələr ilə yanaşı Azad Ticarət Zonası ölkəmizin beynəlxalq nəqliyyat qovşağına çevrilməsində xüsusi əhəmiyyət kəsb edəcəkdir [5].

Şəkil 1. Bakı- Tbilisi- Qars (BTQ) dəmir yolu xətti

Adı çəkilən dəmir yolu xəttinin çəkilməsi Naxçıvan Muxtar Respublikasının Ermənistan blokadasından çıxışına, nəqliyyat müstəqilliyinin təmin edilməsinə şərait yaradacaqdır. Lakin işğal altında olan ərazilərimizin azad olunması ilə əlaqədar artıq Naxçıvan Muxtar Respublikasına daha qısa və əlverişli yerdən, əvvəlki yerdən dəmiryolu və avtomobil yolu çəkiləcəkdir. Artıq bununla əlaqədar cənab prezident İlham Əliyevin xüsusi tapşırığı ilə layihə işlərinə başlanılmışdır.

Bundan əlavə, regionun ən böyük layihələrindən biri hesab edilən TANAP və TAP layihəsi Azərbaycan qazının Türkiyəyə (TANAP), oradan da Avropaya (TAP) nəqlini nəzərdə tutan layihədir [6,7].



Şəkil 2. TANAP və TAP layihələrinin marşrutu

TAP Türkiyə- Yunanıstan sərhədindən birbaşa TANAP-la birləşərək Yunanıstan, Albaniya ərazisi, həmçinin Adriatik dənizindən keçərək təbii qazı Cənubi İtaliya ərazisinə nəql edəcəkdir. Strateji məqsədlərdə əsas rol təbii qazın ölkəmizdən Avropa bazarlarına ixracının ən qısa və birbaşa nəqlinin təşkilində TAP- ın Avropa Birliyinin enerji təhlükəsizliyi və mənbələrinin şaxələndirilməsinə məxsus olacaqdır. Həmçinin TAP mühüm olarsa təbii qazı Cənub-Şərqi Avropaya yönəldilməsi üzrə də texniki imkanlara da malik olacaqdır.

Layihə üzrə 2013- cü ilin fevral ayında Albaniya, İtaliya, Yunanıstan kimi respublikalar arasında "Hökümətlərarası Saziş" imzalanmışdır. TAP- ın təməlqoyma mərasimi 17 may 2016-ci il

tarixində kecirilərək, 30 noyabr 2019- cu ildə TANAP- ın Avropaya birləşdirilməsi günü kimi tarixə yazılmış, 31 dekabr 2020-ci il isə artıq ilk Azərbaycan qazının Avropaya çatdırılması günü kimi tarixə düşmüşdür. Eyni zamanda Şimal- Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi 3- cü minilliyin əvvəlindən başlayaraq ölkənin xüsusi maraq dairəsinə çevrilən, son illərdə isə fəal qosulmuş olan və ciddi şəkildə yüksələn digər bir transmilli nəqliyyat layihəsi hesab olunur. Azərbaycanın Şimal- Cənub nəqliyyat dəhlizinə qoşulması təşəbbüsü TRASEKA layihəsində olduğu kimi ümummilli lider Heydər Əliyevə məxsusdur. Azərbaycanın nümayəndə heyəti 2004- cü ilin 19- 21 tarixində ölkə prezidentinin tapşırığı ilə Moskva şəhərində keçirilən Rusiya və İran Respublikası dəmir yolu rəhbərlərinin müşavirəsinə qatılmışdır. Üçtərəfli razılığa əsasən Şimal-Cənub nəqliyyat dəhlizi üzrə Beynəlxalq Konsorsium yaradılmasında iştirak etmişlər. Sonra da bu ölkələrin birgə layihə- axtarış işlərinin görülməsi, dəmir yollarına tranzit yük axınının cəlb edilməsi məsələləri təmin olunmuşdur.

Bakı şəhərində 2005- ci il 9 fevral tarixində, Tehran şəhərində isə 2005- ci il 24- 27 iyul tarixlərində Şimal- Cənub nəqliyyat dəhlizinin tikintisi, gələcəkdə istismarı, beynəlxalq konsorsiumun yaradılması və maliyyələşdirilməsi üsulları, tərəflərin burda pay iştirakı,qoyulacaq əsaslı vəsaitlərin geridönüşü yolları və s. məsələlər geniş müzakirə edilmiş, sonunda müvafiq razılıq əldə edilmişdir [8,9]. Bu gün "Azərbaycan Respublikasında loqistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq hökümətimiz Avrasiya coğrafiyasının mərkəzində mühüm nəqliyyat-loqistika qovşağına çevrilməsi kimi qarşıya qoyulmuş məqsədə nail olmuşdur.Adı çəkilən dəhlizin ölkə ərazisindən keçən hissəsində yaxın gələcəkdə gözlənilən yük daşınmaları həcmi təxminən ilk mərhələdə 3 milyon ton, ikinci mərhələdə 5- 8 milyon ton, üçüncü mərhələdə isə 15 milyon ton nəzərdə tutulur və atılan istiqamətdə ciddi işlər görülür.

Mövcud nəqliyyat dəhlizinin reallaşdırılması prosesiüzrə hal- hazırda işlər çox intensiv gedir və proses ölkə ərazisində son mərhələsinə qədəm qoymuşdur. Nəzərdə tutulmuş Astara (AR)- Astara (İİR) dəmir yolu xəttinin Astaraçay üzərindəki körpüyə qədər olan 8,3 kilometr uzunluğundakı yeni yolun tikintisi, Astaraçay üzərindəki körpü və İran ərazisindəki 1,4 kilometr uzunluğunda yolun çəkilişi tamamlanmışdır. Dəhlizin Qəzvin- Rəşt (175 km) hissəsinin tikintisi ilə bağlı işlərin aparılması üzrə İran Respublikası ilə danışıqlar aparılır, eyni zamanda dəmir yolu tikintisinin maliyyələşdirilməsində Azərbaycan da layiqincə iştirak edir. Rəsmi Bakı İran tərəfinə dəmir yolunun tikintisi və avadanlıqla təchiz olunması layihəsi üzrə 500 milyon dollar həcmində kredit ayrılmasını nəzərdə tutmuşdur. Şimal istiqaməti üzrə Samur çayı üzərindən Samur (Azərbaycan)- Yaraq Qazmalar (Rusiya) avtomobil körpüsünün inşası ilə yanaşı dəmir yolu xətlərinin genişləndirilməsi üzrə qızğın iş gedir və Azərbaycan- Rusiya sərhədindən Azərbaycan- İran sərhədinə qədər dəmir yolu artıq istismara tam hazır vəziyyətdədir. Azərbaycan dövləti bu layihəyə qoşulmaqla, həm Rusiya, həm də İranla quru sərhədinin əlverişli coğrafi mövqeyindən səmərəli istifadə etmək, üçtərəfli regional əməkdaşlıq sahəsini inkişaf etdirmək , mövcud şəraitdən faydalanaraq yeni dividentlər əldə etmək istəyir.

Azərbaycan yaxın zamanda bu istiqamət üzrə qonşu Gürcüstanın ərazisini və kommunikasiyalarını da işə salaraq Şimal- Cənub və Şərq- Qərb nəqliyyat dəhlizlərinin inteqrasiyasını sürətləndirməyi nəzərdə tutur və burada ən önəmli rol ilk növbədə BTQ, Xəzər dənizində Azərbaycanın inşa etdiyi və Qara dəniz limanlarına, Bakı və Gürcüstan ərazisindən keçərək Türkiyəyə qədər uzanan avtomobil yollarına, o cümlədən Türkiyə və Gürcüstan ərazisindəki dəmir yolu və dəniz limanlarına məxsusdur. Burada ölkəmizlə yanaşı Rusiya, İran, Gürcüstan, Türkiyə, Avropa ölkələri, Çin, Qazaxıstan və digər Orta Asiya respublikaları da bu dəhlizə məxsus imkanlardan istifadə edəcəklər [10]. Qeyd edilənlərlə yanaşı 2010-cu ilin əvvəlində ÇXR beynəlxalq iqtisadi əməkdaşlığın "Bir kəmər və bir yol"adlı yeni misilsiz modelinin layihəsini təklif etdi və beynəlxalq analitiklər Çinin bu təşəbbüsünü "meqalayihə" adlandırdılar. Tarixi İpək Yolu üzərində yerləşən dövlətlər də daxil olmaqla ÇXR-i təklif etdiyi bu möhtəşəm iqtisadi inkişaf strategiyası onun xarici ölkələrlə qarşılıqlı əlaqələr və ticari- iqtisadi əməkdaşlığın inkişafı ilə bağlı müvafiq infrastruktur yaradılmasına yönəlmişdir, həmçinin adı çəkilən strategiya "İpək Yolu İqtisadi Kəməri" və "Dəniz İpək Yolu" adlanan iki mühüm inkişaf istiqamətini əhatə edir. Eyni zamanda qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019- cu ilin may ayında "Bir kəmər, bir yol"

Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak edən məhdud sayda dünya dövlət başçılarından biridir [11-13].



Şəkil 3. "Bir kəmər, bir yol" layihəsinin marşrutu

Bu layihə region üçün qlobal əhəmiyyət daşıyan layihələrdən biridir. Layihənin mahiyyəti ondan ibarətdir ki, Çindən yola çıxan sürücü az zaman itirməklə Avropaya qədər gedib çıxa biləcək. Bu xəttin Azərbaycandan keçməsi nəzərdə tutulur. Xəzərin statusu müəyyənləşdikdən sonra sözügedən təşəbbüsün Azərbaycan ərazisində reallaşması imkanları xeyli artmışdır. Azərbaycan üçün beynəlxalq yükdaşımaların həcminin artırılması baxımından bu layihə çox əhəmiyyətlidir. Son illər Şərq- Qərb və Şimal- Cənub nəqliyyat dəhlizləri çərçivəsində Azərbaycandan həyata keçirilən beynəlxalq yükdaşımaların həcmində artımlar vardır. Ölkəyə daxil olan yüklərin təxminən 90 faizi tranzit olaraq digər ölkələrə aparılır.

Nəticə. Mövcud əlverişli şəraitdən maksimum faydalanma, eləcə də milli nəqliyyat sisteminin beynəlxalq nəqliyyat sisteminə inteqrasiyasını təminatı üçün aşağıdakılar həyata keçirilməlidir :

1. dəmir yolu, dəniz, avtomobil, hava, o.c. şəhər nəqliyyatı sahələrinin geniş müqayisəli təhlili həyata keçirilməli;
2. onlardan daha səmərəli istifadə yolları müəyyən edilməlidir;
3. eyni zamanda müasir nəqliyyat qovşaqlarının əmələgəlmə xüsusiyyətləri və buraxılış imkanları ətraflı və dərin araşdırılmalı,
4. səmərəli və qabaqcıl nəqliyyat əlaqələri qurulmalıdır;
5. mövcud idarəetmə sistemi təkmilləşdirilməlidir;
6. nəqliyyat sektoru, nəqliyyat- tranzit xidmətləri büdcənin əsas gəlir mənbələrindən birinə çevrilməlidir;
7. ölkə iqtisadi rayonları üzrə nəqliyyat sistemi, hər iqtisadi rayonun xarakterik xüsusiyyətləri öyrənilməlidir;
8. daxili və beynəlxalq yükdaşımada iştirak imkanları hərtərəfli təhlil edilərək qiymətləndirilməlidir;
9. gələcək perspektiv imkanlar aydınlaşdırılmalıdır.

Bu nöqteyi- nəzərdən "Azərbaycan Respublikasında loqistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" adlı rəsmi sənəd olduqca əhəmiyyətlidir. Yerli və xarici mütəxəssislərin birgə əməkdaşlığının nəticəsi olan bu rəsmi sənəd istər ölkəmizin potensial imkanlarının tədqiqi, istərsə də müvafiq qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi yollarının müəyyən edilməsi baxımından diqqəti cəlb edir.

Sevindiricidir ki, məhz bu layihələrin iştirakçısı Azərbaycandır və onların uğurla həyata keçirilməsi üçün çox böyük səylər edilmiş, siyasi addımlar atılmışdır. Nəhayət, görülən işlərin, atılan addımların nəticəsini görürük. Aydındır ki, layihələrin həyata keçirilməsi təkcə iqtisadi mənfəət gətirməyəcək, Azərbaycanın geosiyasi önəmini kifayət qədər artıracaqdır. Azərbaycan Avrasiya

məkanında regional əməkdaşlıq üçün əvəzolunmaz bir ölkə kimi daima öz fəaliyyətini davam etdirəcəkdir.

Bugün dünyada ölkəmizə kifayət qədər böyük hörmət, rəğbət var. Bugün ölkəmiz çox etibarlı tərəfdaş və qabiliyyətli ölkə kimi beynəlxalq aləmdə tanınır və artan iqtisadi gücümüz imkan verir ki, belə tarixi layihələr uğurla icra edilsin.

Ədəbiyyat

1. Səmədzadə Z.Ə. Azərbaycanın Avropa- Qafqaz- Asiya nəqliyyat dəhlizində iştirakı, Avropa-Qafqaz- Asiya nəqliyyat dəhlizinin koordinasiyası və inkişafı TRASECA proqramına həsr olunmuş konfransın materialları. Brüssel, 13-18s. 1993 1
2. Səmədzadə Z.Ə. İpək yolu sərvət yoludur. "Say" qəzeti. 1998
3.Səmədzadə Z.Ə. Qədim İpək Yolunun bərpası respublikamız üçün daimi kapitaldır, daimi sabit inkişafdır. "Azərbaycan" qəzeti. 1998
4. Səmədzadə Z.Ə. Qədim İpək Yolu ilə Azərbaycandan ildə 18-20 milyon ton yük daşına bilər. Bakı, "İki sahil" qəzeti. 2018
5. Алиев А.Б. Программа ТРАСЕКА Европа- Кафказ- Азия и развитие транспортного пространства Азербайджана. Ганун №3, Баку, 31- 33с. 1998
6. Hacıyev C.C. İqtisadiyyatın şaxələndirilməsinin qeyri-neft sektorunun inkişafına təsiri, Azərbaycan Memarlıq və İnşaat Universitetində keçirilmiş, Şaxələndirilmiş iqtisadiyyatın infrastruktur təminatı: əsas meyillər və inkişaf istiqamətləri mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. 353-Bakı, 356s. 2019
7.Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəsmi internet səhifəsi. economy.gov.az
8.Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi internet səhifəsi.cbar.az
9.Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəsmi internet səhifəsi. mincom.az
10.Qasımov E.F. Regionun iqtisadi inkişafında nəqliyyat amili Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya: iqtisadi və beynəlxalq münasibətlər. II Beynəlxalq Konqresin materialları, Qafqaz Universiteti, 496-503s. 2007
11.Nuriyev Ə.X. Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları. Bakı, "Avropa" nəşr, 417s. 2013
12.Rzayev A.Y. Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişafı və təkmilləşdirilməsində nəqliyyat amili, Bakı. 2012
13.Azərbaycan 2020, Gələcəyə baxış, İnkişaf konsepsiyası. 2012

References

1. Semedzade Z.E. Azərbaycanin Avropa-Qafqaz-Asiya neqliyyat dehlizinde ishtiraki, Avropa-Qafqaz- Asiya neqliyyat dehlizinin koordinasiyasi ve inkishafi TRASECA proqramina hesr olunmush konfransin materiallari. Brussel, 13-18s. 1993
2. Semedzade Z.E. Qedim Ipek Yolu servet yoludur. "Say" qezeti. 1998
3. Semedzade Z.E. Qedim Ipek Yolunun bərpasi respublikamiz uchun daimi kapitaldir, daimi sabit inkishafdir. "Azerbaycan" qezeti. 1998
4. Semedzade Z.E. Qedim Ipek Yolu ile Azerbaycandan ilde 18-20 milyon ton yuk dashina biler. "Iki sahil" qezeti, Baki. 2018
5. Aliev A.B. Programma TRASEKA Evropa-Kafkaz-Aziya i razvitie transportnogo prostranstva Azerbajdzhana. Baku, Ganun №3, 31-33s. 1998
6. Haciyev C.C. İqtisadiyyatin shaxelendirilmesinin qeyri- neft sektorunun inkishafina tesiri, Azerbaycan Memarliq ve İnshaat Universitetində kechirilmish, Shaxelendirilmish iqtisadiyyatin infrastruktur teminati: esas meyiller ve inkishaf istiqametleri movzusunda beynelxalq elmi-praktik konfransin materiallari. Baki, 353-356s. 2019
7. Azerbaycan Respublikasi İqtisadiyyat Nazirliyinin resmi internet sehifesi. economy.gov.az
8. Azerbaycan Respublikasi Merkezi Bankinin resmi internet sehifesi.cbar.az

9. Azerbaycan Respublikasi Neqliyyat, Rabite ve Yuksek Texnologiyalar Nazirliyinin resmi internet sehifesi. mincom.az.
10. Qasimov E.F. Regionun iqtisadi inkishafinda neqliyyat amili Qloballashma prosesinde Qafqaz ve Merkezi Asiya: iqtisadi ve beynelxalq munasibetlər" II Beynelxalq Konqresin materiallari, Qafqaz Universiteti, 496-503s. 2007
11. Nuriyev E.X. Azərbaycanda iqtisadi inkishaf ve modernlehsme siyasetinin konseptual əsaslari. "Avropa" neshr", Baki, 417s. 2013
12. Rzayev A.Y. Azərbaycanin xarici iqtisadi elaqelerinin inkishafi ve tekmilleshdirilmesinde neqliyyat amili adli dissertasiya ishi. Baki, 2012
13. Azerbaycan 2020, Geleceye baxish, Inkishaf konsepsiyasi. 2012

Redaksiyaya daxil olma/Received 05.10.2021
Çapa qəbul olunma/Accepted for publication 07.11.2021

AQRAR SAHİBKARLIQDA RƏQABƏTQABİLİYYƏTLİLİYİN DİQNOSTİKASININ ƏSAS MƏRHƏLƏLƏRİ

Mirzəyev Natiq Sərhad oğlu- i.e.d., dosent, Lənkəran Dövlət Universiteti, agayev.asf@mail.ru

Xülasə. Aqrar sahədə fəaliyyətin müxtəlif formaları qanunvericiliklə təsbit olunur. Bunlardan da biri aqrar sahibkarlıqdır. Aqrar sahibkarlıq, kənd təsərrüfatı və aqrar-sənaye istehsalı ilə əlaqəli müxtəlif növ sahibkarlıq fəaliyyətlərinin məcmusunu ifadə edən ümumi bir konsepsiya kimi qəbul edilə bilər. Aqrar sahibkarlıq, onun fəaliyyət üçün mülki və digər qanunvericiliklə müəyyən edilmiş ümumi tələblərə uyğun olmalıdır. Aqrar sahibkarlıqda rəqabət, rəqabətqabiliyyətlilik mühüm əhəmiyyət kəsb edir. Məqalədə rəqabət və onun təhlili ilə bağlı araşdırmalar aparılmış, sahibkarlı müəssisələrinin rəqabət mübarizəsində SWOT təhlilinin mühüm əhəmiyyəti qeyd olunmuşdur. Eyni zamanda bu sahədə rəqabərqabiliyyətliliyin diaqnostikasının mahiyyəti müəyyən olunmuş və onun əsas mərhələləri təsnifləşdirilmişdir.
Açar sözlər: aqrar sahə, diaqnostika, rəqabət, rəqabətqabiliyyətlilik, rəqabət üstünlükləri, sahibkarlıq, strategiya

THE MAIN STAGES OF THE DIAGNOSTICS OF COMPETITIVENESS AGRICULTURAL ENTREPRENEURSHIP

Mirzayev Natig Sarhad- PhD in econ., ass.prof., Lankaran State University, agayev.asf@mail.ru

Abstract. Different forms of activity in the agrarian sphere are established by legislation. One of them is agrarian entrepreneurship. Agrarian entrepreneurship can consider as a generic concept, which implies the acquisition of different types of entrepreneurial activity associated with agriculture and agro-industrial production. Agricultural entrepreneurship must comply with the general requirements that are established for this activity by civil and other legislation. Competition and competitiveness are important in agricultural entrepreneurship. The article conducts a study of competition and its analysis, emphasizes the importance of SWOT analysis in the competition of entrepreneurial enterprises. At the same time, the essence of diagnostics of competitiveness in this area is revealed and its main stages are classified.
Keywords: agricultural sector, diagnostics, competition, competitiveness, competitive advantages, entrepreneurship, strategy

Giriş. Aqrar sahənin rolunu qiymətləndirmək demək olar ki, mümkün deyil. Bu sahə hər bir dövlətin iqtisadiyyatında strateji bir mövqeyə malikdir, çünki aqrar sahə vətəndaşların fasiləsiz qida və gündəlik ehtiyacları ilə təmin etməsini həyata keçirən əsas məhsuldar sistem kimi çıxış edir. Məlumdur ki, bunsuz yaşamaq mümkün deyil. Odur ki, aqrar sahənin inkişafını dövlətin iqtisadi təhlükəsizliyinin qarantı hesab etmək olar. XX əsrin 90-cı illərində sosializmin bir sistem kimi dağılmasından sonra aparılan islahatların təsiri nəticəsində aqrar sahədə böyük dəyişikliklər baş verdi. Bu fəaliyyət sahəsinin infrastrukturu demək olar ki, tamamilə dəyişdi. Bu gün keçmiş sovxozların və kolxozların yerini ailə təsərrüfatları, kəndli-fermer təsərrüfatları və digər sahibkarlıq subyektləri əvəz edirlər.

Aqrar sahibkarlıq, kənd təsərrüfatı məhsullarının istehsalı, istehsal, saxlama, emal, tədarük, reklam, bazarın tədqiq olunması və satış sahələrində xidmətlərin göstərilməsi üçün bütün əməliyyatların məcmusudur. Aqrar sahədə fəaliyyətə başlayan hər bir sahibkar gələcəkdə maddi, maliyyə mənbələrinə olan ehtiyacı, onların əldə edilməsi mənbələrini aydın şəkildə anlamalı, müəssisənin fəaliyyət prosesini dəqiq müəyyənləşdirməlidir. Sahibkarlıq fəaliyyəti müəssisənin müəyyən bir təşkilati forması olmadan həyata keçirilə bilməz. Adətən, sahibkarlıq fəaliyyətinin seçilmiş forması, həm də sahibkarın peşəsindən asılı olaraq şəxsi maraqlardan asılıdır, lakin əsasən obyektiv şərtlərlə müəyyən edilir:

– vəsaitin mövcudluğu;
– fəaliyyət sahəsi;
– müəyyən sahibkarlıq formalarının üstünlükləri və mənfi cəhətləri;
– bazarın vəziyyəti [1].

Aqrar sahədə fəaliyyət göstərən istənilən sahibkarlıq subyektlərinin məqsədi, bazar mövqelərinin qorunması və genişləndirilməsinə nail olmağın əsas vasitəsi kimi uzunmüddətli fəaliyyət göstərməsidir. Bu da öz növbəsində, yalnız və yalnız aqrar sferada sahibkarların yüksək rəqabət qabiliyyəti ilə mümkündür. Rəqabət iqtisadi kateqoriyalara aid olmaqla, onun mahiyyətinin vahid və ya birmənalı təfsiri yoxdur. İqtisadi fikrin formalaşması və inkişafı ilə "rəqabət" anlayışının məzmunu müxtəlif aspektlərdən izah olunmağa başlandı və "rəqabət" anlayışının iqtisadi məzmununu dərk etmək üçün bir neçə nəzəri yanaşma mövcuddur:
–iqtisadi fəaliyyətlərin əlaqələndirilməsi yolu kimi;
–bazar agentləri arasında qarşılıqlı əlaqə mexanizmi kimi;
–iqtisadi hədəflərə çatmağın yolu kimi;
–rəqabət üstünlüyü qazanmağın bir yolu olaraq [2].

İlk dəfə A.Smit öz əsərində rəqabətin tərifini aydınlaşdırmağa çalışdı. A.Smitə görə rəqabətin mahiyyəti, uzunmüddətli perspektivdə bazarda nəzarəti elə keçirmək üçün satıcıların qarşılıqlı əlaqəli cəhdlərinin toplusudur [4]. Aqrar sferada rəqabət, ziddiyyətli amillərin vəhdətinin nəticəsidir: bazar qüvvələrinin maksimum fəaliyyət sərbəstliyi və dövlətin sahədə cərəyan edən proseslərə, yəni ictimai istehsalın ümumi səmərəliliyini təmin edən proseslərə əhəmiyyətli təsiri. İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı bazarında rəqabətin tənzimlənməsi inkişaf etmiş və baha başa gələn sistemi əks etdirir. Rəqabət üstünlüklərinin formalaşması və reallaşdırılması rəqabətqabiliyyətliliiyin təmin edilməsi prinsiplərinə əsaslanmalıdır. Prinsiplər, fəaliyyətlər zamanı əldə rəhbər tutulan qanunuyğunluqlardan irəli gələn ən optimal qayda və qaydalardır [5]. Rəqabət qabiliyyəti probleminin kifayət qədər öyrənilməsinə baxmayaraq, onun təmin edilməsi prinsipləri aydın şəkildə ifadə olunmur. Bu prinsiplər aşağıdakı kimi ifadə edilə bilər: təşkilati; funksional; iqtisadi; sosial.

Aqrar sahədə sahibkarlığın dayanıqlığı amilləri aşağıdakılardır:
–bu fəaliyyətin nəticələrinin təbii və iqlim şəraitindən əhəmiyyətli dərəcədə asılı olduğu üçün, iqtisadi proseslərin təbii proseslərlə qarışması;
–sahibkarlıq fəaliyyətinin kadr təminatı;
–infrastruktur obyektlərinin, nəqliyyat və emal müəssisələrinin inkişafı.

Qeyd etmək lazımdır ki, aqrar sahibkarlığın dayanıqlılığına və davamlılığına təsir edən mühüm mexanizmlərdən biri də onun rəqabətqabiliyyətliliyidir. Rəqabət qabiliyyətinin öyrənilməsi bazar araşdırmasının ən vacib hissələrindən biridir, Rəqabət qabiliyyətinin öyrənilməsi bazar araşdırmasının ən vacib hissələrindən biridir, hansı ki, müəssisənin bazarda fəaliyyəti üçün strategiya və taktikalar hazırlamaq, texniki səviyyəni və keyfiyyəti artırmaq üçün doğru yolu seçmək üçün zəmin yaradır. Rəqabət qabiliyyətinin universal qəbul olunmuş tərifi yoxdur və ola da bilməz. Belə demək olar ki, bu yalnız hansı obyektə (mövzuya) və ya subyektə aid olmasından asılı ola bilər. Rəqabətqabiliyyətlilik müəyyən bir obyektin və ya subyektin müəyyən şərtlə çərçivəsində rəqiblərindən üstün olma qabiliyyətidir. Eləcə də, rəqabətqabiliyyətlilik, müəyyən bazarda analoji müəssisələrlə müqayisədə rəqabətə davam gətirmə qabiliyyətini müəyyən edir. Müəssisənin rəqabət qabiliyyəti, bazardakı oxşar obyektlərlə müqayisədə konkret ehtiyacın real və ya potensial təmin edilməsi dərəcəsi ilə xarakterizə olunan xüsusiyyətidir.

Aqrar sektordakı müəssisələr, sahədə rəqabətin inkişafına mane olan aşağıdakı amillərin təsirini aradan qaldırmaqla, ərzaq bazarında rəqabət üstünlüyünü təmin edə bilərlər:
1. Sahənin struktur və texnoloji modernləşməsinin, əsas fondların yenilənməsinin və təbii-ekoloji potensialın təkrar istehsalının aşağı tempi;
2. kənd təsərrüfatı məhsullarına qiymətlərin artması ilə müqayisədə, qiymətlərin, ilk növbədə yanacaq, elektrik enerjisi, sənaye məhsulları, rabitə xidmətləri bahalaşması ilə əlaqədar olaraq kənd təsərrüfatının fəaliyyət göstərməsi üçün əlverişsiz ümumi şərait;

3. Aqrar sahə istehsalçılarının, xüsusən də kiçik müəssisələrin maliyyə, maddi, texniki və informasiya ehtiyatları, hazır məhsullar bazarlarına çıxışını əngəlləyən bazar infrastrukturunun qənaətbəxş olmayan inkişaf səviyyəsi;
4. kənd təsərrüfatı məhsulları, xammal və ərzaq bazarlarının qeyri- sabitliyi, özəl investisiyaların qeyri-qənaətbəxş axını, kənd təsərrüfatı məhsulları istehsalında sığortanın zəif inkişafının səbəb olduğu sahənin maliyyə qeyri- sabitliyi;
5. kəndlərdə yaşayan əhalinin alternativ məşğulluğu üçün iqtisadi şəraitin olmaması;
6. kənd yerlərində sosial və mühəndis- texniki infrastrukturun aşağı səviyyədə inkişafı.

Rəqabət qabiliyyətinin artmasına təkcə istehsal olunan məhsul növləri, onların həcmlərinin rasional birləşməsi deyil, mövcud şərtlərdən asılı olaraq aqrar sahibkarlığın müəyyən təşkilati və hüquqi formalarının seçilməsi də təsir göstərir. Bazar və rəqabət mühitində müəssisələrin fəaliyyətinin səmərəliliyi, əsasən tələbdəki dəyişikliklərə nə qədər tez reaksiya göstərmələrindən asılıdır və bəllidir ki, kiçik müəssisələr çox vaxt daha mobil olurlar. SWOT təhlili əsasında rəqabət qabiliyyətinin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. SWOT təhlili müəssisənin güclü və zəif tərəflərini (daxili mühitin təhlili), eləcə də imkanlar və təhlükələri (xarici mühitin təhlili) müəyyənləşdirməyi nəzərdə tutur. SWOT təhlili bazarda konkret vəziyyəti qiymətləndirməyə və müəssisənin üstünlükləri və çatışmayan cəhətləri barədə aydın fikir əldə etməyə şərait yaradır. Bu da müəssisənin inkişaf istiqamətini seçməyə, müəssisənin güclü tərəflərini sərfəli istifadə etməyə, təşkilatın çatışmazlıqlarını aradan qaldırmağa və ya nəzərə almağa, bazarın təqdim etdiyi imkanlardan istifadə etməyə (nəzərdən qaçırmamağa), təhlükələrin və təhdidlərin qarşısını almağa imkan verir.

SWOT təhlili müəssisə və bazar haqqında informasiyaların strukturunu qurmağa, mövcud vəziyyəti yenidən qiymətləndirməyə, yeni perspektivləri nəzərə almağa imkan verir. Daxili mühitin parametrlərinin hər biri üçün güclü və zəif tərəfləri rahat müəyyənləşdirmək məqsədilə aşağıdakı xüsusi cədvəldən istifadə etmək olar (cəd.1).

Cədvəl 1. Müəssisənin güclü və zəif tərəflərini müəyyənləşdirilməsi

Qiymətləndirmə parametrləri	*Güclü tərəflər*	*Zəif tərəflər*
1. Marketinq	Qəbul olunan məhsul keyfiyyətinin yüksək səviyyəsi	İstehsal olunan məhsulların dar çeşidi
2. İstehsal	Resursların əlçatan olması; müasirdən texnologiyalardan istifadə	Məhsulun maya dəyərinin ən təhlükəli rəqibin məhsulunun maya dəyərindən 5% yüksək olması
...	**...**	**...**

SWOT təhlilinin bazar qiymətləndirməsi ilə əlaqəli ikinci mərhələsi (xarici mühit), analoji olaraq yerinə yetirilən əvvəlki hərəkətlərə bənzəyir. Hər bir parametrin qiymətləndirilməsi üçün müəssisələrin imkan və təhlükələr baxımından parametrlər cədvəli tərtib etdilir (cəd.2). Aqrar sahə müəssisələrinin rəqabət qabiliyyətini formalaşdıran amillər, bunlardır: dövlətin iqtisadi inkişaf səviyyəsi və istehsalçılara dövlət dəstəti siyasəti; elmi- texniki inkişaf və innovasiya texnologiyalarının sənayedə tətbiq dərəcəsi; sənayenin iqtisadi artım tendensiyaları; cəmiyyətin istehsal güclərinin inkişafı səviyyəsi; müştərilərin ehtiyaclarındakı dəyişiklik səviyyəsi və onların ödənilməsi qabiliyyəti; müəssisənin resurs potensialı ilə təmin edilməsi və istifadəsinin səmərəliliyi; təbii- iqlim şəraiti; təşkilati quruluşun inkişaf səviyyəsi, informasiya dəstəyi və marketinq fəaliyyəti; müəssisənin maliyyə və investisiya imkanları, strateji fəaliyyət istiqaməti [5]. Aqrar sahədə müəssisələrin rəqabət qabiliyyətinin qiymətləndirilməsi və diaqnostikası bir neçə mərhələdə həyata keçirilməlidir. İlk mərhələdə müvafiq sənaye sahəsində və ya bazarda rəqabət apara bilən müəssisələr qrupu aşkar edilir. Sonra isə sahibkarlıq subyektlərinin daxili mühitini və xarici amillərin təsir xüsusiyyətlərini qiymətləndirmək və diaqnoz qoymaq, keyfiyyət metodları və göstəricilərindən

istifadə olunan əsas müsbət amilləri, modelləri, proqnozları müəyyənləşdirmək lazımdır. Alınan məlumatlar əsasında rəqabətqabiliyyətliliyin inteqral göstərici müəyyən edilir. Rəqabət qabiliyyətinin qiymətləndirilməsi və diaqnostikası, vacib bir şərt kimi müəssisələrin reytinqinin inkişafı əsasında həyata keçirilməlidir. Xüsusi olaraq qeyd edilməlidir ki, belə bir qiymətləndirmə rəsmi hesabat məlumatlarına əsaslanır.

Cədvəl 2. Bazar imkanlarını və təhdidlərini müəyyənləşdirmək

Qiymətləndirmə parametrləri	*İmkanlar*	*Təhlükələr*
1. Tələb	Əhali artımı gözlənilir	Modanın (dəbin) və həyat tərzinin müasir meylləri istehlakçıların zövqlərində və üstünlüklərində dəyişikliklərə səbəb olur
2. Rəqabət	Bazarda təmsil olunan markalara istehlakçıların öhdəlikləri ilə əlaqədar yeni iştirakçıların bazara çıxışındakı yüksək maneələr	Müəssisənin əsas rəqiblərin payına nisbətən aşağı bazar payı
...	**...**	**...**

Bundan sonra, seçilmiş sahənin rəqiblərindən ibarət bir qrup müəssisə yaradılır, müəssisələrin fəaliyyətinə birbaşa təsir göstərən amillər diaqnoz olunlurlar. Bazar mühiti təhlil olunur və qiymətləndirmə meyarları müəyyənləşdirilir. Müəssisələrin rəqabət qabiliyyətinin qiymətləndirilməsi metodikası seçilir və müvafiq göstəricilər hesablanır. Aqrar sahədə fəaliyyət göstərən müəssisələrin rəqabət qabiliyyətliliyi səviyyəsi qiymətləndirilir.

Rəqabətqabiliyyətliliyin inteqral göstəricisi hesablanır. Müəssisələrin rəqabətqabiliyyətliliyi səviyyəsinin qiymətləndirilməsinin son mərhələsi sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətliliyi səviyyəsi ilə bağlı nəticələrin əsaslandırması, rəqabət mövqelərinin yaxşılaşdırılması və ya qorunması ilə bağlı tədbirlərin qiymətləndirilməsi və inkişaf etdirilməsidir.

Rəqabətqabiliyyətlilik bir təsərrüfat subyektlərinin kompleks xüsusiyyətidir və bir parametr ilə müəyyən edilməsi mümükün deyil. Parametrlər dəsti konkret situasiyaya görə dəyişəcəkdir. Müəssisə, bazarda rəqabətqabiliyyətliliyə nail ilmaq üçün özünün rəqabət üstünlüklərini ayırd etməlidir. Hansı ki, xarici və daxili mühit amillərində baş verən dəyişikliklərə uyğunlaşmağa imkan verəcək və onun gəlirliliyini təmin edəcəkdir.

Aqrar sahədə müəssisələrin davamlı fəaliyyətinin təmin edilməsi və rəqabətqabiliyyətliliyi səviyyənin yüksəldilməsi, təsərrüfatçılıq və kommersiya sahəsində müvəffəqiyyətin, eləcə də, bazarda uzunmüddətli fəaliyyətin əsas amil kimi müəssisənin effektiv rəqabət strategiyasının formalaşdırılmasını tələb edir. Rəqabət strategiyası, müəssisələrin korporativ strategiyasının tərkib hissəsidir və əmtəə bazarında rəqabətin aparılmasına dair spesifik yanaşmalar toplusunu xarakterizə edir.

Strategiyanı seçmək və əsaslandırmaq üçün strategiyanın mövcud növlərini və ətraf mühitdə ayrı- ayrı müəssisələr üçün onların tətbiq olunma şərtlərini bilmək lazımdır. İdarəetmə sistemindəki iyerarxiyaya görə, korporativ, işgüzar, funksional və əməliyyat strategiyalarını fərqləndirirlər.
Funksional meyara görə marketinq, istehsal, maliyyə, təşkilati və sosial strategiyalara ayrılırlar. Hər hansı bir sahənin, müəssisənin və ya məhsulun həyat dövrü mərhələlərinə görə strategiya inkişaf (artma), sabit və azaldılma strategiyaları olaraq təsnif edilir. Bazardakı rəqabət mövqeyinə görə sahədə lider, iddiaçı, davamçı və yeni strategiyaları fərqləndirirlər. Rəqabət üstünlüyünə nail olma metoduna görə minimum xərclər strategiyasını, diversifikasiya strategiyasını və konsentrasiya strategiyasını ayırırlar.

Strategiyanın işlənməsi müəssisə tərəfindən uzunmüddətli məqsədlərin müəyyənləşdirilməsi ilə başlayır. Bazarların təhlili, qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün müəssisənin hansı sahədə biznes fəaliyyəti ilə məşğul olmasını müəyyənləşdirməyə imkan verir. Strategiyanın növbəti addımı əsas müvəffəqiyyət və uğur gətirən amillərin müəyyənləşdirilməsidir. Bu amillərə mövcud sahədə və ya bazarda müvəffəqiyyəti təyin edən bir sıra resurslar və biznes- aktivlər aiddir. Nəticədə hədəf seqmentlərdəki mövqeləri, biznesin məqsədlərini və özünəməxsusluğunu (unikallığını), inkişaf strategiyasını aydın şəkildə ifadə etmək lazımdır.

Aqrar sahədə fəaliyyət göstərən müəssisələrin rəqabət qabiliyyətinin qiymətləndirilməsi təkcə təsərrüfat daxili amillərin deyil, həm də ona təsir edən xarici amillərin uçota alınması ilə həyata keçirilməlidir. Daxili amillərə aşağıdakılar daxildir: kənd təsərrüfatı məhsullarının istehsal həcmi; müəssisənin resurslarla təmin edilməsinin göstəriciləri və onlardan səmərəli istifadə; istehsalın ixtisaslaşması və şaxələndirilməsi; kənd təsərrüfatı bitkilərinin və heyvanlarının məhsuldarlığı; məhsulun keyfiyyəti. Aqrar sahədə fəaliyyət göstərən müəssisələrin rəqabətqabiliyyətliliyi səviyyəsini təyin etmək üçün nəzərə alınmalı olan xarici amillərə aşağıdakılar daxildir: kənd təsərrüfatının inkişafının dövlət tərəfindən tənzimlənməsi və dəstəklənməsi, rəqiblər haqqında informasiya, bazar infrastrukturu, məhsulların satış kanalları və reallaşdırılmasının informasiya dəstəyi. Aqrar sahədə iqtisadi subyektlər arasında rəqabət mübarizəni inkişaf etdirmək məqsədilə əsas vəzifə istehlak bazarının səmərəliliyinin artırılması üçün əlverişli şərait yaradan inkişaf etmiş əmtəə dövriyyəsi sisteminin formalaşdırılmasıdır.

Ədəbiyyat

1. Украинцева И. В., Авдеева А. И. Предпринимательская деятельность и особенности в сельском хозяйстве, Научно-методический электронный журнал «Концепция», 100–103с. 2017
2. Мокроносов, А. Г. Конкуренция и конкурентоспособность, А.Г.Мокроносов, И. Н. Маврина, Екатеринбург, 194с. 2014
3. Бойко В.А. Оценка микросреды аграрного предприятия с целью определение стратегии развитиям. В.В. Докучаева. Серия «Экономические науки» № 6, 96-101с. 2012
4. Смит А. Исследование о богатствах народов, 58с. 1997
5. Алтухова Л.А., Семко И.А. Принципы обеспечения конкурентоспособности предпринимательских структур в аграрном секторе, № 3(2). 2009

References

1. Ukrainceva I. V., Avdeeva A. I. Predprinimatel'skaya deyatel'nost' i osobennosti v sel'skom hozyajstve, Nauchno-metodicheskij elektronnyj zhurnal «Koncepciya», 100–103s. 2017
2. Mokronosov, A. G. Konkurenciya i konkurentosposobnost', A.G.Mokronosov, I. N. Mavrina, Ekaterinburg, 194s. 2014
3. Bojko V.A. Ocenka mikrosredy agrarnogo predpriyatiya s cel'yu opredelenie strategii razvitiyam. V.V. Dokuchaeva. Seriya «Ekonomicheskie nauki» № 6, 96-101s. 2012
4. Smit A. Issledovanie o bogatstvah narodov, 58s. 1997
5. Altuhova L.A., Semko I.A. Principy obespecheniya konkurentosposobnosti predprinimatel'skih struktur v agrarnom sektore, № 3(2). 2009

Redaksiyaya daxil olma/Received 25.09.2021
Çapa qəbul olunma/Accepted for publication 25.10.2021

AZƏRBAYCANIN KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINDA KİÇİK BİZNESİN ROLU

Tağıyeva Gülnarə Adil qızı– müəllim, Aqrar sahənin iqtisadiyyatı kafedrası,
Azərbaycan Dövlət Aqrar Universiteti, gulutagyeva@mail.ru

Xülasə. Kiçik və orta müəssisələrin təsərrüfat fəaliyyətinin əhəmiyyəti cəmiyyətin sosial problemlərinin həll edilməsinə kömək edir. Kiçik biznes, həmçinin, regional iqtisadiyyatın inkişafına müsbət təsir göstərir, yeni iş yerləri yaradır, ölkədə məşğulluğu və rəqabət mühitinin yaradılmasını təmin edir. Məqalədə kənd təsərrüfatında kiçik sahibkarlığın inkişafının yaxşılaşdırılması üçün nəzəri və praktik müddəalar təqdim olunur. Kənd təsərrüfatında kiçik biznesin iki xüsusiyyəti əsaslandırılır. Xüsusiyyətlərin birinci istiqaməti kənd təsərrüfatı istehsalının spesifikliyi ilə, ikinci istiqamət isə kiçik biznesin özünün spesifik xüsusiyyətləri ilə əlaqələndirilir. Məqalədə həmçinin biznesin kənd təsərrüfatında rolu, onun inkişaf perspektivləri, kiçik sahibkarlığın ölkə iqtisadiyyatında və dövlətin inkişafında rolu təhlil olunmuşdur.
Açar sözlər: kənd təsərrüfatı, kiçik biznes, rəqabət mühiti, kiçik sahibkarlıq, milli resurslar

THE ROLE OF SMALL BUSINESS IN THE DEVELOPMENT OF AGRICULTURE IN AZERBAIJAN

Taghieva Gulnara Adil– teacher, department of Agrarian Economics,
Azerbaijan State Agriculture University, gulutagyeva@mail.ru

Abstract. The importance of economic activity of small and medium enterprises helps to solve social problems of society. Small business also has a positive impact on the development of the regional economy, creates new jobs, create employment and a competitive environment in the country. The article presents theoretical and practical provisions for improving the development of small business in agriculture. Two features of small business in agriculture are justified. The first direction of features is connected with the specificity of agricultural production, and the second direction is connected with the specific features of small business itself. The article also analyzes the role of business in agriculture, its development prospects, role of small business in the country's economy and the development of the state.
Keywords: agriculture, small business, competitive environment, small business, national resource

Giriş. Keçən əsrin 90- cı illərindən başlayaraq aqrar islahatlar Azərbaycanın kənd təsərrüfatında əsaslı dəyişikliklərə səbəb oldu. Dövlət və kolxoz-kooperativ müəssisələrinin torpağının və əmlakının özəlləşdirilməsi prosesində təsərrüfatların yeni təşkilati- hüquqi formaları yaradıldı. Kənd təsərrüfatında fərdi sahibkarlıq kəndli-fermer təsərrüfatının yaranmasına və inkişafına səbəb oldu. Fərdi köməkçi təsərrüfatlar fəaliyyətlərini xeyli genişləndirdi. Bazar münasibətləri bütün təsərrüfat kateqoriyalarında istehsalın təşkilində həlledici oldu.

Kiçik biznesin sosial- iqtisadi əhəmiyyəti. Kiçik biznes müxtəlif dövlətlərin iqtisadi cəhətdən inkişafına səbəb olan, əhalinin iqtisadi fəallığının yüksəlməsinə və istehsalın canlanmasına stimul verən mühüm amildir. Kiçik biznes kənd təsərrüfatında ən çevik və nəticəli sahələrdən biridir. Habelə ÜDM- in mühüm hissəsi onun payına düşür, iqtisadi fəal əhalinin xeyli hissəsi də kənd təsərrüfatı sahəsində çalışır. Məşğulluğun təmin edilməsi ilə bərabər, kiçik biznes rəqabət qabiliyyətli, dinamik və diversifikasiyalı iqtisadiyyatın yaradılmasında mühüm rol oynayır. Bazar münasibətlərinin formalaşması və inkişafı müxtəlif mülkiyyət formalı təsərrüfat subyektlərinin fəaliyyətini tələb edir. Kiçik mülkiyyətçi təbəqəsi kimi çıxış edən kiçik biznes, əhəmiyyətli şəkildə ölkənin sosial- iqtisadi inkişaf səviyyəsini müəyyənləşdirir. Ona görə də inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da bu sektorun inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. Bu biznes sektorunda milli resursların əsas kütləsi yaradılır və dövr edir, bu da orta və iri biznes üçün qida mühitinin əsasını formalaşdırır. Kiçik müəssisələrin idarəetmə çevikliyi bazarın dəyişən konyukturasına vaxtında və dəqiq uyğunlaşmağa, reaksiyasına şərait yaradır. Kiçik sahibkarlıq daha dinamik inkişaf edən sektor olaraq makroiqtisadi

mühitə əhəmiyyətli təsir göstərə bilir. O, məşğulluq probleminin müəyyən dərəcədə həllinə kömək edir, inhisarçılığın yaranmasına maneçilik törədən bazar mexanizminin fəaliyyətinə imkan yaradır. Bir sözlə deyə bilərik ki, kiçik biznes kənd təsərrüfatında rəqabət mühitinin formalaşdırılmasının mühüm amili kimi çıxış edir [1]. Tədqiqatın əsas məqsədi bazar iqtisadiyyatı şəraitində Azərbaycanda kiçik biznesin formalaşması və inkişafını tədqiq etmək və qiymətləndirməkdən ibarətdir. Bazar iqtisadiyyatı şəraitində kiçik biznes elə bir sahədir ki, bu sahədə istehsal və sosial funksiyalar, məşğulluq, innovasiya və digər bu kimi funksiyalar da yerinə yetirilir [2].

Azərbaycan əhalisinin müəyyən hissəsi bu və ya digər şəkildə kiçik sahibkarlıqla əlaqəlidir. Əslində aparılan islahat illərində iqtisadiyyatın böyüyən sektoru məhz sahibkarlıq olmuşdur. Lakin, kiçik sahibkarlıq Azərbaycan iqtisadiyyatında kifayət qədər əhəmiyyətli rol oynamağına baxmayaraq çox zaman diqqətdən "kölgədə" qalır. Məlumdur ki, kiçik müəssisələr tərəfindən istehsal olunan məhsul və xidmətlər, birincisi, bazarı rəqabət qabiliyyətli yerli məhsullarla təmin edir, ikincisi, yeni iş yerləri yaradır, üçüncüsü, istənilən sivil ölkə cəmiyyətinin əsasını təşkil edən orta sinifi yaradır və s [4]. Kiçik sahibkarlığın təmsil etdiyi kənd təsərrüfatı qida təhlükəsizliyi üçün güclü bir təməl olmaqla yanaşı, həm də kənd əhalisinin yaşayış səviyyəsinin yüksəldilməsində vacib bir amildir. Bu baxımdan, dövlət kənd təsərrüfatı istehsalı sahəsinə maraq göstərən sahibkarlıq subyektlərinə dəstək verməlidir. Kənd təsərrüfatında kiçik biznesin rolu və biznes fəaliyyətinin səmərəliliyinin təmin edilməsi, hər şeydən əvvəl, onun işçilərinin istehsalın nəticələrində maraqlılığından asılıdır [3].

Kiçik sahibkarlıq müəssisələri istehsalın inkişafı, iqtisadiyyatın sağlamlaşdırılması üçün əlverişli şərait yaradır. Çünki rəqabət şəraiti inkişaf edir, əlavə iş yerləri yaradılır, struktur yenidənqurması gedir, istehlak (tələbat) bölməsi genişlənir. Bundan başqa, kiçik sahibkarlığın inkişafı bazarda mal və xidmətlərin çoxalmasına, ixrac potensialının artmasına və yerli xammal ehtiyatlarından daha səmərəli istifadə edilməsinə səbəb olur [4,5].

Aqrar sahədə kiçik sahibkarlığın mövcud vəziyyətinin təhlili. Respublikamızın kənd təsərrüfatında fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayına nəzər salsaq görərik ki, 2019- cu ildə iqtisadi fəaliyyət növləri üzrə cəmi sahibkarlıq subyektlərinin sayı 271304 olmuşdur. Ölkəmizdə iqtisadi fəaliyyət növləri üzrə 5956 kiçik sahibkarlıq subyekti fəaliyyət göstərir. Onun 4,5%- i, yəni 267- si kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsi üzrə subyektlərdir. Mülkiyyət növləri üzrə 2019- cu ildə kənd təsərrüfatı sahəsində 267 kiçik biznes subyektindən 33- ü, yəni 12,4%- i dövlət mülkiyyətində, 234- ü, yəni 87,6%- i isə qeyri-dövlət mülkiyyətində olmuşdur. Qeyri-dövlət mülkiyyətində olan kiçik sahibkarlıq subyektinin 229- u, yaxud 97,9%- i xüsusi mülkiyyətə, 2 vahidi, yaxud 0,9%- i xarici mülkiyyətə, 3 vahidi isə, yaxud 1,2%- i birgə mülkiyyətə əsaslanır. Aşağıdakı cədvəl məlumatları isə Azərbaycanda kənd təsərrüfatının inkişafında kiçik biznesin əhəmiyyətindən xəbər verir.

Cədvəl-1 məlumatından aydın olur ki, ölkədə istehsal olunan kənd təsərrüftı məhsulunun 91%- i, o cümlədən bitkiçilik məhsulunun 92%- i, dənli və dənli paxlalıların 85%- i, pambığın 92%- i, şəkər çuğundurunun 56- %i, kartof və bostan məhsullarının 99%- i, tərəvəzin 94%- i, heyvandarlıq məhsulunun 90%- i, kəsilmiş çəkidə ətin 94%- i, südün 96%- i, yumurtanın 58%- i fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarında istehsal edilir. Tütün, yun və barama istehsalının 100%- i fərdi və ailə təsərrüfatlarının payına düşür [6].

Mövcud stereotiplərin əksinə olaraq kiçik sahibkarlıq yalnız böyük şəhərlərdə deyil, həm də kiçik kənd yaşayış məntəqələrində fəal inkişaf edir. Bu qismən ekoloji cəhətdən təmiz ərazilərdə pestisid istifadə edilmədən yetişdirilən kənd təsərrüfatı məhsullarına artan tələbatla əlaqədardır. Bundan əlavə, ölkəmiz sahibkarlara dəstək proqramları hazırlayır ki, bu da bu sahədə ən az investisiya qoyuluşu ilə işə başlamağa imkan verir.

Ümumiyətlə iqtisadiyyatda kiçik biznesin yeri və rolunu qiymətləndirmək çətindir. Lakin buna baxmayaraq bəzi faktlarla bu sektorun iqtisadiyyatda və eləcə də kənd təsərrüfatında əhəmiyyətini müəyyənləşdirmək olar. BMT- nin məlumatlarına əsasən, müasir dövrümüzdə ümumdünya milli məhsulun 33-66%- i kiçik biznesin payına düşür, əmək qabiliyyətli əhalinin isə təxminən 50%-i bu sektorda çalışır. Onu da qeyd edək ki, inkişaf etmiş ölkələrdə satışın həcminin 50%- i, işləyənlərin isə 80%- i kiçik biznesin payına düşür. Dünya təcrübəsi göstərmişdir ki, bazar şəraitində kiçik biznes özünün zəruri çevikliyi ilə kooperasiya və dərin ixtisaslaşma yaratmaqla yüksək səmərəliliyi təmin

edir. Həmçinin kiçik biznes, rəqabət mühiti yaratmağa və istehlak sferasında yaranan qıtlığı qısa zamanda aradan qaldırmağa qadirdir.

Cədvəl 1. Kənd təsərrüfatı məhsullarının istehsalında kiçik biznesin payı

Göstəricilər	*2019-cu ildə*		
	Cəmi	*Fərdi sahbkarlar, ailə kəndli və ev təsərrüfatları*	*Yekun %-lə*
Kənd təsərrüfstının ümumi məhsulu, (mil.man)	7837	7124	91
Bitkiçilik məhsulu	3751	3430	92
Heyvandarlıq məhsulu	4086	3694	90
Dənli və dənli paxlalılar, min ton	3539	3025	85
Pambıq	295	271	92
Tütün	6	6	100
Şəkər çuğunduru	219	123	56
Kartof	1004	991	99
Tərəvəz	1714	1616	94
Bostan məhsulları	448	444	99
ət kəsilmiş çəkidə	336	281	84
Süd	2151	2065	96
Yumurta,	1827	1056	58
Yun	16	16	100
Barama, ton	644	644	100

Kiçik müəssisələr çərçivəsində sahibkarlıq müəyyən xüsusiyyətlərə malikdir. Burada ilk olaraq mülkiyyət hüququnun vahidliyi və müəssisənin birbaşa idarə edilməsini qeyd edə bilərik. Digər xüsusiyyət müəssisələrin kiçik miqyaslı olmasıdır. Bu xüsusiyyətə əsasən münasibətlər şəxsi xarakter daşıyır və nəticə etibarı ilə işdə həqiqi stimula nail olunur. Firmanın bazara, qiymətə ciddi təsir göstərməyə imkan verməyən nisbətən kiçik satış və resurs bazarı mövcud olur. Sahibkarla müştəri arasındakı münasibətlər şəxsiləşdirilir. Qeyd etdiyimiz kimi kiçik müəssisələr istehlakçıların çox məhdud dairəsinə xidmət edilməsi üçün nəzərdə tutulur. Müəssisənin fəaliyyətində rəhbər mühüm rol oynayır və o, istehsal prosesinin nəticələrinə görə məsuliyyət daşıyır. Digər spesifik xüsusiyyət işin ailəvi aparılması və maliyyələşdirmənin xarakteri ilə bağlıdır. Orta və iri müəssisələr lazımi resursları fond birjalarından, kapital bazarlarından əldə edirsə, kiçik biznes subyektləri isə həmin resursları kiçik bank kreditləri, şəxsi vəsaitlərindən, qeyri-formal kapital bazarının vəsaitləri hesabına əldə edirlər. Mühüm xüsusiyyətlərdən biri də kiçik müəssisələrdə əsas kapitalla müqayisədə dövriyyə kapitalının xüsusi çəkisinin yüksək olmasıdır. İri müəssisələrdə bu nisbət 80:20- ə, kiçik müəssisələrdə bu nisbət 20:80– dir. Qeyd edilənlərdən məlum olur ki, kənd təsərrüfatında kiçik müəssisələrin rolu böyükdür, onun səmərəliliyi yüksəkdir. Nəhayət, kiçik müəssisələr əhalinin orta təbəqəsinin formalaşmasının əsas mənbəyi olmaqla, həyata keçirilən islahatların sosial bazasını genişləndirməyə imkan verir. Kənd təsərrüfatının inkişafı üçün kiçik biznesə maliyyə dəstəyi mühüm əhəmiyyət kəsb edir. Kiçik müəssisələrə maliyyə dəstəyi, stimullaşdırıcı xarakter daşımalıdır. Burada ilk olaraq sosial-iqtisadi siyasətin istiqamətlərinə və məqsədlərinə cavab verən təsərrüfat strukturlarını stimullaşdırmaq lazımdır. Bu sahəyə dəstək rentabelliyin yüksəldilməsi və gəlirlərin artırılmasının əsas mənbəyi formasında olmamalıdır. Həm kiçik istehsal, həm də innovasiya müəssisələrinin dəstəklənməsində dövlət qaytarılma dərəcəsi aşağı olan güzəştli kreditlərdən ünvanlı zəmanət, təminat verməyə keçməlidir. Onlar maliyyə resurslarından istifadənin və xüsusi investisiyanın cəlb edilməsinin daha səmərəli vasitəsidir. Ölkə üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makro- iqtisadi gostəricilərini nəzərdən keçirək.

Cədvəl 2. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makro- iqtisadi göstəriciləri

Göstəricilər	*2019*			
	Cəmi	*o cümlədən*		
		Mikro	*Kiçik*	*Orta*
Yaradılmış əlavə dəyər, milyon manat	11071,7	4900,8	1423,2	4747,7
İşçilərin sayı, min nəfər	332,2	40,2	85,1	206,9
Orta aylıq nominal əməkhaqqı, manat	531,0	332,5	437,0	624,6
Əsas kapitala investisiyalar, milyon man	3422,2	515,5	494,2	2412,5
Məhsul buraxlışı, milyon manat	19386,7	7523,8	2553,8	9309,1

2019- cu ildə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəricilərini təhlil edərkən məlum olur ki, yaradılmış əlavə dəyər kiçik sahibkarlıq subyektlərində 1423,2 milyon manat olmuşdur. Orta sahibkarlıq subyektlərində bu göstərici 3,3 dəfə çox, yəni 4747,7 milyon manat, mikro səviyyədə isə 3,4 dəfə, yəni 4900,8 milyon manat olmuşdur. 2019- cu ildə yaradılmış əlavə dəyərin cəmi 13%- i kiçik sahibkarlıq subyektlərinin payına düşür. Qeyd olunan dövrdə işçilərin sayı, mikrosubyektlərdən təxminən 2 dəfə çox, orta sahibkarlıq subyektlərindən isə 2,4 dəfə az olmaqla 85,1 min nəfər olmuşdur. 2019- cu ildə qeyd olunan subyektlərə cəmi əsas kapitala qoyulan investisiyaların 14%- i kiçik subyektlərin, 15%- i mikrosubyektlərin, 71%- i isə orta subyektlərin payına düşür. Ümumi məhsul buraxılışına kiçik sahibkarlıq subyektlərinin payı 13% olmaqla 2553,8 milyon manat təşkil edir. Bu göstərici mikro subyektlərdə 39%, orta sahibkarlıq subyektlərində isə 48% təşkil etməklə 9309,1 milyon manat olmuşdur. Təhlil göstərir ki, kiçik sahibkarlıq subyektləri həm mikro, həm də orta sahibkarlıq subyektlərindən bir sıra göstəricilərə görə hələ də geridə qalır. Bu da ümumi məhsul buraxılışında və eləcə də yaradılmış əlavə dəyər göstəricisində kiçik sahibkarlıq subyektlərinin ən az paya malik olmasına gətirib çıxarır. Ölkə iqtisadiyyatında mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payına nəzər salaq.

Cədvəl 3. Ölkə iqtisadiyyatında mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payı, faizlə

Göstəricilər	*2019*			
	Cəmi	*o cümlədən*		
		Mikro	*Kiçik*	*Orta*
Əlavə dəyər	14,9	6,6	1,9	6,4
qeyri neft- qaz sektoru üzrə	24,6	11,0	3,2	10,4
İşçilərin sayı	43,7	5,3	11,2	27,2
qeyri neft- qaz sektoru üzrə	53,6	6,7	16,7	30,2
Əsas kapitala investisiyalar	21,0	3,2	3,0	14,8
qeyri neft- qaz sektoru üzrə	27,0	4,1	3,9	19,0
Məhsul buraxlışında payı	23,3	9,0	3,1	11,2
qeyri neft- qaz sektoru üzrə	40,7	16,3	5,3	19,1

Cədvəl 3 təhlilindən aydın olur ki, ölkə iqtisadiyyatında kiçik sahibkarlıq subyektləri digər subyektlərə (mikro, orta) nisbətən aşağı paya malikdir. Belə ki, əlavə dəyərin 1,9%- i, əsas kapitala investisiyaların 3,0%- i kiçik subyektlərin payına düşür. Bu məhsul buraxılışında qeyd olunan subyektlərin ən az, yəni 3,1% paya malik olması ilə nəticələnir. Bu göstəricidə mikro subyektlər 9,0%, orta subyektlər 11,2% paya malikdir. Beləliklə, Azərbaycanda kiçik biznesin inkişafı üçün aydın hədəflərə istiqamətlənmiş tədbirlərin və bu sahəyə dəstək verən institusional dəyişikliklərin həyata keçirilməsi strateji əhəmiyyət kəsb edir.

Nəticə. Qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, kənd təsərrüfatında kiçik biznesin inkişafı ölkənin ümumi iqtisadi inkişafında mühüm əhəmiyyətə malikdir. Kənd təsərrüfatının hazırkı və gələcək inkişafı, bu sahədə kiçik sahibkarlığın inkişafı üçün model hazırlanmasını tələb edir. Kənd təsərrüfatında müasir sahibkarlığın formalaşması mülkiyyət islahatı ilə, mülkiyyətin və torpağın özəlləşdirilməsi ilə əlaqələndirilir. Kiçik kənd təsərrüfatı müəssisələrinin daxili imkanlarının stimullaşdırılmaması, kənd təsərrüfatı sektorunun istehsal bazasının inkişaf səviyyəsinin aşağı olması, yüksək risk dərəcəsi səbəbindən kiçik aqrobiznesə investisiya çatışmazlığı, bazar iqtisadiyyatı, yeni mütərəqqi texnologiyalar sahəsində müasir biliklərə malik sahibkarlar və mütəxəssislərin çatışmazlığı, insanların özəl biznesdə ənənələrinin olmaması və əhalinin şüurunun psixoloji olaraq yenidən istiqamətləndirilməsinə ehtiyac duyulması mühüm problemlərdəndir.

Ədəbiyyat

1.Quliyeva L.R. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın müasir vəziyyəti və inkişafının statistik tədqiqi, Bakı, 13s. 2016
2. Abbasov A.B. Sahibkarlıq fəaliyyəti: növləri, təşəkkülü və inkişaf problemləri. Bakı, 323s. 2018,
3.Allahverdiyev H.B., Qafarov K.Ş., Əhmədov Ə.M. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı, 834s. 2016
4.Abdullayev Z.S., Bağırova Z.Ə. Müəssisənin iqtisadiyyatı, Bakı. 2003
5. İmanov Ə.Ş. Kiçik sahibkarlıq, Bakı, 7s. 2009
6.azstat.org

References

1. Quliyeva L.R. Azerbaycan Respublikasinda kichik ve orta sahibkarlighin muasir veziyyeti ve inkishafinin statistik tedqiqi, Baki, 13s. 2016
2. Abbasov A.B. Sahibkarliq fealiyyeti: novleri, teshekkulu ve inkishaf problemleri, Baki, 323s. 2018
3. Allahverdiyev H.B., Qafarov K.Sh., Ehmedov E.M. Milli iqtisadiyyatin dovlet tenzimlenmesi. Baki, 834s. 2016
4. Abdullayev Z.S., Baghirova Z.E. Muessisenin iqtisadiyyati, Baki. 2003
5. İmanov A.Sh. Kichik sahibkarliq, Baki, 7s. 2009
6. azstat.org

Redaksiyaya daxil olma/Received 13.10.2021
Çapa qəbul olunma/Accepted for publication 12.11.2021

MƏQALƏNİN ƏLYAZMASININ TƏRTİBAT QAYDALARI

Nəşr üçün təklif olunan məqalənin əlyazmasının həcmi ən azı 5 və ən çox 8 səhifədən ibarət olmalı, A4 formatında, Microsoft Word mətn redaktorunda Times New Roman 12 şriftlə yığılmalı, səhifənin parametri hər iki tərəfdən -2sm olmalı, abzasda 1 sm boşluq olmalı və sətirlər arası interval eyni olmalıdır.

Məqalənin məzmunu aşağıdakı ardıcıllıqla müəyyən edilməlidir: 1) *məqalənin adı* (mərkəzdə qalın şrift ilə) 12 sözdən çox olmamalıdır; 2) Hər bir müəllifin *soyadı, adı və atasının adı* (inisialları deyil) (mərkəzdə qalın şrift ilə), *akademik dərəcə* (əgər varsa), *akademik ünvan* (varsa), *vəzifəsi, şöbə* və ya *kafedranın adı*, *təşkilatın adı* (qısaltmadan), *şəhər, poçt ünvanı*; 3) İşin mahiyyətini və əldə edilmiş nəticələri əks etdirən, çox qısa formada *annotasiya* (150-200 söz həcmində); 4) Mətnin əsas mənasını daşıyan *Açar sözlər* (5-8 söz) (tikinti, analiz, sistem, mamarlıq, ekologiya və s. sözlər açar sözlər qismində istifadə oluna bilməz !!!); 5) *1-4-cü bəndlərin ingilis dilində tərcüməsi*; 6) *məqalənin mətni* onun quruluşu üçün aşağıdakı tələblərə cavab verməlidir; 7) GOST R 7.0.5-2008-ə uyğun olaraq hazırlanan *ədəbiyyat siyahısı*; 8) Ədəbiyyat siyahısının latınca References başlığı ilə nüsxələnməsi (bütün ədəbiyyat siyahısını kopyalamaq və https://translit.net/ səhifəsinəki ekrana yerləşdirmək və «В транслит» düyməsinə basmaq). Azərbaycan dilindəki mənbələrdə hərfləri uyğun olaraq növbəti hərflərlə əvəzləmək lazım olacaqdır- ə-e, ı-i, ö-o, ü-u, c-j, ç-ch, ş-sh.

Məqalənin mətnində ümumi qəbul edilmiş terminologiyaya riayət olunmalıdır və istifadə edilən bütün xüsusi terminlər, ixtisarlar və simvollar açıqlanmalı və izah edilməlidir. ***Düsturlar*** Equationda dəqiq yığılmalıdır. Məqalənin mətnində simvollardan, formul təsvirli əlavələrdən və ya fərdi dəyişənlərdən və funksiyalardan istifadə etmək qəbul edilməzdir. ***Mənbələrə istinadlar*** ardıcıl xarakter daşıyır (mətndə qeyd olunma ardıcıllığı ilə) və kvadrat mötərizədə göstərilir (məsələn, [1], [1,3]). Mətndə ədəbiyyat siyahısından 2 ardıcıl mənbəyə istinad verilirsə, aralıqda "-" işarəsi qeyd olunmalıdır (məsələn [1-3]). ***Şəkillər və cədvəllər*** yüksək keyfiyyətdə hazırlanmalıdırlar (redaksiyada təsvirlərin qrafiki işlənməsi nəzərdə tutulmur). Hər bir məqalədə mümkün cədvəllərin sayı 3 cədvəl, şəkillərin sayı isə 5-dən çox olmamalıdır. Jurnalda bütün şəkillər ağ-qara formada əks olunurlar. Hər bir şəkil və cədvəl Cədvəl 1. *Cədvəlin adı* və Şəkil 1. *Şəkilin adı* formasında nömrələnməli və adlandırılmalıdır. Cədvəlin nömrəsi və adı cədvəlin üstündə sağ kənarında yerləşdirilir, şəkilin nömrəsi və adı ortada şəklin altında verilir.

RULES FOR THE PREPARATION OF MANUSCRIPT

The volume of the manuscript proposed for publication should be not less than 5 and not more than 8 pages of typewritten text, printed in A4 format with margins from all sides 2 cm, with indention 1 cm, with single line spacing, using Microsoft Word text editor with Times New Roman font size 12 pt.

The article should be presented in the following sequence: 1) The title (bold in the center) no more than 12 words; 2) For each author's surname, first name and middle name (not initials) (bold in the center), academic degree (if any), academic title (if any), position, name of department, organization name (without abbreviations), city, e-mail; 3) abstract (150-200 words), in a very concise form setting out the essence of the work and the obtained results; 4) keywords (5-8 words) that carry the main content in the text (the words, such as construction, analysis, system, architecture, ecology, etc. cannot be keywords !!!); 5) English translation of 1-4 sections; 6) the text of the article with the following requirements for its structure; 7) list of references, prepared in accordance with GOST R 7.0.5-2008 (see annex); 8) Duplication of reference in the Latin alphabet with the heading References (copy and paste the entire bibliography into the window on page https://translit.net/ and press the button “Translit”). For references in Azerbaijani language, it is necessary to replace the letters ə with e, ı with i, ö with o, ü with u, c with j, ç with c, ş with sh.

The text of the article should follow the generally accepted terminology, and all used special terms, definitions and abbreviations should be disclosed and explained. ***Formulas*** should be typed clearly in Equation. The use of characters inserts with the image of formulas or individual variables or functions in the text is unacceptable. ***Links to sources*** have sequentially numbering (as mentioned in the text) and are indicated in brackets (for example [1], [1, 3]). If the text refers to more than 2 consecutive sources in the list of references, the range should be designated with the help of the “-” sign (for example [1-3]). ***Figures and tables*** should be performed qualitatively (graphical processing of figures is not assumed in the publishing). In each article, the maximum allowable number of tables is 3, and figures 8. In the journal, all figures are processed in black and white. Each table and figure should be numbered and named (even if the text of the article contains only one table or figure) in the form of Table 1 for table name and Figure.1 for figure name. The number and name of the table is given in front of the table and is aligned on the right edge, and the number and name of the figure is aligned in the center and is given under the picture.